# MEHDİ VƏ QIZIL DÖVR

HARUN YƏHYA

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları

aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# QURANİ-KƏRİM VƏ HƏDİSLƏRDƏ AXIRZAMAN

Qurani-Kərim hökmü qiyamətə qədər davam edən, hər şeyin bəzən çox açıq, bəzən gizli, bəzən təşbehli (yəni məcazi, üstüörtülü mənada yazılan və ya bir-birinə bənzəyən, açıq mənada verilməyən), lakin qüsursuz şəkildə verilən Allahın bənzərsiz kəlamıdır. Qurani-Kərimin ən böyük möcüzələrindən biri də hər əsrə aid olub və hər dövrdə yaşayan insanlara anlaya biləcəyi məlumatları çatdıra bilməsidir. İslamın dünyaya hakim olması Peyğəmbərimiz (s.ə.v)-in vəfatından sonra qiyamətə qədər olan ən mühüm hadisələrdəndir. Mehdi isə bu hakimiyyətin əvvəlindən sonuna kimi ən əhəmiyyətli şəxsiyyətidir. Qurani-Kərimdə yuxarıda qeyd etdiyimiz möcüzələri etibarı ilə bu mövzu və bu şəxsiyyət (Axırzaman və Mehdi (ə.s)) haqqında bir çox ayələr vardır. Peyğəmbərimiz (s.ə.v) mehdiyyət hadisəsi ilə Qurani-Kərim arasında birbaşa bağlılıq və əlaqənin olması haqqında müxtəlif hədisi-şəriflərdə bildirmişdir.

Məsələn:

> ***Mehdi eynilə Zülqərneyn və Süleyman kimi dünyaya hökm edəcəkdir.***
>
> *(Kıyamet Alametleri:El-Kavlul Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar Kitab ul Burhan Fi Alamet-il Mehdiyy il Ahir Zaman)*

Burada iki mübarək şəxs haqqında olan müxtəlif surələrdəki hekayələrə baxmağımız və araşdırmağımız məsləhət görülür.

> ***Əshabi-Kəhf Mehdinin köməkçiləri olacaqdır.***
>
> (Kitab ul Burhan Fi Alamet-il Mehdiyy il Ahir Zaman.*)*

Bu hədisdə də bu hekayənin izah edildiyi Kəhf surəsinə işarə edilir.

> ***Mehdinin köməkçilərinin sayı Talut ilə çayı keçənlər qədərdir.***
>
> (Kitab ul Burhan Fi Alamet-il Mehdiyy il Ahir Zaman, 17*)*

Burada da Talut və ordusu haqqında olan hekayənin izah edildiyi Bəqərə surəsinə diqqət çəkilir.

Peyğəmbərimiz (s.ə.v) Mehdi və köməkçiləri ilə əlaqədar olan hədislərini müxtəlif şəkillərdə izah etmiş, xüsusilə də, Quranda keçən hekayələrlə əlaqələndirərək izah etmiş və bəhs olunan məsələyə ayələrdəki hekayələrlə açıq dəlillər gətirmişdir.

Qurani-Kərim də bu mövzu ilə əlaqədar olan hekayələrə baxmağımız tövsiyə edilir.

**Onların rəvayətlərində ağıl sahibləri üçün bir ibrət vardır. Bu Quran uydurulmuş bir kəlam deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi müfəssəl izah edəndir; iman gətirən bir camaat üçün hidayət və mərhəmətdir. (Yusif surəsi-111)**

**Biz bu Quranda insanlar üçün hər cür məsəli müfəssəl izah etdik. Lakin insanların çoxu yalnız küfrü seçdi. (İsra surəsi-89)**

**Biz bu Quranda insanlar üçün hər cür məsəllər çəkdik ki, bəlkə, düşünüb dərk edələr. (Zumər surəsi-27)**

Axırzaman əlamətləri ilə əlaqədar hədislərin böyük bir qismi təşbehlidir.*

*Təşbehli: Zahiri mənası nəzərdə tutulmayan, bənzətmə və nümunələrlə həqiqətlərin izahında istifadə edilən ifadə.

Peyğəmbərimiz (s.ə.v) Axırzamanda baş verəcək hadisələr haqqında olan hədislərin bir qismini üstü örtülü bir şəkildə bənzətmə və nümunələrlə bildirmişdir. Bunlar mənası açıq olan hədislər kimi şərh oluna bilməz və hər adam həqiqi mənalarını dərk edə bilməz. Yalnız şərhləri, həqiqi mənaları hadisələr yaşandıqca aydın olar.

Dünya bir imtahan, təcrübə və yarış yeri olduğuna görə, geniş araşdırma və təcrübəyə ehtiyacı olan üstüörtülü, nəzəri məsələlər əlbəttə açıq şəkildə olmaz, hər kəs ağlını, vicdanını, iradəsini istifadə edərək qərarını verə bilər, bunun sayəsində də insanların həqiqi şəxsiyyətləri ortaya çıxar. İnsanlar seçmə və araşdırma qabiliyyətlərini istifadə etmiyəcəklərsə, onlara təklif edilməz. Əgər hər şey açıq şəkildə bildirilsəydi, bu zaman insanların seçim etmələrinə, vicdanlarını işə salmalarına ehtiyac qalmazdı. Həm də, əgər insanlara gələcəklə bağlı hədislər üstüörtülü deyil, açıq-aşkar bildirilsəydi o zaman hamı qəbul etmək məcburiyyətində qalardı, nə seçim etmək qabiliyyətinin, nə də imtahan mühitinin bir mənası qalmazdı. Ən aşağı səviyyədəki insanla ən üst təbəqəli insanlar eyni dərəcədə olardı. Buna görə Peyğəmbərimiz (s.ə.v)-in gələcəklə bağlı hədisləri üstüörtülü şəkildədir. Yalnız, "günəşin qərbdən doğulması" hər kəsin istər istəməz qəbul edəcəyi şəkildə açıq olacaq. Ondan sonra da ağlın ixtiyarı qalxacaq, imtahan sona çatacaq.

Gələcəkdəki hadisələr haqqında olan məlumatların bir qismi də, Peyğəmbər (s.ə.v.) tərəfindən ətraflı olaraq bildirilmişdir. Bu açıq-aşkar bildirilən qismə isə heç bir müdaxilə etmək olmaz və bu məlumatlar deyildiyi kimi nəql edilər, necə ki, Quran ayələri və Qüdsi hədis möhkəm və dəqiq ifadələrdir. Yuxarıda bildirdiyimiz digər bir qismi isə əsas olaraq imani məsələlərə düzgün (birbaşa) aidiyyatı olmayan, gələcəyə aid hədislərdir.

Yalnız əhlinin qavrayacağı tərzdə, Axırzaman əlamətlərindən xəbər verən hədislərin bir hissəsi bənzətmə və nümunələr, vaxt keçdikcə xalqın nəzərində sözlərin zahiri mənaları həqiqət kimi qəbul edilir, hədisdə ifadə edilən hadisə əslində reallaşmış olsa belə, hadisələrlə hədislər arasındakı uyğunluq qurulmur, imtahan mühitinə zidd olacağı bilindiyi halda, yenə də hədislərin yalnız zahiri mənalarına fikir verilir, təşbehli olacağına isə diqqət yetirilmir.

Bu mövzu barədə Bədiüzaman həzrətləri "Şüalar" adlı əsərində, Axırzamanda meydana gələcək qiyamət əlamətlərinin, hədislərdə əksəriyyətinin təşbehli mənada olaraq bildirildiyini və bunların ancaq şərh edilərək xalqa çatdırıla biləcəyini bildirmişdir.

***"Axırzamanda rast gəlinəcək hadisəyə dair hədislərin bir qismi təşbehli Quran kimi dərin mənaları var. Muhkəmat (yəni mənası açıq şəkildə) kimi təvsir edilməz və mənasını hər kəs bilməz. Bəlkə Təfsir yerinə yanlış şərh edərlər".*** *(Şüalar , 486)*

..... Sirri ilə hadisəsindən sonra şərhləri aydın olar və murad nə olduğu (nə məna kəsb edildiyi) bilinər. (A. g. e. 486)

İşarə edilən ayə tərcümələri:

***" ...Beləliklə, Yusifi yer üzündə yerləşdirdik və ona yuxuları yozmağı öyrətdik... " (Yusif surəsi-21)***

***" Ey Rəbbim! Sən mənə hakimiyyət verdin və mənə yuxuları yozmağı öyrətdin..." (Yusif surəsi-101)***

Axırzaman əlamətlərindən biri olan "şərqdən bir atəş (alovun) çıxması" rəvayətinə bənzədilən atəş (alov) hər zaman görünə bilər, "Bir quyruqlu ulduzun çıxması" rəvayətindəki ulduz hər vaxt çıxa bilər, "böyük bir hadisənin" meydana gəlməsi rəvayətinə bənzər hadisələr hər dövrdə cərəyan edə bilər. Lakin əhəmiyyətli olan hədisdə bildirilən hadisəni təsbit edə bilməkdir. Bu kitabda izah edilən və bəzi səbəblərə görə də, yüzlərlə əlamətin hamısının müntəzəm bir şəkildə bir-birinin ardınca ifadə edilən yer və zaman, eyni əsrdə və tam izah edildiyi şəkildə çıxması söylədiyimiz məsələdə əsas dəlildir. Beləliklə, bu hadisələrin hədislərdə bildirilən qiyamət əlamətləri olduğuna dair qənaətimiz daha da möhkəmlənir və dəqiqləşir.

# MEHDİNİN GƏLİŞİNƏ ŞÜBHƏ YOXDUR

## MEHDİ HAQQINDAKI HƏDİSLƏR "TƏVATÜR" (GENİŞ YAYILMIŞ) DƏRƏCƏSİNDƏDİR

**"Təvatür" sözünün leksik mənası - dəqiq xəbər, içində yalan ehtimalı olmayan və bir camaata əsaslanan düzgün məlumat deməkdir** *(Büyük Lugat-Tür-Dav, 3003).* Hədis alimlərinin fikrinə görə bir xəbər bir çoxları tərəfindən rəvayət edilmişsə və bu rəvayətlərin bir yerə toplanıb, xəbərin uydurma olması mümkün olmadıqda buna "Mütəvatir" xəbər deyilir. Bir çox İslam alimi, Peyğəmbərimizin Mehdi ilə əlaqədar hədislərinin mütəvatir olduğunu bildirmişdir:

***İbni Həcər Askalani Fəthül-Baridə, Mehdinin bu ümmətdən olacağı və hz. İsa (ə.s)-ın onun arxasında namaz qılacağına dair hədislərin təvatür dərəcəsində olduğunu deyərdi. Şövqani də İsanın enəcəyinə dair hədislərin sayının 29-a çatdığını söyləyərək bunları bir-bir nəql etmiş və nəhayət: "Bizim nəql etdiyimiz hədislər göründüyü kimi təvatür həddinə çatdı. Bu bəyanımızla belə nəticəyə gəlirik ki, gözlənilən Mehdi haqqındakı hədislər, Dəccal haqqında hədislər və İsanın enməsinə dair hədislər mütəvatirdir" demişdir.*** *(Sünen-i İbn-i Mace 10/338)*

***Mehdinin gələcəyinə dair olan səhih hədislər təvatür xüsusiyyətini daşıyır.*** *(Kıyamet Alametleri, səh.193)*

***Onların zənninə görə, Mehdi vəfat etdi, keçdi getdi... Halbuki, bu tərzdə gələn səhih hədisi-şəriflər məşhurdur. Hətta təvatürü mənəvi dərəcəsində olub, tayfanın (bir qrup insanların) sözlərini təkzib edir.*** *(Mektubat-ı Rabbani, 2/250)*

***Mehdinin gələcəyinə dair Rəsulullah (s.ə.v)-dən təvatür səviyyəsində bir çox hədis rəvayət edilmişdir...*** *(eb'ul-Hasan Muhammed ibn Hasan el-Überi Sicistani, Menakıb'üş-Şafii/Dr.G.Hüseyin Tacirineseb, Mehdilik ve İmam Mehdi, səh.88 ve 405)*

***Mehdinin varlığı və Axırzamanda zühur edəcəyi, Peyğəmbər ailəsindən və Fatimə oğullarından olacağı, təvatür dərəcəsinə çatan hədislərlə açıqlanmışdır və bu hədisləri inkar etməyin heç bir mənası yoxdur... Təvatür ölçüsünü aşan, doğru və açıq hədislərdə, Mehdinin Fatimə soyundan olub, dünya sona çatmamışdan əvvəl zühur edəcəyi, zülm və haqsızlıqla dolan dünyaya ədalət və hakimiyyət gətirəcəyi, onun zamanında İsa Məsihin göydən enəcəyi və onun öndərliyində namaz qılacağı sübut edilmişdir.*** (Şerif Muhammed ibn Resul Berazenci Medeni, el-işae, səh.184 ve 305 / Mehdilik ve İmam Mehdi, səh.328)

***Qiyamət gününün ən böyük əlamətlərindən biri də, haqqında təvatür dərəcəsini üstələyən səviyyədə hədis olan bir adamın zühur etməsidir. Bir çox hədis hafizləri Mehdinin Peyğəmbər soyundan olduğunu qəbul etmişlər, belə mütəvatir bir mövzuya arxa çevirmək düzgün olmaz. Haqq əhlinin inancına görə Mehdi İsa Məsihdən ayrıdır. Mehdi Məsihdən əvvəl zühur edəcək. Bu mövzu sünni alimləri tərəfindən də, onların inancıyla bağlı məşhurluq qazanmışdır.*** *(Şemseddin Muhammed ibn Ahmed Sefareyni, Levaih'ül-Envar'ülBehiyye şehri, 2-ci cild, səh.74-76-86'dan özet)*

Məhəmməd ibn Əli Şövqani, "ət-Tavzeh..." adlı kitabında belə demişdir: ...Bunlar (Mehdi, Dəccal və Məsih ilə əlaqədar rəvayətlər) şübhəsiz ki, mütəvatir hədislərdir, peyğəmbərin buyurduğu hökmlərdəndir... Buna görə Dəccal və Məsih haqqındakı rəvayətlər mütəvatir olduğu kimi Mehdi haqqındakı hədislər də mütəvatir dərəcədədir... (Muhib ibn Salih el-Bureyni, Ikd'üd-Dürer fi Ahbar'il-Muntazar, s.14-15 / Ebu Tayyib Muhammed Sıddık Kunuci, el-İzaetü... səh.95 ve 130 / Mehdilik ve İmam Mehdi səh. 329

**Mehdi haqqındakı hədislər mənəvi cəhətdən təvatür ölçüsünü aşmış, inkar etməyin bir mənası yoxdur.** (Şeyh Hasan Advi Hamzavi, Meşarik'ül-Envar, F.2, səh.115, -1307 H. Basımı / Mehdilik ve İmam Mehdi səh. 329)

***...Mehdi haqqındakı hədislər təvatür ölçüsünü keçmişdir. "Sünən", "Əsas" və "Mucəm" kitablarında da mövcuddur.*** *(M.Sıddık ibn Hasan Kunuci, el-İzaetü... səh.94)*

Yuxarıda adları çəkilən qaynaqlar xaricində bir çox adam saysız-hesabsız əsərlərində Mehdi haqqında çatan hədislərin təvatür dərəcəsində olduğunu bildirmişdilər. Bu İslam alimlərindən bəziləri və bu mövzuda şərh etdikləri əsərlər bunlardır:

1. Əbu Abdullah Məhəmməd ibn Yusuf Gənci Nufəli, əl-Bəyan fi Ahbari Sahibi-üz-Zaman, səh. 126

2. Şəmsəddin Məhəmməd ibn Əhməd Kurtubi, ət-Təzkirətü fi Ahvalil-Mevta və Umuril ahireti, səh. 710

3. İbni Qayim Cavziyə Məhəmməd ibn Əbi Bəkr Dəməşqi, əl-Menarül-Münif, səh. 142

4. Şəhabəddin ibn Həcər Əhməd ibn Əli Əskəlani, Təhzib ət-Təhzib, 9-cu cild, səh. 126

5. Cəlaləddin Əbdürrəhman Suyuti, Arfül-Verdi, əki əl-Havi Lilfetavi, 2-ci cild, səh. 165

6. Əbul-Abbas ibn Həcər Əhməd ibn Məhəmməd Haytəmi, Sevaikül-Muhrika, səh. 99 / əl-Kavlul Müxtəsər, səh. 23

7. Şərif Məhəmməd ibn Rəsul Bərazənci Mədəni, əl-İşae, səh. 147, 185

8. Şəmsəddin Məhəmməd ibn Əhməd Səfarini, Levaih'ül-Envaril-Behiyye, 2-ci cild, səh.89 / Ahval-i Yevmül-Kıyamet, səh.33

9. Məhəmməd ibn Ali Sabban Mısri, İsafur-Rağibin, Nur'ul-Ebsar haşiyesinde matbu səh.192 Sevaik'ül-Muhrikadan naklen.

10. Mömin ibn Həsən Mömin Şəblanci, Nurul-Ebsar, səh. 189

11. Məhəmməd Sedik  Həsən Kunuci Buxari, əl-İzae, səh. 120

12. Məhəmməd ibn Cəfər İdrisi Kətanı, Nzmül-Mütənasır Fil-Hadisil-Mütəvatir, səh. 145

13. Əbul-Feyz Əhməd ibn Məhəmməd Ğumari, İbrazül Vehmil-Meknun, səh. 3-4

14. Əbdülmuhsin ibn Məhəmməd Abbad, Məccəətül-Camiatül-İslamiyyə, ədəd 3, il 1, səh. 598

# İSLAM ALİMLƏRİNİN MEHDİNİN GƏLİŞİ İLƏ BAĞLI OLAN İZAHLARI

Bir çox böyük İslam alimi Axırzamanda Mehdinin gəlişinə dair heç bir şübhə olmadığını ifadə edən şərhlər etmişlər. Bunların ən məşhurlarından biri Muhyiddin Ərəbidir. Futuhat-I Məkkiyə adlı əsərində Muhyiddin Ərəbi belə bildirmişdir:

***"Şübhəsiz ki, yer üzü zülm və haqsızlıq ilə dolduğu zaman Allahın xəlifəsi qiyam edəcək, yer üzünü ədalət və bərabərliklə dolduracaq... Ümumi qazancı xalq arasında bərabər şəkildə paylaşacaq, xalqa ədalətlə hökm edəcək və anlaşılmazlıqlarda hakimlik edəcək... Allah onun işini bir gecədə nizamlayacaq, zəfər həmişə onunla olacaq... Ayağını peyğəmbərin ayağının yerinə qoyacaq (onun izi ilə gedəcək) və heç bir zaman yolundan çıxmayacaq... Dağınıq dinləri (batil inancları) ortadan qaldırıb, yalnız haqq dini hakim edəcək..." ..."*** (Muhyiddin Arabi, el-Futuhat El Mekkiye, 366. bab, 3-cü cild, səh.327-328)

Bu mövzu ilə əlaqədar şərhi olan bir başqa adam isə Misirli məşhur yazıçı Şeyx Mənsur Əli Nasifdir. O, bir əsərində Mehdilik inancını bu şəkildə bildirmişdir:

***Əhli-Beytdən Mehdi adında bir şəxs mütləq zühur edəcək, İslam torpaqlarına hakim olacaq, müsəlmanlar onu izləyəcək və O, müsəlmanlar arasında ədalətlə, haqla davranacaq, dini sağlamlaşdıracaq. Ondan sonra Dəccal ortaya çıxacaq və Məsih (hz. İsa) enərək Dəccalı öldürəcək və ya öldürülməsində Mehdiyə kömək edəcək.*** (et-Tac'ül-Camiü Lil-Usul, 5-ci cild, səh.341)

Misir əl-Əzhər Universiteti İnanclar kürsüsündə təhsil işçisi olan yazıçı Seyid Sabiq isə İslam Konfransı tərəfindən seçilən və nəşr olunan əl-Akaidül İslamiyyə adlı kitabında Mehdinin gəlişi ilə əlaqədar bu şərhləri vermişdir:

***Mehdi haqqında sözün əsl mənasında, O, zamanın sonunda, çox yaxında zühur edəcək... Yer üzü zülm və haqsızlıqla dolduğu kimi, O, haqq və ədalətlə dolduracaq. O, düzgün, doğru surətdə İslam qanununu ortaya qoyacaq və hökmdən düşmüş, köhnəlmiş peyğəmbər sünnəsini canlandıracaq.*** *(əl-Akaid'ül-İslamiyye, səh. 250)*

Alaəddin Əli ibn Hişam Muttaki Hindli də "ər-Rəddi..." adlı kitabında belə demişdir:

***Allahın rəhməti sənə olsun, bil ki, vəd edilən Mehdinin yaranmasında heç şübhə yoxdur. Üç yüz hədislə və daha çox əsərlə bu sübut edilmişdir.*** *(Casim Mühelhil, el-Burhan, 1-ci cild, səh.339 / Mehdilik ve İmam Mehdi, səh.328)*

Məşhur İslam alimlərinin bu şərhlərlə yanaşı, Mehdinin gəlişi ilə əlaqədar mövzuların əhli-Sünnə inancı olduğuna dair də təfərrüatlı şərhləri mövcuddur. Bu şərhlərdən bir neçəsi belədir:

***Əbu Məhəmməd Həsən ibn Əli əl-Bərbəhari Hənbəli "Şərhüs-Sünnət" adlı kitabında əhli-Sünnə inanclarını sadalayaraq belə yazır: "...və Məryəm oğlu İsanın göydən enəcəyinə, Dəccalı öldürəcəyinə və Məhəmməd (s.ə.v) oğullarından Qaimin (Mehdinin) arxasında namaz qılacağına inanmaq."*** *(Casim Mühelhil, el-Burhan..., 1-ci cild, səh.426)*

***Səhih hədislərə dayanaraq, qəti olaraq inanılan bir mövzu (zühuru gözlənilən) Mehdinin varlığıdır. Onun zamanında Dəccal və Məsih də ortaya çıxacaq.*** *(İbni Hacer, Ahmed ibn Muhammed Haytemi Şafii, el-Kavl'ül-Muhtasar fi Alamat'il Mehdiyyül-Muntazar səh. 74)*

***Əbul-Əşbal Əhməd Məhəmməd Şakir "Şərhi-Müsnədi İmam Əhməd" adlı kitabında, bir çox səhabədən düzgün sənədlərlə gəlib çatan sünnəyə görə: "(Mehdiyə inanmaq) sübut edilmişdir, bunun düzgün olmasından şübhə etmək kiminsə həddində deyil.*** *(Casim Mühelhil, el-Burhan... Mukaddimesi, 1-ci cild, səh.343)*

***Deməli, Mehdinin zühur edəcəyinə inanmaq vacibdir, ona inanmaq Peyğəmbər (s.ə.v)-in buyurduğunu təsdiqləmək üçün lazımlıdır. Necə ki, bu mövzu əhli-Sünnə inancı kitablarında qeyd edilmiş və sübut edilmişdir.*** *(Eb'ul-Feyz Ahmed ibn Muhammed Ğumari Şafii, İbraz'ül-Vehm'ül-Meknun, səh.3-4)*

İslam alimlərinin Mehdinin gəlişi və görəcəyi işlər haqqındakı hədislər ilə əlaqədar etdikləri bu izahlar olduqca əhəmiyyətlidir. Lakin bundan da mühüm olan peyğəmbərimizin Axırzaman və Mehdi ilə əlaqədar hədislərinin indiki vaxtda bir-bir və bir-birinin ardınca reallaşmasıdır. Şübhəsiz, bu hadisələrin peyğəmbərimizin bir möcüzəsi olaraq reallaşması, düzgün olmasına dair hər hansı bir şübhə qoymur.

# MEHDİNİN ÇIXIŞ ƏLAMƏTLƏRİ

Qurani-Kərimin müxtəlif ayələrində gələcəyə dair xəbərlərin verildiyi və bunların düzgünlüyünün sonradan aydın olacağı bildirilir. Bu xəbərlərin nə olduğu isə açıq şəkildə ifadə edilmir. Bunlar Qurani-Kərimin endirildiyi dövrdə texnikanın olmamasına görə başa düşülməsi qeyri-mümkün olan elmi ayələr kimi, **qiyamət əlamətlərini xəbər verən ayələr** də ola bilər.

**Hər bir xəbərin müəyyən bir vaxtı vardır və siz (onu) biləcəksiniz. (Ənam surəsi, 67)**

**Bu Quran aləmlərə ancaq xatırlatmadır. Siz onun verdiyi xəbəri bir vaxtdan sonra mütləq biləcəksiniz!" (Sad surəsi, 87-88)**

**İnsan tələsən yaradılmışdır. Mən dəlillərimi sizə göstərəcəyəm. Məni tələsdirməyin. (Ənbiya surəsi, 37)**

**De: "Həmd olsun Allaha! O Öz dəlillərini sizə göstərəcək, siz də onları tanıyacaqsınız. Rəbbin sizin etdiyiniz əməllərdən xəbərsiz deyildir!" (Nəml surəsi, 93)**

**Quranın haqq olduğu onlara aydın olana qədər, Biz dəlillərimizi onlara həm kainatda, həm də onların özlərində mütləq göstərəcəyik. Məgər Rəbbinin hər şeyə şahid olması kifayət deyil? (Fussilət surəsi, 53)**

Qurani-Kərimdə Mehdi və İslamın dünya hakimiyyəti ilə əlaqədar yalnız işarəvi mənada (üstü örtülü) ayələr var.

**Onlara haqq gəldikdə onu yalan saydılar. İstehza etdikləri şeyin xəbəri onlara tezliklə çatacaqdır! (Ənam surəsi, 5)**

**Məgər kafirlər o Saatın qəfildən onlara gəlməsindən başqa bir şeymi gözləyirlər? Artıq onun əlamətləri gəlmişdir. O Saat onlara gəlib yetişdiyi zaman ibrət almaları nəyə yarayar? (Məhəmməd surəsi, 18)**

Bütün bunlara əsasən, eləcə də işarəvi mənada olan ayələrə görə, hədislərdən və rəvayətlərdən yığılan məlumatlarla birlikdə, Axırzaman elçisinin çıxış əlamətləri araşdırılacaqdır.

# MEHDİDƏN ƏVVƏLKİ MÜHİT

*İbni Münavi "Məlahim"də hz. Əlidən belə rəvayət etdi:*

***Qiyamət yaxınlaşdığı zaman və möminlərin ürəyi, ölüm, aclıq, fitnələr, sünnələrin itməsi, bidətlərin (dinimizdə olmayan, sonradan dinə daxil edilən batil inancların) meydana gəlməsi, əmri-bil maruf və nəhyi anıl münkər (yəni yaxşılığı əmr edib, pisliklərdən çəkindirmək) imkanlarının itməsi kimi səbəblərlə zəiflədiyi zaman mənim övladlarımdan Mehdi ilə Cənabı Haqq, sünnələri canlandırar. Onun ədalət və bərəkəti ilə möminlərin ürəyi fərahlanar, acəm (yəni, ərəb olmayan millətlərin) və ərəb millətləri arasında ülfət (isnişmə) və sevgi olar.*** *(Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, 66)*

Yuxarıdakı hədisi-şərif hz. Mehdinin çıxışından əvvəl möminlərin ürəklərinin (imanlarının-etiqadlarının) zəifləyəcəyini və buna səbəb olan hadisələri xəbər verir.

**1.Ölüm**: Anarxiya və məşhur qırğınlar nəticəsində xalqın canının təhlükəsizliyinin qalmaması və bunun yaratdığı narahatlıq şəraiti.

**2.Aclıq**: Həyat bahasına meydana gələn dolanışıq çətinliyi.

**3.Fitnələr**: Haramların (içki, fahişəlik, faiz, qumar, rüşvət...) sürətlə yayılması və halalların haramlarla qarışdırılması.

**4. Sünnələrin yox olub getməsi**: Rəsulullah (s.ə.v)-in sünnələrinin bir qisminin unudulması, bir qisminin də, məcburi əməl edilməməsi halına gəlməsi.

**5. Bidətlərin ortaya çıxması (dinimizdə olmayan şeylərin meydana gəlməsi)**: Dinin əslində olmayan, sonradan ortaya çıxan adətlərin dinin əsasları kimi qəbul edilməsi.

**6."Əmri-bil maruf, nəhyi anıl münkər" imkanlarının yox olması**: Yaxşılığın əmr edilməsi və pislikdən çəkindirməyin yox olması, bir sözlə, təbliğ imkanının itməsi ilə meydana gələn boşluq.

# HƏYAT BAHALILIĞININ ARTMASI

Mehdinin çıxışından əvvəlki dövrün xüsusiyyətlərindən biri də yaşayışın və dolanışıq çətinliyinin artmasıdır. Ticarət sahəsindəki çətinliklərlə yanaşı yoxsulluğu və hətta aclığı da gətirəcək. İllərin darlıq içində yaşanacağı bu dövrdə kasıblar daha da kasıblaşdığı halda, zənginlərin malı mülkü qat-qat artar. Hədislərdə Qızıl Dövrdən əvvəlki dövrün bu xüsusiyyəti belə vurğulanır:

***Kasıblar çoxalacaq.*** *(Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh.457)*

***Mehdi çıxmamışdan əvvəl məğribdə qarışıqlıqlar, fitnələr və qorxu olacaq. Aclıq və həyat bahalılığı olduqca yayılacaq.*** *(Ölüm -Kıyamet -Ahiret ve Ahirzaman Alametleri, səh.440)*

İbni Münavi "Məlahim"də hz. Əlidən belə rəvayət etdi:

***Qiyamət yaxınlaşdığı zaman və möminlərin ürəyi; Ölüm, aclıq, fitnələr, sünnələrin itməsi, bidətlərin ortaya çıxması, yaxşılığın əmr edilməsi və pisliyin əngəllənməsinin yox olması kimi səbəblərlə zəiflədiyi zaman mənim övladlarımdan Mehdi ilə Cənab Haqq sünnələri yenidən canlandırar.*** (Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, 66)

İşarəvi mənada olan ayələr:

**"Allah bir şəhəri (Məkkəni) misal gətirir. O şəhər əmin-amanlıq və arxayınlıq içində idi və ruzisi də bol idi. Lakin (əhalisi) Allahın nemətini inkar etdi, Allah da həmin şəhərə (sakinlərinin) etdikləri əməllərə görə (yeddi il) aclıq və qorxu bəlası daddırdı." (Nəhl surəsi, 112)**

**"...Onlara zəlillik və düşgünlük üz verdi və onlar Allahın qəzəbinə düçar oldular. Bu cəza ona görə idi ki, onlar Allahın ayələrini inkar edirdilər və bəzi peyğəmbərləri haqsız yerə öldürürdülər. Bu həm də onların asi olduqlarına və həddi aşdıqlarına görə idi. (Bəqərə surəsi, 61)**

**Əlbəttə, Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal, can (övlad) və məhsul qıtlığı ilə imtahan edərik. Səbir edənlərə müjdə ver! (Bəqərə surəsi, 155)**

**Səndən əvvəl də ümmətlərə elçilər göndərmişdik. Biz onları sıxıntıya və xəstəliyə düçar etdik ki, bəlkə boyun əyələr. (Ənam surəsi, 42)**

***İnsanlar 95-ci ilə qədər malik olacaq, yəni işləri yaxşı gedəcək, 97 və ya 99-cu illərdə mülkləri zay olacaq.*** *(El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, s. 54).*

Bu hədisdə Mehdinin çıxışından əvvəl dünya üzərindəki iqtisadi vəziyyətin necə olacağı bildirilmişdir.

Hədisdəki "95-ci il" şəklindəki ifadə 1995-ci ilə işarə olunur. 1995-ci il - insanların nisbətən daha yaxşı bir həyat sürdükləri, həyat şərtlərinin çox çətinləşmədiyi bir dövrdür. Hədisdə bu il içində "işlərin yaxşı gedəcəyi" xəbər verilmişdir. Yəni bu dövrdə insanlar həyatlarını davam etdirə biləcək bir gəlirə sahibdirlər və hələ mülk əldə edə biləcək qədər zəngindirlər.

Ancaq 1997-1999-cu illər iqtisadiyyatın çox pisləşdiyi, kasıblığın və yoxsulluğun artdığı bir dövrdür. Bu illər arasında malın və mülkün dəyəri qalmayacaq. Məhz bu şiddətli kasıblıq və qıtlıq dövrünün ardından Mehdi dövrü başlayacaq və insanlar bolluq və bərəkətə qovuşacaqlar. Mehdi dövründə dünya üzərində çox böyük bir zənginlik və rifah hakim olacaqdır. İnşaAllah.

# FİTNƏLƏRİN ÇOXALMASI

**Fitnə**–İnsanın ağıl və qəlbini birbaşa haqq və həqiqətdən ayıran şeydir.

***Küfr hər yeri zəbt edib hökmünü cəmiyyət içində açıq-aşkar vermədikcə Mehdi zühur etməz. Həmin vaxtda baş verən şeylər isə.. küfrün zəbtidir. Onun qüvvəsidir.*** *(Mektubat-i Rabbani, 2-259)*

***Mehdi fitnələrin zühur etdiyi bir dövrdə gələcək.*** *( Mektubat-i Rabbani 2-258)*

***Məğribdə (qərbdə) də qarışıqlıqlar, fitnələr və qorxu olacaq aclıq və yaşayış çətinliyi olduqca yayılacaq. Fitnələr çoxalacaq.*** *(Ölüm-Kiyamet-Ahiret ve Ahirzaman Alametleri, 440)*

***Namazların məhv edilməsi, haram olan şeylərin halal sayılması, rüşvətlərin alınması, boşanmaların çoxalması, zina hərəkətlərinin yayılması, müğənni qızların yetişdirilməsi, yalançı şahidlərin çoxalması... da qiyamət əlamətlərindəndir.*** *(Ölüm-Kiyamet-Ahiret ve Ahirzaman Alametler, 455)*

Asağıdaki hədisi-şərif də fitnənin hər tərəfə yayılacağına işarə edir:

***Heç bir yerin ondan məhfuz (gizli) qalmayacağı bir fitnə çıxacaq, bu fitnə olduğu yerdən dərhal başqa bir tərəfə yayılacaq və bu vəziyyət bir münadinin (səslənən, nida edən) səmadan səslənərək: "Ey insanlar, əmriniz artıq Mehdidir" deməyinə qədər davam edəcək.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 23)*

# HARAMLARIN HALAL SAYILMASI

***İbn Əbi Seybə, Əbi Cəlddən belə rəvayət etdi:***

***Bir fitnə görünər, bunu digər fitnələr təqib edər və birincilər sonuncuların qılıncla qarşıdurmaya (döyüşə) dönüşünü qamçılayar və bundan sonra bütün haramların halal sayılacağı bir fitnə gələr. Sonra da xilafət (xəlifəlik, İslamı qorumaq vəzifəsi) yer üzünün ən xeyirlisi olan Mehdiyə evində oturarkən gələcəkdir.*** *(Ki'c'tab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman,26)*

***Hz. Mehdi bütün haramların halal sayıldığı böyük bir fitnədən sonra çıxacaq.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 23)*

Bir şərhdə də belə bildirilir:

Silahların istifadə edildiyi, qətliamların baş verdiyi, bir anarxiya dövrü xəbər verildikdən sonra Allah Təalanın haram etdiyi bütün hərəkətlərin insanlar tərəfindən halal olaraq göstərməyə çalışacaqları işarə edilir. Fahişəlik, qumar, içki, faiz, rüşvət kimi bir çox hərəkət, haram edilməsinə baxmayaraq, indiki vaxtda xalqın böyük bir əksəriyyəti tərəfindən və getdikcə daha da artan bir səviyyədə işlədilir. Aparılan statistikalar artımın, dünyanın tarixindən indiyə kimi ilk dəfə bu dərəcəyə çatdığını göstərir.

# ALLAHIN AÇIQ-AŞKAR İNKAR EDİLMƏSİ

***Hər kəsin gözü önündə və açıq-aşkar Allah Təala inkar edilənə kimi hz. Mehdi (ə.s.) gəlməz.*** *( Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman , 27 )*

Bir şərhi də belədir:

Bu hədisdə o dövrdə bir çox imansız insanın olacağına və eyni zamanda onların bu inkarlarını mətbuat yolu ilə hər kəsə göstərərək açıq şəkildə elan edəcəklərinə işarə edilir. (Allahu aləm)

# MÜSƏLMANLARA QARŞI HÜCUMLARIN ARTMASI

***Axırzamanda ümmətimin başına, sultanlarından (başçılarından, vəzifəlilərdən) elə şiddətli bəlalar gələr ki, olduqları yer müsəlmanlara dar gələr. O zaman Allah daha əvvəl zülmlə dolu olan dünyanı ədalətlə dolduran Mənim soyumdan birini göndərəcək.*** *(Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir zaman , 12)*

***And olsun ki, bu ümmətə elə şiddətli bəlalar gələcək ki, insanlar zülmdən, qəddarlıqdan xilas olmaq üçün sığınmağa bir yer tapa bilməyəcəklər. Elə çətin bir dövrdə Allah Təala, qohumumdan, mənim soyumdan bir kəsi göndərəcək.*** *( Ölüm-Kıyamet -Ahiret ve Ahir Zaman Alametleri, səh.437)*

# DÜNYANIN HƏRC-MƏRCLİK İÇİNDƏ QALMASI

***Təbərani "Kəbir" adlı əsərində Əbu Naim isə Əli Hilaldan belə nəql etdi:***

***Rəsulullah (s.ə.v) hz. Fatiməyə belə buyurdu:***

***Dünya hərc-mərclik içində qaldığı, fitnələr zühur etdiyi, yolların kəsildiyi, bəziləri bəzisinə hücum etdiyi, böyük kiçiyə mərhəmət etmədiyi, böyüyə təmkinli davranılmadığı dövrdə Allah onlardan ədavətin kökünü kəsərək, dəlalət qalalarını fəth edəcək və dini mənim yaşatdığım kimi Axırzamanda da o, yaşadacaq, sağlamlaşdıracaq, əvvəllər zülmlə dolu olan dünyanı ədalətlə dolduran birini (Mehdini) göndərəcək.*** *(Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman , 12)*

**Hərc-mərclik:** İnsanlar arasında baş verən fitnə, fəsad, darmadağınlıq, qarışıqlıq deməkdir.

Bu hədis belə şərh olunur:

Bu hədisi-şərifdə müəyyən bir yer təsvir edilməyib, hərc-mərclik dünyanın hər tərəfinə yayılacağına işarə edilir. Həqiqətən də, hədisin təsvir etdiyi kimi bu gün dünyanın beş qitəsində böyük qarışıqlıqlar, döyüşlər, qırğınlar və terror hadisələri cərəyan edir.

# İRAN-İRAQ DÖYÜŞÜ

***Şəvval ayında qiyam Zilqadədə hərb danışıqları, Zilhiccədə isə hərb (müharibə) başlayacaq.*** *(Kıyamet Alametleri, 166)*

Hədisin şərhi belədir:

**Şəvval ayında qiyam...**

Burada İranda şaha qarşı olan qiyama diqqət çəkilir. İlk qiyam hədisin işarə etdiyi 5 Şəvval 1398-8 sentyabr 1976-cı ildə baş vermişdir.

Zilqadədə hərbi danışıqları və Zilhiccədə isə hərb (müharibə) başlayacaq.

Burada İran-İraq arasındakı müharibəyə diqqət çəkilir. Hicri 1400-cü il Zilhiccə ayında, Miladi 1980-cı il oktyabr ayında İran-İraq arasındakı döyüş artıq başlamışdı.

***Onlarla Mevali maddəsi də gələcək..."Mevali maddəsi nədir, ey Allahın Rəsulu? Onlar sizin azadlıqlarınızdır. Onlar sizdəndir. Yəni "Faris" (farslar, İran) cəhətdən (tərəfdən) gələcək bir qövm belə deyəcək: "Ey Ərəblər! Siz qatı dindarlığa qaçdınız! Siz bunlara layiqli haqq tanımasanız, sizinlə heç kim birlik qurulmayacaq..."...Bir gün onlara və bir gün də sizlərə verilsin sonra qarşılıqlı söz verilsin, verilən sözlərə əməl edilsin..." Onlar "Mutık"-a (bölgədə bir dağ) çıxacaqlar, müsəlmanlar oradan Yazıya (düzənliyə) enəcəklər... Müşriklər o biri tərəfdəki Rakabə (neft quyuların çox olduğu bölgə) deyilən qapqara olan çayın kənarında dayanacaqlar... Aralarında döyüş olacaq: Hər iki ordudan, Allah zəfəri qaldıracaq...*** *(Kıyamet Alametleri, Berzenci, səh. 179)*

**Faris cəhətdən gələcək olan:** Burada iranlılara (Fars) diqqət çəkilir.

**Faris** : İran -iranlı *(Böyük Lüğət)*

**Yazıya enəcəklər:** düzənlik-İraq düzənliyidir

**Mutik** : Bölgədəki bir dağın adıdır.

**Rakabə** : Neft quyularının çox olduğu bölgədir.

**Ey Ərəblər! Siz çox qatı dinçiliyə meyl etdiniz! Siz bunlara layiqli haqq tanımasanız, sizinlə heç kim birlik qurulmayacaq... :**

Bu ifadənin bir şərhi də belədir: İki tərəf arasında irqçilikdən qaynaqlanan bir anlaşılmazlığın olacağına diqqət çəkilir. Bu anlaşılmazlığa görə, yazıya (yazı: İraq düzənliyi) enilləcək və orada döyüş başlayacaq.

# ƏFQANISTANIN İŞĞALI

***Əbu Qanəm Kifi, Fitəndə hz. Əlidən belə rəvayət etdi:***

***O bildirdi ki,Talikana (Əfqanıstana) təəssüf oldu. Şübhəsiz, Allah Təalanın orada qızıl və gümüş olmayan xəzinələri vardır. Orada Allahı haqqı ilə tanıyan insanlar vardır. Onlar Axırzaman Mehdisinin köməkçiləridir.*** *(Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, 59)*

Bu hədis belə şərh edilir:

**"Talikan"a təəssüf oldu..."** Burada Əfqanıstanın Mehdi dövründə işğal ediləcəyinə işarə edilir. Rusların Əfqanıstanı işğalı 1979-cu ili, həqiqətən də, hz. Mehdinin çıxış ili olan (Hicri 1400- Miladi 1979) hicri təqvimi ilə əsrin başlanğıcında baş verir. (Allahualəm)

"...Orada qızıl və gümüş olmayan xəzinələr vardır..." deyə davam edən rəvayətin ikinci hissəsi isə Əfqanıstanın maddi zənginlik qaynaqlarına diqqət çəkir. Bu gün Əfqanıstanda müxtəlif səbəblərə görə işlədilməmiş böyük neft yataqları, dəmir hövzələri və kömür mədənləri müəyyən edilmişdir.

Hədisi-şərifin son qismində də, orada (Əfqanıstanda) Allahı haqqıyla tanıyan möminlərə, dinsizlərə qarşı döyüşən Əfqan mücahidlərinə diqqət çəkilir və bunların gələcəkdə hz. Mehdi (ə.s.)-ın köməkçisi olacaqlarına işarə edilir.

# FƏRATIN SUYUNUN KƏSİLMƏSİ

***"İkdiddurer"də zikr edilən Mehdinin əlamətlərindəndir:***

***Fərat çayının suyunun dayandırılması*** *(Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman,39)*

***Əbu Hureyrə (r.ə.)-in rəvayətinə görə Rəsulullah (s.ə.v.) belə buyurmuşdur:***

*Fərat (çayının suyu çəkilərək) qiymətli qızıl xəzinəsinin üzə çıxması zamanı yaxınlaşır. Hər kim o vaxt orada olsa, oradan bir şey götürməsin! (Çünki qoca dünyanın ömrü sona çatmış olacaq)* (Sahih-i Buhari, 12/305)

*...Əbu Hüreyrə (r.ə.) Rəsulullah (s.ə.v)-in belə buyurduğunu nəql etdi: Fərat çayı qızıl bir dağ üzərindən üzə çıxmadıqca qiyamət qopmayacaq. İnsanlar onun üçün döyüşəcək və hər yüz adamdan doxsan doqquzu öldürüləcək, onlardan hər adam, "kaş ki, xilas olan mən olaydım" deyəcək.*

*...Əbu Hureyrə (r.ə.) -dən belə rəvayət olundu: Rəsulullah (s.ə.v) buyurdu ki, Fəratın qızıl bir dağ xəzinəsini üzə çıxartması yaxındır. Kim orada olarsa, oradan bir şey götürməsin! (Sahih-i Müslim 11/320)*

*Yenə Əbu Hureyrə (r.ə.)-dən rəvayət edildiyinə görə, Rəsulullah (s.ə.v.) belə buyurdu: Yaxında Fərat çayı qızıl xəzinəsini ortaya çıxaracaq, kim orada olsa, ondan bir şey götürməsin.*

*Əbu Hureyrə (r.ə.)-dən, Rəsulullah (s. ə. v.)-dən yuxarıda keçən hədisin bənzəri rəvayət olundu. Fərat çayı bir qızıl dağı üzə çıxardar, dedi. (Sünen-i Ebu Davud, 5/116)*

*Yenə Əbu Hureyrə Rəsulullah (s.ə.v)-in belə buyurduğunu nəql edir: (1) Fərat çayının suyu çəkilib (2) altından bir dağ meydana çıxmadıqca qiyamət qopmaz. (3) Bu xəzinə üstündə kital (döyüş) olacaq, hər yüz adamdan doxsan doqquzu öləcək. Qətliamda iştirak edənlərdən hər kəs "kaş ki, mən xilas olaydım" deyə ümidlənər.*

*Digər bir rəvayətdə: "Fərat çayının suyu çəkilərək qızıl xəzinəsinin üzə çıxması zamanı yaxınlaşır. Hər kim, o zaman orada olsa, o xəzinədən bir şey götürməsin. Əks halda, ya ölər və ya öldürər." (Hadisi, Buhari ve Müslim rivayet etmislerdir.) Riyazi's Salihin, 3/332))*

.... Hədislərin şərhi belədir:

(1) **Fərat çayının suyunun çəkilib..** Suyuti həzrətlərinin kitabında bu hədis "suyun dayandırılması" olaraq yazılmışdır. Həqiqətən də, Keban Anbarı, Fərat çayının suyunun qabağını almışdır, yəni kəsmişdir.

Burada "suyun dayandırılması" ifadəsi ilə "Anbar"a diqqət çəkilir (Allahu aləm), çünki, anbar suyun axışını dayandırır, suyu qarşısındakı əraziyə yığır. Su elektrik enerjisinə çevrildikdən sonra axmağa davam edir.

(2) .. **Altından bir dağ üzə çıxmadıqca...Düzəldilən anbar sayəsində...** Burada elektrikin çıxarılması, toplanan suyun ərazidə istifadə edilərək torpağın səmərəsinin artması və çatdırılmanın asanlaşdırılmasının təmin edilməsi kimi səbəblərlə, buradakı torpaqlar "qızıl" kimi qiymətli hala gələ bilər.

Bu hissəsinin ikinci bir şərhi belədir:

Yuxarıdakı sxem şəkildə də göründüyü kimi, anbar betondan nəhəng bir dağı xatırladır. Bu anbardan (hədisi-şərifdəki bənzətməyə görə dağdan) qızıl dəyərində sərvət tökülür. Buna görə anbar "qızıl bir dağ" xüsusiyyətini daşıyır. (Allahualəm)

(3) **.. Bu xəzinə üzərində kital** (Bir çox adamın ölümünə səbəb olan döyüş) hadisə mənasındadır.

Bu hissənin şərhi də belədir:

Anbar təhvillərinin qızıl qiymətində, lakin faiz hökmündə olduğundan alınmaması ola bilər. Anbar təhvili sahiblərinə zərərə başa gələrsə belə, pul verildiyindən faiz əməliyyatı aparılmışdır. Bu da dinimizdə haramdır. Bu təhvillərin satıldığı, qarışıqlıq olan vaxtda da, bölgədə kital (döyüş, vuruşma) ola bilər, qan axıdıla bilər. (Allahu aləm)

# RAMAZAN AYINDA AY VƏ GÜNƏŞ TUTULMALARI

***Mehdi üçün 2 əlamət vardır ki, bunun birincisi, Ramazanın birinci gecəsi ayın tutulması, ikincisi də, Ramazan ayının ortasında günəşin tutulmasıdır.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 49)*

***Ramazanın birinci gecəsi Ay, ortasında Günəş tutulacaq.*** *(Kıyamet Alametleri 199)*

***Onun səltənəti zamanında, Ramazan ayının on dördündə Günəş tutulacaq, o ayın ilk günündə isə Ay qaralacaq...*** *(Mektubat-i Rabbani, 2/1163)*

***..Günəşin oruc ayının ortasında, Ayın isə sonunda tutulması.*** *(Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman,38)*

***Ramazanda iki dəfə ay tutulması olacaq.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar,53)*

***Mehdinin gəlişi Razaman ayında Ayın iki dəfə tutulmasına səbəb olacaq.*** *(Kıyamet Alametleri , 200)*

***Mehdinin çıxmasından əvvəl bir Ramazan içində Günəş iki dəfə tutulacaq.*** *(Ölüm-Kiyamet -Ahiret ve Ahir Zaman Alametleri, səh.44)*

Bu hədisin şərhi belə bildirilir:

Qiyamət əlamətlərindən yalnız "Günəşin qərbdən doğulma" hadisəsi bədahət dərəcəsində aydın olacaq bir əlamətdir. Bu əlamət tövbə qapısını bağlayacağına görə təfsiri və mənası açıqdır, şərh etməyə ehtiyac yoxdur.

Lakin digər qiyamət əlamətlərinin zühuru əsnasında imtahan davam ediləcəyinə görə bu əlamətlərin başa düşülməsi, hər kəsin məcbur olaraq təsdiq edəcəyi bir dərəcədə bədihi (açıq şəkildə) verilməz. Yoxsa hər kəs qəbul edər, imtahan ortadan qalxar. Bu səbəblə "Günəşin qərbdən çıxması" xaric bütün qiyamət əlamətləri, ixtiyar dairəsində (ağlın sərhədləri içində) adətullaha uyğun bir şəkildə reallaşar. (Adətullah: Allahın adət üzrə meydana gətirdiyi hadisələr, qoyduğu dəyişməz qanunlardır.)

Yuxarıdakı rəvayətlərdə də bu vəziyyəti nəzərə almaq lazımdır ki, həm Ramazan ayının ortasında günəş tutulması, həm də bir ay içində Ayın və Günəşin iki dəfə tutulması adətullaha müxalif (zid, uyğun gəlməz) bir vəziyyətdir, normal olaraq mümkünsüz bir hadisədir.

Əgər bu hadisələr həqiqətən rəvayətlərdə təsvir edildiyi kimi zühur etsə, buna Allah (c.c.)-in əlbətdə ki, gücü çatar, lakin bu zaman ağlın ixtiyarı aradan qalxar, inanan-inanmayan hər kəs təsdiq etməyə məcbur olar, belə bir vəziyyət də Allahın imtahan sirrinə əks düşərdi. Əgər diqqət yetirilsə, bu rəvayətlər arasında da mütənakizn (bir-birinə zidd olan) bir vəziyyət nəzərə çarpar. Yuxarıdakı bir, iki və üçüncü rəvayətlərdə Ay Ramazanın birinci günü, dördüncü rəvayətdə isə sonuncu günü tutulacaq. Belə bir hal ilə qarşılaşdıqda bu iki fərqli rəvayətdən birini seçib, digərini buraxa bilməyəcəyimizə görə (Allahu aləm) edəcəyimiz ən məqsədəuyğun şey, eyni hadisəni işarə edən fərqli rəvayətlərin ittifaq etdikləri ortaq istiqamətlərini araşdırmaq olacaq. Bunları bu şəkildə sadalaya bilərik:

1. Ramazan ayında Ay və Günəş tutulmaları olacaq.

2. Bu tutulmalar ortada, yəni 14-15 gün ara ilə olacaq.

3. Bu tutulmalar iki dəfə təkrarlanacaq.

Bu təsbitlərə uyğun olaraq, 1981-ci ildə (Hicri-1401-ci ildə) Ramazan ayının 15-ci günü Ay, 29-cu günündə də, Günəş tutulmuşdur. Yenə 1982-ci ildə (Hicri-1402-ci ildə ) Ramazan ayının 14-cü günü Ay, 28-ci günü də Günəş tutulmuşdur.

Həmçinin, bu hadisədə Ayın Ramazanın tam ortasında bütöv ay halında tutulması və diqqəti cəlb edən bir əlamət olaraq meydana çıxması da çox şeyə dəlalət edir.

Bu hadisələrin hz. Mehdinin digər çıxış əlamətləri ilə eyni dövrlərdə baş verməsi və hicri əsrin əvvəllərində, dalbadal iki il möcüzəvi bir tərzdə təkrarlanması rəvayətlərin işarəsinin bu hadisələr ola biləcəyinə dair ehtimallarımızı daha da qüvvətləndirir.

# QUYRUQLU ULDUZUN DOĞULMASI

***O gəlmədən əvvəl şərqdən işıq verən bir ulduz görünəcək.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 53 )*

***Mehdinin çıxışından əvvəl (hər tərəfi) işıqlandıran, quyruqlu bir ulduz çıxacaq. (****Kıyamet Alametleri səh, 200 )*

***O ulduzun doğulması, günəş və ay tutulmasından sonra olacaq.*** *(Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, 32)*

Hədisin bir izahı belədir ki:

1986-cı ildə, yəni hicri 1406-cı ildə görünən Halley kometası, hədisi-şərifdə ifadə edildiyi kimi, həm parlaq bir ulduz idi, həm çıxış istiqaməti şərqdən qərbə doğru idi, həm də (1981 və 1982-ci illərdə meydana gələn) ay və günəş tutulmaları hadisəsindən sonra ortaya çıxmışdır. Bu ulduzun çıxması hz. Mehdi (ə.s.)-ın digər çıxış əlamətləri ilə də eyni vaxtda zühur etməsi, Halley kometasının hədisdə işarə edilən ulduz olduğuna dair zənlərimizi (Allahu aləm) daha da gücləndirir.

***Şərq tərəfdən bir ulduz doğulub işıq (aydınlıq) verəcək. Onun hər günki irtifi (keçmə istiqaməti) məşriqdən məğribədir (yəni şərqdən qərbə doğrudur) .****(Mektubat-i Rabbani, 2/258)*

Bu kometanın çıxışı zamanı çox əhəmiyyətli hadisələr baş vermişdir. Bunlardan bir qismi rəvayətlərdə belə bildirilmişdir:

***Bu ulduz ilk dəfə çıxanda:***

***Hz. Nuh (ə.s.) qövmü həlak olmuşdur.***

***Hz. İbrahim (ə.s.) atəşə atılmışdır.***

***Hz. Musa (ə.s.)-a əngəl olan Firon və qövmü məhv edilmişdir.***

***Hz. Yəhya (ə.s) öldürüləndə də görünmüşdür.***

Mektubat-i Rabbani, 2/258

***Siz o ulduzu görəndə fitnənin şərrindən Allaha sığının.*** *(Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, 32)*

Bu ulduz keçəndə meydana gələn digər əhəmiyyətli hadisələr də bunlardır:

***Hz. İsa (ə.s.) doğulmuşdur.***

***Rəsulullah (s.ə.v.)-ə ilk vəhy gəlməyə başlamışdı.***

***Osmanlı dövləti tarix səhnəsinə çıxmışdır.***

***İstanbul Fateh tərəfindən fəth ediləndə də bu ulduz görünmüşdür.***

# KƏBƏ BASQINI VƏ KƏBƏDƏ QAN AXIDILMASI

Onun çıxacağı il insanlar Həccə, başlarında bir əmir (başçı) olmadan gedəcəklər. Birlikdə Beyti-şərifi (Kəbəni) ziyarət edəcəklər, sonra Minaya enəndə itlərin boğuşmaları kimi bir-birinə hücum edəcək, hacılar soyulacaq, qanlar Akabə Cemrəsinin üzərinə axacaq.

***Naim ibn Hammad Abdullah ibn Əmrdən belə rəvayət edildi: O belə dedi: İnsanlar başlarında bir imam olmadan Həcc edərlər. Minaya enəndə ətrafları itlərin savaşması (boğuşması) kimi bürünüb, qəbilələrin bir-biri ilə savaşması kimi böyük döyüşlər olar. Beləliklə, ayaqlar qan gölü içində qalar.*** *(Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, 35)*

Hz. Mehdinin çıxış ili rəvayətlərə və alimlərin izahlarına görə Hicri 1400-cü ilin başlanğıcındadır.

Yuxarıdakı rəvayətdə Onun çıxacağı ildə Mehdinin çıxış tarixində meydana gələcək Kəbə basqınına diqqət çəkilmişdir (Allahu aləm). Həqiqətən də, Kəbə basqını hədisin xəbərinə tam uyğun bir şəkildə h. 1400-cü ilin lap başlanğıcında (1, Məhərrəm 1400/ 21 noyabr 1979-cu ildə) baş vermişdir. Yenə, hədisi-şərifdə qanların axacağından bəhs edilərək öldürmə hadisəsinə diqqət çəkilmişdir. Basqın əsnasında Suud (yuxarı çıxan) əsgərləri ilə təcavüzkar xadimlər arasında meydana gələn vuruşmada 30 nəfərin öldürülməsi bu rəvayətin qalan qismini də təsdiqləmişdir.

***Dani Sehr ibn Havsəbdən rəvayət etdi. Dedi ki, Rəsulullah (s.ə.v) belə buyurdu: Ramazanda bir səda, Şəvvalda (Ramazandan sonrakı ay) bir səs, Zilqadədə qəbilələr arasında döyüş olar. Hacılar talan edilərlər. Minada ölülərin çox olacağı bir döyüş olar, beləliklə, orada tasları qan gölü içində qalacaq (üzəcək) dərəcədə qan axar.*** *(Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, 31)*

*Ramazanda bir səda olar. Şəvvalda bir səda olar. Zilqadədə (ərəblərin on birinci ayı) qəbilələr vuruşar. Zilhiccədə (ərəblərin son ayı) hacılar talan edilərlər. Məhərrəmdə göydən belə səs gələr. "Diqqət yetirin. Filankəs Allahın xalqının xeyirlilərindəndir. Onu dinləyin və ona tabe olun.* (Ramuz El Hadis 2/518)

*Şəvval (Ramazandan sonrakı ay) ayında qiyam, Zilqadədə (ərəblərin on birinci ayı) hərb danışıqları, Zilhiccədə (ərəblərin son ayı) isə müharibə başlayacaq. Hacılar soyulacaq, qanları axıdılacaq.* (Kıyamet Alametleri, 166 )

*Naim ibn Hammad və Hakim Əmr ibn Şueybdən rəvayət etdilər:*

*Zilqadə ayında qəbilələr döyüşər, hacılar qaçırılar, məlhamələr (qanlı savaş) olar.* (Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-ilAhir Zaman , 34 )

*"İkdiddurər" adlı kitabdakı əlamətlərdən:*

*(3) Şəvvalda döyüş səsləri, (2) Zilhiccədə hərb və kital (vuruşma) olar, yenə (1) Zilhiccədə hacıları talan edərlər, hətta böyük, iri yollar qandan keçilməz hala gələr və haramlar tapdalanar. Beytül-Müəzzəmin (Kəbənin) yanında böyük günahlar işlənilər.* (Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, 37 )

**(1)...Zilhiccədə hacılar talan edilər, hətta, yollar qandan keçilməz olar və haramlar tapdalanar. Beytül-Müəzzəmin yanında böyük günahlar işlənər.**

(Allahu aləm) Burada 1407-ci ildə Zilhiccə ayında (Həcc mövsümündə), Beytül-Müəzzəmin (Kəbənin) yanında baş verən hadisəyə diqqət çəkilir. Bu hadisədə yollarda olan hacılara hücum edilərək 402 adam qətl edilmiş, çox qan axıdılmışdır. Beytül-Müəzzəmin yanında, müsəlmanların (Səudiyyə Ərəbistanın əsgərləri ilə iranlı hacıların) bir-birlərini öldürmələri ilə böyük günahlar işlənmiş, haramlar tapdalanmışdır.

Qeyd: Bir əvvəlki hədisdə izah edilən hadisə hicri 1 məhərrəm 1400-cü ildə Beytül-Müəzzəmin (Kəbənin) şəxsən içərisində baş vermişdi: 1407-ci ilin Zilhiccə ayındakı hadisə isə, Beytül-Müəzzəmin yanında olmuşdur. Hər iki hadisə rəvayətlərin işarəsinə uyğun bir şəkildə reallaşmışdır.

**(2)... Zilhiccədə hərb və qətl hadisələri baş verər.**

Bu hərb və vuruşmalar, hacıların öldürülməsi ilə eyni yerdə zikr edilməsi, hadisələrin bir-birləri ilə əlaqədar ola biləcəyinə işarə edilə bilər. Burada hərbdən qəsd, İran-İraq döyüşü, döyüşlərdən qəsd də bir çox günahsız insanın səbəbsiz yerə qətl edildiyi, anarxistlərin Cənub-Şərq və digər yerlərdə etdiyi qırğınlar ola bilər. (Allahu aləm)

**(3) ...Şəvvalda döyüş səsləri olar.**

Yenə həmin vaxtlarda Bəsr körfəzindəki gərginliyi, İran-Amerika arasındakı gərginləşmə və döyüş vəziyyətinə diqqət çəkilmiş ola bilər. (Allahu aləm)

"İkdiddurər" adlı kitabda Mehdinin zühur əlamətləri keçir:

# ŞƏRQ TƏRƏFDƏN BİR ALOVUN GÖRÜNMƏSİ

*"İkdiddurər" adlı kitabda Mehdinin zühur əlamətləri bəhsində keçir:*

***Şərqdə səmada üç gecə görünən böyük bir alovun çıxması. Mutad (adətlərin xaricində) şəfəq qırmızılığı kimi olmayan bir qırmızılığın səmada görünüb üfüqdə yayılması.*** *(*Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, 32*)*

***Şərqdən üç və ya yeddi gün ard-arda böyük bir alov zühur edəcək, göydə qaranlıq görünəcək, göydə həmişəki kimi olan qırmızılığın yerinə təmamilə başqa bir qırmızılıq yayılacaq. Yer üzünün eşidib anlaya biləcəyi bir dildə səslənləcək.*** *(*Kıyamet Alametleri, 166*)*

Kıyamet Alametleri, 166

***Əbu Cəfər ibn Məhəmməd ibn Əli (r. ə.)-dən rəvayət edildi: Siz üç və ya yeddi gün, şərqdən bir atəşi gördüyünüz zaman Ali-Məhəmmədin çıxmasını gözləyin, inşaAllah, bir münadi (səsləyən) Mehdinin adı ilə səmadan elə səslənəcək ki, şərqdə, qərbdə olan hər kəs bu səsi eşidəcək. Beləliklə, qorxudan yuxuda olanlar oyanacaq, ayaqda olan çökəcək, oturan isə ayağa qalxacaq.*** *(*Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman , 32)

*Hədisi-Şərifdə Rəsuli Əkrəm Əfəndimiz:*

***"And içərəm ki, bir alov sizi bürüyəcək. O atəş bu gün Berehut deyilən vadidə sönmüş vəziyyətdədir. O alov içində dəhşətli əzabla insanları udar. O atəş insanları, malları yandırıb bitirər. Səkkiz gün içində külək ilə bulud kimi uçaraq dünyanın hər tərəfinə yayılar. Gecənin istisi, gündüzün hərarətindən daha şiddətli olar. O atəş insanların başının üzərindən ərşin altına qədər yaxınlaşaraq yer üzü ilə səma arasında göy gurultusu kimi qorxunc səs-küyü olar" —deyə buyurdu.*** (Ölüm-Kıyamet -Ahiret ve Ahir Zaman Alametleri, 461; Kıyamet Alametleri, 289)

Mehdinin çıxışından əvvəl əlamətlərindən olan bu atəş (alov) haqqında qısa bir şərh etmək yerinə düşər. Qiyamət əlamətlərindən yalnız Günəşin qərbdən çıxma hadisəsi, Peyğəmbərimizin hədislərində tərif edildiyi kimi, hər kəsin açıq şəkildə görüb anlaya biləcəyi bir şəkildə baş verə biləcək yeganə əlamətdir. Bunun xaricində meydana gələn bütün qiyamət əlamətləri (alov da daxil olmaqla) ağlın ixtiyarını almayacaq dərəcədə, adətullaha uyğun əlamətlərdir. Bəzi saf ürəkli müsəlmanlar bu atəşi səbəbsiz yerə birdən-birə baş verən, sönmə nədir bilməyən, hətta, hər kəsin olduğu yerdən mütləq görünəcəyi tərzdə, möcüzəvi bir əlamət olaraq gözlənildiyini

düşünürlər. Halbuki, dünya bir imtahan və müsabiqə yeridir demişdik. Bu əlamətlərin meydana çıxması əsnasında da, imtahan davam etdiyinə görə onların başa düşülməsi, hər kəsin məcbur olaraq qəbul edəcəyi bir açıqlıqda olmaz, ta ki, insanlar ağlını, vicdanını, iradəsini istifadə edərək qərar verə bilsinlər, əsl şəxsiyyətləri ilə ortaya çıxsınlar. Seçmə azadlığı olmalıdır, kənardan təklif etmək olmaz.

Əgər, qiyamət əlamətləri ilə əlaqədar hədislər ən incə təfərrüatına kimi (məsələn; hansı şəhərdə, hansı tarixdə, nə şəkildə çıxacağı) izah edilsəydi (necə ki, Peyğəmbərimiz hamısını bilirdi, lakin belə olsaydı) hər kəs məcbur olaraq qəbul edər, insanlar arasında dərəcə fərqi qalmazdı. Bu hikmət səbəbiylə qiyamət əlaməti hədisləri, xüsusilə, yarıbağlı bir şəkildə bildirilmişdir. Atəş əlamətini də bu səkildə qiymətləndirmək lazımdır. Bir atəş səbəbsiz yerə çıxmaz, ya bir qəza, ya bir partlama kimi qəsd və ya laqeydlik nəticəsində çıxar. Mehdinin çıxış əlaməti olaraq deyilməsi, onun çox qəribə, fövqəladə və ya möcüzəvi bir əlamət şəklində çıxmasını tələb etməz. Mühüm olan bu atəşin hədisdə təsvir edilən atəşin xüsusiyyətlərinə uyğun olaraq çıxmasıdır. Bu atəşi tanımaq və müəyyən edə bilmək üçün görüləcək ilk iş xüsusiyyətlərinin ortaya çıxarılmasıdır.

Aydın olduğu kimi, iyul ayında 1991-ci ildə İraqın Küveyt şəhərinin işğalından sonra, Küveytə aid neft quyularının yandırılması nəticəsində Küveyt və Bəsrə körfəzində çox böyük bir yanğın, atəş, alov yaranmışdır.

***-Küveytdə yanan neft, insan və heyvanlar arasında ölümə səbəb olmuşdur. Mütəxəssislərə görə gündə yarım milyon ton neft tüstü olaraq atmosferə qarışır. Hər gün 10 min tondan çox his, kükürd, karbon 4 oksid və böyük miqdarda xərçəng əmələ gətirən xüsusiyyəti olan hidrokarbonlar fəlakət buludları kimi körfəz üzərində yığılmışdır.... Tək körfəz deyil, onun simasında Dünya yanırdı.*** *(Kurtlar Sofrasında Ortadoğu, M. Necati Özfatura, səh.175)*

*-Alovlanan iki quyu, Türkiyənin bir gündə çıxara bildiyi qədər neft verir və tüstülər 55 km* ***uzaqlıqdakı Səudiyyə Ərəbistandan belə görünə bilirdi.*** *(Hürriyet 23 Ocak 1991)*

*-Körfəzdə sönməyən fəlakət xəbərləri:*

*-Küveytdə yanğına düçar olan yüzlərlə neft quyusu alovlanaraq yandı.* ***Mütəxəssislərin "söndürmək olduqca çətindir" dedikləri neft quyularındakı yanğının Türkiyədən Hindistana qədər olan geniş bir əraziyə ən az 10 il müddətdə təsir edəcəyi bildirilir. Yanğına məruz qalan neft quyularından çıxan alov və tüstülər atmosferi davamlı olaraq çirkləndirirdi. Küveyt gündüzləri gecə mənzərəsini ifadə edirdi. Alovlarla birlikdə yüksələn hisə verilmiş rəngli tüstü, Küveyt səmalarında payızdan qış mövsümünə keçişi xatırladır...Küveytin yenidən yaşanacaq halına gəlməsi üçün ən az bir illik bir zamana ehtiyacı var idi. Kilometrlərdən görünən alovlarla birlikdə yüksələn tüstülər, Küveyt səmalarını tamamilə örtmüşdü, ölkəni yaşanmaz hala gətirmiş və varlı olanlar Küveyti tərk etmişdilər.***

*Dahrandakı araşdırma mərkəzi müdiri Abdullah Dabbagın "NewYork Times"-da çıxan şərhinə görə Bəsrə körfəzindəki çirklənmə nəticəsində 106 növ balıq, 180 növ molyusklar və bölgədə yaşayan 450 növ heyvan yaşamaq üçün mübarizə aparırdılar. 600 neft quyusundan yüksələn tüstülərin qonşu ölkələrə yayıldığı, həmçinin, kükürd kimi kansoregen maddələr istehsal edən tüstülərin asit turşu yağışına çevrilərək əkinçilikdə məhsulun səmərəsinin azaltdığı açıqlanmışdır.* (Kurtlar Sofrasında Ortadoğu, səh. 171)

**And içərəm ki, bir alov sizi bürüyəcək. O atəş bu gün Berehut deyilən vadidə sönmüş vəziyyətdədir.**

Berehut: Bir vadi və yaxud bir quyu adıdır. (Kamus Tercemesi 1-ci cild- səh.550)

Hədisi-şərifin ilk qismində atəş üçün "sönük bir vəziyyətdədir" deyilir. Atəş, tez alışan bir maddənin yanmasıyla meydana gələn bir vəziyyət olduğuna görə burada sönük vəziyyətdə gözləyən atəşin özü deyil, atəşin yanacağı xammaldır. Burada torpaq altından çıxarılan neftə işarə edilir, hansı ki, hədisdə Berehut deyilən yer, bir quyunun adıdır. Bu quyu neft quyusudur. Zamanı gəlincə bu quyulardan çıxarılan neft yanmağa hazır bir atəş halına gəlir.

**O atəş dəhşətli əzabla insanları bürüyər.**

O atəş yalnız yanan bir atəş deyil, eyni zamanda insanları canından, malından edərək əzab içində, əzab-kədər içində buraxacaq və bütün təbiəti çirkləndirəcək bir atəş idi.

**O atəş insanları, malları yandırar məhv edər.**

O atəş bir qisim insanların ölümünə səbəb oldu. Bununla yanaşı, malları yandıraraq maddi zərərə səbəb olduğu kimi, bütün ətrafı və təbiəti çirkləndirərək də insanların dolanışıq qaynaqlarını məhv etmişdir.

**Səkkiz gün içində külək ilə bulud kimi uçaraq dünyanın hər tərəfinə yayılar.**

O atəşin, "külək ilə bulud kimi uçan" özü deyil, tüstüsüdür. Burada bənzətmə edilərək tüstünün buludlara qədər yüksələcəyi bildirilmişdir. Bu tüstü küləyin təsiri ilə hər istiqamətdə yayılırdı.

**Gecənin istisi, gündüzün hərarətindən daha şiddətlidir.**

O atəş həm gündüz, həm də gecə davamlı yanırdı.

**O atəş insanların başının üzərindən ərşin altına qədər yaxınlaşaraq, yer üzü ilə səma arasında göy gurultusu kimi qorxunc səs-küyə səbəb olar.**

O atəş çox yüksəklərə qədər çatmışdı və bundan da göy gurultusu kimi çox şiddətli bir səs-küy ilə partlayışlar meydana gəlmişdir.

**Göydə həmişə görünən qırmızılığın yerinə tam fərqli bir qırmızılıq yayılar.**

Hədisin bu hissəsində, hadisənin gecə vaxtlarında baş verəcəyinə işarə edilmişdir. Gecə vaxtı meydana gələn böyük partlayışın alovları çox şiddətli bir işıqlanma meydana gətirir. Bu qırmızı alovların meydana gətirdiyi qırmızı işıqlanma, insanların adət etdiyi qırmızı işıqlanmasından çox fərqli idi. Çünki gecə vaxtı belə gündüz kimi işıqlanma fövqəladə bir hadisədir.

Dan-günəş doğarkən və batarkən yaranan və günəşin işıqlandırma gücünün zəifləyib, ağ işıqdan qırmızı işığa çevrilmiş halıdır.

# BÖYÜK HADİSƏLƏRİN VƏ HEYRƏTAMİZ ŞEYLƏRİN MEYDANA GƏLMƏSİ

***Onun zamanında böyük hadisələr baş verəcək.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar,27)*

***Onun zühurunun başlanğıcı və müqəddimələri (zühur etməsi) Rəsulullah (s.ə.v.)-in irhişatına bənzəyər.*** *(Mektubat-i Rabbani , 2/258)*

***İrhişat: Rəsulullah (s.ə.v.)-in peyğəmbərliyindən əvvəl baş verən qeyri-adi vəziyyətlərdir ki, bunlar peyğəmbərliyinə dəlil gətirən hadisələrdəndir.***

Rəsulullah (s.ə.v)-in doğumundan əvvəl böyük və möcüzəvi hadisələr baş vermişdir. Doğulduğu gecə yeni bir ulduz doğmuş, Kisranın (İran padşahları) sarayının 14 bürcü yıxılmış, İranda 1000 ildir yanmaqda olan Məcusi atəşi sönmüş, Səmavi vadisi sel sularının altında qalmış, Sova gölü qurumuşdu və s. .. Yuxarıdakı rəvayətlərdə işarə edildiyi kimi, Mehdinin zühuru da, peyğəmbərimizinkinə bənzəyəcək. Onun zühurundan əvvəl də böyük və möcüzəvi hallar, hadisələr olacaq.

Rəvayətlərin işarəsinə görə Mehdinin zühur etdiyi, hicri 1400 (miladi 1979) ilin əvvəllərində cərəyan edən böyük və möcüzəvi hadisələr:

- Kəbəyə hücum edildi və çox sayda müsəlmanın qanı axıdıldı.

- 500 illik İran şahlığı yıxıldı və İran şahı Rza Pəhləvi öldü.

- Hindistanın Bombey şəhərində bir fabrikdən sızan qaz 20.000 adamın ölümünə səbəb oldu.

- İki müsəlman ölkə olan İran və İraq arasında 8 il davam edən bir müharibə başladı.

- Ruslar Əfqanıstanı işğal etdi.

- Mexiko şəhəri şiddətli bir zəlzələ nəticəsində yerlə yeksan oldu.

- Şimali Kolumbiyadakı Nevada Deş Ruiz vulkanı 400 ildən sonra ilk dəfə püskürdü. Əriyən qar və buzun meydana gətirdiyi palçıq üzündən Armero şəhəri xəritədən silindi. 20.000 adam öldü.

- Banqladeşdəki sel 25.000 adamın ölümünə səbəb oldu.

- Xristianlığın mərkəzi Romanı su basdı.

- 1986-cı ildə Çində tarixinin ən böyük meşə yanğını oldu.

- Hindistan başçısı Qandi, Misir dövlət başçısı Ənvər Sədat, İsveçrənin baş naziri Olof Palme öldürüldü.

- II Papa Jean Paul vuruldu.

- 1980-ci ilin əvvəlində ilk QİÇS hadisələri müəyyən edildi. İndiyə kimi on minlərlə adamın ölümünə səbəb olan bu xəstəliyə "dövrün vəbası" adı verildi. QİÇS 1960-cı ildə Amerikada başlayan və müxtəlif cinsi sərbəstlik gətirən "Seks İnqilabı"nı sona çatdırdı.

- 1986-cı ildə kosmos gəmisini Challenger uçurandan sonra partladı.

- 26 Aprel 1986-cı ildə Ukraynadakı Çernobıl nüvə stansiyasında indiyə kimi görünməyən ən böyük nüvə qəzası baş verdi. Bir çox Avropa ölkələri yayılan radiasiyadan xəsarət aldı.

- Ozon təbəqəsinin deşilməsi dünya iqliminə çox mənfi təsir etdi.

- Sovet hakimiyyəti yıxıldı və Qorbaçovla birlikdə müstəqil dövlətlər meydana çıxdı.

- İraqın Küveyt şəhərini zəbt etməsindən sonra Körfəz müharibəsi başladı.

- Ermənistandakı zəlzələ şəhəri xarabaya çevirdi. 500.000 adam evini tərk etdi, ölülərin sayı 40.000-i aşdı.

- 1989-cu ildə Çində kommunist partiyaları tanklarla şagirdlərə hücum etdi, Tiananmen meydanında 2000 şagird həlak oldu.

- Soyuq müharibənin simvolu olan Berlin divarı inşasından tam 28 il sonra uçuldu.

- 1990-cı ildə Kəbədəki tuneldə izdiham zamanı 1400-dən çox hacı həyatını itirdi.

- 1991-ci ildə Banqladeşdə meydana gələn sellər nəticəsində 120.000-dən çox adam öldü, milyonlarla adam evsiz qaldı.

- Bosniya və Kosovadakı qırğında yüz minlərlə müsəlman öldürüldü və bir o qədər də yurdlarından çıxarıldı.

- Ebola virusu on minlərlə adamın ölümünə səbəb oldu.

- El Nino bütün ölkələrə çox böyük fəlakətlər gətirdi.

- Son 20 ildir Amerikada fırtınalar, qasırğalar, burulğanlar və sellər dayanmaq bilmir. Minlərlə insan öldü, milyonlarla adam isə evini tərk etdi və hər səfər ölkəyə milyard dollardan çox zərər vurdu.

-19 oktyabr 1987-ci ildə London Birjası iflasa uğradı. Yaşanan böyük çaxnaşma nəticəsində 50 milyard sterlinq dəyərində itki yaşandı.

- 19 aprel 1995-ci ildə ABŞ-ın Oklahoma şəhərindəki federal binaya edilən bombalı hücumda 168 adam öldü.

- 22 mart 1997-ci ildə Hale-Bopp kometası saatda 160 km sürətlə dünyanın 195 milyon km yaxınlığından keçdi. Açıq gözlə izlənilən Hale-Boppun keçməsi bütün dünyada milyonlarla adam tərəfindən böyük bir maraqla qarşılandı.

- 10 may 1997-ci ildə İrandakı 7.1 bal gücündəki zəlzələdə 1500 adam vəfat etdi.

- 4 fevral 1998-ci ildə Əfqanıstandakı 6.1 bal gücündəki zəlzələdə 5 min adam həyatını itirdi.

- 25 yanvar 1999-cu ildə Kolumbiyadakı 6 bal gücündəki zəlzələdə 1171 adam həyatını itirdi.

- 21 sentyabr 1999-cu ildə Tayvandakı 7.6 bal gücündə olan zəlzələdə 2.100-dən çox adam həyatını itirdi.

- 11 sentyabr 2001-ci ildə ABŞ-a, tarixin ən böyük terrorist hücumu təşkil edildi. İki sərnişin təyyarəsi səhər vaxtı işin başladığı saatlarda 18 dəqiqə ara ilə Nyu Yorkdakı Dünya Ticarət Mərkəzinin olduğu iki göydələn binasına çırpıldı. Ardınca bir başqa təyyarə Pentaqona düşdü. Hücumda beş mindən çox insan öldü.

- Hindistanda 7.9 bal gücündə zəlzələ baş verdi və minlərlə adam həyatını itirdi.

- Avropada havanın həddindən artıq isti keçməsi 10 minlərlə insanın ölümünə səbəb oldu.

- 60.000 ildə bir baş verən hadisə meydana gəldi və Mars planeti Yerə ən yaxın olan mövqeyə gəldi.

- 17 yanvar 2002-ci il tarixdə Konqodakı Nyirakonqo vulkanı partladı. Hadisədə 100 adam öldü.

- 15 noyabr 2003-cü il İstanbul Şişhanedəki Neve Şalom Sinaqoqu ilə Şişlidəki Beth İsrail Sinaqoquna intihar hücumları təşkil edildi. Sinaqoqlardakı mərasim əsnasında bomba yüklənmiş iki müxtəlif yük maşınına intihar hücumları təşkil edənlər tərəfindən havaya uçurulmasıyla baş tutan hücumlarda 25 adam öldü, 262 adam yaralandı.

– Noyabr ayı 2003-cü ildə dünyanın ən quraqlıq bölgələrindən olan Məkkədə meydana gələn sel fəlakətində 12 adam həyatını itirdi.

– 20 mart 2003-cü ildə ABŞ-ın hələ də davam edən İraq əməliyyatı, Bağdadı bombardman etməklə başladı.

– 20 noyabr 2003-cü ildə İstanbulda yenə iki yük maşınına intihar hücumları təşkil edildi. Leventdəki HSBC Bankı baş idarəsi və Bəyoğlundakı İngiltərə baş konsulluğuna edilən hücumlarda 33 adam öldü, 450 adam yaralandı. Çox böyük maddi ziyan vuruldu.

– 26 fevral 2004-cü il tarixdə Moskva metrosunda baş verən intihar hücumunda təxminən 40 adam həlak oldu.

– 12 mart 2004-cü il İspaniyanın paytaxtı Madridin mərkəzində 3 müxtəlif qatar stansiyasına təşkil edilən bombalı hücumlar nəticəsində təxminən 200 adam həyatını itirdi. Hücumlarda mindən çox adam yaralandı.

– 3 sentyabr 2004-cü ildə Şimali Osetiyada yüzlərlə adamın girov götürüldüyü məktəb binasına ruslar tərəfindən əməliyyat təşkil edildi. Çoxlu sayda uşaq, ən az 150 adam öldü, 560 girov yaralı olaraq qurtarıldı.

– Cənubi Asiyada 26 dekabr 2004-cü il tarixdə 9 bal gücündə zəlzələ və ardınca da çox böyük bir sunami baş verdi. Həlak olanların və itkin düşənlərin sayı 288 nəfər qeyd olunur.

– 2 aprel 2005-ci il tarixdə Papa II Jean Paul vəfat etdi.

– 7 iyul 2005-ci il tarixdə İngiltərənin paytaxtı London II Dünya Müharibəsindən bəri ən böyük hücuma məruz qaldı. Metro və avtobuslara eyni vaxtda təşkil edilən dörd hücum nəticəsində 50-dən çox adam öldü, təxminən 700 adam yaralandı. 21 iyulda yenə dörd müxtəlif bombalı hücumlar eyni vaxtda həyata keçirildi.

# MEHDİDƏN ƏVVƏLKİ RƏHBƏRLİKLƏR

***Aranızda "peyğəmbərlik" Allahın istədiyi qədər davam edər, sonra onu aradan qaldırmaq istədiyi zaman qaldırar. Sonra Allahın davam etməyini arzu etdiyi qədər (otuz il) "peyğəmbərlik yolunda xəlifəlik" gələr. Sonra onu aradan qaldırmaq istədiyi zaman sona çatdırar və Allahın istədiyi qədər davam edən "şiddətli bir məliklik" idarəsi gələr... Sonra onu sona çatdırmaq istədiyi zaman aradan qaldırar. Sonra "zorba (diktator, zülmkar) bir idarə" gələr. Sonra da "peyğəmbərlik yolu ilə bir xilafət" gələr.*** *(Rumuz El-Ahadis, 257 (Nesei - Ebu Davud Tayalisi)*

***Təbərani Kəbirin də.. Peyğəmbər (s.ə.v.)-in belə buyurduğunu rəvayət etdi:***

***Məndən sonra xəlifələr olar. Xəlifələrdən sonra əmirlər, əmirlərdən sonra zalım məliklər gələr. Son olaraq da Əhli-beytimdən biri çıxar.*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, 84)*

Peyğəmbərimiz (s.ə.v.)-dən sonra Mehdi (ə.s.)-ın xəlifəliyinə kimi olan rəhbərliklər belə sıralanmışdır.

1. Xəlifəlik dövrü.

2. Məliklik-sultanlıq-padşahlıq dövrü.

3.Zorba (yəni diktator rejimli) bir idarəçilik dövrü.

İslam tarixində Rəsulullah (s.ə.v) -in vəfatından sonra rəhbərlik xəlifələrə keçmişdir. Sıra ilə hz. Əbubəkr, Ömər, Osman, Əli (r.ə.) əfəndilərimiz cəmi 30 il xəlifəlik mövqeyində qalmışdılar.

Sonra sıra ilə Əməvilər, Abbasilər Osmanlı Dövləti başa keçmiş, bunlarla məliklik, sultanlıq, padşahlıq dövrü başlamışdır. Ən uzun müddət davam edən dövr də bu dövr olmuşdur. Həqiqətən, hədisdəki verilən xəbərə əsasən bunlar eynilə təsdiqlənmişdir. Bunlardan sonra isə zorba bir idarənin hakimiyyətə keçəcəyi bildirilmişdir. Bu gün bu zorba rəhbərlik, bir çox "İslami" dövlətdə özünü göstərir. Bu rəhbərliklər İslamın əsaslarına qarşı çıxır, müsəlmanlara zərər verirlər.

Bütün bunların ardınca hakimiyyətə hz. Mehdinin başında olduğu xəlifəlik rəhbərliyi keçəcək.

# MEHDİNİN XƏLİFƏ OLMAYAN BİR DÖVRDƏ GƏLMƏSİ

***Dünyada adı keçəcək bir xəlifə qalmayınca Mehdi çıxmayacaq.*** *(El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, 54 )*

***Onun çıxacağı il insanlar həccə başlarında bir əmir olmadan gedəcəklər.*** *(Kiyamet Alametleri, 168437)*

Mehdi (ə.s.)-ın zühur edəcəyi dövrdə İslam ümmətinin başında bir xəlifə (başçı) olmayacağı bildirilmişdir. Hicri 1300-cü il tarixinə kimi müsəlmanların başında bir xəlifə olmuşdu, lakin sonra bu müəssisə ləğv olundu. Mehdi (ə.s.) hədisin təsvir etdiyi belə bir dövrdən sonra çıxacaq.

# MEHDİNİN MÜXTƏLİF XÜSUSİYYƏTLƏRİ

# CƏNNƏTLƏ MÜJDƏLƏMƏSİ

***...Ənəs ibn Malik (r.ə)-dən, belə rəvayət olunur: Mən Rəsulullah (s.ə.v)- dən eşitdim ki, biz Əbdülmuttalibin uşaqları cənnət xalqının böyükləriyik. Mən, Həmzə, Əli, Cəfər, Həsən, Hüseyn və ...****(Mehdi Sünen-i İbni Mace, 10/349)*

## ZAMANIN ƏN XEYİRLİSİ OLMASI

***İbni Cərir, Tehzibil Asar da belə rəvayət etdi: Məhəmməd ümmətinin ən xeyirlisi və sizin çətinliklərinizi aradan qaldıran vəliniz olan insana qatılın.. O, Mehdidir.*** (Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, 57 )

***Dövründə yer üzünün ən xeyirlisi Mehdi özü olacaq.*** (əl-Kavlul Müxtəsər Fi Əlamət-el Mehdiyy-il Muntazar, 27)

***Naim ibn Hammad Kabdan rəvayət etdi, buyurdu ki:***

***Mehdi (zamanındakı) insanların ən xeyirlisidir.*** (Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axır Zaman, 58)

# ADININ PEYĞƏMBƏRLƏRƏ GƏLƏN KİTABLARDA KEÇMƏSİ

***Naim buyurdu ki: Mən Mehdini peyğəmbərlərin suhufunda (səhifələrində) belə görərdim: "Mehdinin əməlində nə zülm, nə də ayıb yoxdur".*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, 21)*

***Peyğəmbərlərə aid olan kitablarda "Mehdinin işi zülm və pislik deyil" şəklində işarə edilmişdir.*** *(El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, 27)*

***Naim ibn Hammad, Kabın belə buyurduğunu rəvayət etdi: Mehdi (dövründəki) insanların ən xeyirlisidir.*** *( Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, 58)*

***İbn Münavi "Danyel (ə.s )-ın kitabında belə buyurduğunu deyir: "Süfyanlar 3 nəfərdir, Mehdilər də 3 nəfərdir. 1-ci Süfyan çıxanda və adı-sanı yayıldığı zaman ona qarşı 1-ci Mehdi çıxacaq, 2-ci Süfyana qarşı 2-ci Mehdi, 3-cü Süfyana qarşı hz. Məhəmməd Mehdi (3-cü Mehdi) çıxacaq və Allah Təala əvvəllər fəsada uğrayanları və iman əhlini onun vəsiləsi ilə qurtaracaq. Sünnələr onun vəsiləsi ilə canlandırılacaq, bidət (yalan) ataşləri də onun vasitəsi ilə sönəcək. Onun zamanında insanlar əziz olacaq və öz müxaliflərinə qalib gələcəklər. Gözəl bir həyat yaşayacaqlar, yer və göy bərəkətini artıracaq, bu vəziyyət 7 il davam etdikdən sonra Mehdi vəfat edəcək. (*)***

((*)Bu hədis "*Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman*" adlı kitabın Süleymaniyə Kitabxanasında olan əl yazılı bir nüsxəsində mövcuddur.

Peyğəmbərimiz (s.ə.v) səhabələrinin (r.ə) Tövrat və İncildə müjdələndikləri kimi, Mehdi (ə.s) da digər peyğəmbərlərə endirilmiş kitablarda müjdələnmişdir, ondan təriflə bəhs edilmişdir.

## GÖZƏL ƏXLAQLI OLMASI

***Mehdi Allaha qarşı olduqca itaətkar olar. Əxlaq cəhətdən peyğəmbərə oxşayar.*** *(Kıyamet Alametleri, səh.163)*

***İbni Məsudun rəvayətində, Rəsulullah belə buyurdu: Əxlaqı mənim əxlaqım olan bir övladım çıxacaq.*** (*Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman,21* )

İşarəvi (mütəşabeh) mənada ayələr:

**(Ya Rəsulum!) Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər sən kobud və daş ürəkli və sərt olsaydın, onlar hökmən sənin ətrafından dağılışardılar...(Ali-İmran surəsi, 159)**

**Şübhəsiz, sən çox böyük əxlaq sahibisən. (Qələm surəsi, 4).**

## HZ. MEHDİNİN HƏR KƏS TƏRƏFİNDƏN ÇOX SEVİLMƏSİ

***Allah (c. c.) bütün insanların ürəklərini onun məhəbbəti ilə, sevgisi ilə dolduracaq.*** *(El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, 42 )*

***Ümmətin, Məhəmməddən (hz.Mehdi ə.s -dan) məmnun qalmayacaq heç bir fərdi olmayacaq.*** *(Kıyamet Alametleri, 163)*

***Mehdi zühur edər, hər kəs yalnız ondan danışar, onun sevgisini hiss edərlər və ondan başqa heç bir şey haqqında danışmazlar.*** (*Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, 33)*

***Onun xilafətindən (idarəçiliyindən) yer və göy əhli, hətta havadakı quşlar belə razı olacaq.*** *(El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, 29 )*

# MÜBARİZ OLMASI

***Mehdi işi möhkəm tutacaq (yəni tutduğu yoldan əl çəkməyəcək).*** *(Kıyamet Alametleri , 175 )*

***İnsanlar haqqa dönənə qədər mübarizəsinə davam edəcək.*** *(El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, 23)*

***Fitnələrin qarşısını almaq onun üçün çətin olmayacaq və öldürüdüyünü bilsə belə bu yoldan dönməyəcək , Əhli-Beytimə mənsub olan biri (Mehdi) sahib olmadan günlər gecələr bitməyəcək.*** *(Kitabül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, 12 )*

***Mehdi hesabını çox ardıcıl bir şəkildə görəcək və vədindən dönməyəcək.*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, 24 )*

***Mehdi Şərq tərəfdən çıxacaq. Qarşısına dağlar da çıxsa, onları əzib keçəcək, o dağlarda belə özünə yol tapacaq.*** *(El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, 39)*

Bu mövzuya işarə edən ayələr:

**Sənə əmr olunanı (Quranı) açıq-aşkar təbliğ et və müşriklərdən üz döndər! (Hicr surəsi, 94)**

**Kafirlərə itaət etmə və onlara qarşı (Quranla) böyük bir cihad et! (Var gücünlə vuruş!) (Furkan surəsi, 52)**

**Yaralandıqdan sonra Allahın və Peyğəmbərin dəvətini qəbul etmiş şəxslərdən yaxşı işlər görüb pis işlərdən çəkinənləri böyük bir mükafat gözləyir! (Ali-İmran surəsi, 172)**

# MEHDİNİN İRŞADI (TƏBLİĞ GÜCÜ)

***Hz. Mehdi quru bir ağacı əkəndə də ağaç dərhal yaşıllanıb yarpaqlanacaq.*** *(El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, 43)*

***O,(Mehdi) quru bir qamış ağacını quru bir yerə əkəcək, dərhal yaşıllanıb yarpaqlanacaq.*** *(Kıyamet Alametleri, 165)*

***Mehdi bir yerə quru bir budağı əkər və budaq yarpaqlanıb yaşıllanar.*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, 67)*

Ayələrin şərhi belədir:

Burada hz. Mehdi (ə.s)-ın quru bir ağaca bənzədilən bir insanı yönəltməyi ilə və onu irşad etməyi ilə (doğru yolu göstərməyi ilə) əvvəllər quru bir ağac kimi ətrafına faydasız olan insanın, yaşıllanmış və bar vermiş bir ağac kimi ətrafına, yəni dininə və bütün insanlara faydalı hala gətirəcəyinə işarə edilmişdir. (Allahu aləm)

Aşağıdakı hədisi-şərifdə də bənzər bir şəkildə əvvəllər cahil, xəsis və qorxaq olan bir insanın, Axırzamanın böyük mürşidinin irşad və tədrisi ilə məlumatlı, comərd və cəsur bir hala gələcəyinə, sanki əvvəllər quru və faydasız olan bir ağacın sonradan yaşıllaşıb yarpaq verməyi kimi şəxsiyyətini dəyişdirəcəyinə işarə edilmişdir. (Allahu aləm)

***Dövründə (yəni hz.Mehdi (ə.s)-ın dövründə) cahil, xəsis və qorxaq olan bir adam dərhal alim, comərd və cəsur olacaq.*** *(Kıyamet Alametleri, 186)*

İmam Rəbbani həzrətləri də irşada başlayanda (təbliğin başlanğıcında) özünə verilən gücü eyni təşbehlə ifadə edir.

***Allah Təala hidayət işində mənə böyük bir güc verdi. (Bu) o qədər (böyük bir güc idi, təbliğ etmək bacarığı idi) ki, quru bir ağaca təvəccöh (təbliğ etsəydim, yönəlsəydim) etsəydim, o quru ağac dərhal cücərərdi.*** (Mektubat-i Rabbani, 1/18)

İşarə edən ayələr:

**(İnsanları) Rəbbinin yoluna (İslama) hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et. Şübhəsiz ki, Rəbbin azğınlığa düşənləri də, doğru yolda olanları da yaxşı tanıyır! (Nəhl surəsi, 125)**

**Bir zaman Biz İsrail oğulları ilə: "Allahdan qeyrisinə ibadət etməyəcək, valideynlərə, qohum-əqrəbaya, yetimlərə və kasıblara xeyirxahlıq edəcək, insanlara xoş söz deyəcək, namaz qılacaq və zəkat verəcəksiniz!"- (deyə) əhd bağladıq. Sonra az bir qisminiz istisna olmaqla, (haqdan) üz çevirib döndünüz və hələ də üz döndərirsiniz (Bəqərə surəsi, 83)**

**İkiniz Fironun yanına gedin. O (Allahlıq iddiasına düşməklə) həqiqətən də azğınlaşıb həddini aşmışdır. Onunla yumşaq danışın. Bəlkə öyüd-nəsihət qəbul etsin, yaxud (Rəbbindən) qorxsun!" (Taha surəsi, 43-44)**

# VƏHBİ ELMİ

***Kabdan belə rəvayət edildi: O (Mehdi) heç kimin bilmədiyi gizli bir gücə sahib olduğuna görə ona Mehdi deyilmişdir.*** *(Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman)*

Bunun şərhi belədir:

Bütün zahiri elmlər, istənilən vaxt hər kəs tərəfindən oxuyaraq, araşdırılaraq öyrənilə bilər. Bir də çalışılaraq əldə edilə bilməyən, ancaq hz. Allahın bir lütfü olan və onu istədiyi quluna verdiyi "Vəhbi" elm vardır. Yuxarıdakı rəvayətdə də "heç kimin bilmədiyi" yalnız, Mehdinin belə bir elmə sahib olacağı bildirilmişdir. (Allahu aləm)

Bu elm "Ledün elmi" də ola bilər. Kəhf surəsində hz. Musa (ə.s.) ilə adı bildirilməyən mübarək bir şəxs arasında keçən hekayədə, buna bənzər bir elmdən bəhs edilir. (Rəvayətlərdə bu şəxsin adı hz. Xızır (ə.s.) olaraq verilir.)

**Onlar orada Öz tərəfimizdən mərhəmət bəxş etdiyimiz və elm öyrətdiyimiz (ledun elmi) qullarımızdan birinə rast gəldilər. (Kəhf surəsi, 65)**

**Musa ona dedi: "Sənə öyrədilmiş doğru yolu göstərən elmdən mənə öyrətmək şərtilə sənin arxanca gələ bilərəmmi?" (Kəhf surəsi, 66)**

**Xızır dedi: "Doğrusu, sən mənim yanımda səbir edə bilməzsən. (Kəhf surəsi, 67)**

**Axı sən səbəbini bilmədiyin bir şeyə necə səbir edə bilərsən?" (Kəhf surəsi, 68)**

**Musa dedi: "İnşaAllah, səbirli olduğumu görəcəksən. Sənin heç bir əmrindən çıxmayacağam". (Kəhf surəsi, 69)**

**Xızır dedi: "Əgər mənə tabe olacaqsansa, özüm sənə bir xəbər bildirməyincə məndən heç bir şey haqqında soruşma". (Kəhf surəsi, 70)**

***Ledün - qəribə bir elm adıdır. Ona vəqf olan (bu elmdən xəbəri olan) şəxs, sirləri Allahın icazə verdiyi qədər kəşf edəcəyi kimi, müxtəlif ilahi sirlərdən də xəbəri olar.*** *(TÜR-DAV, Böyük Lüğət , 558)*

Bu hekayədə hz. Musa (ə.s)-ın birlikdə yaşadığı üç hadisədən bəhs edilir. Hz. Musa, bu elmi bilmədiyinə görə Xızır (ə.s)-ın ilk baxışda səhv və qəribə kimi görünən üç davranışına etiraz edərək ona qarşı çıxır. Lakin ayrılacaqları vaxt Xızır (ə.s.)-dan etdiklərinin mənasını öyrəndikdə (Kəhf surəsi-78-82 ayələr) etirazlarında tələsik davrandığını anlayaraq, ona haqq verir.

Bu hekayənin Kəhf surəsində izah edilməsi çox məna kəsb edir. Çünki bu surədə izah edilən digər iki hekayənin (Əshabi-Kəhf və Zülqərneyn haqqında hekayələrdə) Mehdi ilə əlaqədar işarələr var və Peyğəmbərimiz (s.ə.v) bu işarələrə

müxtəlif hədisləri ilə diqqət çəkmişdir. Musa (ə.s.) və Xızır (ə.s) hekayəsinin xüsusilə bu surədə verilməsi, aralarında keçən hadisələrin yuxarıdakı hədislərdə olduğu kimi Mehdi ilə əlaqədar ola biləcəyinə, həm də Xızır (ə.s)-ın elminin Mehdidə də ola biləcəyinə işarədir.

Muhyiddin Ərəbi aşağıdakı izahında Mehdinin 9 xüsusiyyətini sadalayaraq bildirmişdir. Əgər diqqət yetirilsə, bunların heç birinin nəql elminə aid olmadığını, daha çox hikmət, anlayış, ledün kimi vəhbi elmə aid xüsusiyyətlər olduğunu görərik.

*1. Bəsirət sahibi olması*

*2. İlahi kitabı anlaması*

*3. İlahi kəlamın mənasını bilməsi*

*4. Təyin edəcəyi kəslərin hal və hərəkətlərini bilməsi*

*5. Hirslənəndə belə mərhəmət və ədalətdən ayrılmaması*

*6. Varlıqların siniflərini bilməsi*

*7. İşlərin dolaşıq tərəflərini bilməsi*

*Çünki bunlardan xəbəri olan bir lider verəcəyi hökmlərdə səhvə yol verməz. Mehdi müqayisə elmini onunla hökm etmək üçün deyil, ondan uzaqlaşmaq üçün bilər. Çünki verdiyi hökm doğru bir ilham nəticəsində olacaq. Yəni Məhəmməd (s.ə.v)-in gətirdiyi şəriət üzrə hökm verəcək. Çünki Peyğəmbər (s.ə.v) onu vəsf edərkən (onun haqqında məlumat verərkən) "Mənim izimi izləyəcək, səhvə yol verməyəcək" demişdir. Bundan anlayırıq ki, Mehdi şəriət sahibi deyil şəriətə tabe olmayacaq.*

*8. İnsanların ehtiyacını yaxşı bilməsi*

*Çünki onların hər cür işlərini görmək üçün Allah onu digər insanların üzərinə seçmişdir. Liderlərin davranış və fəaliyyətləri də özlərindən çox xalqın mənfəətinə görə olmalıdır..*

***9. Xüsusilə, öz zamanında ehtiyac hiss edilən qeybi elmlərdən xəbərdar olması. Çünki ancaq bunun sayəsində yeni zühur ediləcək məsələləri (gələcəkdə baş verəcək hadisələri) həll edə bilər.*** *(Kıyamet Alametleri, 189 )*

Mehdinin vəhbi elmə aid bir başqa xüsusiyyəti də əbcəd hesabını (ərəb hərfləri üzrə hesablama) və ona aid sirləri bilməsidir.

# CİFR (ƏBCƏD) ELMİNİN BİLİNMƏSİ

Taşköprülüzadə Əhməd Əfəndi "Mevzuatul-Ulum" adlı əsərində (11/246) Mehdinin cifr (rəqəm və hərflərlə hesablama) elmini biləcəyini bildirmişdir:

***Bəziləri dedilər ki, bu kitabı kamalı vüquf (anlayan, qavrayan) Axırzamanda hurucu muntazar (Axırzamanda çıxışı gözlənilən) hz. Mehdinin çıxışına aiddir ki, onlar cifr elmini bilən və sirlərinə arif olarlar. Kitabı-ənbiyanı salifedən də bu elm varid olmuşdur (yəni bu elmi peyğəmbərlərdə də bilmiş və bu onlardan keçmişdir).*** *(Mehdilik və İmamıya , 252)*

# İSLAH EDİLMƏSİ

***Hz. Əlinin rəvayətinə görə Rəsulullah (s.ə.v) belə buyurdu:***

***Mehdi bizdən, Əhli-Beytdəndir. Allah onu bir gecədə islah edər (yəni tövbəsini qəbul edər və ya feyzlər (elmindən) və hikmətlərlə təchiz edər.)*** *(Sünen-i İbni Mace, 10/348)*

***Naim, Əbu Səid-əl Hudridən rəvayət edərək, Peyğəmbər (s.ə.v)-in belə buyurduğunu dedi:***

***Allah Mehdini bir gecədə islah edər. (Yetkinləşdirər).*** *( Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman,54/19 )*

***Əbu Nuaymın rəvayətində Rəsulu Əkrəm (s.ə.v) belə buyurmuşdur:***

***Ey Əhli-Beyt! Mehdi bizdəndir. Əziz və Cəlil olan Allah onu bir gecədə islah və irşad (doğru olan yolu göstərəcək) edəcək.*** (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, 437)

İşarə edən ayə:

Səni yol bilməz ikən düzgün yola yönəldib çatdırmadımı? (Duha surəsi, 7)

# PEYĞƏMBƏRLİK YOLUNDA OLMASI

*Hz. Hüzeyfədən belə rəvayət edilmişdir:*

***Aranızda "peyğəmbərlik" Allahın istədiyi qədər davam edər, sonra onu ortadan qaldırmaq istədiyi zaman qaldırar və sonra Allahın arzu etdiyi qədər davam edən "şiddətli bir məliklik" idarəsi (hakimiyyəti) gələr. Sonra onu ortadan qaldırmaq istədiyi zaman qaldırar. Sonra zorba bir idarə gələr. Ondan sonra da, "peyğəmbərlik yolu üzrə bir xilafət" gələr.*** *(Ramuz El-Ehadis, 1/257 (Ebu Davud "Tayalisi" -Ahmet ibn Hanbel "Müsned"inden)*

***İsa əleyhissalam və Mehdi aleyhirridvan isə birinci yolda qovuşacaqlar. Birinci yolu peyğəmbərliyə yaxındır. Burada bir vasitəcilik rəftarı yoxdur. Hər kəs bu yolla gedərsə, onun üçün arada bir pərdə və bir vasitə yoxdur. Hətta o, feyzləri və bərəkətləri hər hansı birinin vasitəçiliyi olmadan alar. Çünki maneə və vasitəçi ancaq digər yoldadır. Bu yerin rəftarı isə, digərlərindən fərqlidir.*** *(Mektubat-i Rabbani, 534 Mektup, 2/763-76)*

***Sual: Mücəddid üçün belə necə deyilə bilər? Çünki hz. İsa göydən enəcək və mücəddid olacaq. Hz.Mehdi də çıxacaq və mücəddid olacaq. Bunların, verəcəkləri bolluqları və bərəkətləri hər hansı bir kəsin vasitəsi olmadan olacaq. Çünki vasitəçi və pərdə ancaq digər yoldadır. Bu yerin rəftarı isə digərindən fərqlidir.***

***Cavab: Bolluğa çatmaq üçün vasitəçi olmaq, yuxarıda bildirdiyimiz iki yoldan yalnız ikincisindədir. Birinci yolda, yəni (peyğəmbərliyə yaxınlıq) deyilən yolda, bolluq və hidayət, vasitə ilə gəlməz. Bu yolda yüksələn, arada vasitə olmadan nazil olar. Kimsə vasitəçilik olmadan bolluqlara və bərəkətlərə qovuşmaz. Vasitə olmaq və pərdə olmaq (Kurbu vilayət) yoldadır. Bu iki yolu bir-birinə qarışdırmaq olmaz. Həzrəti İsa (ə.s) və həzrəti Mehdi (ə.s) isə peyğəmbərlik yolu ilə nail olarlar. Seyhayn, yəni həzrəti Əbu Bəkr ilə həzrəti Ömər (r.ə) də peyğəmbərlik yolu ilə qovuşmuşdular. Rəsulullah (s.ə.v)-in himayəsi altında idilər. Şanları çox ucadır.*** *(Saadet-i Ebediye H.Hilmi Isik, 836 (Mektubat-i Rabbani'den 123.Mektup) )*

Nübüvvət "nəbi" kökündən gəlir, peyğəmbərlərin, Allahın əmri ilə vəzifəli olaraq insanları doğru yola dəvət etmələri ilə əlaqədar vəzifələrini təsvir edir.

Allah istədiyi quluna peyğəmbərlik vəzifəsi verər. Peyğəmbərliyə çalışmaqla və istəməklə nail olmaq olmaz. Mehdilik vəzifəsi də, eyni şəkildə, Allahın diləməsi ilə onun istədiyi şəxsə verilər. Mehdi bu mövqeyinə öz səyi ilə gəlməyəcək. Vəlayət

mövqeyinə çatmaq üçün səy və cəhd etmək lazımdır, amma peyğəmbər olmaq üçün belə bir şərt yoxdur, burada əsas şey seçilmiş olmaqdır.

Peyğəmbərlik yolunun vəlayət (vəlilik) yolundan digər fərqləri:

1. Bu yolda hidayətlər, (nemətlər) arada hər hansı bir vasitə (mürşid) olmadan birbaşa onlara verilər.

2. Nübuvvət yolu peyğəmbərlərin yoludur, onların təbliğ metodu və mübarizə tərzi bu söz ilə ifadə edilir. Mehdi də bu yolda olacağına görə onun mübarizə tərzi də eynilə peyğəmbərlərdəki kimi olacaq.

3. Peyğəmbərlik yolunda, ümumiyyətlə, özünəqapanıq bir quruluş mövcuddur. Təriqətlər bu qrupa daxil olarlar. Bu təriqətlərə bağlı olanların əsas işi öz nəfslərini islah etməkdir. Peyğəmbərlik yolu isə peyğəmbər yolu olduğuna görə daim mübarizə və təbliğ ilə, yəni bütün insanlara istiqamətlənmiş ictimai bir quruluşla qarşımıza çıxar.

## ƏZİYYƏT VƏ ÇƏTİNLİKLƏRLƏ QARŞILAŞMASI

***Mehdi bizdən, Əhli-Beytdəndir.***

***...Abdullah ibn Məsud (r.ə)-dən Rəsulullah (s.ə.v)-in belə buyurduğu rəvayət olunur:***

***...Biz elə bir ev xalqıyıq ki, Allah bizim üçün axirəti dünyadan üstün tutmuşdur. Mənim Əhli-Beytim, şübhəsiz, məndən sonra bəla, qaçırılma və sürgünə uğrayacaq. Məndən sonra Əhli-Beytim bəla və əziyyətlərlə qarşılaşacaqlar və zərbələrə məruz qalacaqlar.*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, 14 )*

Bütün peyğəmbərlər (ə.s) və övliyalar (r.ə) Allah Təalanın göndərdiyi dini, təbliğ etmək və yaymağa görə insanlar tərəfindən başa düşülməmiş, onların müxtəlif ittiham və böhtanlarına məruz qalmışlar.

Allahu aləm, Əhli-Beytdən gələcək hz. Mehdi (ə.s.) də bu cür əziyyət və çətinliklərlə qarşılaşacaq. Peyğəmbərimizin aşağıdakı hədisi belə bir vəziyyəti "Mehdinin beyət əsnasında (insanların onu qəbul etdiyi zaman) özünün bir çox əziyyətlərə və haqsızlığa uğradığını insanlara açıqlayacağını" xəbər vermişdir.

***Naim ibn Hammad hz. Əli (r.ə)-dən belə rəvayət etmişdir:***

***...Mehdi Rəsulullahın bayrağı ilə insanların başlarına bəla üstündən bəla yağdığı və çıxışından ümid kəsildiyi bir vaxtda çıxar. İki rükət namaz qılar. Namazdan dönəndə belə deyər: "Ey insanlar! Məhəmməd ümməti və xüsusilə, onun Əhli-Beyti çox bəlalar gördü və bizlər əziyyət və haqsızlığa məruz qaldıq".*** *( Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, 55 )*

***Rəsulullah (s.ə.v) belə buyurmuşdur:***

*- Dinində güclü olanın başına gələcək bəlalar da böyük olar. (1)*

***-Haqq Təala bir qulunu sevər və ya özünə yaxınlaşdırmaq istəsə, ona bəla və müsibətləri ard-arda göndərər. (2)***

***-Haqq Təala kiməsə bir xeyir diləsə, ona bəla və müsibət verər (3)*** *(1) Ibn Hibban (2) Ibn Ebi'd Dünya (3) Imam Malik ve Buhari)*

Aşağıdakı hədisi-şərifdə də İstanbulu fəth edəcək hz. Mehdi (ə.s) və köməkçilərinin də fəthdən əvvəlki dövrdə xəstəliklərə, çətinliklərə, kədərə düçar olacaqları sonra isə bu çətinliyin ortadan qaldırılacağı bildirilmişdir.

***Allah Konstantinopolu (İstanbulu) çox sevdiyi dostlarının əhlinə fəth edəcək... Onlardan xəstəliyi və kədəri qaldıracaq*** *(Kıyamet Alametleri, 181 )*

Allah Təala Qurani-Kərimdə bir çox peyğəmbərin yalanlanmaq, dəlilik və cadugərlikdə günahlandırmalar, xəstəlik, haqsız yerə zindana atılmaları və s. kimi müxtəlif çətinliklərlə və əziyyətlərlə qarşılaşacaqlarını, lakin bütün bunlara səbir etməli olduqlarını xəbər vermişdir.

İşarə edən ayələr:

**Səndən əvvəlki elçiləri də yalançı saymışdılar. Lakin Bizim köməyimiz onlara gələnədək yalançı sayılmalarına və onlara əziyyət verilməsinə səbir etdilər (dözdülər)....(Ənam surəsi, 34).**

**Onlar ondan üz çevirib: "Öyrədilmiş bir dəlidir!"- dedilər. (Duxan surəsi, 14)**

**Beləcə, onlardan əvvəlkilərə də elə bir elçi gəlmədi ki, onun barəsində: "Sehrbazdır, ya da dəlidir!" - deməsinlər. (Zariyət surəsi, 52)**

**Bu ancaq cinli bir adamdır. Odur ki, ona münasibətdə bir müddət gözləyin!" (Muminun surəsi, 25)**

**Firon dedi: "Əgər məndən başqasına sitayiş etsən, səni məhbusların yanına ataram!" (Şuəra surəsi, 29)**

**Ey iman gətirənlər! Musanı incidən şəxslərə oxşamayın. Allah onu onların dediklərindən təmizə çıxartdı. O, Allahın yanında çox ehtiram edilən şəxsdir. (Əhzab surəsi, 69)**

**Onlar dedilər: "Bunun (İbrahim) üçün bir bina tikin, (içərisini odunla doldurub) özünü də oda atın!" (Saffat surəsi, 97)**

**Həqiqətən, kafirlər Quranı eşitdikləri zaman (sənə olan həsədlərindən və qəzəblərindən dolayı) az qala səni gözləri ilə yesinlər. Onlar (sənin barəndə): "O divanədir!" - deyirlər. (Qələm surəsi, 51)**

**Elçilərdən möhkəm iradə sahiblərinin səbir etdiyi kimi, sən də səbir et! Onlara əzabın tez gəlməsini istəmə. Onlar vəd olunduğunu görəcəkləri gün gündüzün bircə saatı qədər qaldıqlarını sanacaqlar. Bu, bir təbliğatdır. Heç fasiq adamlardan başqası məhv edilərmi? (Əhqaf surəsi, 35)**

# MÜŞAHİDƏ OLUNMASI–İZLƏNİLMƏSİ

***Əbu Səid əl-Hudri (r.ə)-nin rəvayətində Rəsulullah (s.ə.v)-in belə buyurduğu nəql olunur:***

***Dəccal çıxanda ona qarşı möminlərdən bir adam (Mehdi) çıxar, o möminə bir çox silahlılar, Dəccalın mərkəzlərdə müşahidə edən silahlıları qarşı çıxarlar.*** *(Mehdilik ve Imamiye 37, (Sahih-i Müslim, 11/393'den nakil))*

Qeyd: Bu hədis uzun bir hədisdir, bütövlükdə sonrakı səhifələrdə izah ediləcək.

Hədisin başlanğıcında Mehdinin Dəccalın silahlı adamları tərəfindən müşahidə olunduğu və izlənildiyi bildirilir. Əvvəlki dövrlərdə də tövhid (Allahın birliyini tanımaq) mübarizəsində olmuş bəzi peyğəmbərlərin də buna oxşar hallarda izlənildiyini, beləliklə, nəzarətdə saxlanılmaq istənildiyini Qurani-Kərimdən öyrənirik.

**Bu adamda sadəcə olaraq bir dəlilik var. Hələ bir müddət gözləyin (müşahidə edin)!" (Muminun surəsi, 25)**

"Mehdilik və İmamiyə" adlı araşdırmanın sahibi bu hədis haqqında növbəti şərhlər etmişdir.

Əbu İshak və Mamer kimi rəvayətçilər bu şəxsin hz.Xızır (ə.s.)-ın olduğunu desələr də, biz hz. Mehdi (ə.s)-ın olduğunu düşünürük. Hədisi-şərifin (qara və sibaki) əvvəli də, sonu da, bunu göstərir. Hədisi-şərifin əvvəlində dəccalın, mərkəzdə müşahidə edən silahlı əsgərlərindən bəhs edilir. Buradan dəccalın böyük bir orduya və ya hökumət gücünə sahib olacağını anlayırıq. Ona qarşı çıxan Mehdiyə gücünü göstərərək əziyyət vermək və təsirsiz hala gətirməyə çalışır. Hədisi-şərifin ifadəsinə görə artıq o şəxsin kürəyi və qarnını döyə-döyə genişləndirdilər. Yəni dayanmadan

ətrafa elan vurulub yayılır. Bu vaxt Mehdini təsirsizləşdirdiyini zənn edən Dəccal qarşısında Mehdinin ordusunun qüvvətlə gəlişini görər. Artıq Dəccal Mehdini məhkum edə bilmir, bu vəziyyət hədisi-şərifdə belə bildirilir:

***"Ey insanlar şübhəsiz ki, artıq Dəccal mənə etdiyi bu işləri insanlardan daha heç bir kimsəyə edə bilməyəcək. Elə bu zaman o möminin boynu ilə körpücük sümüyü arası bir mis lövhə halına gələr, artıq Dəccal onun boynunu vurmaq üçün heç bir yol tapa bilməz".***

Bu son ifadələr diqqəti çox cəlb edir. Boyun ilə körpücük sümüyünə gəldikdə isə, hamımız bilirik ki, edam ediləcək adamın cinayətləri bir kağıza yazılıb boynuna asılar. Bu vəziyyət hədisdə bu hissə mis lövhə halına çevrildiyinə görə Dəccal Mehdiyə artıq qılınc keçirə bilmir (ona heç bir xətər yetirə bilmir *(Mehdilik ve Imamiye 39)*

# DƏCCALIN MEHDİYƏ ƏZİYYƏT VERMƏYƏ ÇALIŞMASI

***Əbu Səid əl-Hudri (r.ə)-nin rəvayətində Rəsulullah (s.ə.v) belə buyurur: Dəccal çıxanda ona qarşı (onun əleyhinə) möminlərdən bir adam (Mehdi) çıxar. O mömინə bir çox silahlılar— Dəccalın mərkəzlərini qoruyan silahlıları qarşı çıxarlar və ondan: "Hara getməyi nəzərdə tutursan?" deyə soruşarlar. O da:" Bu çıxan kəsə (yəni Dəccala) qarşı getməyi nəzərdə tuturam" deyər. Dəccalın tərəfdarları ona: "Sən bizim Rəbbimizə inanmırsan?" deyərlər. O da: "Bizim Rəbbimizdə, heç bir gizlilik yoxdur" deyər. Onlar da: "Bunu öldürün", deyərlər. Bu sözdən sonra tərəfdarların bir qismi digərlərinə: "Sizin Rəbbiniz öz icazəsi olmadan bir kimsəni öldürməkdən sizləri məhrum etmişdir, elə deyilmi?" Ardınca o şəxsi Dəccalın yanına apararlar...*** *(Mehdilik və Imamiyə 37)*

Dəccal öz fikrinə qarşı çıxan Mehdini öldürmək istəməz, ona çətinlik verər, əziyyət verər. Əvvəl onu insanların gözündə qaralayaraq təsirsiz hala gətirməyə çalışar, müvəffəqiyyətsiz olduğunu gördükdə isə bu səfər onu insanlardan ayıraraq uzaqlaşdırar, hədisin ifadəsiylə desək "firladıb atar".

***"Mehdilik və İmamiyə"-ni yazan izahına belə davam edir:***

***Həmçinin də onu (Mehdi ə.s -ı) zindanlarına atmaqla bir atəş içinə atdığını zənn edər. Halbuki, onu cənnətə atmışdır. Çünki mömin cəhənnəmdə olsa belə, könlü cənnətdədir. Müslimi-Şərifin tərcüməçisi Məmməd Sofuoğlu buradakı cənnətin dünya bağçalarından bir bağça olduğunu söyləyir. Buradan da aydın olur ki, Dəccal***

***Mehdini (heç kimi olmadığı yerlərə) (izsiz) atacaq, amma onun atdığı yerlər bağlıq yerlər olacaq.*** *(Mehdilik ve Imamiye 40)*

# HAQQINDA MƏNFİ TƏBLİĞATIN APARILMASI

***Mömin şəxs (Mehdi) Dəccalı görəndə:***

***Ey insanlar! Rəsulullahın zikr etdiyi Dəccal bax budur, deyər. Dəccal dərhal onunla əlaqədar əmrini verər, o şəxs qarnı üzərinə uzadılar və ardından: "Onu tutun və yaralayın!" deyər. Artıq o şəxsin kürəyi və qarnı döyə-döyə genişlədilər. Bu səfər onu iki əli və iki ayağı ilə yaxalayar və firladıb atar. İnsanlar Dəccalın onu bir atəş içinə atdığını düşünərlər. Halbuki , o bir cənnət içinə atılmışdır.*** *(Mehdilik ve Imamiye 40)*

Hədisdə Mehdinin "kürəyi və qarnından döyülə-döyülə genişləndirilməsi" təşbehli olaraq (bənzətmə edilərək) deyilmişdir. "Mehdilik və İmamiyə" kitabının müəllifi bununla əlaqədar belə izah verir: "Mehdinin şanı (şayiələr) dayanmadan ətrafa yayılar" deməkdir. Lakin bunu Dəccal tərəfdarları edəcəyi üçün bu təbliğatın Mehdini pisləmə şəklində olacağını söyləyə bilərik.

Peyğəmbərimiz dövründə İslam düşmənləri onu pisləmək üçün o dövrün nəşr orqanı sayılan şairlərdən istifadə edirdi. Şairlər dükanlarda, bazarlarda peyğəmbərin ünvanına müxtəlif təhqirlər edir, ona "dəli", "cadugər", "kahin" deyirdilər. İndi də İslam düşməni olan Dəccal tərəfdarları yazılı və şifahi nəşr vasitələri ilə Mehdini pisləyəcəklər, xalqın nəzərində etibarını qırmağa çalışacaqlar. (Allahu aləm)

Hədislərdə Mehdinin başlanğıc illərinin əziyyət və çətinliklərlə dolu mübarizə illəri olduğunu gördük. "Qızıl Dövr" olaraq bəhs etdiyimiz dövr isə Mehdinin xəlifə olacağı son dövrlərinə aiddir. Mehdi və müsəlmanlar ancaq bu dövrdə rahatlığa, bolluğa, hüzura qovuşacaqlar və sevgiyə, sülhə, qardaşlığa əsaslanan bir həyatı bu dövrdə yaşayacaqlar.

Buna işarə edən ayə:

**Şübhəsiz ki, axirət sənin üçün dünyadan daha xeyirlidir! Həqiqətən, Rəbbin sənə (qiyamət günü ən uca şəfaət məqamı, Cənnətdə tükənməz nemətlər bəxş edəcək və sən (Ondan) razı qalacaqsan! (Zuha surəsi, 4-5)**

# HİCRƏTİ

***O,Qüdsdə hicrət edəcək. Bu hicrətdən sonra Mədinə korlanıb vəhşilərin sığınacağı olacaq.*** (İmam Suyuti, Kıyamet Alametleri, Ölüm ve Diriliş, səh.1699, səh.174)

# SİMASI

***O, açıq alınlı, kiçik burunlu, iri gözlü, dişləri seyrək və parlaq bir adamdır. Sağ yanağında, incini xatırladan, bir ulduz kimi üzünü işıqlandıran bir işarə vardır....*** *(İmam Suyuti, Kıyamet Alametleri, Ölüm ve Diriliş, səh.1699, səh.174)*

# DANIŞIĞI

***Dilində ağırlıq vardır. Yavaş və ağır danışdığı zaman sağ əlini sol dizinə vurar. Qırx yaşındadır.*** *(İmam Suyuti, Kıyamet Alametleri, Ölüm ve Diriliş, səh.1699, səh.174)*

# MEHDİNİN FİZİKİ GÖRÜNÜŞÜ (Xüsusiyyətləri)

# SOYU (NƏSLİ)

***Hz. Əli (r.ə)-in rəvayətinə görə Rəsulullah (s.ə.v) belə buyurdu:***

***Qiyamətin qopması üçün zamanda yalnız bir gündən artıq vaxt qalmamış olsa belə, Allah (c. c.) mənim Əhli-Beytimdən bir şəxsi (Mehdini göndərəcək.)*** *(Sünen-i Ebu Davud, 5/92)*

***Hz. Əli (r.ə)-dən Peyğəmbərimiz (s.ə.v)-in belə buyurduğu rəvayət edilmişdir: əl-Mehdi bizdən, Əhli-Beytdəndir.***

***Səid ibn əl Müsəyyəb (r.ə)-in rəvayətinə görə Peyğəmbərimiz (s.ə.v) belə buyurur:***

***Mehdi qızım Fatimənin nəslindəndir.*** *(Sünen-i Ibn Mace, 10/348)*

***Mehdi ilə müjdələnin. O Qüreyşdən və Əhli-Beytimdən bir adamdır.*** *(Kitab-ul Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman , 13)*

***İbn Məsud Rəsulullahın belə buyurduğunu deyir : ...Əhli-beytimdən birini, hansı ki, bu şəxsin adı mənim adım olduğunu xəbər ver, atasının adı da atamın adı olduğunu xəbər ver. Bu şəxs, yer üzünü, əvvəllər haqsızlıqla və zülmlə dolu olduğu halda haqq və ədalətlə doldurar".*** *( Tirmizi, Fiten 52, (2231, 2232)*

Bütün peyğəmbərlər bir-birinin nəslindəndir. Mehdi (ə.s) da, bu nəsildəndir. Xalq arasında bu nəsildən gələnlərə "Seyid" deyilir.

İşarə edən ayələr:

"Ey Rəbbimiz! Bizim hər ikimizi Sənə itaətkar (müsəlman), nəslimizdən yetişənləri Sənə təslim olan ümmət (müsəlman) et, bizə (həcc) əməllərimizi (ibadət qaydalarımızı) göstər, tövbəmizi qəbul et! Həqiqətən, Sən tövbələri qəbul edənsən, mərhəmətlisən!" (Bəqərə surəsi, 128)

Allah Adəmi, Nuhu, İbrahimin nəslini və İmranın nəslini seçib aləmlərdən üstün etdi. (Ali İmran surəsi, 33)

Biz onların atalarından, nəsillərindən və qardaşlarından da (bir qismini hidayətə çatdırdıq), onları seçdik və düz yola yönəltdik. (Ənam surəsi, 87)

# GÖZƏL OLMASI

***O (Mehdi) gözəl bir cavandır, üzü gözəldir. Üzünün nuru başına və saçlarının qarasına qədər ucalar.*** *(Mehdilik ve Imamiye, 153 (Ikdüd, Dürer'den)*

***Üzü parlaq ulduz kimi nurludur.***

*(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 33 )(Kitab-ül Burhan Fi Alamatil-il Mehdiyy-il Ahir Zaman, 22)*

Buna işarə edən ayə:

**Züleyxa qadınların gizli dedi-qodularını (məkrini) eşitdikdə onlara xəbər göndərib ziyafətə dəvət etdi, onlar üçün gözəl (mütəkkələrlə, xalılarla döşənmiş bir otaqda ləziz təamlardan ibarət) bir məclis qurdu. Onların hər birinə (meyvə kəsib soymaq üçün) bir bıçaq verdi, sonra (Yusifə): "Onların qarşısına çıx!" - deyə əmr etdi. (Qadınlar Yusifi) gördükdə (gözəlliyinə heyran olub) onu həddindən artıq tərifədilər və (özlərini itirib əllərindəki bıcaqla meyvənin qabığını soymaq əvəzinə) əllərini kəsdilər. Onlar: "Aman Allah! Bu ki, bəşər deyildir. Bu ancaq (Allah yanında) möhtərəm (əziz) olan bir məlekdir!" - dedilər. (Yusif surəsi, 31)**

# ÇİYNİNDƏ PEYĞƏMBƏRLİK MÖHÜRÜ VARDIR

***Mehdinin çiynində Peyğəmbərimizdəki kimi peyğəmbərlik möhürü (nişanə, xal) olacaq.*** El-Kavlu Fi Muhtasarr Fi Alamatil Mehdiyy-il Muntazar,41

***Çiynində Peyğəmbərin əlaməti vardır.*** *(Kıyamet Alametleri,165 )(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman 23)*

***Çiynində Peyğəmbərin nişanı vardır.*** (Kıyamet Alametleri,163)

Hədisi-şəriflərdən belə başa düşülür ki, hz. Mehdinin iki çiyni arasında Rəsulullah (s.ə.v)-dəki kimi açıq görünən bir peyğəmbərlik möhürü olacaq.

***Cabir ibn Səmürə (r.ə)-dən belə rəvayət olunur: Rəsullulah(s.ə.v)-in möhürü göyərçin yumurtası kimi yumru idi.*** (Sünen-i Tirmizi,6/126)

***Abdullah ibn Sərcis (r.ə)-dən belə rəvayət edilir. İki kürəyi arasında, sol kürəyi hissəsi tərəfində üstü xallarla (ət xal kimi) dolu peyğəmbər möhürünə baxdım.*** *(İbn Kesir- Semail-i Resul,53)*

***Əbu Saib ibn Yezid (r.ə)-dən belə rəvayət edilir:***

***Gözüm Peyğəmbərimiz (s.ə.v)-in iki çiyni arasındakı möhürə sataşdı. Birdən onun düymə boyda olduğunu gördüm.*** *(Sünen-i Tirmizi,6/126)*

# RƏNGİ

***Rəngi ərəb rəngdədir.*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman,24)*<u>Qeyd: Ərəb irqinin dəri rəngi qırmızıya qarışıq ağdır.</u>

***Hz. Mehdinin rəngi ərəbidir.*** *(Kıyamet Alametleri 163) (El - Kavlu-l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar,29) (Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman,24)*

***Əsmər olacaq.*** (Kıyamet Alametleri 163)

***Ənəs ibn Malik (r.ə) Peyğəmbər (s.ə.v)-in rəngi haqqında belə demişdi:***

***Ağ (rəngli) idi. Lakin ağı əsmərə çalırdı.*** *(Ibni Kesir, Semail-ür - Resul, 28)*

***Əsmər (qaradan) dümağ deyil, az qırmızılığı isbat edir. Çünki Rəsulu Əkrəm həzrətlərinin rəngi hamamdan hələ yeni çıxmış və özünə qırmızılıq gəlmiş olan bir ağ insanın o andakı rəngi kimidir. Yəni Rəsulu Əkrəm həzrətlərinin mübarək rəngi, qırmızı ilə qarışıq nurani ağ idi.*** *(Ibni Kəsr, Semail-ür - Rəsul, 28)*

Günəş və küləklərin təsiri ilə bədənin rəngi qırmızıya çalan rəng, heç günəş üzü görməyən paltar altında qalan bədənin rənginə də parlaq ağ rəng deyilir.

# ƏNDAMI

***Hz. Mehdinin boy-buxunu, vücudu sanki İsraillilər kimidir.*** (El-Kavlu-l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 36 29)

***Bədəni İsraillərin bədəni kimidir.*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, 24)*

***Mehdi sanki, İsrailli bir adamdır. (Quruluşu onlara bənzəyər, yəni heybətli və zəhmlidir.)*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, 23 30)*

# BOYU

***Mehdi orta boylu olacaq.*** *(Kıyamet Alametleri El-Kavlu-l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 41)*

***Ənəs ibn Malik rəvayətdə belə buyurdu: Rəsulullah (s.ə.v) orta boylu idi.***

***Bilindiyi kimi, hədisdə keçən "rəba" sözü normal və orta boylu deməkdir. Lakin normal boy üçün uzun olan şəxsə görə bir ölçü vardır. Çünki boyun sahibi öz qarışı ilə yeddi qarış qədər boya sahibdirsə deməli, normal boydadır.*** *(Tirmizi, Semail-i Serif, 15)*

# YAŞI

***30 ilə 40 yaşları arasında olanda göndəriləcək.***

***Mehdi mənim övladlarımdandır. 40 yaşındadır.*** *(El-Kavlu-l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 41)*

***40 yaşındadır. Digər bir rəvayətə görə 30 ilə 40 yaşındadır.****(Kıyamet Alametleri, 163 )*

# SAQQALI

***Saqqalı bol və sıx olacaq.*** *(El-Kavlu-l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 23)*

***Saqqalı SIXDIR*** *(Qiyamət Əlamətləri, 163)*

# MEHDİNİN ÇIXIŞ ZAMANI

***Ənəs Malikdən Rəsulullah (s.ə.v)-in belə buyurduğu rəvayət olundu:***

***Dünyanın ömrü, axirət günlərində yeddi gündür. Allah Təala buyurdu ki, "Rəbbin qatında bir gün sizin hesab etdiyiniz min ilə bərabərdir. "***

***Ənəs ibn Malikdən Rəsulullah (s.ə.v)-in belə buyurduğu nəql edildi: Kim bir din qardaşının Allah yolunda bir ehtiyacını ödəsə, Allah Təala onun üçün gündüzlərini orucla, gecələrini də ibadətlə keçirmiş kimi, bu dünyanın yeddi min illik ömrü müddətində savab yazar.*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, 88)*

Həzrəti Rəsulullah (s.ə.v) keçmişlə, gələcəklə və axirət həyatı ilə əlaqədar olan məsələlər haqqında xəbər verərkən təşbehlərdən istifadə etmişdir.

Burada 7 min il dedikdə, dünyanın həqiqi yaşının 7 min il olduğu nəzərdə tutulmur. (Allahualəm) O zaman 7 min il haqqında olan rəvayətlər, bir təqvim başlanğıcı kimi insanlıq tarixində çox əhəmiyyətli bir hadisəyə, məsələn, tufandan sonra insanların məskun həyata keçmələrinə və dünya həyatının aşkar bir vəchə (səmt) ilə yenidən başlamasına aid başlanğıc ola bilər. Yəni o tarixdən etibarən insanlıq tarixi sanki yenidən başlamışdır, sayları artmağa başlamış, şəhərləşməyə başlamış ola bilər.

Bəzi alimlər hz. Nuh əleyhissalamdan sonrakı dövrü dünyada insanlıq tarixinin yenidən başlaması kimi adlandırmışlar. Necə xristianlar, miladi 1987-ci ilin əvvəlində əhəmiyyətli bir hadisə olduğunu qəbul edib, bir tarixi başlanğıcı meydana gətirib, ondan əvvəl, ondan sonra deyərək bir zamanı təyin edirlərsə, eyni ilə rəvayətdə də, müəyyən bir vaxtın təsbiti üçün, təqvim başlanğıcı kimi 7 min il əvvəli və sonrakı kimi bir tarix zamanlamasına işarə edə bilər. Yəni dünyanın ömrü 7 min il olsa, mən onun bu tarixindəyəm deyilsə, müəyyən bir tarix zamanlaması edilmiş olar.

İmam Rəbbani həzrətləri Məktubatda bu rəvayəti nəql etmişdir.

***Təqribən 124 min nəfər peyğəmbərimiz gəlib keçib*** *(Mektubat-i Rabbani, 1/354)*

Hz. Adəmdən etibarən Rəsullah (s.ə.v)-ə qədər 124 min peyğəmbər gəlib keçmişdir. Başqa bir rəvayətdə İmam Rəbbani həzrətləri belə buyurmuşdur:

***Beləliklə, aradan 1000 ilin keçdiyi vaxt, keçən ümmətlərdə ulül-əzm (Allahın əmirlərinə son dərəcə tabe olan, qadağalarından da şiddətlə çəkinən) bir peyğəmbərin gəldiyi vaxtdır.*** *(Mektubat-i Rabbani, 1/495)*

Normalda hər 100 ildən bir peyğəmbər, 1000 ildə də ulül-əzm bir peyğəmbər gəlmişdir.

Hər 100 ildən bir peyğəmbər gəldiyini qəbul etsək, hz. Adəm əleyhissalamdan, hz. Rəsulullah əfəndimizə qədər 12.400.000 il keçməli idi

124.000x 100= 12.400.000 (on iki milyon dörd yüz min il olmalı idi.)

Deməli, Peyğəmbərimiz (s.ə.v) "dünyanın ömrü 7 min ildir" dedikdə, dünyanın əsl yaşını deyil, insanlıq tarixi üçün əhəmiyyətli bir hadisənin baslanğıc zamanını nəzərdə tutmuşdur (Allahu aləm).

***Əhməd İbn Hənbəl əsasında də nəql etdi.***

***Dünyadan beş min altı yüz il keçmişdir.*** *(Kitab-ül Burhan Fi Əlamət-el Axır zaman, 89)*

Əvvəlki hədislərdə dünyanın ömrünün 7 min il olduğunu gördük. Burada isə Peyğəmbərimiz (s.ə.v)-ə qədər 5 min 600 il keçdiyi ifadə edilir. Bu rəvayətə görə, Məhəmməd ümmətinin ömrü hicri 1400-cü ilə qədərdir. (7000-5600=1400)(Allahu aləm)

***Abdullah (r.ə)-dən belə rəvayət olunur:***

***Rəsulullah (s.ə.v) buyurdu ki, Əhli-Beytimdən adı adıma bənzəyən bir adam hakimiyyətə keçəcək...***

***Dünyanın ancaq bir gün ömrü qalsa belə, onun başa keçməsi üçün Allah, o günü mütləq uzadar.*** *(Sünen-i Tirmizi 4/92)*

***Hz. Əli (r.ə)-dən rəvayət olduğuna görə Rəsulullah (s.ə.v) belə buyurdu: Qiyamətin qopmasına yalnız bir gündən artıq vaxt qalmamış olsa belə, Allah (c.c.) mənim Əhli-Beytimdən bir şəxsi göndərəcək.*** *(Sünen-i Ebu Davud, 5/92)*

***İbni Macə və Əbu Naim, Əbu Hüreyrədən nəql etdikləri rəvayətə görə Peyğəmbər (s.ə.v) belə buyurdu:***

***Əgər dünyadan bir gün qalsa, Allah o günü uzadar və Əhli-Beytimdən birini məlik edər.*** *(Burhan Fi Alameti-il Mehdiyy-il Muntazar, 10) (El-Kavlu-l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 27) (Ölüm-Kıyamet -Ahiret ve Ahir Zaman Alametleri, səh. 437)*

Bir az əvvəlki rəvayətlərdən və şərtlərdən başa düşdüyümüzə görə, hicri 1400 -cü il eyni zamanda hz. Mehdinin çıxış ilidir. Hicri 1400-cü ilə girməyə dünya günü olaraq 1 gün qalsa belə, vəzifəsinə hazır olan Mehdinin vəzifəsini yerinə yetirməsi üçün qiyamət müəyyən bir zaman təxirə uzadılacaq. (Allahu aləm)

İbni Abbasdan səhih olaraq, nəql edilən belə bir rəvayət var. O dedi ki, dünya yeddi gündür, hər min gün min il kimidir və Rəsulullah (s.ə.v) də onun sonunda göndərildi.

***Dakkak ibn Zeydü Cühənidən belə rəvayət etdilər.***

***Mən gördüyüm bir yuxunu Rəsulullah (s.ə.v) -ə danışdım. Bu yuxuda Peyğəmbər (s.ə.v) yeddi pilləli bir minbərin ən üst pilləsində idi. O buyurdu ki, yeddi***

***pilləli gördüyün minbər bu dünyanın ömrü olan yeddi min ildir. Mən də onun son min ilində olacam.*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, 89)*

Bu rəvayətlərdən də anladığımıza görə ümmətin ömrü hicri 1400-cü ilə qədərdir. Hicri 1400-cü ildə o (min illik) bir gün bitəcək. Halbuki, ümmət o bitmə günündə hələ də vəd edilən hz. Mehdi (ə.s.)-ı gözləyirdi. O zaman o (min illik) bir gün hz. Mehdi (ə.s)-ın vəzifəsini yerinə yetirməsi üçün uzadılacaq.

İmam Rəbbani Mehdinin Peyğəmbərimizin vəfatından 1000 (min) il sonra, ikinci min ilin içində gələcəyini bildirmişdir.

***Ancaq gözlənilən odur ki, aradan min il keçdikdən sonra bu gizli dövlət təcid edilə (yenilənə). Ona bir üstünlük verilib suyu tapması, təmizlənilə... Beləcə, kəmalatın əsli zühur edib onun zillətini örtə... və nisbəti-aliyyənin mürəvvici (ən üstün şərəf və etibarlı olan) Mehdi gəlsin. Allah ondan razı olsun.*** *(Mektubat-i Rabbani, 1/569)*

***Şəriətin təsdiq xüsusiyyətləri, milləti təcdidi (yenilənməsi) bu ikinci min ildədir.***

***Bu iddianın doğruluğuna ədalətli şahid, İsa (ə.s)-ın, Mehdi (ə.s)-ın bu min ilin içində olmağıdır. (****Mektubat-i Rabbani 1/611)*

***Rəsulullah (s. ə. v )-in ümməti arasından çıxanlar çox kamildirlər. Yəni, Rəsulullah (s. ə. v )-in həyatdan köçməsindən min il keçdikdən sonra az olsalar da, onların çox kamallı olmaları ona görədir ki, şəriətin möhkəmləndirilməsi, bütünlüklə hasil ola.***

***Aradan min il keçdikdən sonra Mehdinin gəlişi də bunun üçündür. Onun mübarək kudümünü (gəlişini), hətəmür-rüsül ,yəni Rəsulullah (s.ə.v) müjdələmişdir. Hz. İsa (ə.s) da aradan min il keçdikdən sonra nüzul edəcək.*** *(Mektubat-i Rabbani 1/440)*

Peyğəmbərin vəfatından min il keçdikdən sonra ikinci min ilinə qədəm qoyular. İmam Rəbbani həzrətlərinin yuxarıdakı izahlarına görə, ikinci min il içərisində hz. Mehdi (ə.s) gələcəkdir. Buna görə ən uyğun zaman 1400-1600 illəri arasıdır. Bu illər ikinci min ilinin tam ortasıdır. 1400-dən 1500-ə qədər İslamın hakimiyyəti, 1500-1600 illəri arasında da pozulma və qiyamət gözlənilir, Allahu aləm.

***Bu ümmətin ömrü min (1000) ili keçəcək, lakin min beş yüz (1500) ili aşmayacaq.*** *(Kıyamet Alametleri, 299)*

Cəlaləddin Suyutinin "əl-Kəşfi Fi Mücazəvəti Qəmli əl-Ümməti Əl Əlfe Əllezi Dəllət Əleyh əl-Asar" adlı kitabından nəql edilir ki, Bəddiüzaman Səid Nursi həzrətləri də, ümmətin qalibianə ömrünün 1506-cı ilə qədər olacağını bildirmişdir.

*"... Birinci cümlə, min beş yüz (1500-cü il) tarixi  Axırzamanda bir taifei mücahidənin (din yolunda çalışanların, cihad edənlərin) son zamanlarına və ikinci cümlə, min beş yüz altı (1506-cı il) tarixi ilə qalib olan mücahidlərin tarixinə.... işarə edir.*

*(...) bu tarixə qədər (yəni 1506-cı ilə qədər) zahir və aşkar olar, bəlkə qalib olaraq davam edəcəyinə rəmzə (işarə edilənə) yaxın ima (işarətlə başa salar) edər".* *(Sikke-i Tasdik-i Gaybi, 46)*

İmam Suyuti (r.ə) daxil olmaqla alimlərin bir qismi bu ümmətin ömrünün (hicri) 1500-cü illərə qədər davam edəcəyinə, sonra isə pozulmanın başlayacağına (Allahu aləm) işarə etmişdilər.

Səhih qaynaqlı hədisi-şəriflərə görə, hz. Mehdi (ə.s) zühur etdikdən sonra 40 il yaşayacaq. Hz. İsa (ə.s) haqqındakı hədisi-şəriflərdə isə onun yer üzündə qalma müddətinin 40-45 il olacağı bildirilmişdir. Hz. Mehdi (ə.s) ilə hz. İsa (ə.s) ömürlərinin bir qismini birlikdə yaşayacaqlar, bu da təxminən 7-10  ildir. Bu məlumatlara görə, hz. Mehdi (ə.s.)-ın və hz. İsa (ə.s)-ın yaşadıqları müddət 1475-1480-ci illərinə kimi olacaq. Bu tarixdən 1500-cü ilə qədər davam edən 20-25 illik bir müddət də vəziyyətin mühafizəsinə xidmət edildiyi bir dövr olacaq.

Bu rəvayətdə də hz. Mehdinin əsrin əvvəlində zühur edəcəyi bildirilmişdir.

*Çünki onun (hz. Mehdinin ) zühuru əsrin əvvəlində olacaq.* *(Mektubat-i Rabbani )*

Yuxarıda izah edildiyi kimi, İmam Suyuti həzrətlərinin rəvayətinə görə, Məhəmməd ümmətinin ömrü 1500 (min beş yüz) ili aşmayacaq. Hicri 1500-cü ilə çatmağa isə bir əsr qalmışdır. O da, hicri 1400-cü ilin əvvəlidir.

*Rəsulullah (s.ə.v) buyurdu:*

*Qiyamət yer üzündə Allaha ibadət edilməyən bir yüz il keçmədikcə qopmaz...* *(.Kitab-ül Burhan Fi Alamet-il Mehdiiyy-il Ahir Zaman , 92)*

Yuxarıdakı rəvayətlərin işarələrindən səadətli bir əsr keçdikdən sonra və təxminən, bir yüz il zülmün, küfrün hakim olduğu dövrə keçdikdən sonra qiyamət gözləniləcək.

Aparılan hesablamalar, ancaq Mehdi (ə.s)-ın hicri 14-cü əsrin əvvəlində çıxdığı təqdirdə təsdiqlənəcək. Ümmətin ömrü hicri 1500 ili aşmayacağına görə, deməli, Mehdi hicri 1400-cü ilin əvvəlində gəlməlidir.

*(El-Kavlul Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar)(Kitab ul Burhan Fi Alamet-il Mehdiyy il Ahir Zaman)(Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, 494)(Ramuz: El - Ahadis 508 (Ibni Mace-Tabaranai 'nin Kebiri)*

## Hz. Mehdi xəlifəlik mərkəzinin qədimdə olduğu yerdən çıxacaq.

Axırzaman haqqındakı rəvayətlərin əsas nöqtəsini mehdiyyət təşkil edir. Axırzamandakı əhəmiyyətli hadisələrin çoxu mehdiyyət ətrafında inkişaf edir. Lakin bu hadisələrin yerləri haqqında müxtəlif rəvayətlər mövcuddur. Bədiüzzaman bu mövzuya belə aydınlıq gətirmişdir:

***"İndi hz. Mehdi kimi əşhasın (şəxsin) haqqındakı rəvayətin ixtilafatı və sirri budur ki, hədisləri təsvir edənlər, hədisin mətninin təsvirlərinə uyğun olaraq, gizli olan mənanı aşkara çıxartmışlar. Məsələn, o vaxtlar səltənətin mərkəzi Şamda və ya Mədinədə olduğuna görə hz. Mehdiyə və ya Süfyana aid olan hadisələri də səltənət mərkəzi ətrafında olan Bəsrə, Kufə, Şam kimi yerlərdə təsəvvür edərək bildirmişdilər".*** *(Sözler, 359)*

Bir başqa yerdə də ustad mövzunu belə izah etmişdir:

***"Xəlifəlik mərkəzi qədim zamanda İraqda, Şamda və Mədinədə olduğuna görə ravilər də, o yerlərin daim elə qalacağını fikirləşmişlər və elə məna verərək, "İslam xəlifəliyin mərkəzi" yaxınlığında təsvir ediblər, Hələb və Şam deyiblər. Hədisin mücməl (müxtəsər olan qısa) xəbərlərini də öz düşüncələrinə uyğun şəkildə təyin ediblər".*** (Şualar, 492)

Yəni Bədiüzzamanın yuxarıdakı ifadələrindən də aydın olur ki, Axırzaman hədislərini araşdıran alimlər Axırzaman hadisələrini öz dövrlərindəki xəlifəlik mərkəzlərini əsas götürərək yazıblar.

Mehdiyyət hadisəsinin reallaşacağı yer hər alim öz dövrlərindəki xəlifəlik mərkəzi olan İraq, Şam, Kufə, Mədinə kimi şəhərləri ifadə etmişdirlər. Ravilərin bu düşüncələri də vaxt keçdikcə rəvayətlərə daxil edilərək hal-hazırki dövrə gəlib çatmışdır.

Ancaq Axırzaman hadisələrinin baş verdiyi yerlər haqqında rəvayətlərin ortaq nöqtəsi bu hadisələrin xəlifəlik mərkəzində reallaşacağıdır.

Bədiüzzaman da bu nəticəyə gəlmişdir. Bilindiyi kimi, son xəlifəlik mərkəzi "İstanbul" şəhəri olmuşdur. Xəlifəlik bu əsrin əvvəllərində rəsmi olaraq ləğv edilmiş və o gündən bu günə kimi dünyada başqa heç bir yerə də daşınmamışdır. Peyğəmbərimizin iki bayrağı, qılıncı və köynəyi ilə digər müqəddəs əmanətlər də İstanbuldadır. Nəticə olaraq, hələ də bu mənəvi ünvanı qoruyan tək şəhər İstanbuldur.

## Hz. Mehdi İstanbuldan çıxacaq və hz. Mehdi İstanbulu mənəvi olaraq fəth edəcək.

Peyğəmbərimiz (s.ə.v) hədislərində hz. Mehdinin İstanbuldan çıxacağını xəbər vermişdir:

***Hz. Katade (r.ə)-dən edilən rəvayətə görə, Rəsulullah (s.ə.v) belə buyurmuşdur:***

***"Mehdi Mədinədən çıxacaq və Məkkəyə gələcək. İnsanlar onu öz aralarından (tanıyıb) ortaya çıxaracaqlar və o, istəmədiyi halda rükun ilə mövqe arasında ona beyət (Mehdi olaraq qəbul) edəcəklər".*** *(Mer'iy ibn Yusuf ibn Ebi bekir ibn Ahmet ibn Yusuf el-Makdi'si "Feraidu Fevaidi'l Fikr Fi'l İmam El-Mehdi El-Muntazar)*

***Hz. İbni Amr (r.ə)-dən belə rəvayət edilmişdir: "Peyğəmbərimiz (s.ə.v) buyurdu ki: "Ey ümmət! Altı şey vardır ki, onlar olmadan qiyamət qopmaz (altıncısı) Mədinənin (şəhərin) fəthi. "Soruşdular ki: "Hansı mədinə? (Hansı şəhər?) "Buyurdu ki:" Konstantinopol"".***

***(*) Bu Konstantinopolun Mehdi tərəfindən ediləcəyi fəthidir.*** *(Kıyamet Alametleri, s. 204 Ramuz-el Ehadis, 296)*

# MEHDİ DÖVRÜNDƏKİ HƏYAT:
# QIZIL DÖVR

İslamın dünya hakimiyyəti dövrü, başqa sözlə desək "Qızıl dövr", hz. Mehdi (ə.s)-ın və hz. İsa (ə.s)-ın başçılığı ilə reallaşacaq, hədislərdən də aydın olduğu kimi bu dövr yarım əsrdən çox davam edəcək və Peyğəmbərimiz dövrünə, yəni Əsri-Səadətə bənzəyən bir dövr olacaq. Peyğəmbərimiz (s.ə.v) bu dövrü cənnətə bənzər olan xüsusiyyətlərlə təsvir etdiyinə görə, İslam alimləri bu dövrə "Qızıl dövr" adını vermişlər.

Mövzuya işarə edən ayə:

**Sizə vəd edilən şübhəsiz ki, gələcəkdir...(Ənam surəsi, 134)**

Hər növ məhsul və mal bolluğu, əmin-amanlıq və etibar, ictimai ədalətin təmini, rifah, hüzur və səadət bu dövrün müəyyən əsas olan xüsusiyyətləridir. Hədisi-şəriflərdə “silahların susacağı”nın bildirilməsi ilə bu dövrdə yer üzünün sülh içində olacağı müjdələnmişdir. Texnologiya Axırzamanın bu dövründə inkişaf edəcək, insanlar texnologiyanın bütün nemətlərindən olduqca çox faydalanacaqlar. İnsanlar Qızıl dövrdə həyatlarından o qədər məmnun qalacaqlar ki, hədislərin ifadələrinə görə, zamanın necə keçdiyini hiss etməyəcəklər, bu gözəlliklərdən daha çox faydalanmaq üçün Allahdan ömürlərinin uzadılmasını istəyəcəklər.

***Mehdinin dövründə; kiçiklər "kaş ki, mən böyük olaydım", böyüklər də "kaş ki ,mən kiçik olaydım" deyə Allaha dua edərlər.***

***Naim Tavusdan belə rəvayət etdi:***

***Mən Mehdiyə yetişənə qədər ölməməyimi dilədim. Çünki onun dövründə yaxşı insanların yaxşılığı artar, pislərə qarşı belə yaxşılıq edilər.*** *(Kitab-üll Burhan Fi Alamet-il Mehdiyy il Ahir Zaman , 17 )*

# O DÖVRDƏ GÖRÜNMƏMİŞ BİR BOLLUQ OLACAQ

***"...Cabir ibn Abdullahdan belə rəvayət edilmişdir: Rəsulullah (s.ə.v) buyurdu ki, ümmətimin sonunda bir xəlifə gələcək, malı ədədlə saymayacaq, ovucla ovuclayacaqdır".*** *(Sahih-i Müslim 11/351)*

***Əbu Səid Hudridən belə rəvayət edilmişdir: "Rəsulullah (s.ə.v) buyurdu ki, ümmətimdə Mehdi vardır, insanlar onun yanına gələcək və "ey Mehdi, mənə də ver, mənə də ver!" deyəcək, Mehdi də, onun əsvabını (ətəyinin) daşıya bildiyi qədər dolduracaq".*** *(Sünen-i Tirmizi, 4/93 )*

***Əbu Səid əl- Hudridən rəvayət edildiyinə görə, Peyğəmbərimiz belə buyurdu:***

***"Ümmətim içində əl-Mehdi olacaqdır. Mənim ümmətim o dövrdə elə bir rifaha qovuşacaqdır ki, o günə qədər onun mislini belə görməmişdir. Yer məhsulunu (bol) verəcək və insanlardan heç bir şey saxlamayacaq, verməmək deyə bir şey olmayacaq. Mal da o gün çox yığılacaq. İnsanlar gəlib: "Ya Mehdi! Mənə (mal) ver", deyəcək. Mehdi də: "Götür ", deyəcək".*** (Sünen-i İbni Mace 10/347) (Ramuz El -Ahadis 508 (İbni Mace-Tabaranai’nin Kebiri)

***Darəkutni "İfrad", Təbərani "Əvşad" adlı əsərlərində Əbu Hüreyrədən belə rəvayət ediblər:***

***"O zaman ümmətim  yaxşısı, pisi, hər biri mislini görmədikləri nemətlərlə nemətlənərlər. Allah onlara  bol yağış  yağdırar. Naz-nemətlərdən (ərz bitkidən) bir şey saxlamaz. Mal adi olar. Bir adam qalxar belə deyər: "Ey Mehdi, mənə də ver". O da: "götür" deyər."*** *(Kitab-ül Burhan Fi Alamet-il Mihdiyy-il Ahir Zaman, 16)*

***(Mehdinin zamanında) səma yağışından heç bir şeyi əsirgəməyəcək və səxavətlə bol yağış yağdıracaq. Yer üzü bitkilərindən heç birini əskik etməyəcək və şübhəsiz, onları kamalı ilə bitirib ortaya çıxaracaq. Hətta yaşayanlar (onlarda olan nemətləri görmələri üçün) ölülərin də həyatda olmalarını diləyəcəklər.*** *(Ölüm-Kiyamet-Ahiret ve Ahirzaman Alametler, 437)*

***Onun dövründə, ümmətin istər yaxşıları, istərsə də pisləri, misli əsla görünməmiş xeyli  nemətlərə sahib olacaqlar. Yağışın çox yağmasına baxmayaraq bir damlası belə boşa çıxmayacaq, torpaq bir tək toxum istəmədən məhsuldar və bərəkətli olacaq.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 23)*

## BOLLUQ NECƏ TƏMİN EDİLƏ BİLƏR?

***İnsanlar bir ölçü qab buğda əkəcəklər, qarşılığında isə yeddi ölçülük məhsul alacaqlar.***

***Onun zamanında insan bir neçə ovuc toxum atacaq, əvəzində 700 ovuc alacaq.***

***Çox yağış yağmasına baxmayaraq bir damlası belə boşa çıxmayacaq.***

*(Kıyamet Alametleri, 164)(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 24)*

Bu rəvayətlərdə də aydın olduğu kimi, Mehdi dövründə texnologiyanın və elmin sirlərinin, insanların xidmətinə təqdim edilərək hər sahədə olduğu kimi əkinçilikdə də yeni istehsal texnikalarının inkişaf etdirilməsi, toxum islahı işləri və yağış sularının anbarlara, gölməçələrə yığılaraq qiymətləndirilməsi nəticəsində istehsal artımına diqqət çəkilmişdir.

## MÜXTƏLİF BİOLOJİ VƏ DÜNYA QİDA QAYNAQLARI

Əkinçilik üzrə alimlərin fikrinə görə, dünyada insan qidasına uyğun 80 minə qədər bitki növü vardır. Tarix boyu bunlardan yalnız 3 minə yaxın növü qida olaraq istifadə edilmişdir, lakin 150 növü geniş miqyasda yetişdirilmişdir. İndiki zamanda isə bütün dünyada yalnız 15 növ bitki əhalinin 90%-ni doyuzdurur. Yalnız 3 növ (buğda, düyü, qarğıdalı) dünya taxıl istehsalının 2/3  hissəsini təşkil edir. **Deməli, yer üzündə qida olaraq istifadəyə uyğun bitki növlərinin çox kiçik bir hissəsindən faydalanılır, həm də geniş miqyasda yetişdirilən növ sayı da get-gedə azalır.**

İnkişaf edən texnologiya sayəsində və suyun səmərəsiz çöl torpaqlarına çatdırılmasıyla yanaşı buralarda da normal əkinçilik aparılacaq vəziyyətə gəlmişdir. Bütün çöllərdə bu sistemlər tətbiq olunduqda bütün dünyada böyük miqdarda istehsal artımı təmin ediləcək.

**HƏYAT BÖHRANI VƏ DARLIQ İLLƏRİ BİTƏR**

**"Qızıl dövr"** olaraq adlandırılan bu dövrdə, indiyə qədər bənzəri görünməmiş bir bolluq və bərəkət yaşanacağını qeyd etmişdik.

Qızıl dövrdən əvvəlki dövrün xüsusiyyətləri isə böhran və çətinliyinin artması, döyüşlərin çoxalması, xalqın qorxu içində yaşaması, qarışıqlıq və fitnələrin yayılması, etibarsızlığın hakim olmasıdır.

***Mehdi çıxmazdan əvvəl məğribdə (qərbdə) qarışıqlıqlar, fitnələr və qorxu olacaq. Aclıq və böhran, çətinliklər olduqca yayılacaq.*** *(Ölüm -Kıyamet -Ahiret ve Ahirzaman Alametleri,440)*

İşarə edən ayələr:

**Bunun ardınca da elə bir il gələcək ki, onda insanlara bol yağış veriləcək və onlar çoxlu meyvə şirəsi sıxacaqlar". (Yusif surəsi, 49)**

**Allah təhlükəsizlik və əmin-amanlıq içində olan bir diyarı (Məkkəni) misal çəkir. Ona öz ruzisi hər yerdən bol-bol gəlirdi. Lakin o diyarın əhalisi Allahın nemətlərinə nankorluq etdi, Allah da onları etdikləri əməllərə görə aclıq və qorxu libasına bürüdü. (Nəhl surəsi, 112)**

# MEHDİNİN SƏXAVƏTİ

***Ümmətimdən Mehdi çıxacaq. Allah Təala həzrətləri insanları zəngin etmək üçün onu göndərəcək. O zaman ümmətim nemətlənəcək, heyvanlar bolluq içində və ərşin nəbatı çoxalacaq. Hz. Mehdi insanlara bərabər şəkildə bol-bol mal paylayacaq.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 26)*

***Mehdi ədalətli bir hakim olaraq çıxacaq, əşyanı, malı paylayacaq, lakin bolluqdan qəbul edən olmayacaq.***

***İbni Əbi Seybə, Matardan belə rəvayət etdi:***

***"... Bir gün Matarın yanında Ömər ibn Əbdüləzizdən bəhs edildikdə o belə cavab verdi: "Bizə çatan məlumata görə, Mehdi elə bir şey edəcək ki, Ömər ibn Əbdüləziz onu etməmişdir". Bunun nə olduğu soruşulduqda isə Matar belə cavab verdi: "Biri Mehdiyə gəlib ondan bir şey istədiyi zaman ona belə deyər: "Beytülmala gir istədiyin qədər götür", o adam girər və çıxar.*** *"(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyye-il Ahir Zaman, 16)*

***Rəsulu Əkrəm (s.ə.v) belə buyurdu:***

***Ümmətimin sonunda elə bir dövlət rəisi olacaq ki, ovuc-ovuc mal və pul ovuclayacaq və bu malı səhv edib saymayacaq.*** *(El-Kavlu Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 24)*

***Mehdi insanlara malı və əşyanı paylayarkən saymadan, bol-bol verəcək.*** *(El-Kavlu Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 24)*

İşarə edən ayə:

**"Bu Bizim hədiyyəmizdir! Bunlardan istədiyinə versən də, verməsən də səndən haqq-hesab tələb olunmayacaqdır". (Sad surəsi, 39)**

# TEXNOLOGİYADA BÖYÜK İRƏLİLƏYİŞLƏR OLACAQ

İnkişaf edən elm və texnologiya ilə yanaşı getdikcə sürətlənən və asanlaşan ünsiyyət və nəqliyyat sayəsində bir vaxtlar ucsuz-bucaqsız dünya balacalaşaraq, elə bil, cibdə gəzdirilən kiçik mikro kompyuterlərlə bir olar.

Bu gün elm adamları yeni bir əsrə, 2000-ci illə başlayan XXI əsrə hazırlanır və 2000-ci il ilə birlikdə dünyanı bürüyən telekommunikasiya şəbəkəsini, həyatı necə rahat bir hala gətirəcəyini müzakirə edir və yeni layihələr üzərində işlər aparırlar.

# MEHDİ DÖVRÜNDƏ ƏDALƏT

***Əli (r. ə)-dən Rəsulullah (s.ə.v)-in belə buyurduğu nəql olunur: "Qiyamətin qopması üçün zamanda yalnız bir gün qalsa belə, Allah (c. c) mənim Əhli-Beytimdən bir şəxsi göndərəcək, yer üzü zülmlə dolduğu kimi o, yer üzünü ədalətlə dolduracaq".*** *(Sünen-i Ebu Davud, 5/92)*

***Əbu Səid əl-Hudridən edilən rəvayətlərə görə, Rəsulullah (s.ə.v) belə buyurmuşdu: "Mehdi məndəndir, yer üzü zülm və işgəncə ilə dolduğu kimi onu haqq və ədalətlə doldurar".*** *(Süneni-i Ebu Davut, 5/93)*

*İmam Mehdinin dövründə yer üzündə əmin-amanlıq, təhlükəsizlik olub, hər kəs onun ədaləti ilə dünyanın zövqünü yaşadıqca zaman qısalar. Çünki insanlar uzun olsa belə, zövqlə keçən günlərini qısa hesab edər, çətin keçən az günlərini də uzun sayar.* (Ölüm -Kiyamet -Ahiret ve Ahirzaman Alametleri)

## Yer üzü zülm və işgəncə yerinə ədalətlə dolacaq.

***Abdullah Məsudun rəvayətində Rəsulullah (s.ə.v) belə buyurur:***

***Bu əmir (hökmdar) də insanlar yer üzünü əvvəllər zülm ilə doldurduqları kimi yer üzünü ədalətlə dolduracaq.*** (*Sünəni İbni Macə, 10/348*)***Rəsulullah (s.ə.v) bir başqa hədisində belə buyurur:***

***"Allah Təala Əhli-Beytimdən birini göndərmədikcə dünya çökməyəcək. Əvvəllər dünya, zülm və ədalətsizliklə dolduğu kimi onun gəlişi ilə haqq və ədalət öz yerini tutaraq dolar".*** *(Mektubat-i Rabbani, 1/251)*

Malı bərabər şəkildə insanlar arasında böləcək və paylayacaq. **Onun ədaləti hər yeri bürüyəcək.** Zülm və günah dolu olan dünya, o gəldikdən sonra ədalətlə dolub daşacaq.

Hz. Mehdinin dövründə ədalət o qədər bol olacaq ki, məcburi alınan hər mal sahibinə geri qaytarılacaq, bir insanın başqasına aid olan bir şeyi dişində qalmış olsa da, geri alınıb öz sahibinə qaytarılacaq.

***Yer üzü əmin-amanlıqla dolacaq və hətta bir neçə qadın yanlarında heç bir kişi olmadan rahatlıqla həccə gedəcək.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 23)*

**Həqiqətən, Allah sizə əmanətləri sahiblərinə qaytarmanızı və insanlar arasında hökm verərkən ədalətlə hökm vermənizi əmr edir. Allahın sizə verdiyi bu öyüd-nəsihət necə də gözəldir! Şübhəsiz ki, Allah Eşidəndir, Görəndir. (Nisa surəsi, 58)**

**Yaratdıqlarımız içərisində elə bir ümmət də vardır ki, haqq ilə doğru yola aparır və bunun sayəsində ədalətlə hökm edirlər. (Əraf surəsi, 181)**

# ŞAİRLƏRİN ŞEİRLƏRİNDƏ MEHDİ

İNSANLIĞIN ALIN YAZISI BİR UŞAQ

O uşağı gözləyirik.

Dünyanı dəyişdirəcək, yeniləyəcək, məşhur deyimlə söyləyək, dirildəcək uşağı.

O uşağı ki, reklam və təxribat edənləri deyil, etməyənləri bilsin.

Ona verilənin öhdəsindən gələn bir uşaq olsun o uşaq.

Verilməyəni ala bilən bir uşaq. Gizlini, sirr olanı araşdıran, tarixin şifrələrini bilən bir gənc.

Yığılanları paylayan, dağılmışları bərpa edən bir gənc adam.

İtkilərin, itənlərin ürpərtdiyi bir ruh.

Xəyalları, kölgələri xatırladan bir zarafat.

Qabıq olan (düz olmayan) məlumatların sığnağı altında islanmayan anlayış və qavrayış şəxsiyyəti.

Bir müjdə olan uşaq. Müjdə kimi gələn. Müjdə gətirən.

İşıqla gələn uşaq. Ümid işığını gətirən uşaq.

Kapitalizmin və kommunizmin qaranlığını açan ümid işıqlarını daşıyan könül igidi.

Gəlib çatanlardan işarə olan ər. Diriliş igidi.

Şərqin və qərbin həsrətini çəkdiyi carçı.

Yollarda gözlənən, tozların arxasında xəyalı qurulan yolçu.

Sivilizasiyaları, tarixi və təbiəti, insanı və əşyanı yenidən tərəzilərə yerləşdirən tənqid igidi.

Tənqid içində şəxsi tənqid toxumlarını yaşıllaşdırmasını bilən düşüncə əkinçisi.

Yuvalara, evlərə yenidən metafizik (möcüzəvi, qeyri-adi) bir məna qazandıran xızırlıq cəhdinin insanı.

Tanrı nümayəndəsi. Simvollar halında düşüncələrin və ruhların içinə ilmə atan və tikilişləriylə insanları və bütün insanlığı qürursuz edən bütləri məhv edən inanc igidi.

Alçaltma hissi altında əzilən, duyğuları sağlığına qovuşduran və beləcə sözündən çox, ruhuyla doğulacaq azadlığın, əsl azadlığın döyüşçüsü olan qəhrəman.

Bu uşaq mütləq gələcək.

İnsanlıq, gözlənilməz hər bir vaxtda olduğu kimi sıçrayış ilə gələcək.

Bu sıçrayışın təməl daşı olan yeni insan zühur edəcək, əlbət.

Diriliş reallaşacaq.

Gözə görünməz universal tabut parçalanacaq.

Şübhəsiz, bu böyük səy istəyər.

Əslində, işlər dağınıq bir şəkildə və hər yerdə eyni şüur altında olmadan başlamışdır və davam edir.

Bir gün bir yerə yığılma, toplanma da gözlə görünən bir səviyyəyə çatacaq.

İnsan öz barrikadalarının məhkumu və öz zəncirlərinin məhbusu olmuşdur.

Amma bu qiyamətə qədər davam etməz.

Diriliş nəsli, bu məhkumluğa, bu məhbusluğa qarşıçıxmanın cəsarətini göstərəcək və bu qarşıçıxmanın yeni uyğunlaşmaya çevirmənin üsulunu kəsdirəcək.

İnsan yenidən fəzilət imtahanının atəşinə atılacaq, cəhənnəmləri yarıb

cənnətinə çatacaq üstün səməndər yaradılışındadır, çünki o…

Şərtlər nə qədər ağır olsa da, ürkməyin.

İnsanın alın yazısı ağırlığıyla, şərtlərdən kənardadır.

Torpağın vəba qaynamasına aldanmayın.

Göy yüklü əsintilər, əlverişli üfüqlər, göy qurşaqları ilə xallıdır.

Ruhun ilham səfəri Cəbrayıl nəfəsiylə dəstəklənir.

Ruhul-Qüds (Cəbrayıl ə.s.) tək keçmişdə insanı yoxlamadığını,

gələcəklərdə də onu mübarək sinəsinə basacağını isbat edəcək.

Ruh müqəddəs ruh tərəfindən sığınacaq.

Axşamla birlikdə süfrələrin üstünə yenə müqəddəs ruhun qanadları gəriləcək.

Uşaq şimal və qərb küləklərini qılıncıyla ikiyə böləcək.

Selləri və uçqunları çiyinləriylə dayandıracaq. Fırtınaları əksinə çevirəcək.

Onsuz da o, bütün bunlar üçün gəlir.

Azğın bir qışı yaşayırıq.

Gələcəyin igidləri onun üzərinə diriliş kəmərlərini və qübbələrini yerləşdirəcək.

Ruhun Ayasofyaları, Süleymaniyələri yenidən yüksələcək.

Diriliş mehtəri dünyanın üfüqünü metafizikanın marşıyla canlandıracaqdır.

Pandorun qutusu bağlanarkən ruhun şəfa ləl-cəvahiratları, gizli olan seyflərin qapaqlarını açılmağa məcbur edəcəklər, çölə çıxma günü gələn sərçənin yumurtanın qabığını dimdiyi ilə tıq-tıq döyməsi kimi.

Müqəddəs şəhərlərin ruhları, gecələri gözlərə görünən müqəddəslər kimi oyanacaqlar.

Bursanın, İstanbulun, Konyanın, Diyarbəkirin, Ərzurumun, Şamın, Bağdadın,

Buxaranın, Səmərqəndin və beş sırada Məkkənin, Mədinənin

və hamısıyla birlikdə Qahirənin, Kuala-Lumpurun, Binqazinin,

İslamabadın, Darüssəlamın ruhları diriləcək.

Əlində bir məşəl bu qış gecəsində gəzəcək o uşağın çatdığı hər şəhər canlanacaq.

Kəndlər ölümün qırılmasından tüstüləyən alovlarda yuyunacaqlar

və müqəddəs bayrağın altında diri gümbəzlər olaraq toplanacaqlar.

Bu şəhərlər məhşərinin qarşısında kim dayana bilər?

"Qalx və qorxut" səsiylə ayağa qalxmış, Allaha qarşı hansı polad və ya dəmir bənd dözə bilər?

## SEZAİ QARAQOÇ

### XIZIRLA QIRX SAAT

Qiyamət günündən əvvəl

Xızır çəkiləcək yer üzündən

Sonra yaşıllıqları yaylaların

Keçmiş zaman divarları kimi yüksələn çinarların

Çinilərin, miniatürların duanı şöhrətləndirən boyaların

Günəşdə bir quş kimi çırpınan qəsəbələrin

Göz ağrısı gətirən tozların

Yaşıllığı, qırmızılığı, sarılığı çəkiləcək əvvəl

Evlərdə, həyətlərdə eşidiləcək bir əksiklik

Yoldan bir ölü aparırlarmış, sezmişlər (anlamış) kimi

Çıxacaqlar çölə amma

Yollar izsizdir sonsuza qədər.

Xızırın gedişiylə birlikdə

Yollarda izlər itəcək

Yaşamışdı bunu bir anda

Dar bir otaqda

Peyğəmbərin baş ucunda Əli

Peyğəmbəri yuyarkən büzülmüşdü dünya

Dəniz kimi, vəhşi mərcanlar kimi, yandırırdı əlini isti su.

Ömər bir xoruz sandı dünyanı
Boğazında iti bıçaq
Ölümündə Peyğəmbərin
Əbu Bəkr dörd yanında Cəbrayılın qanadının çırpınıtısını eşitdi
Torpaqdan yüksəlişini surun
İç otaqlarda
Çarşab arxalarında
Ağlayarkən Peyğəmbər qadınları
Duydular qiyaməti bir anda.
Dar bir saatda
Sonra Əli otağının təkliyindən
Dörd divardan bir pıçıltı eşitdi
Göründü bayraqların ən yaşılı
Və ordusuyla birlikdə Mehdi.
Müəyyən bir müddət gecikdirən qiyaməti
Qiyamət əlində bir sənəd
Bir tük kimi yüngülləşdirən qiyaməti
Mehdi
Şəhidlik edən ölümü, qiyaməti
Mehdi
Bərəkətin geri dönüşü
Qiyamətin birinci fəcri
Xızırın ətə, sümüyə qovuşması
Bir qədr gecəsində
Seçilənlər seçildilər.
Bir qədr gecəsində
Çevrilməyə başladı taleyi
Yer üzündə
Qarışqa əzabına uğradılmış müsəlmanların
Ən yoxsulu insanların
Ən çox əzilmişi

Əzilmişlərin belə əzdiyi

Acımalarından məğlubiyyətləri

Susan, susdurulan

Dəyişdirilib çevrilən

Tarixi turşudulan

Faydalanılan şəlaləsindən

Amma içiləcək sudan məhrum edilən

Sökülüb atılan coğrafiyasından

Son bahar məntiqindən

Uşaqlarına düşüncə tozu səpilən

Quşluqda şübhəli

Günorta əylənən

Bir kümə tikilən xalqı

Uçurum sahilinə aparılıb

Bir ölü quzğun kimi buraxılan şəhəri

Günəşin batmaqda tələsdiyi

Hər gün son axşam kimi gələn bir axşamda.

Şüşə kəsməsi bir evdə

Ölüm-dirim yığıncağında

Bir gül qəflətən partlayıb açılacaq bir saxsıda

Və qalxacaq bir insan ayağa

Və işıq, işıq, işıq

Arxasında solunda və sağında

Və əllərini çölə uzadacaq.

Ah bu nə ağdır, nə ağdır

Musanın əlləri

Və üzü İsa üzünün bənzəri

Sonra bir daha dəyişmə

Bir daha dəyişmə

Özündə yekunlaşdıran bütün peyğəmbərləri

Son peyğəmbərin özü sanki

Xızır da işi bitib, aradan çıxan körpülərin ən yüksəyi
Mehdi,
Danışacaq Mehdi,
Gəldi seçilmə günü.
Seçilmək, hazırlanmaq vaxtı
Artıq hər gün hər gecə
Bir qədr günü və gecəsi
Quran enir dağlardan təpələrdən.
Yağış onun ehtiyatında
Xoruzlar ən iti səsləriylə ötmədə
Qoyunlar yunları ilə işıldayır .
Yeni və iti bir müdriklik keçilərdə
Şərqdən qərbə bir şimşək atlardan
Heyamolalarla (xorla, bir yerdə səslənərək) enib çıxan
Bir göyqurşağı dəvələrdən
Qadınlar məryəm örtüləri ilə örtünərlər.
Bacalar yenidən tüstüləyər.
Odunların ən sərtinin yanmasından
Buraxaraq səmada bir yanvar sisi
Dağlarda bir başqa çovğunluq çağlayır
Bənövşədə, kəklikotunda səs var
Bir vəhy uğultusu arılarda
Qarışqalarda hikmət susqunluğu
Barışı və çalışqanlığı sağlam fikrin
toplanmış, hazırlanmış diriliş saatı gəldi
Yüksəldi bir ağardı müsəlman üfüqlərdən
Müsəlman mövsüm və iqlimlərdən
Sözlər sıçradı illərcə gözləmişdilər daşlarda
Bir dəyişiklik oldu düzənliklərdə
Səslərin dayandığı yerdə
Gizlicə davam edər bir ayə sonu yumşaqlığı

Duruşlar bir müddətdən enmişcəsinə ciddi
Davranışlar ölçülüb-biçilmiş
Böyük çevriliş başlamadan əvvəl
Özünü buraxaraq kainatın qaçdığı o Bütünə
Bir qanad çırpmasıyla qarışdığı Varlığa
Düzəldib dünyanı yenidən
Cəmiyyəti dirildən insanı çatdıran
Şeytanı bir divar ucunda sıxışdıran
Dam saçaqlarında qovalayıb
Köhnə sərhədinə itələyən
Şəhərlərə xoşbəxtliyi
Bir ikindi anması kimi gətirən
Hər evə mərmər paylayan
Şəlalə paylaşdıran
Qan kanalı uzadan
Əngəlli bir hamiləlikdə
Yatağından qorxan qadınlara
Süd verin, süd verin uşaqlara
Alaraq nar, əncir kimi yeməklərdən
Zeytunlardan şit evi sığınacağı
Məryəmin dayağı xurmadan
Tükənin, var olun varlığıyla Varlığın
Ki, qəti görəcəksiniz
Üzünüzü hara çevirsəniz, çevirin
Odur var olan, var edən
Görünüş verən dəyişdirən
Paylayan, yığan
Heç olmamışa çevirən
Bir anda gəlib
Keçmişə zamanı çevirən
Səsi səsləndirən, yeri canlandıran

Sonra açıb yeli yürüyən bir qəbir kimi

İçinə yeri yerləşdirən, basdıran

Bir qan laxtasından, nütfədən

Bir insan törədən,

Sonra onu böyüdən

Sözünə qulaq verən, ağız edən

İşinə onda bir qabiliyyət verən, özü mayalandıran

İnanc verən, səbir verən

Qurana da, şeytana da

Yoldaş edən dost edən vaxtda

Bir örtü kimi birdən açan dünyanı

Sonra birdən yığan ortalığı

Ən böyük kolleksiya sahibi

Kəllələrindən, sümüklərdən

Günəşdən, aydan, ulduzlardan

Cənnət və cəhənnəmlərin

İtdiyi, doğulduğu girdabından

Hər dövr bir başqa səs

Eşidilən mizrabından

Doğulmamış və ölməyən

Gəlməmiş və getməyən

**(SEZAİ QARAQOÇ)**

"Qardaşın sən soyda, çıx ey Mehdiyi-sahib zühur!

Milləti-İslamı pamal etdi Çeyşi fütur.

Qalmadı İslam içində, bir yerdə aramü-hüzur

Örtdü mülkü ilğıma ləşkəri-zülmü-şürir...

**(ZİYA PAŞA)**

## SON GÜNƏŞ

Hicri 1390-cı il, Ramazan ayı, qədr gecəsi
Naxışçının naxış etdiyi dirilişin hecası ki,
Tərənnümə başladı bir anda bütün aləm
Dar bir otaqda gözü yaşlı bir adəm
Bağlanmış səcdəgaha haşyətlə inləyərək
Tükənmiş gözdə yaşlar indi ağlayır ürəkdən
Məhz o an parladı üfüqdə parıltılı nur
Sonra bir günəş doğuldu ziyasıyla uzaqdan
Aləm də gördüyümüz islami dirilişin
Səbəbi məhz bu şəms bunu beləcə bilin
On il əvvəl doğuldu parlayar bu əsr əvvəli
Miladi sanmayın hicri əsrin əvvəli.
Bəli, bu idi gözlənilən İslamın son fərdası
Silinər, gedər artıq küfrün uzun gecəsi
Səni gözləməkdən çaşğına dönmüşdük biz
Doğuldun bir daha batma, batma, Allah xatirinə
Bu millətin nəsibi əsrlər vardır ki,
Cəlal İlahi təcəlli etsin qurban olduğum Camal
Ey ümmət, diqqət yetirin hicri əsr əvvəlinə
Şahid olacaqsınız günəşin doğuşuna
Bağrı yanıq İslama əsəcək badi-səba
Eşidin bu müjdəni "vetubalil gureba"
**(ADİL GÖKBURUN)**

## DÜNYA İLƏ HASBİHAL (GÖRÜŞMƏ)

Ey gəldi-gedər fani dünya, sənin də soyun gəldi,
Yükünü aldın artıq, yaş isə kamala çatdı.
Zavalı göstərən kiçik əlamətlərdən
Hansıdır çıxmayan, hansıdır bir desənə
Zinalar, binalar, pavilyon qadınlarımı?
İçkilər, qumarlar, şərab dükanlarımı?

Vurmalar, qırmalar, insan öldürmələrmi?

Min bir növ hiylələr tələ qurmalarımı?

Zülmlər, cəfalar haqqın qovulmasımı?

Hıçqıraraq, ağlayaraq qəribə boğulmasımı?

En, min dünyası deyərlər indi növbə səndədir

Comərd nəbi ilə Rəsullar tükənəcəyi

Nəmrud yetişdirməkdən sən də bezdin, elə deyilmi?

Kədərlənmə çox yaxında gələcək Mehdi

Qaralmış sifətini, işıqlandırar günəşi

O Mehdi ki, zavalın ilk böyük əlaməti

Sonunu xəbər verən qiyamətin ilk fəcri.

**(ADİL GÖKBURUN)**

## İMAM MEHDİ

Ulduzla doğulacaq İslam günəşi,

İmanla sönəcək küfrün atəşi.

Məhəmməd ümməti gözləyir səni

Nə olar qiyamət, imamul-Mehdi

Möminin əziyyəti sənlə sona çatar,

Qırılar zəncirlər iman xilas olar

Üfüqlər nurlanar zülmət yox olar

Gözlənilən günəşsən imamul Mehdi.

Yaxınlaşdı zamanın titrəyər tağutlar (üsyankarlar)

Yellənər, üzü üstə aşar bütlər

Adından çox qorxar müasir nəmrudlar

Bir sadə qılıncsan, imamul Mehdi.

Atomlar susarlar sənin qarşında

Əmin olarsan göylərlə yerin

Fatimə övladı, son peyğəmbərin

Xəlifətullahsan (hökmdarsan) imamul-Mehdi

Ayların içində təkdir Ramazan

Cəbrayıl səsini eşitdiyi zaman

Bəlkə qiyam etdi sahibi-zaman

İntizarımızsan imamul-Mehdi.

**(ADİL GÖKBURUN)**

# AXIRZAMANLA ƏLAQƏDAR MÜXTƏLİF MÖVZULAR

## GİRİŞ

Axırzaman mövzusu bəzi insanlar üçün tanış bir mövzu olmaya bilər. Buna görə əvvəlcə bu anlayışı qısaca olaraq açıqlamağımızda fayda var. Axırzaman son dövr mənasını verir və İslama görə qiyamətə yaxın bir dövrdə yaşanacaq bir dövrü ifadə edir.

Qurandakı işarələr və Peyğəmbərimizin hədislərindəki təfərrüatlı şərhləri bir yerə yığıldıqda ortaya əhəmiyyətli bir nəticə çıxır. Ayə və hədislər Axırzamanın iki mərhələdən ibarət olduğunu göstərir. Birinci dövrə dünyanın maddi və mənəvi problemlərlə dolu olduğu bir dövr, bunun ardınca gələcək ikinci dövrü isə "Qızıl dövr" olaraq adlandırırlar. Bu Quran əxlaqının və hər sahədə üstün bir rifahın yaşanacağı bir dövrdür. Dünyanın Qızıl dövrün sona çatması ilə birlikdə çox sürətli bir ictimai çökməyə girməsi ilə də qiyamət saatının gəlişi gözlənilir.

Bu kitabda Axırzaman əlamətlərini ayə və hədislər üzərində araşdırdığımız bəzi kitablarımızdan seçmələr edilmişdir. Açıq-aydın görünür ki, əsas mövzu olan işarələr bir-birinin ardınca, bir-bir təsvir edildiyi kimi, hal-hazırda yaşadığımız dövrdə reallaşmağa başlamışdır. On dörd əsr əvvəl bildirilən əlamətlərin yaranması inananların Allaha olan iman və bağlılıqlarını artıran son dərəcə böyük hadisələrdir. Bu qədər işarənin bir yerdə və çox qısa bir zaman içində ard-arda reallaşması əlbəttə ki, təsadüf deyil. Bu işarələr Allahın inanan qullarına bir müjdəsidir.

Növbəti səhifələrdəki qeydlərim Rəbbimizin: **"De ki: Allaha həmd olsun. O sizə ayələrini göstərəcək, siz də onları bilib tanıyacaqsınız". (Nəml surəsi, 93)** vədi üzərində hazırlanmışdır.

Xüsusilə, ifadə etmək istədiyimiz əhəmiyyətli bir xüsusiyyət də budur ki, hər şeyin doğrusunu Allah bilir. Hər mövzuda olduğu kimi Axırzaman haqqında da, Onun bizə öyrətdiyindən başqa heç bir məlumatımız yoxdur.

# I HİSSƏ:

# QİYAMƏT ƏLAMƏTLƏRİ

**Qiyamətin əlamətləri Quranda bildirilmişdir**

**Məgər kafirlər o Saatın qəfildən onlara gəlməsindən başqa bir şeymi gözləyirlər? Artıq onun əlamətləri gəlmişdir. O Saat onlara gəlib yetişdiyi zaman ibrət almaları nəyə yarayar? (Məhəmməd surəsi, 18)**

Bu ayə ilə gələcəyi bildirilən qiyamət əlamətlərinin Quranda əvvəlcədən bildirildiyi aydın olur. Bu "böyük xəbər"in işarələrini anlamaq üçün ayələr üzərində düşünməliyik. Əks halda, ayədə bildirildiyi kimi, qiyamət anı gəldikdən sonra düşünməyin heç bir faydası olmayacaq.

**Qiyamətin yaxın olduğu Quranda açıq şəkildə xəbər verilmişdir**

Allah ayələrində qiyamət saatının yaxın olduğunu və buna şübhə olmadığını bildirmişdir:

**Həqiqət budur ki, qiyamət saatı yaxınlaşır, ona şübhə yoxdur... (Həcc surəsi, 7)**

**Biz göyləri, yeri və hər ikisinin arasındakıları haqq-ədalətlə yaratdıq. Şübhəsiz ki, o qiyamət saatı da yaxınlaşaraq gəlir... (Hicr surəsi, 85)**

Quranın qiyamət ilə əlaqədar xəbərindən 1400 ildən çox müddət keçdiyini və bu müddətin də bir insanın həyatı ilə müqayisə edərkən uzun olduğunu fikirləşənlər ola bilər. Ancaq burada əsas olan Yerin, Günəşin, ulduzların, bir sözlə bütün kainatın sonu olmasıdır. Kainatın milyardlarla illik keçmişini göz qabağına gətirsək, 14 əsrlik bir müddətin çox qısa olduğunu anlayarıq.

**İslam əxlaqı yer üzünə hakim olacaq**

Allah şirk qoşmadan, yalnız Ona qulluq edən, Onun razılığını qazanmağa çalışan, xeyirli işlər görən möminləri "güc və iqtidar sahibi" edəcəyini müjdələmişdir:

**Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi onları da yer üzünün varisləri edəcək, möminlər üçün onların Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir. Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar. Bundan sonra küfr edənlər - məhz onlar fasiqlərdir. (Nur surəsi, 55)**

Haqq olan dini səmimi şəkildə yaşayan saleh qulların yer üzünə varis etməsinin ilahi bir qanun olduğu da növbəti ayələrdə bildirilir:

**Biz Zikrdən (Lövhi-məhfuzdakı yazıdan) sonra nazil etdiyimiz kitablarda da yazmışdıq ki, yer üzünə Mənim əməlisaleh qullarım varis olacaqlar. (Ənbiya surəsi, 105)**

Şübhəsiz ki, Allah vədini yerinə yetirəndir və vədindən dönməyəndir. Azğın fəlsəfələri, səhv ideologiyaları və batil din anlayışlarını ortadan qaldıracaq olan, insanları qaranlıqlardan işıqlığa çıxaracaq olan gözəl əxlaq İslam əxlaqıdır. Yuxarıdakı ayələrdə vurğulandığı kimi  inkarçıların və müşriklərin bu böyük hadisəyə maneə törədə bilməsinə isə söz ola bilməz.

**Ayın yarılması bir qiyamət əlamətidir**

Quranın 54-cü surəsi "Qəmər"in türkcə mənası "ay"deməkdır. Bu surənin böyük bir hissəsində özlərinə göndərilən peyğəmbərlərin xəbərdarlıqlarını yalanlayan Nuh, Ad, Səmud və Lut xalqının, Firon və ətrafındakıların başlarına gələn bəlalar izah edilir. Eyni zamanda birinci ayədə qiyamət vaxtı ilə əlaqədar çox əhəmiyyətli bir xəbər verilir:

**O saat (qiyamət saatı) yaxınlaşdı və Ay yarıldı. (Qəmər surəsi, 1)**

Ayədə istifadə edilən "yarmaq" felinin ərəbcə mənası "şakka"dır. Bu sözün ərəb dilində müxtəlif mənaları var. Bəzi Quran təfsirlərində "ikiyə yarılmaq" mənası seçilmişdir. Bununla yanaşı, "şakka" sözü ərəbcədə "torpağı sürtmə, torpağı qazma" mənalarında da istifadə edilir.

İkinci mənasına misal olaraq Əbəsə surəsinin 26-cı ayəsində keçən istifadəsini nümunə verə bilərik:

***Həqiqətən, yağışı bol-bol Biz yağdırırıq. Sonra da yeri çat-çat yarıb orada taxıl yetişdiririk. Habelə üzüm və yonca, zeytun və xurma ağacları. (Əbəsə surəsi, 25-29)***

Göründüyü kimi, bu ayədəki "şakka" ifadəsi "yerin ikiyə yarılması" mənasında deyil, "müxtəlif bitkilərin yetişməsi üçün torpağın sürtülərək yarılması" mənasında istifadə edilmişdir.

Məhz, tam bu nöqtədə 1969-cu ilə geri dönsək Quranın çox böyük bir möcüzəsi ilə qarşılaşmış olarıq. Qəmər surəsində 14 əsr bundan əvvəl xəbər verilən ayə 20 iyul 1969-cu ildə Ay səthində edilən işlər ilə reallaşmışdır. Amerikalı astronavtların Aya ayaq basaraq, Ay torpağı üzərində elmi araşdırmalar aparmaları, daş və torpaq nümunələri toplamaları Ayın yarılması ilə əlaqədar ayədəki ifadələrə tam olaraq uyğun gəlir.

**Peyğəmbərimiz (s.ə.v)-in açıqladığı əlamətlər bir-birinin ardınca və ifadə edildiyi şəkildə, yaşadığımız dövrdə həyata keçir.**

Araşdırmamıza səbəb olan hədislərin Peyğəmbərimiz tərəfindən deyildiyi sözlər olduğu asanlıqla aydın olur. Əlimizdə doğrunu səhvdən ayırmağa əsas verən metod bilgisi var. Bilindiyi kimi, qiyamət ilə əlaqədar hədislər gələcəyə aid hadisələri ehtiva edir. Buna görə zaman içərisində hədisin bir-bir reallaşması sözlərin qaynağına aid bütün şübhələri ortadan qaldırır.

Mövzunun əsas meyarı Axırzaman və qiyamət əlamətləri üzərində araşdırma aparan bir çox İslam alimi tərəfindən də istifadə edilmişdir. Mövzunun mütəxəssislərindən olan Bədiüzzaman Səid Nursi də Axırzaman haqqındakı hədislərin indiki vaxtda meydana gələn və gözlə görünən hadisələrlə tam uyğun gəlməsi ilə hədislərin həqiqət olduğunu göstərdiyini ifadə etmişdir.

Hədislərdə bildirilən işarələrin bir qismi 1400 illik İslam tarixinin hər hansı bir dövründə dünyanın müəyyən bir bölgəsində müəyyən bir ölçüdə görünə bilər. Belə bir vəziyyət o dövrün Axırzaman olduğunu göstərməz. Çünki bir dövrün Axırzaman olaraq xarakterizə edilməsi üçün qiyamət əlamətlərinin hamısının eyni dövrdə bir-birinin ardnca reallaşmalıdır. Bu vəziyyət bir hədisdə belə bildirilir:

***"Qiyamət əlamətləri bir-birinin ardınca meydana gəlir. Bir düzüm muncuqların ard-arda qopması kimi".*** *(Ramuz-Əl Ehadis, 277/6; Camiü's-Sagir, 3/167)*

## Allahın açıq şəkildə inkar edilməsi

***"Allah açıq-aşkar inkar edilmədikcə qiyamət qopmaz."*** *(Son Zamanlarla İlgili Hadisler, səh. 85; Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 27)*

Peyğəmbərimizin dövründən indiyə kimi keçən 14 əsr müddətində bir çox azğın fəlsəfə və fikir sisteminin olması tarixi bir həqiqətdir.Bununla yanaşı XIX əsrin ortalarına qədər ateizmin açıq-aşkar təbliğatı kimi bir ideologiya hələ qeyd olunmamışdır. Bu tarixdən sonra isə darvinizm, kommunizm, faşizm, materializm, anarxiya, nihilizm, egzistansializm kimi fikir cərəyanları bu istiqamətdə fəaliyyətlərə başlamışdılar, bir yaradıcını qəbul etmədiklərini, Allahı tanımadıqlarını hər fürsətdə dilə gətirmişdilər. XIX əsrdə irəli sürülən azğın fikirlər XX əsrdə ətrafına çoxlu sayda tərəfdar toplamış, beləliklə, tarixdə bənzəri görünməyən bir vəziyyət yaranmışdır.

## Döyüşlər və anarxiya

***"Dünya hərc-mərclik içində qaldığı, fitnələr zühur etdiyi, yollar kəsildiyi, bəziləri bəzilərinə hücum etdiyi zaman..."*** *(Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh.454)*

***"Qiyamətə yaxın anarxiya və qarışıqlıq olacaq".*** *(Suyuti, Cami'üs Sagir, 3/211; Ahmed bin Hanbel, Müsned, 2/492)*

*"Bu hadisələr baş vermədikcə qiyamət qopmayacaq... Ölümlər və qırğınlar yayılacaq..."* *(Camiüs-Sagir, 3:211, Müsned, 2:492, 4:391, 392)*

Geridə qalan 14 əsrlik dövrə baxsaq görərik ki, XX əsrdən əvvəlki döyüşlər regional olaraq sabit qalmışdır. Bütün dünya xalqlarına, siyasi mexanizmlərə, iqtisadiyyatlara, ictimai strukturlara təsir edən döyüşlər isə yaxın keçmişdə yaşanan iki dünya müharibəsində olmuşdur. I Dünya müharibəsində 20 milyondan, II Dünya müharibəsində isə 50 milyondan çox insan ölmüşdür. II Dünya müharibəsi eyni zamanda tarixin ən qanlı, ən böyük və ən dağıdıcı müharibəsi olmuşdur, bu danılmaz bir həqiqətdir.

II Dünya müharibəsindən sonra Soyuq müharibə, Koreya müharibəsi, Vyetnam müharibəsi, Ərəb-İsrail döyüşləri, İran-İraq müharibəsi və Körfəz müharibəsi dövrümüzün ən qızğın döyüşləri olmuşdur. Regional döyüşlər, iğtişaşlar və vətəndaş müharibələri eyni zamanda dünyanın bir çox yerində dağıdıcı nəticələrə səbəb olmuşdur. Bosniya, Fələstin, Çeçenistan, Əfqanıstan, Kəşmir və bir çox yerdə yaşanan problemlər insanlığa təsir etməyə davam edir.

Müharibələr kimi bütün dünya insanlarını dərindən maraqlandıran digər mövzu isə qarışıqlıqdır, hansı ki, beynəlxalq səviyyədə planlaşdırılan terror hadisələrindən ibarətdir. Boston Universitetindən Prof. Vojtech Mastninin ifadə etdiyi kimi, terror hadisələri XX əsrin ortalarından sonra qat-qat artmıştır.

Həqiqətən, terrorizm XX əsrə xas olan faktlardandır. İrqçilik, kommunizm və buna oxşar olan ideoloji məqsədlər və ya etnik iddialarla ortaya çıxan təşkilatlar, inkişaf edən texnologiyanın da köməyi ilə, qanlı hadisələr törətmişlər. Bu kədərli hadisələrdə çox qan tökülmüş, saysız-hesabsız insan ölmüş və ya şikəst qalmışdır.

## Böyük şəhərlərin yox olması (məhv olması): döyüşlər və fəlakətlər

***"Böyük şəhərlər, elə bil, dünən yoxmuş kimi həlak (yox) olar."*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 38)*

Hədisdə ifadə edilən böyük şəhərlərin həlak olması, döyüşləri və müxtəlif təbii fəlakətlər nəticəsində meydana gələn dağılmaları ifadə edir. Yaxın keçmişdə inkişaf etdirilən nüvə silahları, təyyarələr, bombalar, mərmilər və buna bənzər müasir silahların döyüşlərdə istifadə edilməsi, böyük təxribata səbəb olmuşdur. Bu qorxunc silahlar tarixdə bənzəri görünməmiş, müqayisə edilməyəcək dərəcədə dağılmalara səbəb olmuşdur. Əlbəttə, hədəf mövqeyindəki böyük şəhərlər də bu dağılmalardan birinci dərəcədə təsirlənən yerlər olmuşdur. II Dünya müharibəsinin bənzərsiz nəticələri buna bir nümunədir. Dünya tarixinin ən böyük müharibəsində atom bombasının istifadə edilməsi ilə Hiroşima və Naqasaki tamamilə yerlə-yeksan

olmuşdur. Avropanın paytaxtları və dəyərli şəhərlərin böyük qismi də ağır bombardmanlar nəticəsində dağılmışdır.

Son illərdəki qasırğa, fırtına, tufan və burulğan kimi fəlakətlər, başda Amerika qitəsi olmaqla, dünyanın bir çox yerində dağıdıcı zərərə səbəb olmuşdur. Bunlara əlavə olaraq sellər nəticəsində də bəzi məskunlaşma mərkəzləri sular və palçıq altında qalmışdır. Həm də, zəlzələlər, vulkanlar və sunami dalğalarının meydana gətirdiyi böyük fəlakətlər də unudulmamışdır.

**Zəlzələlər**

**"Bu hadisələr meydana gəlmədikcə qiyamət qopmayacaq... zəlzələlər çoxalacaq..."** *(Ramuz-El Ehadis, 476/11)*

**"Qiyamətdən əvvəl iki böyük hadisə olacaq... və sonra da zəlzələli illər".** *(Ramuz-El Ehadis, 187/2)*

Son bir neçə il ərzində baş verən və davam edən böyük zəlzələlər dünya ictimaiyyətinin gündəmində davamlı olaraq ön sıralardadır. Amerikan Milli Zəlzələ İnformasiya Mərkəzi məlumatlarına əsasən 1999-cu ildə yer üzündə 20.832 dəfə zəlzələ olmuşdur.

**Yoxsulluq**

**"Kasıblar çoxalacaq".** *(Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 455)*

**"Aclıq və böhran (maddi çətinlik) olduqca yayılacaq".** *(Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 440)*

Peyğəmbərimizin işarə etdiyi dövr hal-hazırda yaşadığımız dövrün şərtlərini təsvir edir. Keçmiş əsrlərə baxıldıqda quraqlıq, döyüşlər və ya fəlakətlər kimi səbəblərlə əziyyət və çətinliklər yaşandığı, lakin bunların keçici olması və regional ölçülərdə qaldığı görünür. Halbuki, hal-hazırda yaşadığımız dövrdə olan kasıblıq və maddi çətinlik keçən əsrlərdəki kimi keçici deyil, əksinə davamlı, nizamlı və böyük ölçüdədir.

İndiki vaxtda dünya daxilində kasıblıq çox ciddi səviyyəyə çatmış vəziyyətdədir. UNICEF-in son hesabatlarına diqqət yetirsək, dünya əhalisinin 1/4-i təsəvvür edilməyəcək dərəcədə çətinlik və yoxsulluq şərtləri altında yaşayır.

1 milyard 300 milyon adam gündə 1 dollar, 3 milyard adam da gündə 2 dollar ilə dolanır. Təxminən 1 milyard 300 milyon insan təmiz sudan, 2 milyard 600 milyon insan sağlamlıq xidmətlərindən istifadə edə bilmir.

## Əxlaqi çöküş

***"Fahişəlik açıq olmadan... qiyamət qopmaz".*** (Ramuz-El Ehadis, 91/7)

***"Zinanın çoxalması qiyamət əlamətlərindəndir".*** *(Buhari, Tecrid'i 1/16)*

***"Qiyamət yaxınlaşdıqda... qadınla (kişilər) yolun ortasında cinsi münasibətdə olacaq dərəcədə həya ortadan qalxar."*** (Son Zamanlarla İlgili Hadisler, səh. 97)

***"Kişilər kişilərlə, qadınlar qadınlarla qane olduqları zaman... qiyamət yaxınlaşacaq".*** *(Ramuz-El Ehadis, 448/8; Ölüm Kıyamet ve Diriliş, səh. 480)*

Hal-hazırda yaşadığımız dövrdə dünya cəmiyyətlərinin ictimai strukturlarını təhdid edən çox böyük bir təhlükə mövcuddur. Bu təhlükə insan bədənini ölümə aparan viruslara bənzər şəkildə, hiyləgərcəsinə fəaliyyəti ilə cəmiyyəti uçuruma aparır. Məhz bu təhlükə bir insan birliyinə dəstək olan əxlaqi dəyərlərin korlanmasıdır. Homoseksuallıq, fahişəlik ticarətinin, evlilik xaricində cinsi əlaqənin, cinsi cinayətlərin, pornoqrafiyanın, təcavüz hadisələrinin və cinsi xəstəliklərin artması əxlaqi çöküşün bəzi əsas göstəriciləridir.

## Haqq dinin və Quran əxlaqının tərk edilməsinə dair bəzi hədislər

***"İnsanlar elə bir dövrdə yaşayar ki, Qurani-Kərim bir yerdə, insanlar isə başqa bir yerdə olarlar".*** *(Son Zamanlarla İlgili Hadisler, səh. 23)*

***"Bundan sonra bəzi Quran oxuyan, lakin oxuduqları dillərində qalan, ürəklərinə enməyən insanların törəyəcəyi bir zaman gələcəkdir".*** *(Son Zamanlarla İlgili Hadisler, səh. 61)*

***"Haram olan şeylərin halal sayılması... qiyamət əlamətlərindəndir".*** *(Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 454)*

***"Alimlər elmi sırf pul qazanmaq üçün öyrəndikdə... dini, dünyalıq qarşılığında satdıqlarında... hökmü satdıqlarında... qiyamət yaxınlaşmış olacaq".*** *(Ölüm Kıyamet ve Diriliş, səh. 480)*

***"Yaxşılıq tərk edilib əmr edilmədikcə, pislik işlənib əldən qoyulmadıqca... qiyamət qopmaz".*** *(Ölüm Kıyamet ve Diriliş, səh. 480)*

***"Qiyamət yaxınlaşar, xeyirli işlər azalar".*** *(Kıyamet Alametleri, səh. 264)*

***"(Qiyamətin bir əlaməti) Məscidlər içərisində günahkarların səslərinin yüksəlməsi və günahkarların dinin əmr etdiklərini yerinə yetirən səmimi möminlərə qarşı qalib gəlib, onlara hökm etmələridir".*** *(Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 450)*

## Qiyamətdən əvvəl saxta peyğəmbərlər ortaya çıxacaq

*"Hər biri Allahın elçisi olduğunu iddia edən otuza yaxın yalançı çıxmadıqca qiyamət qopmayacaq". (Tirmizi, Fiten 43; Ebu Davud, Melahim 16)*

Mütəxəssislər saxta məsih axınlarının 1970-ci illərdə ortaya çıxmağa başladığını, o tarixdən bu günə kimi sürətlə artdığını bildirir. Mütəxəssislərə görə, bu artıma səbəb olan əsas iki təməl xüsusiyyəti var. Bunlardan biri kommunizmin dağılması, digəri isə internet texnologiyasının təmin etdiyi imkanlardır.

## Hz. İsanın yer üzünə dönüşü Quranda xəbər verilmişdir

Allah inkarçıların hz. İsanı öldürmələrinə icazə verməmiş, onu Öz qatına yüksəltmişdir və təkrar yer üzünə dönəcəyini də insanlara bildirmişdir. Hz. İsanın yer üzünə dönüşü ilə əlaqədar olan xəbərlər Quranda bildirilir.

- İsa Peyğəmbəri öldürmək üçün tələ quran inkarçıların, onu qətiliklə öldürə bilmədikləri bir ayədə belə təsfir olunur:

**bir də: “Həqiqətən, biz Allahın elçisi Məryəm oğlu İsa Məsihi öldürdük!” - dediklərinə görə lənətə düçar edildilər. Halbuki onu nə öldürdülər, nə də çarmıxa çəkdilər. Onlara ancaq İsanın bənzəri göstərildi. Şübhəsiz ki, bunda ixtilaf edənlər onun barəsində şəkk-şübhə içindədirlər. Bu haqda onların, zənnə uymaqdan başqa heç bir məlumatı yoxdur. Onlar onu öldürdüklərinə yəqinliklə əmin deyillər. (Nisa surəsi, 157)**

- Hz. İsanın ölmədiyi insanların yaşadığı boyutdan (aləmdən) alınaraq, Allah qatına yüksəldildiyi ayədə belə bildirilir:

**Əksinə, Allah onu Özünə tərəf qaldırmışdır. Allah Qüdrətlidir, Müdrikdir. (Nisa surəsi, 158)**

- Ali İmran surəsinin 55-ci ayəsində hz. İsaya uyanların qiyamətə qədər, inkar edənlərə qalib gələcəkləri xəbər verilmişdir.

2000 il əvvəl hz. İsaya tabe olan həvarilərin heç bir siyasi gücə sahib olmadıqları tarixi bir həqiqətdir. Bu dövr ilə indiki dövrdə yaşayan və özlərini xristian olaraq adlandıranların isə başda təslis (üçləmə) olmaqla bir çox azğın inancı müdafiə etdikləri, buna görə həqiqi mənada isəvi olaraq ifadə edilə bilməyəcəkləri də açıqdır. Çünki Quranın bir çox ayəsində təslisə inananların inkara düşdükləri ifadə edilir. O halda, qiyamət saatından əvvəlki dövrdə inkarçılara üstün gələcək əsl isəvilər ortaya çıxacaq. Ali İmran surəsindəki ilahi vəd də beləcə təcəlli edəcək. Şübhəsiz, müjdələnmiş bu birlik hz. İsanın yer üzünə dönməsi ilə özünü büruzə verəcək.

- Quranda verilən bir başqa məlumat da hz. İsanın ölümündən əvvəl bütün əhli-kitabın ona iman etməsi ilə əlaqədardır:

**Kitab əhlindən elə kimsə yoxdur ki, (öz ölümündən, yaxud İsanın) ölümündən əvvəl ona iman gətirməsin. Qiyamət günü isə İsa onların əleyhinə şahid olacaqdır. (Nisa surəsi, 159)**

Bu ayədən də açıq-aydın görünür ki, hz. İsa ilə əlaqədar olaraq hələ reallaşmayan üç ilahi vəd qalmışdır. İlk öncə, İsa peyğəmbərin hər insan kimi yaşadıqdan sonra öləcəyi bildirilir. İkinci vəd, bütün əhli-kitabın onu cismani olaraq görəcəyi və ona yaşayarkən itaət edəcəyidir. Şübhəsiz, bu iki xəbər də hz. İsanın qiyamət əvvəlindəki gəlişində reallaşacaq hadisələrdir. Ayədəki üçüncü xəbər hz. İsanın əhli-kitab haqqındakı şahidliyi də qiyamət günündə reallaşacaq.

- Quranda hz. İsanın ölümünü açıqlayan bir başqa ayə isə Məryəm surəsində keçir.

**"Doğulduğum gün də, öləcəyim gün də, yenidən dirildiləcəyim gün də mənə salam olsun!" (Məryəm surəsi, 33)**

Bu ayə Ali İmran surəsinin 55-ci ayəsiylə birlikdə araşdırıldıqda çox əhəmiyyətli bir həqiqətə işarə edilir. Ali İmran surəsindəki ayədə hz. İsanın Allah qatına yüksəldiyi ifadə edilir. Bu ayədə, ölmə, ya da öldürülmə ilə əlaqədar bir məlumat verilmir. Ancaq Məryəm surəsinin 33-cü ayəsində hz. İsanın öləcəyi gündən bəhs edilir. Bu ikinci ölüm isə ancaq hz. İsanın ikinci dəfə dünyaya gəlişi və bir müddət yaşadıqdan sonra vəfat etməsiylə mümkün ola bilər. (Doğrusunu Allah bilir)

- Hz. İsanın yer üzünə dönüşünə işarə edən bir başqa ayə belədir:

**Ona (hz. İsaya) kitabı (hikməti) Tövratı və İncili öyrədəcək. (Ali İmran surəsi, 48)**

Bu ayədə keçən "kitab" sözünün nəyi ifadə etdiyini anlamaq üçün mövzu ilə əlaqədar digər Quran ayələrinə baxdığımızda bunu anlayırıq ki, əgər Tövrat və İncil eyni ayədə bir yerdə istifadə edilirsə və eyni zamanda "kitab" sözü bunlarla yanaşı verilibsə, buradakı “kitab” sözü Quran mənasını ifadə edir. Ali İmran surəsinin 3-cü ayəsini buna bir misal olaraq göstərə bilərik. Burada 48-ci ayədəki hz. İsanın öyrənəcəyi bildirilən kitab ancaq Quran ola bilər. İsa Peyğəmbərin bundan təxminən 2000 il əvvəlki həyatında, Tövrat və İncil üzrə bilik sahibi olduğu bilinir. Quranı öyrənməsi isə yalnız yer üzünə yenidən gəldiyi zaman reallaşa bilər.

- Ali İmran surəsinin 59-cu ayəsindəki, **"Şübhəsiz, Allah qatında İsanın vəziyyəti, Adəmin vəziyyəti kimidir..."** ifadəsi də olduqca diqqət çəkir. Bu ayədə iki Peyğəmbər arasındakı bəzi oxşarlıqlara diqqət yetirilir. Bilindiyi kimi, həm hz. Adəm və hz. İsa atasız doğulmuşdular. Eyni zamanda, hz. Adəmin cənnətdən yer üzünə endirilməsi, hz. İsanın Axırzamanda Allah qatından yer üzünə endirilməsində də oxşarlıq ola bilər.

- Quranda hz. İsa ilə əlaqədar belə bir məlumat da verilir:

**Həqiqətən, İsanın yer üzünə enməsi Saatın yaxınlaşmasının əlamətidir. Qiyamətə şəkk etməyin və Mənə tabe olun. Budur, düz yol! (Zuxruf surəsi, 61)**

Hz. İsanın Quranın endirilməsindən 6 əsr əvvəl yaşadığını bilirik. Bu halda, yuxarıdakı ayədə bildirilən onun ilk həyatının deyil, Axırzamandakı dönüşünün qiyamət üçün bir məlumat qaynağı olacaq (Doğrusunu Allah bilir). Hz. İsanın ikinci gəlişi həm xristian, həm də İslam dünyasında səbirsizliklə gözlənilir. Bu müqəddəs qonağın yer üzünü şərəfləndirməsiylə də çox əhəmiyyətli bir qiyamət əlaməti daha da təcəlli etmiş olacaq.

- Hz. İsanın təkrar dünyaya gələcəyi ilə əlaqədar bir başqa dəlil isə Maidə surəsinin 110-cu ayəsində və Ali İmran surəsinin 46-cı ayəsində keçən "kəhlən" sözüdür. Ayələrdə belə buyrulur:

**Allah deyəcəkdir: "Ey Məryəm oğlu İsa! Sənə və anana olan nemətimi xatırla! O zaman səni müqəddəs ruhla qüvvətləndirmişdim. Sən həm beşikdə ikən, həm də yetkin çağında insanlarla danışırdın..." (Maidə surəsi, 110)**

**O, həm beşikdə ikən, həm də yetkin çağında insanlarla danışacaqdır və salehlərdən olacaqdır". (Ali İmran surəsi, 46)**

Bu söz Quranda yalnız yuxarıdakı iki ayədə və yalnız hz. İsa üçün istifadə edilmişdir. Hz. İsanın yetkin halını ifadə etmək üçün istifadə edilən "kəhlən" sözünün mənası "otuz ilə əlli yaşları arasında, gənclik dövrünü bitirib qocalığa ayaq basan, yaşı kamala çatmış kəs" deməkdir. Bu söz İslam alimləri arasında ittifaqla "35 yaşdan sonrakı dövrə işarə edir" kimi tərcümə ediliib.

Hz. İsanın gənc yaşlarında-otuz yaşının əvvəlində göyə yüksəldiyini, yer üzünə endikdən sonra qırx il qalacağını ifadə edən və İbn Abbasdan rəvayət edilən hədisə əsaslanan İslam alimləri hz. İsanın yaşlılıq dövrünün təkrar dünyaya gəlişindən sonra olacağını, buna görə bu ayənin hz. İsanın zühuruna dair bir dəlil olduğunu demişdilər.

## Peyğəmbərimiz hz. İsanın dönüşünü müjdələmişdir

***Hz. İsanın dünyaya təkrar gəlişi ilə əlaqədar Peyğəmbərimizin də bir çox hədisi var. İslam alimlərindən Şövqani hz. İsanın dönüşünə aid 29 hədis olduğunu, bu hədislərdə verilən məlumatların da səhv olma ehtimalının olmadığını ifadə etmişdir.*** *(Sünen-i İbn-i Mace, 10/338)*

Bu mövzudakı bəzi hədislər belədir:

***"Həyatım əlində olan Allaha and içirəm ki, Məryəm oğlu İsa (ə.s)-ın ədalətli bir hakim olaraq sizlərin arasına enməsi şübhəsiz yaxındır".*** *(Sahihi Müslim, 6/532)*

***"İsa ibn Məryəm ədalətli bir hakim və ədalətli bir imam (dövlət başçısı) olaraq enmədikcə qiyamət qopmayacaq".*** *(Sünen-i İbn-i Mace, 10/340)*

Peyğəmbərimiz hz. İsanın gəldikdən sonra edəcəyi işlər barədə belə bildirmişdir:

***"İsa ibn Məryəm enər, qırx il Allahın kitabı və mənim sünnəmlə hökm edər, vəfat edər".*** *(Ahir Zaman Mehdi'sinin Alametleri, səh. 92)*

***"İsa ibn Məryəm mənim ümmətim içində ədalətli bir hakim və (rəhbərlikdə) ədalətli bir imam olacaq, xaçı qırıb əzəcək və donuzu öldürəcək... Qab su ilə dolduğu kimi yer üzü sülhlə dolacaq. Din birliyi də olacaq, artıq Allahdan başqasına ibadət edilməyəcək".*** *(Sünen-i İbn-i Mace, 10/334)*

# II HİSSƏ:

# AXIRZAMAN VƏ DABBƏTÜL-ƏRZ

**Peyğəmbərimiz və bəzi İslam böyükləri Axırzaman haqqında əhəmiyyətli şərhlər vermişlər.**

Allah Axırzamanın bu böyük qarışıqlıq içində olan insanları qurtaracaq. Yolunu azmış insanları doğru yola dəvət etmək üçün, Mehdi (doğruya aparan) sifətini daşıyan üstün əxlaqlı bir qulunu vəsilə edəcək. Mehdi əvvəl İslam dünyasında fikri-elmi mübarizə aparacaq və İslamın əslindən ayrı düşən müsəlmanları əsl imana və əxlaqa döndərəcək. Mehdinin bu nöqtədə üç əsas vəzifəsi vardır:

1. Allahı inkar edən və dinsizliyi dəstəkləyən fəlsəfi sistemlərin çürüdülməsi.

2. İslamı onu degenerasiya edən ikiüzlü insanların əlindən qurtararaq, xurafatçılığa qarşı mübarizə aparması. Quranın hökmlərinə uyğun, həqiqi İslam əxlaqının üzə çıxarılması və tətbiq edilməsi.

3. Bütün İslam dünyasını siyasi və ictimai cəhətdən gücləndirməsi, hüzur, əmin-amanlıq, təhlükəsizlik və rifahın təmin etməsi, ictimai problemləri həll etməsi.

Hədislərdə bildirildiyinə görə, Mehdi ilə eyni dövrdə dünyaya yenidən dönəcək olan hz. İsa isə xüsusilə, xristian və yəhudi dünyasına xitab edəcək, onları düşdükləri xurafatlardan ayrılıb Qurana uyğun şəkildə yaşamağa dəvət edəcək. Xristianların hz. İsaya tabe olması ilə yanaşı, İslam və xristian dünyaları tək bir inanc altında birləşəcək və dünya "Qızıl dövr" olaraq xatırlanan böyük bir sülh, təhlükəsizlik, xoşbəxtlik və rifah dövrü yaşayacaq.

**Mehdinin çıxış əlamətləri:**

**Fitnələrin çoxalması**

Fitnə mühitləri, dərin imana sahib olan möminlər üçün imanlarının, səbirlərinin və axirətdəki dərəcələrinin artmasına vəsilə olduğu halda, zəif və səthi imana sahib olan kəslərin imanlarını itirmələrinə, ya da imanlarının daha da azalmasına gətirib çıxarar. Məhz bu cür bir fitnə mühitinin ən çox və şiddətli şəkildə yaşandığı bir dövrdə Mehdi ortaya çıxacaq:

*"Qiyamət yaxınlaşdığı zaman və möminlərin ürəyi ölüm, aclıq, fitnələr, sünnələrin itməsi, bidətlərin (dinin əslində olmayan, sonra ortaya çıxan uydurmalar) ortaya çıxması, əmri bil maruf və nəhyi anıl münkər (yaxşılığı əmr etmək, pisliklərdən çəkindirmək) imkanlarının itməsi kimi səbəblərlə zəiflədiyi zaman mənim övladlarımdan Mehdi vəsiləsiylə Cənab Haqq sünnələri canlandırar. Onun*

***ədalət və bərəkəti ilə möminlərin ürəyi fərahlanar, əcəm (ərəb olmayan) və ərəb millətləri arasına ülfət və məhəbbət salar".*** *(Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, səh. 66)*

***"Məğribdə (qərbdə) qarışıqlıqlar, fitnələr və qorxu olacaq. Aclıq və dolanışıq çətinliyi olduqca yayılacaq. Fitnələr çoxalacaq".*** *(Ölüm-Kıyamet-Ahiret ve Ahir Zaman Alametleri, səh.440)*

***"Heç bir tərəfin ondan gizli qalmayacağı bir fitnə zühur edəcək, bu fitnə qaldığı yerdən dərhal başqa bir tərəfə yayılacaq və bu vəziyyət bir münadinin (ucadan səslənən) səmadan səslənərək: "Ey insanlar, əmiriniz artıq Mehdidir" deməsinə kimi davam edəcək".*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 23)*

Hədislərdə hər kəsə çatacaq, sürətlə yayılacaq bir fitnədən bəhs edilir. Yəni hər kəsin xəbərdar olacağı, dinə və Allaha qarşı olan bir fitnə, insanların imanlarını hədəf alacaq. İndiki vaxtda Allahın varlığına və yaratmasına qarşı çıxan ən böyük və geniş miqyaslı cərəyan materialist fəlsəfədir. Bu fəlsəfənin özünə dayaq bildiyi elmi təməl isə təkamül nəzəriyyəsidir. Heç bir elmi və məntiqi dəlili olmayan, tamamilə ağıl və elmdən kənar olan, güclü təbliğat, aldatmaca və gözbağlıca üsullarıyla boş sözlər, dünya səviyyəsində müəyyən materialist bölmələr tərəfindən kütlələrə təbliğat aparılır.

Bu gün təkamül nəzəriyyəsinin istər mətbuat istərsə, televiziya yoluyla girmədiyi heç bir ev, bu nəzəriyyəni duymamış insan demək olar ki, yoxdur. Bu vəziyyət bütün qərb dünyası üçün keçərli olduğu kimi, müsəlman ölkələr üçün də etibarlı sayılmışdır. Çünki dərs kitablarına belə soxulmuş olan bu nəzəriyyə qarşıya qoyduğu saysız yalan və göz bağlamaları daha uşaq yaşlardan etibarən insanlara təbliğ edilir, təsadüflər nəticəsində meydana gəldikləri, meymundan törədikləri kimi gülünc, boş sözlərlə insanları aldadırlar. İbtidai siniflərdən universitetlərə qədər gənclərin təkamülçü yalanlarla beyinləri doldurulur.

Burada diqqəti cəlb edən daha bir faktor var. Peyğəmbərimizin hədisində ifadə etdiyi kimi, bir fitnənin dünyanın hər yerinə nüfuz etməsi və sürətlə yayılması ancaq dövrümüzdəki texnoloji imkanlarla (mətbuat, nəşr, internet, peyk ünsiyyəti və s. ...) reallaşa bilər. Keçmişdəki şərtlərə əsasən bir fitnənin dünya səviyyəsində bu qədər geniş miqyasda yayılması mümkün deyildi. Necə ki, bu günə qədər Allahın varlığına, yaradılışa və dinə qarşı müharibə elan etmiş, dünya miqyasında yayılmış başqa bir fitnə keçmiş zamanlarda görünməmişdir. Bütün bunlar Mehdinin çıxış dövrünə, yəni yaşadığımız dövrə aid işarələrdir.

### Haramların halal sayılması

Son illər ərzində olduqca geniş yayılmış halalı, haramı əhəmiyyətsiz hesab edən, hər cür azğınlığı mübah (düz) sayan həyat tərzi, hədislərdə təsvir edilən mühiti

özündə çox açıq bir şəkildə əks etdirir. Mehdinin çıxış əlamətləri olan bu qaranlıq mühit, hədislərdə belə təsvir edilir:

***"Küfr hər yeri zəbt edib, hökmü cəmiyyət içində aşkarca işlənmədikcə Mehdi zühur etməz. Bu vaxtda baş verən isə... küfrün zəbtidir. Onun qüvvətidir."*** *(Mektubat-ı Rabbani, 2-259)*

***"Hz. Mehdi bütün haramların halal sayıldığı böyük bir fitnədən sonra çıxacaq".*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 23)*

## İran-Iraq döyüşü

**"Şəvval ayında qiyam, Zilqadədə hərb danışıqları, Zilhiccədə isə müharibə başlayacaq".** *(Kıyamet Alametleri, səh. 166)*

Hədisdə ifadə edilən Şəvval, Zilqadə və Zilhiccə ayları İran-İraq müharibəsinin başlanğıc tarixinə uyğun gəlir. İran şahına qarşı olan ilk qiyam, bildiyimiz kimi, hədisdə ifadə edilən 5 Şəvval 1398-ci ildə (8 sentyabr 1976) olmuşdur.

Hicri 1400 Zilhiccə (1980 oktyabr) ayında İran-İraq arasındakı müharibə artıq başlamışdır.

Bir başqa hədisdə də bu döyüşün təfərrüatları belə təsvir edilir:

***"Faris tərəfdən gələcək bir qövm belə deyəcək: "Ey ərəblər! Siz çox xurafata qaçdınız! Siz bunlara lazımi qədər haqq verməsəniz, sizinlə heç kim birlik qurmayacaq...Bir gün, onlara və bir gün də sizlərə verilsin və qarşılıqlı sözlər tutulsun..." Onlar Mutıka çıxacaqlar, müsəlmanlar oradan aşağı yazıya enəcəklər... Müşriklər digər tərəfdəki (Rakabə) deyilən bir qapqara olan çayın kənarında dayanacaqlar... Aralarında döyüş olacaq: Hər iki ordudan Allah zəfəri qaldıracaq..."*** *(Kıyamet Alametleri, El Berzenci, səh. 179)*

ŞƏRHİ:

- Faris cəhətdən gələcək: İran tərəfindən gələcək

- Faris: İran - iranlı (Böyük Lüğət)

- Yazıya enəcəklər: düzənliyə-İraq düzənliyi

- Mutık: Bölgədəki bir dağın adı.

- Rakabə: Neft quyularının çox olduğu bölgədir.

Bu hədisdə irqçilikdən qaynaqlanan bir anlaşılmazlığın olacağına diqqət çəkilir. Bu anlaşılmazlığa görə, yazıya (Yazı: İraq düzənliyi) enilir və döyüş başlanılır. Həm də hədisin də işarə etdiyi kimi, İran-İraq müharibəsi 8 il davam etmiş və minlərlə itki verilməsinə baxmayaraq bir nəticə verməmişdir. Heç bir tərəf qalib gələ bilməmişdir.

## Əfqanıstanın işğalı

***"Talikana (Əfqanıstana) təəssüf oldu. Şübhəsiz, Allah Təalanın orada qızıl və gümüş olmayan xəzinələri vardır. Orada Allahı haqqıyla tanıyan insanlar vardır. Onlar Axırzaman Mehdisinin köməkçiləridir".*** *(Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, səh. 59)*

Hədisdə Əfqanistanın Axırzamanda işğal ediləcəyinə işarə edilir. Həqiqətən də rusların Əfqanistanı işğalı 1979-cu ilə (hicri 1400-cü ilə), başqa ifadəylə desək, hicri 14-cü əsrin başlanğıcına uyğun gəlir.

Həm də bu rəvayətdə Əfqanistanın maddi zənginliklərinə də diqqət çəkilir. Bu gün Əfqanistanda müxtəlif səbəblərə görə işlədilməmiş böyük neft yataqları, dəmir hövzələri və kömür mədənləri vardır.

## Fərat çayının suyunun kəsilməsi

Fərat çayının suyunun kəsilib dayandırılması da Mehdinin çıxış əlamətlərindəndir:

***"Fərat çayının suyu çəkilərək qızıl xəzinələrinin üzə çıxması yaxınlaşır. Kim o vaxt orada olsa, o xəzinədən bir şey götürməsin".*** *(Hadisi Buhari ve Müslim rivayet etmişlerdir. Riyazü's Salihin, 3/332)*

***Rəsulullah: "Fərat çayı qızıl bir dağ üzərindən üzə çıxmadıqca qiyamət qopmayacaq..." deyə buyurmuşdu.*** *(Sahih-i Müslim, 11/320)*

Göründüyü kimi, Mehdinin çıxışının mühüm əlamətlərindən biri olan Fərat çayının dayandırılması və qızıl qədər dəyərli olan xəzinənin ortaya çıxması, bir çox böyük hədis kitabında yer almışdır. Suyutinin kitabında bu hədis "suyun dayandırılması" kimi keçir. Həqiqətən də Keban anbarı Fərat çayının suyunu dayandıraraq kəsmişdir. Düzəldilən anbar sayəsində elektrikin çıxarılması, toplanan suyun ərazidə istifadə edilərək torpağın səmərəsinin artması və çatdırılmanın asanlaşdırılması təmin edilib, bu səbəblərdən buradakı torpaqlar qızıl kimi qiymətli hala gəlmişdir. Anbar betondan nəhəng bir dağı xatırladır. Bu anbardan (hədisi şərifdəki bənzətməyə görə dağdan) qızıl dəyərində sərvət tökülür. Buna görə anbar qızıl bir dağ xüsusiyyətini daşıyır. (Doğrusunu Allah bilir)

### Ramazan Ayında Ay və Günəş tutulmaları

***"Mehdi üçün 2 əlamət vardır ki, bunun birincisi Ramazanın birinci gecəsi Ayın, ikincisi də, ayın ortasında Günəşin tutulmasıdır".*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 47)*

***"Mehdinin çıxmasından əvvəl bir Ramazan ayı içində iki dəfə Günəş tutulacaq".*** *(Ölüm-Kıyamet-Ahiret ve Ahir Zaman Alametleri, səh. 440)*

***"... Günəşin orucluq ayının ortasında, Ayın isə sonunda tutulması..."*** *(Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, səh. 37)*

***"Mehdinin gəlişi Ramazan ayında Ayın iki dəfə tutulmasına səbəb olacaq".*** *(Kıyamet Alametleri, səh. 200)*

Yuxarıdakı rəvayətlərdə diqqəti cəlb edən ən mühüm şey Ramazan ayının ortasında həm Günəş tutulmasının, həm də bir ay içində Ayın və Günəşin iki dəfə tutulmasının qeyri-mümkün olduğunun fərq edilməsidir. Bu normal şərtlərdə reallaşmayan bir vəziyyətdir. Halbuki, digər Axırzaman əlamətlərinin çoxu insanın anlaya biləcəyi, müəyyən səbəblərə bağlı olaraq reallaşa biləcək hadisələrdir.

Əgər bu hədislərdə təsvir edilən hadisələr diqqətlə araşdırılsa, rəvayətlər arasında müxtəlif fərqli cəhətlər olduğunu anlayarıq. Belə bir vəziyyətdə ediləcək ən düzgün şey eyni hadisəyə aid olan müxtəlif rəvayətlərin birləşdiyi ortaq istiqamətləri müəyyən etmək olacaq. Buna əsasən yuxarıdakı hədis rəvayətlərinin cəmindən çıxan ortaq nəticələr bunlardır:

1. Ramazan ayında Ay və Günəş tutulmaları olacaq.
2. Bu tutulmalar ortalama 14-15 gün ara ilə olacaq.
3. Bu tutulmalar 2 dəfə təkrarlanacaq.

Bu təsbitlərə uyğun olaraq, 1981-ci ildə (hicri-1401-ci ildə) Ramazan ayının 15-ci günü Ay, 29-cu günündə isə Günəş tutulmuşdur. Yenə ikinci dəfə 1982-ci ildə (hicri-1402-ci ildə) Ramazan ayının 14-cü günü Ay, 28-ci günü də Günəş tutulmuşdur.

Eyni zamanda, bu hadisədə Ayın Ramazanın tam ortasında **BÜTÖV AY** halında tutulması və diqqətləri cəlb edərək bir əlamət kimi meydana çıxması da son dərəcə mənalıdır.

Bu hadisələrin Mehdinin digər çıxış əlamətləriylə eyni dövrdə meydana gəlməsi və hicri 14-cü əsrin əvvəllərində üst-üstə 2 il (1401-1402) möcüzəvi bir tərzdə təkrarlanması, rəvayətlərin işarələrinin bu hadisələr ola bildiyini təsdiqləyir.

## Quyruqlu ulduzun doğulması

***"Mehdinin çıxışından əvvəl (hər tərəfi) işıqlandıran quyruqlu bir ulduz doğulacaq".*** *(Kıyamet Alametleri, səh. 200)*

***"O gəlmədən əvvəl, şərqdən işıq saçan bir ulduz (kometa) görünəcək."*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 53)*

***"O ulduzun doğulması Günəş və Ay tutulmasından sonra olacaq".*** *(Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, səh. 32)*

Hədislərdə ifadə edildiyi kimi:

- 1986-cı ildə (hicri 1406-cı ildə), yəni 14-cü əsrin əvvəllərində "Halley" kometası Yerin yaxınlığından keçmişdir. Bu kometa parlaq, işıqlı bir ulduzdur.

- Hərəkət istiqaməti şərqdən qərbə doğrudur.

- Bu ulduz 1981 və 1982-ci (1401-1402) illərdə meydana gələn Ay və Günəş tutulmaları hadisəsindən sonra ortaya çıxmışdır.

Bu ulduzun doğuşunun da digər çıxış əlamətləri ilə eyni zamanda meydana gəlməsi Halley kometasının hədisdə işarə edilən ulduz olduğunu isbat edir.

## Kəbə basqını və Kəbədə qan axıdılması

***"Onun çıxacağı il insanlar həccə başlarında bir əmir (başçı) olmadan gedəcəklər... Birlikdə Beytül-Şərifi (Kəbəni) təvaf edəcəklər, sonra Minaya enəndə, itlər kimi bir-birinə hücum edəcək, hacılar soyulacaq, qanlar Akabə Cəmrəsinin (Şeytana daş atılan təpə) üzərinə axacaq".*** *(Kıyamet Alametleri, səh. 168-169)*

***Minaya endiklərində ətraflarında itlərin boğuşması kimi, qəbilələrin bir-biri ilə savaşmaları kimi böyük döyüşlər olar. Belə ki, ayaqlar qan gölü içində qalar...*** *(Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, səh. 35)*

Yuxarıdakı hədislərdə "onun çıxacağı il" cümləsi istifadə edilərək, Mehdinin çıxış tarixində, Həcc əsnasında baş veriləcək bir qırğına diqqət çəkilmişdir. 1979-cu ildə Həcc əsnasında reallaşan Kəbə basqınında eynilə belə bir qırğın yaşanmışdır. Çox maraqlıdır ki, bu qanlı Kəbə basqını da Axırzamanın başlanğıcının və Mehdinin çıxışının digər əlamətlərinin reallaşdığı dövrün tam başında, yəni hicri 1400-cü ilin ilk günündə, 1 məhərrəm 1400-cü il (21 noyabr 1979) tarixində meydana gəlmişdir.

Yenə hədisi-şərifdə qanların axıdılacağından bəhs edilərək öldürmə hadisəsinə diqqət çəkilmişdir. Basqın əsnasında Səudiyyə əsgərləri ilə təcavüzkar xadimlər arasında baş verən vuruşmada 30 adamın öldürülməsi bu rəvayətin qalan qismini də təsdiqləmişdir.

1979-cu (hicri 1400) ildə reallaşan bu Kəbə basqınının ardınca 7 il sonra hicri 1407-ci ildə Həcc əsnasında daha böyük qanlı bir hadisə baş vermişdir. Bu hadisədə prospektlərdə nümayiş edənlər hacılara hücum edərək 402 adamı qətlə yetirmiş, çox qan axıdılmışdır. Beytül-Müəzzəmin yanında müsəlmanların (Səudiyyə Ərəbistanın əsgərləri ilə iranlı hacıların) bir-birlərini öldürmələri ilə böyük günahlar işlənmişdir. Bu qanlı hadisələr haqqında hədislə təsvir edilən hadisə arasında çox böyük oxşarlıqlar var:

***"Şəvvalda (Ramazan ayından sonrakı ay) döyüş nərələri, Zilhiccədə (ərəblərin sonuncu ayı) də vuruşma və qətl hadisələri olar, yenə Zilhiccədə hacılar talan edilər, hətta prospektlər qandan keçilməz dərəcəyə gələr və haramlar tapdalanar. Beytül-Müəzzəmin yanında böyük günahlar işlənər".*** *(Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, səh. 37)*

Yuxarıdakı hədisdə Beytül-Müəzzəmin (Kəbənin) içində deyil, yanında baş verəcək hadisələrə diqqət çəkilmişdir. 1407-ci ilin Zilhiccə ayında (Həcc mövsümündə) meydana gələn hadisələr də əvvəlkindən fərqli olaraq Kəbənin içində deyil yanında baş vermişdir. Ən başda izah etdiyimiz hadisə isə 1 Məhərrəm 1400-cü ildə Beytül-Müəzzəmin (Kəbənin) şəxsən içərisində olmuşdu. Hər iki hadisə rəvayətlərin işarəsinə uyğun bir şəkildə reallaşmışdır.

## Şərq tərəfdən bir atəşin (alovun) görünməsi

*"İkdiddurər" adlı kitabda Mehdinin zühur əlamətləri haqqında belə keçir:*

***Şərqdə səmada üç gecə görünən böyük bir alovun çıxması. Mutad (adətlərin xaricində) şəfəq qırmızılığı kimi olmayan bir qırmızılığın səmada görünüb, üfüqdə yayılması.*** *(Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, səh. 32)*

***Şərqdən üç və ya yeddi gün ard-arda böyük bir alov zühur edəcək, göydə qaranlıq görünəcək, adətən, göydə olan qırmızılığın yerinə, təmamilə başqa bir qırmızılıq yayılacaq. Yer üzünün eşidib anlaya biləcəyi bir dildə nida ediləcək.*** *(Kıyamet Alametleri, səh. 166)*

***And içərəm ki, bir atəş sizi bürüyəcək. O atəş bu gün Berehut deyilən vadidə sönük vəziyyətdədir. O alov insanları dəhşətli əzabla udar. O atəş insanları, malları yandırıb məhv edər. Səkkiz gün içində külək ilə bulud kimi uçaraq dünyanın hər tərəfinə yayılar. Gecəki isti, gündüzün hərarətindən daha şiddətli olar. O atəş insanların başının üzərindən ərşin altına qədər yaxınlaşaraq yer üzü ilə səma arasında göy gurultusu kimi qorxunc gurultusu olar.*** *(Ölüm-Kıyamet-Ahiret ve Ahir Zaman Alametleri, səh. 461)*

Hz. Mehdinin çıxışının əvvəlki əlamətlərindən olan bu alov haqqında qısa bir şərh etmək yerinə düşər. Bilindiyi kimi iyul ayında 1991-ci ildə İraqın Küveyt şəhərini işğal etdikdən sonra Küveytə aid neft quyularına atəş edilməsi nəticəsində Küveyt və Bəsrə körfəzində çox böyük bir yanğın hadisəsi baş vermişdir.

Həm də hədisi-şərifin ilk hissəsində, atəş haqqında "sönük bir vəziyyətdədir" deyilir. Atəş yanıcı bir maddənin yanmasıyla meydana gələn bir vəziyyət olduğuna görə, burada sönük vəziyyətdə gözləyən atəşin özü deyil, atəşin yandıracağı xammaldır.

Burada torpaq altından çıxarılan neftə işarə edilir. Necə ki, hədisdəki Berehut deyilən yer, bir quyunun adıdır. Bu quyu neft quyusudur. Zamanı gəlincə bu quyulardan çıxarılan neft yanmağa hazır bir atəş halına gələcəkdir.

**Günəşdən bir əlamətin meydana çıxması**

***"O, (Mehdi), Günəşdən bir əlamət meydana çıxana qədər gəlməyəcək".*** *(El-Kavlul Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 47)*

***"Günəş əlamət olaraq doğmadıqca Mehdi çıxmayacaq".*** *(Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, səh. 33)*

Günəşdə meydana çıxacaq olan bu əlamət, 20-ci əsrdə görünən böyük partlama ola bilər.

Həm də 11 avqust 1999-cu ildə reallaşan günəş tutulması əsrimizdə sonuncu olaraq tam günəş tutulmasıdır. İlk dəfə bu qədər çox insan günəş tutulmasını, həm də bu qədər uzun bir müddət izləyə bilmişdir, araşdırma fürsəti əldə etmişdir. Bu tutulmada diqqət çəkən bir xüsusiyyət də Türkiyənin bu tam tutulmanın ən yaxşı izlənildiyi ölkələrdən biri olması idi. Bartından Silopiyə qədər təxminən 12 şəhər və 100 yer, tutulmanı müşahidə edə bilmişdir.

Peyğəmbərimizin mehdiyyət haqqında Quranda işarə olduğunu bildirən müxtəlif hədisləri vardır.

***"Mehdi eynilə Zülqərneyn və Süleyman kimi dünyaya hökm edəcək.*** *(El-Kavlul Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 29)*

***"Əshabi-Kəhf Mehdinin köməkçiləri olacaq".*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy il Ahir Zaman, səh. 59)*

***"Mehdinin köməkçilərinin sayı Talut ilə çayı keçənlər qədərdir".*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 57)*

# III HİSSƏ

# QIZIL DÖVR

**Peyğəmbərimiz Qızıl dövrü cənnətə bənzər xüsusiyyətlərlə təsvir etmişdir.**

Peyğəmbərimizdən gələn bir çox hədisdə, yer üzündə İslam əxlaqının hakim olacağı bir dövrün yaşanacağına işarə edilir. "Qızıl dövr" adıyla tanınan bu dövr, hədislərdən də aydın olur ki, yarım əsrdən çox davam edəcək və Əsri-Səadətə oxşar bir dövr olacaq.

İnsanlar Qızıl dövrdə həyatlarından o qədər razı olacaqlar ki, bir hədisin ifadəsinə görə zamanın necə keçdiyini belə bilməyəcəklər, bu gözəlliklərdən daha çox faydalanmaq üçün Allahdan ömürlərinin uzadılmasını" istəyəcəklər. Peyğəmbərimizin başqa bir ifadəsində də Axırzamandakı mühit belə təsvir edilir:

***"... Kiçiklər "kaş ki, mən böyük olaydım", böyüklər də "kaş ki, mən kiçik olaydım" deyə arzu edərlər... Yaxşı insanların yaxşılığı artar, pislərə qarşı belə yaxşılıq edilər".*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 17)*

**Qızıl dövrdə görünməmiş bir bolluq olacaq**

Bu dövrdə məhsullarda və mallarda o zamana qədər hələ görünməmiş bir bolluq olacağı, bu məhsulların sayılıb, ölçülmədən hər istəyənə paylanacağı bir çox hədisi-şərifdə də bildirilir:

***Rəsuli-Əkrəm əfəndimiz belə buyurdu: "Ümmətimin sonunda elə bir dövlət rəisi olacaq ki, ovuc-ovuc mal və pul ovuclayacaq və bu malı ədəd olaraq saymayacaq***" *(Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 433)*

***"Mehdi insanlara malı və əşyanı paylayarkən saymadan, bol-bol verəcək".*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 24)*

***"... Yer üzündəki xəzinələri üzə çıxaracaq".*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 45)*

***"...Ərz özündə gizlətdiyi bütün zənginliklərini, qızıldan və gümüşdən sütunlar halında çölə çıxaracaq".*** *(Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 464)*

**Texnoloji inkişaflar Qızıl dövrdəki bolluğun təmin edilməsində mühüm rol oynayacaq.**

***"İnsanlar bir ölçü buğda əkdiklərinin qarşılığında yeddi yüz ölçü məhsul alacaqlar... İnsan bir neçə ovuc toxum atacaq, 700 ovuc çıxacaq ... Çox yağış yağmasına baxmayaraq bir damlası belə boşa getməyəcək".*** *(Kıyamet Alametleri, səh. 164 / El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 24)*

Bu rəvayətdə Axırzamanda müasir əkinçiliyə keçilməsi, yeni istehsal texnikalarının inkişaf etdirilməsi, toxum islahı işləri və yağış sularının yeni anbarlar, gölməçələrdə yığılaraq dəyərləndirilməsi nəticəsində meydana gələcək istehsal artımına diqqət çəkilmişdir.

**Böhran və çətin illər bitəcək**

Qızıl dövrdə çox böyük bir zənginlik və rifah yaşanacaq. Ehtiyac içində olana istədiyindən qat-qat çox veriləcək, heç bir şey sayılıb ölçülməyəcək.

Peyğəmbərimiz də xüsusilə, ümmətinin son dövründə, yəni Axırzamanda müsəlmanların böyük bir bolluq içində yaşayacaqlarını xəbər vermişdir:

***"...Elə bir dövr gələcək ki, o zamanda adam (ayırdığı) qızıl sədəqəsiylə (hər tərəfi) gəzəcək, sonra sədəqəsini əlindən alacaq bir kasıb adam tapılmayacaq".*** *(Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 462)*

***"... O dövrdə ümmətim nemətlənəcək, heyvanlar bolluq içində və ərzin nəbatını (bitkiləri, məhsulları) çox olacaq..."*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 26)*

***"... Şübhəsiz ki, o dövrdə mal çoxalıb su kimi axacaq, onu heç bir kim (tənəzzül edib) qəbul etməyəcək."*** *(Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 464)*

**Din əsl halına dönəcək**

Peyğəmbərimizin hədislərində Axırzamana aid bildirilən bir başqa xəbər isə, İslamdan uzaq din anlayışının tamamilə ortadan qalxmasıdır. Qızıl dövrdə Peyğəmbərimizdən sonra inkişaf edən bidətlərlə (dinimizdə olmayan, sonra dinimiz adı altında uydurmalar) dolu İslam anlayışı tamamilə düzələcək və din əsl halına dönəcək. Hədislərdə bu mövzu ilə əlaqədar olaraq, **Axırzamanda ortadan qaldırılmayacaq bidətin (uydurmalar, xurafatlar) qalmayacağı və eyni ilə Peyğəmbərimiz kimi dinin zərurətlərinin yerinə yetiriləcəyi** ifadə edilir. *(Kıyamet Alametleri, səh. 163)*

Bilindiyi kimi, Peyğəmbərimizin və səhabələrin vəfatından sonra dinimizə Quranda bildirilən hökmlərə zidd xurafatlar, ibadət formaları daxil edilmişdir, Rəsulullah adına saysız-hesabsız hədislər, hökmlər uydurulmuşdur. Bunların bir çoxu hal-hazırda yaşadığımız dövrə qədər gəlmişdir. Əsrlərdir davam edən bu müddət ərzində səmimi müsəlmanlar dinin əslini ayaqda tutmaq üçün əllərindən gələni etsələr də, bu gün İslam adına ortaya çıxan bir çox mövzunun Quranda olmadığı açıq bir həqiqətdir.

Şübhəsiz ki, nəyin dinə uyğun olub-olmadığını öyrənmək üçün müraciət edə biləcəyimiz tək qaynaq Qurandır. Buna görə Axırzamanda dinə sonradan əlavə edilmiş xurafatlar, Qurana baxılaraq (Qurana uyğun ölçü götürülərək) bir-bir tətbiqdən qaldırılacaq. Yalnız bu cür həqiqi din ortaya çıxacaq.

Qızıl dövrdə yaşanacaq çox əhəmiyyətli başqa bir hadisə isə, dinin əslinə dönməsində səmimi müsəlmanların apardıqları səyi və cəhdləridir. Bu dövrdə İslam aləmindəki ixtilaflar, ayrılıqlar ortadan qalxacaq. İslam tarixinin ən böyük alimlərindən biri olan Muhyiddin Ərəbi "Fütühatül-Məkkiyə" adlı əsərində bu haqda bu təsbiti bildirmişdir:

***"... Dini Peyğəmbərin dövründə olduğu kimi eyni ilə tətbiq edəcək. Yer üzündə məzhəbləri ləğv edəcək. Xalis həqiqi dindən başqa heç bir məzhəb qalmayacaq".*** *(Muhammed IBN Resul El Hüseyin El Berzenci, Kıyamet Alametleri, səh.186-187)*

# IV HİSSƏ

# KƏHF SURƏSİNDƏ AXIRZAMANA AİD İŞARƏLƏR

**Kəhf surəsi Peyğəmbərimizin diqqət çəkdiyi bir surədir.**

Kəhf surəsinin Axırzamanla əlaqəsi olduğuna dair Peyğəmbərimizin bir çox hədisləri var. Bu hədislərdən bəziləri belədir:

Nəvvas ibn Səman əl-Kilabi (r.ə)-dən belə rəvayət edilir.

***"Sizdən kim Dəccala yetişsə, Kəhf surəsinin ilk ayələrini onun üzərinə oxusun. Bu surənin sonu Dəccalın fitnəsindən qurtuluşunuzdur".*** *(Sünəni Əbu Davud, 5/121)*

Əbu Ümamə əl-Bahilidən belə rəvayət edilmişdir.

***"... Kim onun (Dəccalın) cəhənnəminin bəlasına uğrasa, Allahdan kömək diləsin və Kəhf surəsinin ilk ayələrini oxusun ki, ataş İbrahim (ə.s)-a sərinlik və salamatlıq gətirdiyi kimi, bu ataş də həmin insana sərinlik və salamatlıq gətirsin".*** *(Sünen-i İbni Mace Tercemesi ve Şerhi, Haydar Hatipoğlu, Kahraman Yayınları, 10-cu cild, səh.332)*

**Kəhf surəsində bəzi sirlər və Axırzamana aid işarələr var**

Hz. Məhəmməd (s.ə.v)-in müsəlmanlara, Kəhf surəsini mütləq oxumalarını tövsiyə etməsinin hikmətlərindən biri də Kəhf surəsində Axırzamana aid çox əhəmiyyətli işarələrin olmasıdır. Kəhf surəsində Axırzamanda çıxacaq olan Dəccaldan və onun yer üzünə yaymaq istədiyi dinsizlik axınlarından qorunmaq və insanlığa bəla gətirəcək  bu fitnəyə qarşı mübarizə edə bilmək üçün lazımlı işarələr, həm də müsəlmanların istifadə edə biləcəyi dərslər var. Peyğəmbərimizin Axırzamanda bu surəni diqqətlə oxumağı və əzbər bilmələrini tövsiyə etməyi, bu vəziyyətə açıq bir işarədir. Eyni zamanda, Əshabi-Kəhfin inkarçı qövmlərinin arasında yaşadıqları, ardından hz. Musanın Allahın rəhmət verdiyi bir adamdan öyrəndiyi dərin elm və bunun da ardından hz. Zülqərneynin bütün dünyaya hakimiyyət quraraq İslam əxlaqını yayması üzərində düşünülməsi lazım olan mövzulardır.

**Kəhf  surəsində Kəhf əhlinin fövqəladə vəziyyəti izah edilir**

**Yoxsa sən mağara və Rəqim əhlinin möcüzələrimizdən ən qəribəsi olduğunumu güman edirsən? Bir zaman gənclər mağaraya sığınıb: "Ey Rəbbimiz!**

**Bizə Öz tərəfindən mərhəmət bəxş et və işimizdə bizə düz yol göstər!" – demişdilər. (Kəhf surəsi, 9-10)**

Gənclərdən ibarət olan Kəhf əhlinin yaşadıqları adi hal xaricində olan metafizik hadisələrdir. Həyatlarının hər anı möcüzəvi irəliləyişlərlə doludur. Peyğəmbərimizin hədislərində Axırzamanla əlaqəsinə diqqət çəkilən Kəhf əhlinin Quranda izah edilən bu vəziyyəti Axırzamanda da insanların fövqəladə, metafizik hadisələrlə qarşılaşa biləcəklərinə bir işarədir.

Kəhf surəsinin 10-cu ayəsində gənclərin bir yerə "sığındıqları" bildirilir. Hekayənin sonrakı ayələrindən aydın olur ki, Kəhf əhlinin mağaraya sığınmalarının səbəbi dövrün təzyiq dolu sisteminin yaratdığı mühitdir. Öz fikirlərini rahat bildirə bilməyən, doğruları izah edə bilməyən, Allahın dinini lazım olduğu kimi təbliğ etmələrinə maneə törədilən Kəhf əhli həlli bu cəmiyyətdən uzaqlaşmaqda tapmışdır.

Ancaq bu vəziyyət uzaqlaşıb gözləmək mənasında deyil. Kəhf əhli mağaraya sığınmış, etdikləri işləri Allahın asanlaşdırması, onlara rəhmətindən bəxş etməsi üçün dua etmişlər. Bir sözlə, Kəhf əhlinin mağaraya sığınmasının səbəbi yalnız gözləmək deyil, özlərini bu müddət ərzində inkişaf etdirmək olmuşdur. Axırzamanda da totalitar rejimlərin olduğu yerlərdə, təzyiq altında olan müsəlmanlar gizlənəcəklər. Bu yolla Allahın onların üzərlərindəki rəhmətini artırmasını, işlərini və dinə düşmən fikir cərəyanlarına qarşı icra etdikləri mübarizəni daha da asanlaşdırmasını ümid edəcəklər.

**"Əshabi-Kəhfin gizliliyi müəyyən müddətə qədər davam etmişdir**

**Bir zaman gənclər mağaraya sığınıb: "Ey Rəbbimiz! Bizə Öz tərəfindən mərhəmət bəxş et və işimizdə bizə düz yol göstər!" – demişdilər. Biz mağarada onların qulaqlarını illərlə qapalı saxladıq (onları yuxuya verdik). (Kəhf surəsi, 11-12)**

Kəhf əhlinin yaşadığı xəbər verilən bu yuxu halının səbəbi qədərə (alın yazısına) təslim olmaları, təvəkkül etmələri və hüzur ola bilər. Çünki bütün kainatı bir qədər (tale, qismət) üzrə yoxdan yaradan Allah dünyada reallaşan bütün hadisələri də müsəlmanların lehinə tənzimləyər.

İndiki vaxtda da bir qisim müsəlmanlar qəribə rəhmani yuxu içərisindədirlər. Bunun sayəsində insanları dindən uzaqlaşdırmağa çalışan materialist ideologiyaların səbəb olduğu bəlaların dəhşətindən və şiddətindən təsirlənmirlər. Bu materialist axınlar üzündən ibarət olan əxlaqi degenerasiyadan, zülm və qarışıqlıqdan təsirlənmədən Quran əxlaqını yaşamağı davam etdirirlər.

Əshabi-Kəhfin gizliliyi, ayədən də aydın olduğu kimi, müəyyən bir müddətə qədər davam etmişdir. Daha sonra Allahın təqdir etdiyi zamanda Onun diləməsiylə bu gənclər oyanmışdılar.

**Öz millətlərinə Allahın dinini təbliğ etmişlər**

**"Cavanlardan biri o birilərinə dedi: "Bizim bu xalqımız Allahdan başqa məbudlar qəbul etdi. Bəs nə üçün onlar buna aid (bütlərə dair) bir dəlil gətirmədilər? Allaha qarşı yalan uydurandan daha zalım kim ola bilər?! (Kəhf surəsi, 15)**

Bu ayədə Kəhf əhlinin öz millətlərinə qarşı etdikləri təbliğ fəaliyyətindən bəhs edilir. Onlar öz dövrlərindəki müşriklərə Allahın dinini təbliğ etmiş, onlardan Allaha şirk qoşmaqdan imtina etmələrini istəmişlər. Həm də müşrikləri inkarlarını sübut edən bir dəlil gətirməyə dəvət etmişlər, onlar bir dəlil gətirə bilmədiklərinə görə müşriklərin yalanlarını və böhtanlarını açıqlamışlar.

Eynilə Kəhf əhlinin yaşadığı dövrdə olduğu kimi, əsrimizdə də müsəlmanlar Allahdan başqasını ilah edənlərdən dəlillər istəyirlər. Axırzamanda maddəni və təsadüfləri ilah olaraq tanıdan bütpərəst bir inanc mövcuddur, bu inanc da darvinizmdir.

Darvinizm bütün kainatın özbaşına və bütün olanların təsadüflər nəticəsində meydana gəldiyini iddia edən, təbiətdə yalnız güclü olanın həyatda qalacağı şəkildə şiddətə əsaslanan bir sistem olduğunu müdafiə edən din əleyhdarlarına aid olan bir iddiadır. Həqiqətdə Allahın sonsuz güc və qüdrəti ilə yoxdan var etdiyi cansız və canlı varlıqları, özbaşına təsadüflərin meydana gətirdiyini iddia edən darvinistlər bu iddialarıyla Allaha qarşı çox böyük bir böhtan atmışdılar.

**İnkarçıların fikir sistemindən tamamilə uzaqlaşmışdılar**

**Madam ki, siz onları və Allahdan savayı ibadət etdiklərini tərk etdiniz, onda mağaraya sığının ki, Rəbbiniz sizə Öz mərhəmətini geniş etsin və işinizdə sizin üçün fayda hazırlasın. (Kəhf surəsi, 16)**

İnkarçıların təzyiqləri nəticəsində Kəhf əhli özlərini tamamilə təcrid etmək və inkarçılardan tamamilə qopmaq məcburiyyətində qalmışlar. Mağaraya sığınmaları da bu təcrid olma vəziyyəti ifadə edir. Allah bu dövrdə Kəhf əhlinin üzərindəki nemətini yaymış, onlara bir çox mövzuda asanlıq vermişdir. Bu asanlıq və dəstəklərdən ən mühüm olanı isə iman edənlərin inkar edənlərin mənfi təsirlərindən uzaq qalmaları olmuşdur.

**Kəhf əhli gizlənmək məcburiyyətində qalmışlar**

**Çünki onlar sizi tapsalar ya sizi daşqalaq edər, ya da öz dinlərinə döndərərlər. Onda siz heç vaxt nicat tapa bilməzsiniz!" (Kəhf surəsi, 20)**

Bu ayədə "daşqalaq (daşa tutarlar)" ifadəsi ilə terrorist bir xarakter təsvir edilir. İndiki vaxtda da dinsiz ideologiyaların təsiri altında qalan insanlarda bu xarakter açıq şəkildə görünür. Məsələn, kommunist ideologiyanı mənimsəyən terroristlər vətəni

qorumaq üçün canını fəda edərmiş kimi mübarizə aparan dövlət vəzifəlilərinə, polislərə və mühafizəçilərə, yalnız dövlətə olan düşmənliklərinə görə daş atırlar, hücum edirlər. Bu davranışlarındakı məqsəd isə bu kəsləri qorxutmaq, güclərini azaltmaqdır. Bu yolla kommunizm tərəfdarları öz din düşməni ideallarını reallaşdıra bilməyi, ölkələrini xaosa və qarışıqlığa sürüyərək kommunist bir sistemi hakim etməyi məqsəd qoymuşlar.

Buna görə Axırzamanda insanların dünyaya bəladan başqa bir şey gətirməyən qanlı ideologiyalardan uzaq dayanmaları, din əleyhdarı ideologiyaların təxribatlarına, təbliğlərinə aldanmamaları, təxribatçıların tərəfində olmaları olduqca əhəmiyyətlidir.

### Onların sayını yalnız Allah və az sayda adam bilir

**Bəziləri: "Onlar üçdür, dördüncüsü köpəkləridir!" – deyəcəklər. Digərləri isə "Onlar beşdir, altıncısı köpəkləridir!" – deyəcəklər. Bununla da qeyb haqqında təxmini fikir yürüdəcəklər. Bəziləri də: "Onlar yeddidir, səkkizincisi köpəkləridir!" – deyəcəklər. De: "Onların sayını Rəbbim daha yaxşı bilir. İnsanlardan bunu bilən çox azdır!" Mağara əhli barədə açıq mübahisə et (ayələrə əsaslan) və kitab əhlinin heç birindən onlar barədə bir şey soruşma! (Kəhf surəsi, 22)**

Ayədə keçən **"onların sayını çox az (insan) bilə bilər"** ifadəsiylə Allah dərin məlumata sahib olan çox az adamın bu insanların sayını biləcəyinə işarə edir. Məsələn, bu adam hz. Xızır ola bilər. Bununla yanaşı hz. Xızırın təhsilindən keçmiş və ona tabe olmuş tələbələrinin də Allahın istəyi və bildirməsiylə bu məlumata sahib ola bilərlər. Necə ki, Quranda Allahın vəhy etməsiylə elçilərin qeyb haqqında bəzi məlumatlara sahib olduqları bildirilir.

### Hz. Musa və gənc köməkçisinin "iki dənizin birləşdiyi yerə" etdikləri səfər

**Bir zaman Musa öz gənc xidmətçisinə belə demişdi: "Mən iki dənizin qovuşduğu yerə çatana qədər yaxud uzun illər sərf edənə qədər səfərimə davam edəcəyəm".(Kəhf surəsi, 60)**

Bu ayədə işlədilən **"gənc"** sözü ilə, bir iş görərkən gənc insanların da köməyindən faydalanmağa və onlarla birlikdə fəaliyyət göstərməyin əhəmiyyətli olmasına işarə edilə bilər.

Gənclərin yaşlarından irəli gələn enerjilərini, dinamikliyini, aktivliyini, güclərini, şövq və həyəcanlarını Allah rizası üçün xeyir işlərdə istifadə etməyə təşviq etmək lazımlıdır. Necə ki, ayələrdə də bu mövzuya diqqət çəkilir, hz. Musaya qövmündən iman gətirənlərin yalnız bir hisəssinin gənc olduğu bəhs edilir:

**Firon və onun əyanları tərəfindən özlərinə işgəncə veriləcəyindən qorxaraq Musaya öz qövmündən yalnız azsaylı bir nəsil (gənclər) iman gətirdi. Həqiqətən də, Firon yer üzündə qəddar hakim və həddi aşanlardan idi. (Yunis surəsi, 83)**

Kəhf surəsinin 60-cı ayəsində diqqət çəkilən bir başqa mövzu isə hz. Musanın üzərində dayandığı görüşmə yeridir. Hz. Musa çıxdığı səfərdə bir adamla görüşməyi hədəfə almışdır və özünə bu görüşmə yerinin **"iki dənizin birləşdiyi bir bölgə"** olaraq bildirildiyi aydın olur. Hz. Musanın bəhs etdiyi yer də dünya üzərində bu tərifə uyğun gələn bölgələrdən hər hansı bir yerdir.

**Hz. Musanın üstün mərhəmət və elm sahibi olan hz. Xızır ilə görüşməsi**

**Onlar orada Öz tərəfimizdən mərhəmət bəxş etdiyimiz və elm öyrətdiyimiz (ledün elmi) qullarımızdan birinə rast gəldilər. (Kəhf surəsi, 65)**

Allah qullarına qarşı sonsuz mərhəmət sahibidir, Rəhman və Rəhimdir. Hz. Musanın görüşmək üçün yola çıxdığı hz. Xızır isə Allahın ona rəhmət verdiyi bir adamdır. Yəni Allahın Rəhman və Rəhim sifəti ilə hz. Xızırda təcəlli edər. Allah hz. Xızıra Öz qatından üstün bir elm vermiş və onu üstün bir qul etmişdir.

**Kəhf surəsində hz. Zülqərneyn haqqında əhəmiyyətli məlumatlar verilmişdir.**

**(Ya Rəsulum!) Səndən Zülqərneyn barəsində soruşarlar. De: "Onun barəsində sizə bir hekayə (öyüd, xatırlatma, bəzi xəbərlər) danışacam!" (Kəhf surəsi, 83)**

Ayədə keçən "öyüd və xatırlatma" ifadəsi çox əhəmiyyət kəsb edir. Çünki tarix boyu hz. Zülqərneyn hekayəsi müxtəlif şərhçilər tərəfindən çox müxtəlif formalarda şərh olunmuşdur.

Ancaq Allah Quranda hz. Zülqərneyn hekayəsi haqqında ilk ayəsində bu hekayənin tərəflərinin hikmətlərindən bəzilərini bizlərə açıq şəkildə bildirir. Möminlərə bir xatırlatma, öyüd vermə və hikmət bildirmə...

**Hz. Zülqərneyn güclü bir iqtidara və üstün bir elmə malikdir.**

**Həqiqətən, Biz ona yer üzündə hökmranlıq verdik və hər şeyin yolunu ona öyrətdik. O, yer üzündə gəzib dolaşmaq üçün səfərə çıxdı. (Kəhf surəsi, 84-85)**

Ayələrdən hz. Zülqərneynin ölkəsində problemlərin yaşanmadığı, iqtidarının çox möhkəm, ağıllı və güclü olduğu aydın olur.

Allah ayədə keçən **"hər şeyin yolunu ona öyrətdik"** ifadəsiylə hz. Zülqərneynə hər şeyə həll və əlac tapma gücü verdiyinə diqqət çəkir. Hz. Zülqərneyn çox ağıllı, fərasətli və bəsirət sahibi bir mömindir. Allahın verdiyi bu üstün xüsusiyyətlər sayəsində kompleks kimi görünən hər cür problemi dərhal həll edə bilir, əksiklikləri (problemləri) aradan qaldırır.

**Hz. Zülqərneyn yalnız bir dövlət adamı və hakim deyil, eyni zamanda bir mürşiddir.**

**O belə dedi: "Zülm (küfr) edənə əzab verəcəyik. Sonra o, Rəbbinin hüzuruna qaytarılacaq. (Rəbbi də) ona (Cəhənnəmdə) görünməmiş bir əzab verəcəkdir!**

**İman gətirib yaxşı iş görənləri isə ən gözəl mükafat (Cənnət) gözləyir. Biz ona asan bir şey əmr edəcəyik!" (Onu Allaha yaxınlaşdırmaq üçün bacardığımız hər şeyi - oruc, namaz, zəkat, cihad və s. öyrədəcək, gücü çatmayan bir işi isə görməyə vadar etməyəcəyik). (Kəhf surəsi, 87-88)**

Hz. Zülqərneyn hər sözündə, danışıqlarında dərhal Allahı və axirət gününü xatırladır, yəni onlarla müsəlmancasına danışır. Ayələrdə keçən ifadələrdən hz. Zülqərneynin müsəlman bir idarəçi, dövlətinin isə müsəlman bir dövlət olduğu, tabeliyində olan insanlara elm öyrətdiyi, onlara Allahın razılığına uyğun tərzdə hökm etdiyi açıq şəkildə görünür.

Hz. Zülqərneyn qarşılaşdığı cəmiyyəti (topluluğu) dərhal Allaha iman etməyə, səmimiyyətə, Quranda bildirilən saleh əməlləri, ibadətləri yerinə yetirməyə dəvət edir. Bu insanları təşviq etmək üçün dünya və axirət həyatındakı qarşılığa diqqət çəkir, bu yolla onları hidayətə çağırır.

**Hz. Zülqərneyn özündən kömək istənilən bir liderdir**

**Onlar (tərcüməçi vasitəsiylə) dedilər: "Ey Zülqərneyn! Yəcuc və Məcuc bu ərazidə fitnə-fəsad törədirlər. Bizimlə onlar arasında bir sədd çəkmək üçün sənə müəyyən məbləğ (vergi) versək olarmı?" (Kəhf surəsi, 94)**

Yəcüc və Məcücün apardıqları təxribatlarına görə çətin vəziyyətdə olan bu qövm hz. Zülqərneyndən onlara kömək etməyi istəyirlər, bu köməyin qarşılığında da ona vergi verməyi təklif edirlər. Buradan hz. Zülqərneynin tək başına bir adam olmadığı, bir dövləti idarə etdiyi aydın olur. Eynilə hz. Süleyman kimi hz. Zülqərneyn də dövlət gücünə və əsgəri (ordu) gücünə malikdir.

Ayədə işarə edilən bir başqa mövzu da hz. Zülqərneynin yanında dil mütəxəssisləri kimi memar və abadlıq haqqında da anlayan bir qrup olmasıdır. Hz. Zülqərneynin bu işlərlə də maraqlandığı, memarlığı və abadlıq texnologiyasını yaxşı bildiyi də göstərdiyi köməkdən bəlli olur. Hətta bu mövzulardakı məlumatı ilə tanındığı, məşhur olduğuna da ayələrdə işarə edilir. Onun bu sahədə məşhur olduğuna görə digər dövlətlər ondan kömək istəyirlər. Bütün bu xüsusiyyətləri hz. Zülqərneynin dövlətinin gücünü və böyüklüyünü anlamaq üçün bir dəlildir.

Hz. Zülqərneynin həm qərb tərəfdə, həm də şərq tərəfdə belə böyük hörmət görməsi və təsirli olması, onun dünyaya hakim bir dövlətin başında olduğunun göstəricisidir. Buna görə, ayələrdən onun yer üzünə sülh, ədalət və əmin-amanlıq gətirməklə məsul bir lider olduğunu anlayırıq. Özünü yalnız öz ölkəsindən deyil, dünyanın hər bölgəsindən məsul olduğunu hiss edir.

Hz. Zülqərneyn hekayəsi ilə Axırzamanda İslam əxlaqının da eyni hz. Zülqərneyn kimi bütün dünyaya hakim olacağına işarə edilir.

**Hz. Zülqərneyn hekayəsi haqqında müxtəlif şərhlər**:

Hz. Zülqərneyn hekayəsi haqqında ağıla gələn bir başqa ehtimal da, bu hekayənin gələcəkdə reallaşacaq hadisələri izah etməsidir.

Allah qatında zaman təkdir, gələcək, keçmiş və indi tək bir anda yaşanır. Necə ki, Quranın bəzi ayələrində qiyamət günündə, cənnətdə və cəhənnəmdə baş verəcək hər bir incəlik reallaşmış və nəticələnmiş hadisələr olaraq bizlərə izah edilir. Bu ayələrdən biri belədir:

**Sur çalındı; beləcə Allahın dilədikləri xaricində, göylərdə və yerdə olanlar çarpılıb-yıxıldı (öldülər). Sonra bir daha ona üfürüldü, artıq onlar ayağa qalxmış vəziyyətdə müşahidə edirlər. (Zumər surəsi, 68)**

Göründüyü kimi, ayədə bildirilən hadisələr keçmişdə olmuş bitmiş hadisələr kimi izah edilir. Halbuki, bunların hamısı bizim üçün gələcəkdədir, hələ reallaşmamışdır. Buna görə hz. Zülqərneyn hekayəsi də gələcəyə dair bir hadisə olub, bizə keçmiş zaman olaraq izah edilir.

Allah Kəhf surəsinin 84-cü ayəsində hz. Zülqərneyn üçün **"... ona hər şeydən bir yol (səbəb) verdik"** deyə buyurmuşdur. Burada hz. Zülqərneynin gələcəkdə dünyanın hər yerinə hakim, böyük bir gücə sahib olacağına işarə edilmişdir.

İndiki vaxtda bir ölkənin, ya da bir liderin dünya hakimiyyətindən danışmaq üçün bu ölkənin maddi gücü ilə yanaşı, ünsiyyət texnologiyasına da sahib olması lazımdır. Bir liderin bölgə-bölgə gəzib, ölkələrə nəzarət etməsi mümkün deyil. Buna görə liderin mərkəzi bir paytaxtda olub, digər bölgələri isə peyk və müxtəlif ünsiyyət vasitələriylə idarə etməyi daha məqsədə uyğundur. Necə ki, Kəhf surəsinin 95-ci

ayəsində keçən **"Rəbbimin, məni, özündə möhkəm bir iqtidarla məskun etdiyi (güc, nemət və imkan), daha xeyirlidir..."** ifadəsiylə hz. Zülqərneynin bir nizama sahib olduğuna işarə edilir.

Hekayəni bu istiqamətdə araşdırdığımızda, hər ayənin fərqli bir işarəsi ola biləcəyini görərik. Məsələn, hz. Zülqərneynin əvvəl qərbə, sonra şərqə getdiyi, daha sonra da geriyə döndüyü bildirilir. Bu ayələrdə peyk (dalğa) kanalların dəyişdirilməsinə, yanında peyk, dalğa kanalları dəyişdirdikcə hz. Zülqərneynin fərqli bir bölgə ilə ünsiyyət qurduğuna işarə edilir. Ayələrdə davamlı olaraq nəyisə tapmağa diqqət çəkilir. Hz. Zülqərneynin "hücrə"nin yanında bir qövm “tapdığından”, şərq tərəfdə söz başa düşməyən bir qövm "tapdığından" bəhs edilir. Bu “tapmalar" bir axtarış nəticəsində meydana gəlir və peyk (dalğa) kanallarında aparılan bir "axtarışa" işarə edilə bilər. Allahu aləm

Ayələrdə şərq tərəfdəki xalq üçün **"günəşi özlərinə sipər etməmiş"** deyilir. Əgər bu məlumatları ünsiyyət texnologiyasını göz qabağına gətirərək analiz etsək, burada iki müxtəlif işarə olduğunu anlayarıq. Hz. Zülqərneyn peyk vasitəsilə bu bölgələri və onları izləyə bilir. (Doğrusunu Allah bilir) Həm də bu ifadə ilə Axırzamanda bir çox sahədə istifadə edilən kamera texnologiyasına da işarə edilə bilər. İndiki vaxtda kameralar, ədalətli işlərdə, meteorologiya, kriminaloji, kəşfiyyat, sənaye kimi bir çox sahədə istifadə edilir. İnsan vücudu da bu kameralar vasitəsilə bütün təfərrüatlarıyla araşdırıla bilir.

Ayələrdə hz. Zülqərneynin xitab etdiyi bildirilən qövm isə, onlarla peyk vasitəçiliyi ilə və televiziya kanalı vasitəsi ilə ünsiyyət qura bilir. Bu şəkildə dünyanın hər yerindəki insanların şikayətlərini və ehtiyaclarını öyrənib daha sonra hakim olduğu bu bölgələri qərargahından təlimatla idarə edə bilir.

Ayələrdə keçən Yəcüc və Məcücün təxribatçılığı klassik mənada bir terror ya da, anarxiya hadisəsi ola biləcəyi kimi, dalğa (yayın) vasitəsilə edilən bir təxribatçılıq da ola bilər. Digər yayımlara maneə törədib yalnız özləri təxribat məqsədli bir yayın etməsi də ola bilər. Hz. Zülqərneyn də bu yayına fərqli üsullarla maneə törətmiş, beləliklə, təxribatçılığın qarşısını ala bilirlər. Məsələn, ayədə danışılan dəmir və misi istifadə edərək, bir elektromaqnit sahə meydana gətirmiş, bu şəkildə radio və televiziya verilişlərini poza bilər. Necə ki, elektromaqnit qaynaqlardan biri olan trafo, dəmir ətrafına mis sarılaraq əldə edilir. Çünki bu elektromaqnit sahə çox güclü olanda radio və televiziya verilişlərini poza bilir.

Bir başqa ehtimal isə çox böyük, kütləvi bir peyk antenası istehsalına işarə edilə bilər. Antenanın böyük olmağının səbəbi isə Yəcüc və Məcücün yer üzündəki bütün dalğaları nasaz hala gətirən, pozucu təsirinin qarşısını almaq üçün ola bilər. Antenaların səthləri, ümumiyyətlə, daha ucuz və yüngül olan alüminiumdan ibarətdir. Ancaq antenanın keçiriciliyini artıra bilən ən ideal vəsait əslində alüminium deyil. Mis çox ideal bir keçiricidir. Bu cəhətdən, mis seçilmiş ola bilər. Ancaq bu qədər böyük bir antenanın mislərlə örtülməsi də ağlasığmazdır. Bunun yerinə

antenanın səthi əridilmiş mislə örtülsə, həm davamlı olar, həm də tək parça hamar bir səth əldə edilərək antenanın olduqca ən yüksək səviyyədə işləməsi ilə reallaşdırılar.

Əleyhdar dalğa yolu ilə də elektromaqnit sahə meydana gətirərək əldə edilən bu dalğanı, görünməz bir əngəl olaraq da bildirmək olar. Necə ki, bəzi İslam alimləri Kəhf surəsinin 93-cü ayəsində keçən ifadəni "səddeyn" deyil, "süddeyn", Kəhf surəsinin 94-cü ayəsində keçən ifadəni isə "sədd" deyil, "südd" şəklində oxuyarlar. Əgər "sədd" kimi oxunsa, bu "gözlə görünən maneə" mənasını verir, "südd" kimi oxunsa, "gözlə görünməyən maneə" mənasını verir. (Doğrusunu Allah bilir).

Ayədə keçən **"Beləliklə, nə onu aşa bildilər, nə onu deşməyə güc çatdıra bildilər" (Kəhf surəsi, 97)** ifadə də buna işarə edə bilər. Çünki bu böyük antenanın dalğalarına maneə törətmək istəyən Yəcüc və Məcücün ya bu dalğanın üzərinə çıxa bilmələri, ya da bu dalğanı deşmələri lazımdır. Beynəlxalq ədəbiyyatda quldur, pirat (xaker) dalğaya daxil olub, qeyri-qanuni yayın etməsini də "yayımı kəsmək" kimi adlandırmaq olar.

Bu şərhi əsas götürsək, "dərhal heç bir söz anlamayan" izahı da edən peyk dalğaları, bəzi dövrlərdə qavraya bilməyən bir qövmə də işarə edilə bilər. Bu qövm dalğanın pozulduğu zaman sözü anlaya bilmir, sonra dalğa düzələndə də məqbul olaraq dərhal qavramağa başlayır (Doğrusunu Allah bilir).

Kəhf surəsinin 86-cı ayəsində keçən "... quru palçıqlı bir çeşmə" ifadəsi də diqqət çəkir. Çünki normal bir televiziya ekranında günəşin batması kiçik bir su çeşməsində batması kimidir. Televiziyada görüntülərinin rəngi dəyişər və dəniz səthindəki bir batış ekranda bozlaşacağı üçün xaricdən bu görünüşü izləyən bir adam üçün günəş lehməli bir çeşmədə batmış kimi görünər. "Aynin hamiyə" ifadəsində keçən "ayn"- göz və "hamiyə"-bulanıq sözlərinin bu mənaları da gözə və televiziyadakı görünüşün bulanıqlığına işarə edə bilər.

Həmçinin, həm qərb, həm də şərq tərəfi ilə ünsiyyətdə olması, bir tərəfdə günəş doğularkən digər tərəfdə günəş batması da dünyanın müxtəlif bölgələri ilə əlaqə qurulmasına da işarə edir.

**Kəhf surəsindəki bəzi ayələrin Əbcəd hesabının verdiyi tarix (ayələrin hərf və sayı ilə hesablama) günümüzə yaxın zamanlara işarə edir.**

**Onların qəlbinə (səbir, mətanət) qüvvət verdik. (Kəhf surəsi, 14)**

Əbcəd hesabı hicri 1400 miladi 1979-cu ili verir.

**"Rəbbimin mənə verəcəyi qüdrət və sərvət sizin mənə verəcəyiniz məbləğdən daha yaxşıdır...(Kəhf surəsi, 95)**

Əbcəd hesabı hicri 1409, miladi 1988-ci ili verir (Şəddəsiz)

**Biz onu yer üzərində möhkəmləndirib qüvvətləndirdik və hər şey verdik... (Kəhf surəsi, 84)**

Əbcəd hesabı hicri 1440, miladi 2019-cu ili verir (şəddəli).

Kəhf surəsində hicri XIV əsrin əvvəlinə, yəni miladi təqvimi ilə XX əsrin sonu və XXI əsrin əvvəlinə uyğun gəlir, işarə edən rəqəmi isə Kəhf surəsinin sıra nömrəsi ilə ayə sayının hasilindən alınır, bu da 1980 rəqəmidir. Bu rəqəm hicri XIV əsrin əvvəlinə işarə edir.

**18-ci surə Kəhf surəsi 110 ayə 18 X 110 = 1980**

Bədiüzzaman Səid Nursi də bir çox sözündə Axırzamanın başlanğıcı olaraq eyni tarixlərə işarə etmişdir. Məsələn, bir sözü bu şəkildədir:

"Məhz bu həqiqəti bilməyən insafsız insanlar deyərlər ki: "Axirətin təfsilatını dərs alan gözüaçıq, iti nəzərli olan səhabələrin fikirləri nə üçün min il həqiqətdən uzaq olaraq, fikirləri düşmüş kimi, gələcək dünyada 1400 il sonra gələcək bir həqiqəti əsrlərində qərib zənn etmişlər?"

Ustad burada səhabələrin yaşadığı dövrdən 1400 il sonrasından bəhs edərək Axırzamanın 1980-ci illərə qədəm qoyacağına işarə etmişdir. Burada nə 1373, nə 1378, nə də 1398 deyilməmişdir, tam 1400 deyilmişdir. Yəni hicri XIV.

Kəhf surəsi iman edənlər üçün çox əhəmiyyətli bir müjdə verir. Bu müjdə, Peyğəmbərimizin də hədislərində bildirdiyi müqəddəs bir dövr olan Axırzamanın yaxınlaşmasıdır. Kəhf surəsi bu cəhətdən İslamın Axırzamanda keçirəcəyi başlanğıc, inkişaf və hz. İsanın gəlişi ilə yanaşı nəticələnəcək olan hakimiyyət dövrlərinə işarə edir.

# V HİSSƏ: HƏZRƏTİ SÜLEYMAN

**Hz. Süleymana o günə qədər bənzəri görünməmiş bir mülk verilmişdir**

**O dedi: "Ey Rəbbim! Məni bağışla və mənə elə bir səltənət ver ki, məndən sonra heç kimə nəsib olmasın. Həqiqətən, Sən Bəxş edənsən. (Sad surəsi, 35)**

Yuxarıdakı ayədə xəbər verilən hz. Süleymanın duasına Allah razılıq vermiş və onu Öz qatından çox böyük nemətlərlə və üstün elmlərlə dəstəkləmiş, ona heç kimin çata bilməyəcəyi bir mülk, görkəmli bir səltənət, bənzəri olmayan bir hakimiyyət vermişdir. Hz. Süleymanın həyatından bəzi hekayələrin verildiyi ayələrdə bu zənginlikdən, güc və iqtidardan, sahib olduğu elmləri istifadə etməyindən bir çox təfərrüatlar verilir.

**Hz. Süleymana quşların danışıq dili öyrədilmişdir**

Allah hz. Süleymana quşların danışıq dilini öyrətmiş və bu üstün elm sayəsində ordusunda quşlardan ibarət olan bir bölmə yaratmışdır. Hz. Süleyman bu vasitə ilə quşlarla əlaqə qurmuş, onlara dilədiyi şəkildə hökm edə bilmişdir. Bu vəziyyət tamamilə Allahın hz. Süleymana olan rəhmətinin bir nəticəsidir.

**... Ey insanlar, bizə quşların danışma dili öyrədildi və bizə hər şeydən (bol bir nemət) verildi. Həqiqətən bu, açıq-aşkar bir lütfdür. (Nəml surəsi, 16)**

Hz. Süleyman hekayəsindəki bu barədə bəzi əhəmiyyətli nəticələri vardır:

- Quşların digər insanların eşidə bilmədiyi xüsusi bir dalğada, özlərinə xas bir danışıqları vardır. Hz. Süleymana bu xüsusi kanalda danışığı anlaya biləcək bir elm verilmişdir. Bu, texnoloji bir imkanla da ola bilər.

- Süleyman peyğəmbər quşların bu fərqli dalğadakı səsli ünsiyyətini başa düşməsi sayəsində onlara müxtəlif əmrlər vermiş, quşlar da onun bu əmrlərini yerinə yetirmişdirlər (Doğrusunu Allah bilir).

- Hz. Süleyman quşları bəzən xəbər aparıb-gətirməkdə, bəzən də kəşfiyyat üçün istifadə etmiş və bu şəkildə çox əhəmiyyətli nəticələr əldə etmişdir. Bu elm onun digər ölkələrlə əlaqə qurmasını asanlaşdırmış, çox uzaq bölgələrə rahatlıqla çatmasına imkan yaratmışdır (Doğrusunu Allah bilir).

- Bu ayə ilə Axırzamanda buna oxşar olan üstün bir texnologiyanın istifadə ediləcəyinə diqqət çəkilir. Bu hekayədə keçən quşlarla, bildiyimiz quşlara deyil, bu gün istifadə edilən pilotsuz təyyarələrə də işarə edilə bilər.

- Bunların xaricində hz. Süleyman digər ölkələr və düşmənləri haqqında kəşfiyyat əldə etmək üçün quşlara ötürücü yerləşdirmiş, bu şəkildə həm görünüş,

həm də səs qeydi əldə etmiş, əldə etdiyi qeydləri ölkəsinin rəhbərliyində müxtəlif şəkillərdə istifadə etmiş ola bilər.

- Hz. Süleymanın cinlər və şeytanlar üzərində böyük bir hakimiyyəti olduğu bildirilmişdir. **Allah Səba surəsinin 12-ci ayəsində "... Cinlərin bir qismi Rəbbinin izni ilə onun yanında işləyirdi..."** deyə bildirir. ***Ənbiya surəsinin 82-ci ayəsində isə "...*** **Onun üçün şeytanlardan dənizdə dalğıclıq (qəvvaşlıq) edən və bundan başqa işlər (ev tikənləri, mehrab düzəldənləri) görənləri də (onun əmrinə verdik)..."** deyə buyrulmuşdur. Bunları dərindən fikirləşəndə buradakı quşlardan qəsd, quş görünüşündəki cinlərdən meydana gələn bir ordu ola bilər.

- Bir başqa ehtimal isə ayədə danışılan quşların cinlər vasitəsiylə istiqamətləndirilə bilməsidir və Süleyman peyğəmbər də cinlər vasitəsiylə quşlara istədiyi bütün işləri gördürə bilər.

- Quran Allahın qiyamətə qədər bütün insanlar üçün etibarlı kitabıdır. Buna görə hz. Süleyman hekayəsində izah edilən hadisələrin bənzərləri Axırzamanda da yaşana bilər. Bu ayələr Allahın cinləri və şeytanları Axırzamanda da insanların xidmətinə verəcəyinə işarə edə bilər. Yenə bu hekayədə işarəvi mənada diqqət çəkilən yüksək texnologiyadan, Axırzamandakı insanların çox sıx olaraq istifadə edəcəyinə diqqət çəkilir (Doğrusunu Allah bilir).

## Hz. Süleymanın dişi qarışqanı başa düşməsi

**Süleyman qarışqanın bu sözünə gülümsədi və dedi: “Ey Rəbbim! Mənə həm mənim özümə, həm də valideynlərimə əta etdiyin nemətə şükür etmək üçün, Sənin razı qalacağın yaxşı əməl etmək üçün ilham ver və məni Öz mərhəmətinlə əməlisaleh qullarına qovuşdur!” (Nəml surəsi, 19)**

- Hz. Süleymanın qarışqaların öz aralarındakı söhbətlərini eşitməsində də Axırzamanda kompyuter texnologiyasında yaşanacaq irəliləyişlərə dair bəzi diqqətçəkici işarələr ola bilər.

- İndiki dövrdə "Silikon Vadisi" termini texnoloji dünyasının mərkəzini ifadə edir. Hz. Süleyman hekayəsində də bir qarışqa vadisindən bəhs edilməsi olduqca mənalıdır. Allah bu ayə ilə Axırzamanda yaşanacaq inkişaf etmiş bir texnologiyaya diqqət çəkir (Doğrusunu Allah bilir).

- Həm də indiki vaxtda qarışqalar və bəzi böcək növləri yüksək texnologiya sahəsində sıx olaraq istifadə edilir. Bu canlılardan nümunə götürülərək inkişaf etdirilən robot proyektləri, müdafiə etmə sənayəsindən texnologiya sahəsinə qədər bir çox sahədə xidmət etməyi məqsəd qoymuşdur. Ayədə bu inkişaflara da işarə ola bilər.

**Axırzamana aid müjdələr**

Hz. Süleymanın və hz. Zülqərneynin yaşadıqları dövrlərdə reallaşmış olan bu dünya hakimiyyəti bütün müsəlmanlar üçün çox böyük bir müjdədir. Çünki bu hekayələrdə Axırzamana aid əhəmiyyətli işarələr var.

Allahın sərhədlərini ciddi şəkildə, səliqə ilə qoruyan, İslam əxlaqını dünya üzərində hakim etmək üçün ciddi bir səy sərf edən və heç bir çətinlik qarşısında əyilməyən müsəlmanlar, tarixin hər dövründə mütləq qalib gələcəklər. Allahın köməyi və dəstəyi mütləq onların üzərində olacaq. Hz. Süleyman və hz. Zülqərneyn yuxarıda sadaladığımız xüsusiyyətlərin dünyadakı qarşılığını güclü bir hakimiyyətlə (və əlbəttə Allahın digər bir çox mənəvi lütfü ilə) almışlar. Axırzamanda eyni hakimiyyət Allahın izniylə mütləq reallaşacaq.

İslam əxlaqının bu böyük hakimiyyəti, əvvəl də vurğuladığımız kimi, Peyğəmbərimizin bəzi hədislərində hz. Süleyman və hz. Zülqərneynin dünya hakimiyyətlərinə bənzədilərək təsvir edilmişdir. Bunlardan bəziləri belədir:

**Mehdi eynilə Zülqərneyn və Süleyman kimi dünyaya hökm edəcək.** *(El Kavlul Muhtasar Fi Alamatil Mehdiy-il Muntazar, səh. 29)*

**Bütünlüklə yer üzünün Məliki dörd nəfərdir. Onların ikisi: möminlərdən olan Zülqərneyn və Süleyman, digər ikisi kafirlərdən olan Nəmrud və Buhtunnasrdır. Yerə beşinci olaraq Əhli-Beytimdən biri sahib olacaq. Yəni Mehdi.** *(Mektubat-ı Rabbani, 2/1163)*

**Mehdinin çıxışından əvvəlki vəziyyət**

***• Axırzamanda ümmətimin başına sultanlarından şiddətli bəlalar gələr, belə ki, yerləri müsəlmanlara dar gələr.*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 12)*

Bu hədis Mehdi gəlməmişdən əvvəl bəzi müsəlman ölkələrində din əxlaqından uzaq, zalım, mərhəmətsiz xarakterli və ya bacarıqsız insanların iqtidarda olacağına işarə edir. Həqiqətən də, bu gün İslam dünyasının bir hissəsində iqtidarda olan idarəçilər müsəlman xalqına əziyyət verir, təzyiqçi və despot rejimləri ilə insanlara əziyyət verirlər. Bir qismində isə əhil (layiq olmayan) olmayan idarəçilərə görə xalq müxtəlif bəlalara məruz qalır. İraq, Liviya, Suriya, Somali, Efiopiya, Əfqanıstan, Tunis və Cibuti kimi ölkələr başda olmaqla, müsəlmanlar ölkə rəhbərliyindəki liderlər tərəfindən təzyiq altına alınır, müxtəlif təzyiq və çətinliklərə məruz qalırlar. Müsəlmanların dinlərini azad yaşamaları və ibadətlərini yerinə yetirmələrinə mane törədilir, iqtisadi çətinliklər həyatı çətinləşdirir.

***• Tozlu, tüstülü (dumanlı), qaranlıq bir fitnə görünəcək, bunu digərləri izləyəcək...*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 26)*

Fitnə-insanın ağıl və ürəyini birbaşa haqq və həqiqətdən çəkindirən, döyüş, azdırma, qarışıqlıq, ixtilaf, ixtişaş-kimi mənalar verən bir sözdür. 15 hədisdə bu fitnənin ardınca toz və tüstü buraxacağı ifadə edilir. Həm də bu fitnənin qaranlıq kimi xarakterizə edilməsi, haradan gəldiyi müəyyən olmayan, ümid edilməyən bir hadisə olduğuna işarə edilə bilər.

Bu nöqteyi-nəzərdən baxıldıqda hədisin əsas mövzusu, 11 sentyabr 2001-ci il tarixində Amerika Birləşmiş Ştatlarının Nyu York və Vaşinqton şəhərlərində baş verən dünya tarixinin ən böyük terror hadisəsi olaraq xarakterizə edilən hücuma işarə etməsi ola bilər. Televiziya ekranlarında və qəzetlərdə də bildirildiyi kimi, bu iki böyük terror hadisəsinin ardınca böyük bir toz buludu və tüstü ətrafı bürüyüb əhatə etmişdir...

... Bu hadisə həm dünya tarixinin ən böyük terror hücumlarından biri, həm digər əlamətlərə yaxın dövrlərdə baş verməsi, həm də, hədisdə edilən tərifə bənzər xüsusiyyətlər daşıdığına görə olduqca əhəmiyyət kəsb edir. Buna görə minlərlə günahsız insanın ölümünə və yaralanmasına səbəb olan bu insanlıq tarixinin ən elmi terroru hədisdə xəbər verilən və Mehdinin çıxışının bir əlaməti olaraq bildirilən tozlu tüstü, qaranlıq fitnə ola bilər.

• ***Mehdidən əvvəl məşhur qırğınların baş verəcəyi böyük bir fitnə görünəcək.*** *(El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 37)*

Peyğəmbərimizin Mehdinin gəlişi ilə əlaqədar bildirdiyi hədislərin böyük bir hissəsində Mehdi çıxmamışdan əvvəl dünyada qarışıqlıq, etibarsızlıq və narahatlıqların hakim olacağından bəhs edilir. Döyüşlər və iğtişaşlarla yanaşı, toplu qırğınların yaşanacağı da bu dövrün diqqətə çarpan xüsusiyyətlərindən biridir. Həm də hədisdə qırğınların məşhur olacağına, yəni bütün dünya səviyyəsində yaşanacağına diqqət çəkilir.

Keçdiyimiz əsrdə iki böyük dünya müharibəsi yaşanmış və sırf bu döyüşlərdə 65 milyon insan həlak olmuşdur. XX əsrdə siyasi səbəblərlə qətlə yetirilən vətəndaşların sayının 180 milyonu keçdiyi təxmin edilir. Bu əvvəlki əsrlərlə müqayisə edildikdə fövqəladə dərəcədə olan yüksək bir rəqəmdir.

• ***Günahsız insanlar qətl edilməyincə Mehdi çıxmayacaq və baş verən qırğınlara yerdəkilər və göydəkilər artıq dözülməz bir hala gələndə zühur edəcək...*** *(El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 37)*

Mehdinin çıxışı ilə əlaqədar hədislərdə qırğınların yayılmasından bəhs edilərkən, bu qırğınların günahsız insanları hədəf alacağına xüsusilə diqqət çəkmişdir. Əvvəllər də anladığımız kimi, indiki vaxtda demək olar bütün döyüşlərdə, müharibələrdə əsl hədəf sivil xalq olur. Qırğınlar da əslində, vətəndaş və günahsız xalqa istiqamətli olaraq reallaşdırılır. Qətl edilənlərin əksəriyyəti uşaqlar, yaşlılar və qadınlardır. Xüsusilə, özlərini müdafiə etmə imkanı olmayan bu insanların seçilməsi

qırğınların miqyasının böyüməsinə, həyatlarını itirən insanların sayının çoxalmasına səbəb olur.

Terrorizmin məqsədi xalq arasında qorxu və dəhşəti yaymaq olduğuna görə bu cür hücumların əsl yönəldiyi seqment əksər hallarda xalqdır.

• ***Heç bir tərəfin ondan məhfuz (gizli) qalmayacağı bir fitnə zühur edəcək, bu fitnə qaldığı yerdən dərhal başqa bir tərəfə yayılacaq...*** *(El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 21-22)*

"Fitnə" sözü isə əvvəl də ifadə edildiyi kimi "döyüş, qarışıqlıq, müharibə, ixtilaf" kimi mənaları ifadə edir. Sözün bu mənalarını fikirləşdikdə, xüsusilə, son bir əsrdir, hədisdə də ifadə edildiyi kimi qaldığı yerdən dərhal başqa bir tərəfə yayılan döyüşlər, daxili qarşıdurmalar, qarışıqlıqlar dünyanın dörd bir tərəfində bitib tükənmədən davam edir. Xüsusilə, geridə buraxdığımız XX əsr "Döyüşlər Əsri" olaraq xatırlanır. Hal-hazırda yaşadığımız XXI əsr isə döyüşlər və terror hadisələri ilə başlamışdır və hələ də bunlar dünyanın dörd bir tərəfində davam edir.

• ***İnsanların ümidsiz olduğu və "heç Mehdi filan yoxmuş" dediyi bir dövrdə Allah Mehdini göndərər...*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 55)*

Yuxarıdakı hədisdə Qızıl dövr əlamətlərindən birinin insanların "Mehdinin gəlməyəcəyini", bir ümidsizliyə qapılmaları olduğu bildirilir.

Axırzamanda döyüşlərlə, yoxsulluqla, aclıqla, ədalətsizliklərlə, əxlaqi çöküşlə və müxtəlif epidemiya xəstəliklərlə dolu yaşayan insanlar bütün bu mənfiliklərin ortadan qalxa biləcəyinə dair inamlarını itirərlər. Müsəlmanlar arasında da bir çox adam Qızıl dövrün başlayıb İslam əxlaqının dünya üzərində hakim olacağı istiqamətindəki ümidlərini itirər və fitnələrin artaraq davam edəcəyinə inanar.

Necə ki, indiki vaxtda da bu ruh halının nümunələri tez-tez görünür. Peyğəmbərimizin Mehdinin gəlişi və Qızıl dövrdə yaşanacaq gözəlliklərlə əlaqədar çoxlu sayda hədisi olmasına baxmayaraq, bir çox adam belə bir dövrün yaşanmayacağını zənn edir. Məhz bu zənn də, Axırzaman əlamətlərindən biridir. Qızıl dövr, bu ümidsizlik halının insanlar arasında yayıldığı bir zamanda Allahın insanlara olan rəhməti sayəsində başlayacaq.

• ***İnsanlar 95-ci ilə qədər malik olacaq, yəni işləri yaxşı gedəcək, 97 və ya 99-cu illərdə isə mülkləri zail olacaq...*** *(El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 54)*

Hədisdəki "95-ci il" şəklindəki ifadə ilə 1995-ci ilə diqqət çəkilir. 1995-ci ili insanların nisbətən daha mürəffəh (bolluq içində) bir həyat sürdükləri, həyat şərtlərinin çox çətinləşmədiyi bir dövrdür. Necə ki, hədisdə bu il içində "işlərin yaxşı gedəcəyi" xəbər verilmişdir. Yəni bu dövrdə insanlar həyatlarını davam etdirə biləcək bir gəlirə sahibdirlər və hələ mülk əldə edə biləcək qədər zəngindirlər. Lakin 1997-

1999-cu illər iqtisadiyyatın çox pisləşdiyi, kasıblığın və yoxsulluğun artdığı bir dövrdür. Bu illər arasında malın və mülkün dəyəri qalmayacaq. İndiki vaxtda Argentina nümunə kimi bu hadisə reallaşmışdır və hələ də şiddətlə davam edir.

- ***Ondan əvvəl Şam və Misir məlikləri öldürüləcək...*** *(El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 49)*

Misirin yaxın tarixi araşdırılanda hədisdə də ifadə edildiyi kimi bir məlikin öldürüldüyü görünür. 1970-ci ildə Misirin başına keçən və 11 il iqtidarda qalan Ənvər Sədat olmuşdur.

Ənvər Sədat 1981-ci ildə bir rəsmi keçid əsnasında müxalifləri tərəfindən təşkil edilən bir sui-qəsd nəticəsində həyatını itirmişdir. Misir tarixində öldürülən idarəçilərdən digərləri də, 1910-cu ildə sui-qəsdə məruz qalan baş nazir Boutros Qali, 1945-ci ildə öldürülən Misir baş naziri Əhməd Mahir Paşa və 1948-də yenə bir sui-qəsd nəticəsində öldürülən Misir baş naziri Mahmud Nukrasi Paşadır.

"Şam" sözü isə yalnız Suriyadakı Şam şəhərini bildirmir. "Şam" sözünün ərəbcə leksik mənası "sol" deməkdir və keçmiş zamandan bəri Hicaz bölgəsinin (Məkkə və Mədinə şəhərlərinin olduğu bölgə) sol tərəfində qalan ölkələri ifadə edir. 19 Şam bölgəsi idarəçilərindən də sui-qəsdə uğrayan çoxlu sayda adam olmuşdur. Bunlardan bir neçəsi belədir;

1920-ci ildə öldürülən Suriyanın köhnə respublika başçısı Salah Al-Deyən Beetar

1921-ci ildə öldürülən Suriya baş naziri Droubi Paşa

1949-cu ildə sui-qəsdə uğrayan Suriya Baş naziri Muhsin al-Barazi

1951-ci ildə öldürülən İordaniya kralı Abdullah

1982-ci ildə bombalı sui-qəsdə uğrayan Livanda Falanjist lideri Bəşir Cemayel...

## Mehdi dövrünün hz. Süleyman və hz. Zülqərneyn dövrləri ilə olan oxşarlıqları

Mehdilik hz. Süleymanın və hz. Zülqərneynin üstün əxlaqlarının Axırzamanda yenidən daha dəyişik və geniş bir zəmində yaşanmasıdır. Hz. Süleymanın və hz. Zülqərneynin şəxsi mənəviyyatları, ruhları, məntiqləri, ağıl təcəlliləri, ictimai təcəlliləri Axırzamanda özünü göstərəcək.

Hz. Süleyman, hz. Zülqərneyn və Mehdi dövrləri İslamın, gözəl əxlaqın yer üzündə yayılmış formada yaşanmasıdır. Hər üçü də Allahın bəyəndiyi dövrlərdir. Quranda və Peyğəmbərimizin hədislərində bildirilən Buhtunnasr (Beytül-Müqəddəsi yıxan və 70.000 yəhudini öldürüyü söylənən Babil kralının adı), Nəmrud (hz.İbrahim (ə.s)-ı odun içinə atan və ona qarşı çıxan bir hökmdar) və Firon dövrləri isə şeytaniyyətin və imansızlığın hakim olduğu dövrlərdir. Bu dövrlərin dərhal ardınca

Allah necə İslam əxlaqını hakim etdisə, Axırzamanda, yəni dünyanın son dövrlərində də Rəbbimiz İslam əxlaqının hakim olduğu bir dövrü qullarına yaşadacaq. Məhz bu Qızıl dövrdür.

Bu dövr hz. Süleyman və hz. Zülqərneyn dövrlərinin daha geniş bir şəkildə əks olunması və təcəllisidir. Bir başqa sözlə desək, Mehdilik-hüzur, xoşbəxtlik, sevgi, qardaşlıq, vəfa, sülh, fədakarlıq, insanlıq, yardımsevərlik kimi xüsusiyyətlərin dünyaya hakim olmasıdır. Hz. Süleyman və hz. Zülqərneyn ilə Qızıl dövrü arasındakı bənzərliklərdən bəzi nümunələri belə sıralaya bilərik:

- Mehdinin dünya hakimiyyəti

Əvvəl də vurğuladığımız kimi, hz. Süleyman və hz. Zülqərneyn İslam əxlaqını dünyaya hakim etmişlər. Çox geniş bir coğrafiyaya hökm etmiş, çox güclü bir orduya sahib olmuşlar və onların dövrü bu cəhətləri ilə Qızıl dövr ilə çox böyük bənzərliklər göstərir.

Qızıl dövr də İslam əxlaqının bütün dünyaya hakim olacağı, insanların axın-axın müsəlman olacaqları, inkarçı ideologiyaların yer üzündən silinəcəyi, dinin Peyğəmbərimizin dövründəki kimi yaşanacağı bir dövrdür. Bəzi hədislərdə Qızıl dövründəki hakimiyyət bu şəkildə təsvir edilir:

***(Mehdi) bütün dünyaya malik olacaq.*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 10)*

***Mehdi şərq ilə qərb arasındakı hər yeri fəth edəcək.*** *(El Kavlu'l Muhtasar Fi Alamat-il Mehdiyy-il Muntazar, səh. 56)*

- Mehdinin sahib olduğu xüsusi elm hz. Süleymana və hz. Zülqərneynə bağışlanan böyük elmlərdir.

Kitabın əvvəlki hissələrində Allahın hz. Süleymana müxtəlif elmlər lütf etdiyindən bəhs etdik. O, Allahın istəyi ilə cinlərə və şeytanlara hökm etmiş, quşlarla danışmış, qarışqaların öz aralarındakı söhbətlərini eşidə bilmiş, külək və mis mədənləri onun əmrinə verilmişdir. Bunların hər biri hz. Süleymanı digər insanlardan fərqləndirən möcüzəvi xüsusiyyətlərdir. Hz. Zülqərneyn üçün də Quranda, ***"Məhz belə, onun yanında özü qavradığı elm, biliyi olduğunu" (və ya yanında olub-bitən hər şeyi) Biz (elmimizlə) tamamilə əhatə etmişdik". (Kəhf surəsi, 91***) şəklində bildirilir. Buradan da aydın olur ki, hz. Zülqərneyn Allahın elm verdiyi qullardandır.

Mehdi də eynilə bu iki müqəddəs insan kimi çox xüsusi elmlərə sahib olacaq. Daşköprülüzadə Əhməd Əfəndi "Mövzuatul ulum" adlı əsərində (11/246) Mehdinin cifr (rəqəm və hərflərin hesablaması ilə əldə edilən məlumat) elminə sahib olacağını qeyd etmişdir. Bir başqa hədisdə isə Mehdi haqqında belə deyilir:

***O, heç kimin bilmədiyi gizli bir vəziyyətə bələd olduğu üçün ona Mehdi deyilmişdir.*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 77)*

Peyğəmbərimiz həm də Mehdinin eynilə hz. Süleyman kimi heyvanların dilini biləcəyini və onun kimi insanların yanında cinlər üzərində də hakimiyyəti olacağını bildirmişdir:

***O (Mehdi), təsdiqlənmiş, quş və bütün heyvanların dillərini bilən biridir. Onun üçün ədaləti, bütün insanlar və cinlər tərəfindən keçərli olacaq.*** *(Kıyamet Alametleri, səh. 188)*

**- Sülhpərvər olmaları və diplomatik sülhü seçmələri**

Hz. Süleymanın qonşu ölkələrlə olan əlaqələrində xoşməramlı, bağışlayıcı və sülhpərvər olduğunu əvvəl də vurğulamışdıq. O, problemləri siyasi yolla həll etməyi üstün tutur və demokratik üsulları izləyirdi. Hz. Süleyman yaşadığı dövrdə çox üstün bir mədəniyyət meydana gətirmiş və hakimiyyətini də siyasətlə, sənətlə və mədəniyyətlə təmin etmişdir. Çox güclü, qarşı çıxıla bilməz ordulara sahib olmasına baxmayaraq, əsgəri gücünü istifadə etməmişdir. Hz. Zülqərneyn isə, ətrafındakı xalqlar tərəfindən "yer üzündə təxribatçılığı və fitnənin qarşısını alan adam" olaraq tanınmış, insanlara sülh və hüzur gətirən bir lider olmuşdur. Hz. Süleyman və hz. Zülqərneyn dövrləri bu cəhətləri ilə Qızıl dövrə çox bənzəyir.

Qızıl dövrdə də insanlar öz istəkləriylə müsəlman olacaq, heç bir döyüşə ehtiyac olmadan İslam əxlaqı bütün dünyaya hakim olacaq. Bu dövrü təsvir edən hədislərdə belə bildirilir:

***Zamanında nə bir kimsə yuxusundan oyandırılacaq, nə də bir kimsənin burnu qanayacaq.*** *(El Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 42)*

***Mehdi peyğəmbərin yoluyla gedəcək, yatan adamı oyandırmayacaq, qan da axıtmayacaq.*** *(Kıyamet Alametleri, səh. 163)*

Hədislərdə də ifadə edildiyi kimi, Mehdi bütün dünyaya İslam əxlaqını sülh yoluyla hakim edəcək, döyüş və şiddətdən uzaq duracaq. Mehdinin gedəcəyi yol bütün dünya səviyyəsində böyük bir mədəni addım ilə insanların İslam əxlaqına yönəldilməsi olacaq. O dövrdə Allahın izniylə aşağıdakı ayələr təcəlli edəcək:

**Allahın köməyi və qələbə gəldiyi zaman, insanların dəstə-dəstə Allahın dininə girdiklərini gördükdə həmd ilə Rəbbini təriflə və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir! (Nəsr surəsi, 1- 3)**

**- Din əxlaqına dəvət mövzusunda qərarlı olmaları və sürətli davranışları**

Hz. Süleyman aldığı ağıllı (məntiqli) və ardıcıl qərarlar ilə bütün möminlər üçün çox əhəmiyyətli bir nümunədir. Səba ölkəsini iman etməyə dəvət etmək üçün yazdığı məktub onun təbliğ gücünü göstərir, elm sahibi bir adamın vasitəsilə Səba məlikəsinin taxtını gətirtməsi, sürətli qərar almağının əhəmiyyəti bildirilir. Hz.

Zülqərneynin Yəcüc və Məcüc adlı qövmün təxribatçılığının qarşısını almaq üçün dərhal qiyamətə kimi dağılmayacaq dərəcədə möhkəm bir səth tikməsi də, onun gücünün və ağıllı olmağının bir göstəricisidir. Qızıl dövrün də bu cür cəhətləri ilə hz. Süleyman və hz. Zülqərneyn dövrünə çox böyük oxşarlığı var.

Qızıl dövrdə insanlar axın-axın İslama yönələcək, buna görə çox geniş, əhatəli və ardıcıl çalışacaqlar. Cəmiyyətlər bir-birinin ardınca İslam əxlaqını mənimsəyəcək, inkarçı ideologiyalar sürətli və davamlı cəhdlərinə baxmayaraq dünya üzərindən qalxacaq, hər cür zülm sistemi tarixin qaranlıqlarına basdırılacaq. Bu mövzu ilə əlaqədar olaraq böyük İslam alimi Muhyiddin Ərəbi bunları bildirir:

Allah ona (Mehdiyə) o qədər güc verəcək ki, bir gecənin içində zülmü və (zülm) əhlini məhv edəcək, dini ayağa qaldıracaq, İslamı canlandıracaq, fikir verilməyən din əxlaqına yenidən qiymət qazandıracaq. Elə bil ölümündən sonra onu dirildəcək... Əslində cahil, xəsis və qorxaq olan bir adam dərhal alim, səxavətli və cəsur olacaq... Dini Rəsulullah (s.ə.v)-in dövründəki kimi tətbiq edəcək... *(Muhyiddin Arabi el-Endülüsu, Futuhat-ül Mekkiye, Bab 66, Kıyamet Alametleri, səh. 186)*

**- Abadlıq işlərinə böyük əhəmiyyət verilməsi**

Hz. Süleymanın abadlıq (tikinti, memarlıq) işlərinə verdiyi əhəmiyyəti kitabın əvvəlki səhifələrində də də dəqiqliyi ilə qeyd etmişdik. O, əmri altında işləyən bina ustası olan cinləri və şeytanları istifadə edərək qalalar, heykəllər, çanaqlar (iri qablar) və qazanlar düzəltdirmişdir. Onun görkəmli sarayını hər görən insan, başda Səba məlikəsi olmaqla, heyran qalmışdır. Hz. Zülqərneynin tikdiyi səthin istehsalında isə Allahın istəyi xaricində dağıla bilməyəcək dərəcədə güclü bir texnika istifadə edilmişdir.

Peyğəmbərimizin hədislərində Qızıl dövrdə də abadlıq işlərinə çox böyük əhəmiyyət veriləcəyi bildirilmişdir. Bu dövrdə şəhərlərə hüzur və sülhlə yanaşı yüksək bir mədəniyyət də aparılacaq. Bu hədislərdən biri belədir:

***Mehdi Konstantinopol və digər diyarların abadlaşdırılmasına çalışar.*** *(El Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 40)*

**- Zənginliyi və ehtişamı İslamın mənfəəti, Allahın razılığı üçün istifadə etmələri**

Hz. Süleymanın sahib olduğu zənginlikləri Allahın dinini izah etmək və İslam əxlaqını dünya üzərinə yaymaq üçün ən gözəl şəkildə istifadə etmişdir. Fəth etdiyi ölkələrdə yaşayan insanları əvvəlcə Allaha iman etməyə və təslim olmağa dəvət etmişdir. Səba ölkəsinə göndərdiyi İslama dəvət məktubu da buna çox əhəmiyyətli bir dəlildir. Hz. Zülqərneyn də **"... Rəbbimin məni özündə möhkəm bir iqtidarla məskun etdiyi (güc, nemət və imkan) daha xeyirlidir..." (Kəhf surəsi, 95)** ayəsindən də aydın olur ki, Allahın nemətiylə möhkəm bir iqtidara malikdir və bu böyük gücü yer üzündə təxribatçılığa maneə törətmək üçün istifadə etmişdir.

Qızıl dövründə də insanlar çox böyük bir zənginliyə, rifaha və əmin-amanlığa qovuşacaqlar. Mehdi yer üzünün bütün zənginliyini, Allahın dinini yer üzünə hakim etmək üçün istifadə edəcək, fəth etdiyi ölkələrdə gözəl əxlaqı və sülhü əsas tutacaq. Onun tayı-bərabəri və bənzəri olmayan tətbiqləri, insanların İslam əxlaqına qarşı ürəklərinin yumşalmasına vəsilə olacaq və İslam əxlaqı çox qısa bir müddətdə bütün dünyaya hakim olacaq. Bu mövzudakı hədislərdən bəziləri belədir:

***Ümmətim arasında Mehdi çıxacaq, Allah onu insanları zəngin etmək üçün göndərəcək. Ümmət nemətlənəcək, heyvanlar bol-bol yeyib içəcək, ərz nəbatatını çıxaracaq...*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 15)*

***... Beyətdən əvvəl, insanlar qrup-qrup onun yanına axışacaqlar və oraya gedən hər bir kəs ondan bərəkət qazanacaq.*** *(El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 25)*

## QEYDLƏR:


1 Bədiüzzaman Səid Nursi, Şualar, səh. 360, Şaban Döğen, Mehdi ve Deccal, Gençlik Yayınları, İstanbul, 1998, səh.15

2 M. Encarta Encyclopedia 2000, "Terrorism"

3 US Geological Survey National Earthquake Information Center, "Earthquake Facts and Statistics", 2000, http://wwwneic.cr.usgs.gov/neis/eqlists/eqstats.html

4 UNICEF, "Children and Poverty: Key Facts", 2000, http://www.unicef.org/copenhagen5/factsheets.htm

5 Manufacturing Dissent, "World Statistics - The Rich and the Poor", 1999, http://www.reagan.com/HotTopics.main/HotMike/document-8.13.1999.6.html

6 UNICEF, "Children and Poverty: Key Facts", 2000, http://www.unicef.org/copenhagen5/factsheets.htm

7 Time, 7 Aprel 1997, "The lure of the cult"

8 Faslu'l-Makal fi Refi İsa Hayyen və Nüzulihi və Katlihi'd-Deccal, səh. 20

9 Bədiüzzaman Səid Nursi, Sözlər, səh. 343

# MEHDİ HAQQINDA MÜXTƏLİF MÖVZULAR

# MEHDİNİN İSTANBULU MƏNƏVİ CƏHƏTDƏN FƏTH ETMƏSİ

Allah onun əli ilə Konstantinopolu fəth edəcək.

***Naim ibn Hammad Cəfərdən rəvayət etdi:***

***Hz. Mehdi ordusunu hər tərəfə göndərər. Zülm və zalımların hamısını yox edər. Diyarlar onun əmri altına girər. Allah Təala onun əlindəki Konstantinopolun fəthini müyəssər (asanlaşdırar) edər.*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman 56)*

***Allah Konstantinopolu çox sevdiyi dostlarının əliylə fəth edəcək.*** *(Kıyamet Alametleri, 181)*

***... Müxtəlif ölkələrdən bir çox alim bir-birlərindən xəbərsiz şəkildə Mehdini axtarmaq üçün yola çıxacaq və hər birinə 310-a qədər insan yoldaşlıq edəcək. Sonda hamısı da Məkkədə görüşərlər və bir-birlərinə bura nə üçün gəldiklərini soruşanda hamısı da:***

***"Bu fitnənin qarşısını alacaq və Konstantinopolu fəth edəcək Mehdini axtarırıq, çünki biz onun atasının, anasının və ordusunun adlarını öyrəndik" deyə cavab verərlər.***

*(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman 52)(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 42) (Kıyamet Alametleri, 169)*

***Əbu Hüseyn Əhməd ibn Cəfər-əl Münadi "Kitabül Məlahim"ində Əbu Hüreyrədən belə rəvayət etdi:***

***Doğrunu səhvdən ayırd edən, aldatmayan, oğurlamayan və dininə bağlı əmiriniz Konstantinopolu fəth edəcək.*** *(Mehdilik ve Imamiye , 196 )*

**Mehdi Konstantinopolu və Deyləm dağını fəth edəcək.** *(Əl-Kavlul Müxtəsər Fi Əlamətil Mehdiyy-il Muntazar, 27)*

***İbn Macə Əbu Hüreyrə (r.ə)-dən belə rəvayət etmişdir:***

***Dünyanın ömründən zaman qalmayıb, ancaq tək bir gün qalsa belə, o gündə mənim ailəmdən bir şəxsin Deyləm dağına (yaxud əyalətinə) və Konstantinopol şəhərinə sahib olması üçün Allah (c. c.), şübhəsiz, o günü uzadacaq.*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, 74) (Ölüm-Kıyamet -Ahiret ve Ahirzaman Alametler, 440)*

***Mehdi Konstantinopolun fəthi əsnasında səhər namazı üçün dəstəmaz alarkən bir bayraq taxacaq, dəniz ikiyə ayrılaraq, su özbaşına uzaqlaşacaq və açılan yolu izləyən hz. Mehdi qarşı sahilə keçəcək.***

*(Kıyamet Alametleri, 181) (El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 57)*

***Allah Konstantinopolu çox sevdiyi dostlarının əliylə fəth edəcək.*** *(Kıyamet Alametleri, 181)*

***Hz. İbn Amr (r.ə)-dən belə rəvayət edilmişdir: Peyğəmbərimiz (s.ə.v) buyurdu: "Ey Ümmət! Altı şey vardır ki, onlar olmadan qiyamət qopmaz... (altıncısı) Mədinənin fəthi".***

***-Dedilər: "Hansı Mədinə? (Hansı şəhər?)"***

***-Buyurdu ki: "Konstantinopol".***

***(*) Bu Konstantinopolun Mehdi tərəfindən ediləcək fəthidir.***

*(Kıyamet Alametleri , 204)*

*(Ramuz-el Ehadis, 296*

***Xətib, Müttəfək və Müftərəkin də Əbu Hüreyrədən belə rəvayət etdilər:***

***Rumlular mənim soyumdan və adı adıma uyğun olan bir vəli (ən böyük əmir) (Mehdi)-yə xainlik, mərhəmətsizlik etdikdən sonra Amik deyilən yerdə sizinlə döyüşəcəklər. Burada müsəlmanların 3/1-i öldürülər. Üçüncü gün isə döyüş rumluların əleyhinə olar. Beləliklə, müsəlmanlar döyüşə davam edərlər və Konstantinopolu fəth edərlər və oradakı malları bölərlər. Elə bu anda"Dəccal sizin evinizə girmiş və uşaqlarınızı əsir götürmüşdür" deyilən bir səs eşidəcəklər.*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman 73)*

***(Mehdi) Rumlularla 3 gün döyüşəcək, 3-cü gün qalibiyyət onun olacaq. Konstantinopol fəth olana qədər döyüşə davam edəcək.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 29)*

Mehdi çətin bir ordu ilə-rumlularla döyüşəcək, Konstantinopolu fəth edəcək.

***Rumlular Amak və ya Dabik deyilən yerlərə enmədikcə qiyamət qopmaz. O vaxt Mədinə (şəhər)-dən yer üzündəki xalqın ən xeyirlilərindən bir ordu rumlulara qarşı çıxar. Rumlular müsəlmanlara : "Bizimlə, bizdən əsir olanlar arasını boşaldın da onlarla döyüşək" -deyəndə müsəlmanlar da: "Xeyr, əsla boşaltmarıq, sizə yol verməri k"-deyə cavab verərlər. Dərhal sonra iki ordu böyük bir müharibə edərlər. Sonda İslam ordusunun 1/3-i pozularaq qaçarlar, hansı ki, Allah onlara əbədi olaraq tövbə ilham etməz, 1/3-i şəhid olar. Onlar Allah nəzdində şəhidlərin ən fəzilətlisidirlər. 1/3-i də düşməni məğlubiyyətə uğradıb fəthə davam edər və heç bir***

***zaman fitnəyə düşməzlər. Məhz bu müzəffər ordu Konstantinopolu fəth edər.*** *(Ölüm-Kıyamet -Ahiret ve Ahirzaman Alametler, 443)*

***İbn Cərir təfsirində Sudiydən belə rəvayət etdi:***

***Allah Təalanın "Onların dünyadakı zilləti, Mehdinin çıxıb Konstantinopolu fəth etməsi və rumluları məğlub etməsidir.*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, 76)*

***Amr ibn Avf (r.ə)-dən belə rəvayət edilmişdir.***

***Siz, şübhəsiz ki, Benül-Asfar ilə döyüşəcəksiniz. Sizdən sonra gələnlər də onlarla döyüşəcəklər. Nəhayət, Allah yolunda heç bir qınayanın qınamasından qorxmayan seçmə müsəlmanlar onlarla döyüşə çıxacaqlar və təsbehlər, təkbirlərlə Konstantinopolu fəth edəcəklər.*** *(Sünen-i Ibni-i Mace, 10/359)*

<u>Konstantinopol haradır?</u>

Konstantinopol şəhərini ravilərin bir qismi öz fikirlərinə görə, Roma olaraq anlasalar da, hədisi-şəriflərdə Konstantinopolun bugünki Roma şəhəri olduğuna dair açıq bir ifadə yoxdur. Əksinə, dəlillər Konstantinopolun İstanbul şəhəri olduğunu göstərir.

Konstantinopol: İslam dünyasında İstanbul şəhəri üçün istifadə edilmiş adlardan biridir. *(Büyük Lugat, TÜRDAV )*

İstanbul tarix boyunca müxtəlif adlarla xatırlanmışdır. Ən qədim adı Bizantiondur. 196-cı ildə imperator Septimusun oğlu Antoniusun adına yaraşdırılaraq Antoninia adını almış, lakin 330-cü ildə imperatorluğun mərkəzi olan Romadan bura nəql edilincə, şəhərə II Roma adı verilmişdir. V əsrdə bu ad Yeni Roma olaraq dəyişdirilmişdir. Lakin sonralar o zamana qədər xalqın istifadə etdiyi Konstantinopolis- Konstantin şəhəri olaraq qəbul edilmişdir. *(Cumhuriyet Ansiklopedisi)*

Bu şəhərə (bugünki İstanbula) IV əsrdən etibarən buradakı imperatorun adı verildi, yəni Konstantinopol adlandırıldı. *(Meydan Larousse)*

325-ci ildə Roma imperatoru olan Konstantinusdan sonra bu şəhər onun adı ilə xatırlanmağa başlandı. *(Gelisim Hachette Ansiklopedisi)*

İmperator Konstantin köhnə Bizansı öz adıyla xatırlanan yeni bir paytaxt etmişdir. *(Dünya Tarihi ve Çag. Uyg. Ansk).*

Bir qisim rəvayətlərdə isə Roma və Konstantinopol (İstanbulu) düzgün bir şəkildə müxtəlif şəhərlər olaraq bildirilir.

***Mehdi maiyətindəki (əmrin altında olan vəzifəlilərlə) qüvvələrlə birlikdə Romanı Konstantinopolu və Qızıl kilsəni fəth etmək üçün yola çıxar.*** *(Ölüm-Kıyamet -Ahiret ve Ahirzaman Alametler, 441 )*

Həmçinin, başqa rəvayətlərdən də Konstantinopolun İstanbul şəhərinə işarə etdiyini anlayırıq. Bu şəhər dəniz sahilində və bir körfəz üzərində qurulmuşdur.

***Bu ordunun hərəkət etməsi və göndərilməsi, Məğrib dağındakı Masinə deyilən yerdəki dəniz sahilindən olacaq.*** *(*Ölüm-Kıyamet -Ahiret ve Ahirzaman Alametler, 439*)*

***"İkdid-dürer" adlı əsərdə belə keçir:***

***Konstantinopolun yeddi səddi vardır. O Rum dənizinə tökülən körfəz (boğaz) üzərində qurulmuşdur. Dənizi Rum ellərinə və Əndəlüsə doğru uzanıb gedər.*** *(*Kıyamet Alametleri, 181*)*

Rumiyyə haradır ?

Hz. Mehdi (ə.s) və səhabələrinin fəth edəcəyi yer bəzi rəvayətlərdə Konstantinopol, bəzi rəvayətlərdə də Rumistan olaraq keçmişdir.

***Hüzeyfə ibn Yemani Mehdi hekayəsi və Rumiyyənin fəthi haqqında Rəsulullah (s.ə.v)-dən belə rəvayət etdi.***

***Mehdinin əsgərləri 4 təkbir gətirdiyi zaman Rumiyyənin divarları yerlə-yeksan olacaq...*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 74)*

***Hz. Mehdi Rumistanı 4 təkbirlə fəth edəcək...***

***(Mehdi) Rum qalalarını və Rumistanı təkbirlərlə fəth edəcək.***

***...Hz. Mehdi və ordusundakı (Yüzbaşı çarşının) kapitanlarla və hər birinin əmri altında yüz min işçi heyəti ilə Rumistan diyarına gələr.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 35-46-36 )*

Rumistan olaraq adlandırılan bu şəhərin hara olduğunu İbn Həcəri Mekki belə izah edir.

***Tarixçilər Rumistan olaraq adlandırılan bu diyarı dünya üzərindəki heç bir şəhərdə olmayan bir sıra xüsusiyyətlərlə səciyyələndirirlər. Bu xüsusiyyətlərə ən yaxın olan da Konstantinopoldur.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 31)*

Göründüyü kimi, Rumistan və Konstantinopol eyni şəhərə verilən fərqli adlardır, hər ikisi də İstanbuldur.

Qurani-Kərimdə mübarək diyarlardan və məmləkətin ana mərkəzlərinə, yəni baş şəhərlərinə göndərilən elçilərdən bəhs edilir:

**(Ya Rəsulum!) Sənin Rəbbin mərkəzlərinə (ən böyük şəhərlərinə) ayələrimizi oxuyan bir peyğəmbər göndərməmiş məmləkətləri məhv etmədi. Biz yalnız əhalisi zalım olan məmləkətləri yox etdik! (Qəsas surəsi-59)**

# TÜRK MİLLƏTİ VƏ 700-1400-CÜ İLLƏR

Tarixdə 700-cü ili və onun bir qat sonrakı illəri türklər üçün çox əhəmiyyətli hadisələrin başlanğıc illəri olmuşdur. Məsələn:

| |
|---|
| Oğuz Xanın ortaya çıxışı: Hicrətdən 1400 il əvvəl |
| Türklərin Çini zəbt etməsi: Hicrətdən 700 il əvvəl |
| Səlcuqluların müsəlman olması: Hicrətdən 350 il əvvəl |
| Səlcuqluların hökmranlığı: Hicrətdən 350 il əvvəl |
| Osmanlı Dövlətinin quruluşu: Hicrətdən 700 il əvvəl |

İşarəli mənada olan ayələr:

**And olsun, Biz sənə təkrarlanan yeddi ayəni və əzəmətli Quranı verdik. (Hicr surəsi-87)**

İlk böyük qiyamət əlaməti sayılan Mehdi həzrətləri Bədiüzzaman və Suyuti kimi dəyərli alimlərin bildirdiyi kimi hicri 1400 (miladi 1979-80)-cü illərdə çıxacaq, buna görə Mehdi və onun öndərliyində İslamın dünya hakimiyyətinə ilk addım bu illərdə atılacaq.

Mehdinin 1400-cü ildə çıxması, ilk ordusunu türklərdə qurması, yenə bu ordunu türklərə göndərərək (*) Konstantinopolu (bu günki İstanbul) mənəvi fəth etməsi, yuxarıda dediyimiz məsələyə daha fərqli bir məna verir.

*(*) Baxın (Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman 42.50.72 sahifeler)*

# MEHDİNİN ZÜHUR ETDİKDƏ TANINMASI

***İbni Əbu Seybə, Asim ibn Ömər Becelidən belə rəvayət etdi.***

***Bir adam (Mehdi) səmadan adıyla mütləq çağırılacaq və dəlil onu inkar etməyəcək, zəlil ona mane olmayacaq.*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, 52)*

***Asim ibn Əmr Becelidən belə rəvayət edilmişdir :***

***Göydən bir səs gələcək, onu nə dəlil inkar edəcək və nə də dəlil olmaqdan o çəkinəcək.*** *(Kıyamet Alametleri, 200)*

***Onun adıyla səmadan nida ediləcək və heç kim onun Mehdiliyini inkar etməyəcək.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 47)*

Bir şərhi də belədir:

Hz. Mehdi (ə.s) zühur etdikdə, Rəsulullah (s.ə.v)-in bildirdiyi şəkil və surəti, mübarizəsi, ordusu, fəth edəcəyi yerlər... ilə əlaqədar bütün hədisi-şəriflərə uyğun gələcək, bu mövzuda şübhə və tərəddüd olmayacaq. Hər kəs tam qərara gələrək onun Mehdiliyini təsdiq edəcək.

# MEHDİNİN ÇIXIŞININ ELANI

***Səmadan zühur edən bir əl və "Əmiriniz Mehdidir" şəklində bir səs eşidilənə qədər ayrılıq və ixtilaflar davam edəcək.*** *(El-Kavlu'l Fi Alamatil Mehdiyy-il Muntazar, 55)*

***O günün əlaməti : Səmadan bir əl uzanacaq və insanlar ona baxacaq və görəcəklər.*** *(El-Kavlu'l Fi Alamatil Mehdiyy-il Muntazar, 55)*

***Əsma binti Umeys (r.ə)-dən belə rəvayət edilmişdir :***

***O günün əlaməti səmadan uzadılmış və insanların ona baxıb dayandığı bir əldir.*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, 69)*

Hədisi-şərifdə keçən "əl" keyfiyyəti bilinməyən bir gücü göstərir. Allah (c.c.)-in əlindən Qurani-Kərimdə bəhs olunur və bu əlin bizim bildiyimiz mənada bir əl olmadığını bilirik.

**Sənə beyət edənlər Allaha beyət etmiş olurlar. Allahın Əli onların əllərinin üstündədir. Kim əhdini pozsa, ancaq öz əleyhinə pozmuş olar. Kim də Allahla bağladığı əhdinə sadiq qalsa, Allah ona böyük mükafat verər. (Fəth surəsi, 10)**

Bu ayədə bəhs edilən "əl" Allahın əlidir.

***Kitabı sənə nazil edən Odur. O Kitabın bir qismi mənası aydın ayələrdir ki, bunlar da Kitabın anasıdır. Digərləri isə mənası aydın olmayan ayələrdir. Qəlblərində əyrilik olanlar fitnə-fəsad törətmək və istədikləri kimi yozmaq məqsədilə mənası aydın olmayanın ardınca düşərlər. Onun yozumunu isə Allahdan başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə deyərlər: "Biz onlara iman gətirdik, hamısı bizim Rəbbimizdəndir". Bunu isə ancaq ağıl sahibləri dərk edərlər. (Ali İmran surəsi, 7)***

Ayədə bəhs edilən təşbehli ayələrdən biridir. Allahın qüdrəti, istədiyi kimi idarə etməsi mənasını verir. Eyni şəkildə yuxarıdakı hədislərdə bəhs edilən "əl" də bunun kimi fərqli mənada təşbehli bir ifadədir. Allahu aləm. Səmadan yayılan televiziya verilişinə aid dalğalar da bir növ əl kimi bir gücü bildirir. Bu əl dərhal hər evə çatar və hər kəs tərəfindən görülə bilər. "...İnsanlar ona baxacaq və görəcəklər" cümləsi də bu xüsusiyyətə işarə edir. Bu mövzuda digər rəvayətlər də belədir:

***Səmadan bir səs onu adıyla çağıracaq və şərqdə, qərbdə hətta yuxuda olan belə bu səsi eşidəcək və oyanacaq.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 56 )* ***Onun adıyla səmadan səs gələcək və heç kim onun Mehdiliyini inkar edə bilməyəcək.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 49)*

***Bir adam səmadan adıyla mütləq çağırılacaq və dəlil onu inkar etməyəcək, zəlil ona mane olmayacaq.*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, 52)*

İlk hədis **"...İnsanlar ona baxacaq və görəcəklər"** ifadəsi ilə televiziya verilişinə diqqət çəkdiyi kimi bu hədisdə də **"Səmadan bir səs onu adıyla çağıracaq..."** ifadəsiylə eyni zamanda radiolardan da yayınlanan səsli bir verilişə işarə edilir. (Allahu aləm) Eyni zamanda səmadan Mehdini çağıracaq bu səsi həm şərqdə, həm qərbdə dünyanın hər tərəfində, hər qövm öz dilində eşidir.

***İkdid-Durərdə deyilir: Bu səs bütün yer üzünə yayılacaq, hər qövm öz dilində eşidəcək.*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman 51 (Kıyamet Alametleri, 201)*

***Səmadan ərz əhlinə şamil olan bir səsi hər kəs bunu öz dilində eşidər.*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman 37 )*

Rəvayətlərdən aydın olur ki, hz. Mehdi (ə.s) zühur edəndə radio və televiziya kimi xəbər vasitələri ilə şərq, qərb, bütün dünyaya elan ediləcək və hər millət bu səsi öz dilinə çevirərək eşidəcək. (Allahu aləm)

Bədiüzzaman Səid Nursi (r.ə) həzrətləri də eyni mənada Dəccalın çıxışı haqqında bunları bildirmişdir.

***Rəvayətdə deyilir ki, Dəccal çıxdığı gün bütün dünya eşidər...***

***Allahu aləm. bu rəvayətlərin tamamilə səhih olması ilə yanaşı şərhləri belədir: Bu rəvayətlər möcüzəvi olaraq xəbər verir ki, "Dəccal zamanında xəbərləşmə vasitələri ...o dərəcədə tərəqqi edəcək ki, bir hadisə bir gündə bütün dünyada eşidiləcək. Radio ilə səslənəcək, şərq-qərb eşidəcək və ümumi qəzetlərdə oxunacaq deyə zühurundan on əsr əvvəl teleqraf, telefon, radio ...olmadığına görə, bunları möcüzəvi olaraq xəbər verir.*** *(Suallar, 496)*

Bu mövzuya işarə edən digər hədisi şəriflər belədir:

***Naim, Hz. Əli (r.ə)-dən belə rəvayət etdi:***

***Səmadan bir münadi (nida edən)"Haqq Ali Məhəmmədədir" şəklində səsləndiyi zaman Mehdi zühur edər, hər kəs yalnız ondan danışar. Onun sevgisini ehtiva edər və ondan başqa heç bir şey haqqında bəhs etməzlər.***

*(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman 33 )*

*(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 40 )*

*(Kıyamet Alametleri, 200)*

***Çox yayılmış və sona çatması mümkün görünməyən bir fitnə çıxacaq və bu fitnə səmadan 3 dəfə "Əmir Mehdidir, həqiqət Odur" şəklindəki nidaya qədər davam edəcək.***

*(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 55 )*

*(Kıyamet Alametleri, 200)*

***Göydən belə bir səs eşidiləcək: "Ey insanlar, artıq Allah cəbbarları, münafiq və köməkçilərini sizdən uzaqlaşdırdı. Məhəmməd ümmətinin ən xeyirlisini başınıza gətirdi.."*** (Kıyamet Alametleri, 165*)*

MEHDİNİN ÇIXDIĞI YER

***"Yaxında sizə Xorasan tərəfindən qarabayraqlılar gələcək. Qar üzərində iməkləyərək olsa belə, onlara iltihak (qatılın) edin. Çünki onların arasında Allahın xəlifəsi Mehdi vardır".*** *(Hz. Sevban r.a. / Ramuz El-Ehadis 1-ci cild, Səhifə 298, No 2)*

*Belə rəvayət edilmişdir: "Şübhəsiz ki, Axırzamanda məğrib (Qərb) məmləkətinin ən uzaq mövqeyindən Mehdi deyilən bir şəxs çıxacaq və ön tərəfində qırx mil məsafə olaraq kömək gedəcək. Mehdinin bayraqları ağ və sarıdır. İçində xətlər olar. Bayraqlarında Allahın ismi-əzamı yazılmışdır. Onun bayrağı altındakı heç bir birlik məğlub edilməz... (İmam Şarani, Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri Muhtasaru, (Tezkireti'l-Kurtubi), səh. 438)*

# MEHDİYƏ ÖZÜ İSTƏMƏDİYİ HALDA BEYƏT (İMAM OLARAQ QƏBUL) EDİLMƏSİ

*Ümmü Sələmə (r. ə)-dən rəvayət edildiyinə görə Rəsulullah (s.ə.v) belə buyurmuşdur.*

*Xəlifənin ölümü zamanı ixtilaf olar. Mədinə xalqından bir adam qaçaraq Məkkəyə çıxar. Məkkə xalqından bir qrup onu istəməməsinə baxmayaraq (olduğu yerdən) çıxardarlar. Həcəri-Əsvədlə mövqeyi-İbrahim arasında ona beyət edərlər. (Sünen-i Ebu Davud, 5/94)(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 20)*

*Hz. Mehdi insanların "Əgər qəbul etməzsənsə, sənin boynunu vurarıq" kimi təhdidlərindən sonra rükün və mövqe arasında beyətləri qəbul edəcək. Onun yanına böyük bir fitnədən sonra özlərinə hökm etməsi üçün gediləcək və ancaq ölümlə təhdid edildikdən sonra başa keçməyə razı olacaq. Ondan sonra insanlar arasında bir damla qan tökülməyəcək.*

*Hz. Mehdi istəmədiyi halda ona beyət edəcəklər. Sonra hz.Mehdi onlara 2 rükət namaz qıldıracaq və mövqenin yanında minbərə çıxacaq. ( El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 34,50 44)*

*Naim ibn Hammad, İbni Məsuddan belə rəvayət etdi:*

*Ticarət və yolların kəsildiyi və fitnələrin çoxaldığı zaman müxtəlif diyarlardan yeddi alim hər birinin də üç yüz on nəfərdən ibarət olan hissələr (qruplar) olduğu halda, bir-birlərindən xəbərsiz olaraq Məkkədə bir araya gələrlər. Biri digərinə "Burada nə axtarırsan?" deyə soruşar. Ona belə deyərlər: "Biz O şəxsi axtarmaq üçün gəldik ki, fitnələr onun əliylə sönə bilsin. Konstantinopol Onunla fəth edilər. Biz Onun Məkkədə olduğunu da bilirik. "Bu yeddi alim bu mövzuda birləşərlər. Onu axtararlar və Məkkədə taparlar. Ona: "Sən filankəs oğlu filankəssən" - deyərlər. O isə: "Mən yalnız Ənsardan (yardım edənlərdən) biriyəm" - deyər. Onların əlindən xilas olar. Onu tanıyan və bilənlərə başa salarlar və sonra "axtardığınız sahibiniz odur və Mədinəyə getmişdir" deyələr. Bu dəfə onu axtararlar, halbuki, o təkrar*

***Məkkəyə dönmüşdür. Onu yenidən Məkkədə taparaq yenə: "Sən filankəs oğlu filankəssən, anan da filankəs qızı filankəsdir, səndə bu cür əlamətlər vardır, birinci dəfə bizdən xilas oldun, uzat əlini, sənə beyət edək" - deyərlər. O isə: "Mən axtardığınız adam deyiləm" - deyər və təkrar Mədinəyə gedər . Mədinədə yenə axtarıldığına görə təkrar Məkkəyə dönər. Məkkədə onu rükunda taparaq belə deyərlər: "Əgər beyətlərimizi qəbul etməsən, bizi axtarmaqda olan və başında Həddəmdən (ordu və hökmranlıq cəhətdən güclü olan) olan Süfyan ordusuna qarşı qorumasan, günahlarımız sənin üstünə və qanlarımız da boynuna olsun" - deyərlər. Bundan sonra Mehdi Rükun ilə Mövqe arasına oturar və əlini uzadaraq beyətləri qəbul edər.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 39-40)*

***Dani, Katadedən rəvayət etdi:***

***Fitnə içindəki insanlar qan axıdıldığı bir zamanda evində oturan Mehdinin yanına gələr və "Bizim üçün qalx artıq" deyərlər. O isə qəbul etməz, ancaq ölümlə təhdid edildikdən sonra onlar üçün ayağa qalxar. Ondan sonra artıq qan tökülməz.***

***Naim ibn Hammad, Zühridən rəvayət etdi:***

***Hz. Fatimənin soyundan gələn Mehdi Məkkədə meydana çıxarılar və istəmədiyi halda ona beyət edilər.*** *(Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axır Zaman 52,53)*

Hədisi-şəriflərdə Mehdiyə edilən beyətin, özü istəmədiyi halda ediləcəyi bildirilir. Bu da onu göstərir ki, Mehdi özünü heç vaxt Mehdi olaraq elan etməyəcək, hətta insanlar onun yanına gəlib **"əlamətlər səndə mövcuddur, sən Mehdisən"** dedikləri halda belə o yenə rədd edəcək. Ancaq **ölümlə** təhdid edildikdən sonra Mehdi başa keçməyi qəbul edəcək.

Mehdinin (əleyhirridvan) eqoist bir arzu ilə xəlifə olmağı istəyəcəyini düşünmək olmaz. Bu vəzifə çox ağır və çətinliklərlə doludur. Çünki xəlifə, bütün müsəlmanlardan hətta qoruması altında yaşayan əhli-kitabdan belə Allah Təalaya qarşı məsuldur. Rəsulullah (s.ə.v) buna görə vəzifəyə talib olanları diqqətlə xəbərdar etmişdir.

***Əbu Səid, Əbdürrəhman ibn Səmürə (r.ə)-dən belə rəvayət edir: Bir gün Rəsulullah (s.ə.v) mənə xitab olaraq belə buyurdu:***

***Ey Əbdürrəhman, məmurluq istəmə, əgər özün istəmədən məmurluğa təyin olunsan, Allahdan kömək görərsən. Əgər öz arzunla təyin olunsan o vəzifə ilə təkbaşına buraxılarsan.*** *(Buxari və Müslimdən Riyazü-s-Salihin, 2/89)*

***Əbu Zər (r.ə)-dən belə rəvayət edilir: Ya Rəsulullah! Məni məmur təyin edərsən? – dedim. Rəsulullah da mübarək əlini çiynimə qoydu sonra belə buyurdu:***

***Əbu Zər, sən zəifsən, məmurluq bir əmanətdir. O qiyamətdə rüsvayçılıq və peşmançılıqdır. Yalnız o əmanəti əhil alan və haqqıyla bacaran müstəsnadır.*** *(Müslimdən) Riyazü-s -Salehin, 2/90))*

Mehdi (ə.s) -ın xəlifə olacağı, şəxsən Allah Təala tərəfindən Peyğəmbərinə bildirilmişdir. Rəsulullah (s.ə.v) də bunun üstündən Mehdi üçün xəlifətullahdır (Allahın xəlifəsidir) deyə buyurmuşdur. Hz. Mehdi (r.ə) tam mənasıyla zühur etdikdə alimlərin icması (səs birliyi) ilə xəlifəliyə seçiləcək. Bundan sonra da beyətlər qəbul ediləcək. (Allahu aləm)

Qurani-Kərimdə 12-ci surənin 54-cü ayəsində Yusif (ə.s)-ın da öz istəyi olmadan, yaşadığı ölkənin kralı tərəfindən düzgünlüyü, ədaləti, biliyi, etibarlılığı sayəsində başa (başçılığa) gətirildiyi xəbər verilir.

***Padşah dedi: "(Yusifi) yanıma gətirin, onu özümə ən yaxın (adam) edəcəyəm!" Sonra (padşah) onunla söhbət etdikdə: "Sən bu gün (bu gündən) yanımızda mövqe sahibisən, etibarlı bir şəxssən!" – dedi. (Yusif surəsi-54)***

# MEHDİNİN QEYB OLMA MƏSƏLƏSİ NƏDİR?

***Əbu Abdullah Hüseyn ibn Əlidən belə rəvayət edildi:***

***Mehdi 2 dəfə insanların gözündən qeyb olacaq. Bir səfərində o qədər uzun bir müddət görünməyəcək ki, kimisi onun öldüyünü, kimisi də hər şeyi qoyub getdiyini zənn edəcək, yaxın yoldaşları xaricində heç kim onun yerini bilməyəcək.***

*Bu hədis (Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman) adlı kitabın Süleymaniyə kitabxanasında olan əlyazması olan nüsxələrdə mövcuddur.)*

Yuxarıdakı hədisi-şərif hz. Mehdi (ə.s)-ın zühurundan sonra biri qısa digəri isə uzun bir müddət olmaqla, 2 dəfə insanlardan ayrı qalacağını bildirir. Həm də bu hədisi-şərifdə Mehdinin ikinci dəfə qeyb olmasının daha ağır şərtlər altında və daha uzun və davamlı olduğuna, o dövrdə onunla görüşməyin çətinliyinə və yalnız yaxınları ilə görüşmə imkanı olduğuna da diqqət çəkilmişdir.(Allahu aləm)

Hz. Mehdi (ə.s) digər hədisi-şəriflərin bildirdiyinə görə çıxışı ilə yanaşı mübarizəsinə başlayacaq, insanları haqq və həqiqətə dəvət edəcək. Hz.Mehdinin ən əhəmiyyətli bir ibadəti olan cihadı belə, ən lazımlı bir dövrdə bilərək tərk etməsi düşünülməyəcəyinə görə, onun insanlardan ayrı və uzaq qalması öz iradəsi xaricində olacaq. (Allahu aləm)

*Dani, Sələmə ibn Züferdən belə rəvayət etdi:*

*Bir gün Hüzeyfənin yanında Mehdinin çıxdığı deyildi. O dedi ki, "siz əgər aranızda hz. Məhəmmədin (s.ə.v) səhabələri olduğu halda o çıxarsa, fəlah (nicat ) taparsınız. Şübhəsiz ki, O, insanların qarşılaşdıqları şərlər səbəbi ilə Qaibin (Mehdinin) insanların ən sevgilisi olmadıqca çıxmayacaq.* (Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, 27*)*

Bu hədis eyni zamanda şiəlikdəki "İtkin Mehdi" inancının əsassızlığını da ortaya qoyur. Yəni Mehdinin itkin düşməsi əfsanə şəklində yüz illərlə davam edən bir qeyb deyil, lakin müəyyən müddət insanlar arasından ayrılma, zərurətlər nəticəsində onlardan uzaq qalacaq. Hədisin son qismində də bu qeyb olma dairəsində insanların müxtəlif şərlərə (pisliklərə) məruz qalmasına görə, Mehdiyə qarşı olan sevgi və həsrətlərinin artacağına işarə edilir.

Qurani-Kərimdə bildirilən Yusif hekayəsi ilə Mehdi hadisəsi arasındakı oxşarlıq, sonrakı səhifələrdə izah ediləcək. Sadəcə burada, yeri gəlmişkən, bir oxşarlığa diqqət çəkmək istəyirik. Yusif əleyhissalam da Mehdi kimi biri qısa digəri isə uzun müddətdə, iki dəfə insanların gözündən itir (uzaqlaşır). Birinci dəfə Yusif (ə.s) quyuya atılmışdı, qısa bir müddətdən sonra oradan keçən karvan onu oradan çıxartmışdı. İkinci dəfə isə, haqsız yerə zindana atılmışdı və uzun bir müddət orada qalmışdır. Lakin sonradan günahsızlığı üzə çıxdıqdan sonra zindandan da çıxardılmışdır.

***(Qardaşları) onu (Yusifi) götürüb (çölə) apararkən onu quyuya atmaq üçün sözü bir yerə qoydular. Biz (Yusifə): "Sən (bir vaxt) onlara (qardaşlarına) özlərinin bu işi barəsində heç gözləmədikləri (səni tanımadıqları) halda xəbər verəcəksən!" - deyə vəhy etdik. (Yusif surəsi, 15)***

***Dəlilləri (Yusifin köynəyinin arxadan cırılmasını, üzünün cırmaqlanmasını, qadınların turunc əvəzinə əllərini kəsməsini və s.) gördükləri halda, yenə də onu bir müddət (dedi-qodu kəsilənədək) zindana salmaq qərarına gəldilər. (Yusif surəsi, 35)***

# 12 XƏLİFƏ (İMAMIN) MƏSƏLƏSİNİN ƏSLİ

Şiəlikdə Mehdinin qeyb olduğu və 12 imamın sonuncusu olaraq dünyaya təkrar dönəcəyi inancı vardır. Bu yanlış inanc Peyğəmbərimizin söylədiyi iki müxtəlif hədisin səhv başa düşülərək təhrif edilməsindən qaynaqlanır. Birincisi, əvvəlki səhifədə izah

etdiyimiz Mehdinin qeybi, ikincisi də yer üzünə 12 xəlifə gələcəyindən bəhs edən hədislərdir. Bu iki hədisin əsli vardır, lakin təhrif edilmişdir.

***Cabir ibn Səmura (r.ə )-in rəvayətinə əsasən Rəsulullah (s.ə.v) belə buyurdu: 12 xəlifəyə qədər bu dinin üstünlüyü davam edəcək. Bu xəlifələrin hamısı Qüreyşdən (peyğəmbər soyundan) olacaq.*** *(Sünen-i Ebu Davut, 5/90)*

Şiələr əvvəlcə hədisdəki xəlifə sözünü imam olaraq dəyişdirmişlər və bu imamların günahsız olduğunu bildirmişlər. Halbuki, bu iki təhrif xaricində, Peyğəmbərimiz "xəlifələr qureyşlidir" deyərək onların peyğəmbər soyundan olmalarına diqqət çəkmişdir.

İslam alimlərinin əksəriyyəti bu hədisdəki 12 xəlifədən ilk dördünün, Peyğəmbər (s.ə.v)-in xəlifələri (Əbu Bəkr, Ömər, Osman, Əli r.ə) olduğunu bildirmişlər. Mehdi də bu saleh xəlifələrdən biridir. Başqa bir hədisdə isə Mehdidən sonra başa keçəcək üç saleh xəlifədən bəhs edilir (Allahu aləm). Digər dörd xəlifə isə tamamilə bilinmir. Lakin onların da əvvəlki dövrlərdə İslam aləminə başçılıq edən saleh xəlifələr də ola bilər. (Allahu aləm)

Mövzuya işarə edən ayələr

**"...Biz onlardan (özlərinə) on iki nəzarətçi (vəkil) göndərmişdik..." (Maidə surəsi, 12)**

# MEHDİYƏ MÜXALİF OLAN ŞƏXSLƏR

Allah Təala Qurani-Kərimdə hər peyğəmbərin bir (baş) düşməni olduğunu xəbər vermişdir. Musa (ə.s)-a Firon, İbrahim (ə.s)-a Nəmrud başda olan düşmənlər idi. Peyğəmbərimiz (s.ə.v)-in də ən böyük düşməni qövmünün lideri Əbu Cəhl idi.

**Beləcə, Biz hər peyğəmbər üçün günahkarlardan bir düşmən etdik. Doğru yolu göstərən rəhbər və köməkçi olaraq Rəbbin sənə yetər! (Furqan surəsi, 31)**

**Allahın verdiyi hökmranlıq üzündən (azğınlaşaraq) İbrahim ilə Rəbbi barəsində mübahisə aparan şəxsi, (Nəmrudu) görmədinmi? İbrahim: "Mənim Rəbbim həm dirildir, həm də öldürür", - dediyi zaman, o (Nəmrud): "Mən də həm dirildir, həm də öldürürəm", - demişdi. İbrahim ona: "Allah Günəşi şərqdən doğdurur, bacarırsansa, sən onu qərbdən doğdur!" - dedikdə, o kafir donub qalmışdı. Həqiqətən, Allah (özünə) zülm edənləri düz yola yönəltməz! (Bəqərə surəsi, 258)**

Hədisi-şəriflərdə Mehdinin düşmənləri haqqında bir neçə ad zikr edilir. Süfyanilər, Dəccal bunlardandır. Süfyanilərin ən əhəmiyyətli xüsusiyyəti Mehdinin inkişaf edən mübarizəsinə mane olmaqdır.

SÜFYANİLƏR

*İbni Münavi kitabında belə izah edir:*

***Süfyanlar və Mehdilər 3 dənədir. 1-ci Süfyan üçün 1-ci Mehdi, 2-ci Süfyan üçün 2-ci Mehdi, 3-cü Süfyan üçün 3-cü Mehdi gələcəkdir.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 64)*

Bu hədisdə 3 Süfyan və bunlara qarşı da 3 Mehdi olacağı bildirilir. 3-cü Süfyan üçün 3-cü Mehdi, yəni əsl və böyük Mehdi gələcəkdir.

*Əbu Hureyrə (r.ə)-dən belə rəvayət edilmişdir:*

***Şamın ortasında adına Süfyan deyilən və ona tabe olanların çoxunun Kelb qəbiləsindən olacağı biri çıxar. O insanları öldürər, hətta hamilə qadınların qarınlarını deşib uşaqlarını qətlə yetirər.***

*Hz. Əli (r.ə)-nin rəvayətində isə (əlavə olaraq) belə bildirilir:*

***Süfyanın başı olduqca böyükdür. Üzündə bir xəstəlikdən əlamət vardır. Gözündə də ağ bir nöqtə var. Ona qarşı çıxan Kays qəbiləsini də məhv edər. (Məhz o zaman) Əhli-beytimdən bir adam çıxar. Onun xəbəri Süfyaniyə çatanda, Süfyan ona qarşı bir ordu göndərər. Ancaq bu ordu Beydaya (təhlükəli yer) çatdığında yerə batırılar. Onlardan xəbər gətirənlər xaricində heç kim sağ qalmaz.*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, 40)*

Hafiz Əsad 1970-ci ildə zor gücünə rəhbərliyə keçmişdir, sonra qurduğu təzyiq rejimi ilə ölkəsini addım-addım kommunizmə yaxınlaşdırmışdır. Ölkədə İslam düşmənliyi həddindən artıq artmışdır. Müsəlmanların inanclarının tələblərini yerinə yetirməklərinə mane olmaqla yanaşı, şəxsən canlarına qəsd edilirdi. Təkcə1982-ci ildə Hama qırğınında 30 min müsəlman öldürülmüşdür.

Başqa bir hədisdə də Süfyanın edəcəyi digər işlər izah edilir.

***"Ciyərlərini yeyənlərin oğlu" olan Süfyan quru bir vadidən çıxar. Kelb qəbiləsindən qaşqabağlı, daş ürəkli adamlardan qurulmuş bir ordu toplanar. Və bunlar hər tərəfdə zülm edərlər. O, mədrəsə və məscidləri yıxar, rüku və səcdəyə gedən hər kəsi cəzalandırar. Zülm, fəsad çıxarar. Alim və zahidləri qətlə yetirər, bir çox şəhəri də işğal edər. Qan axıtmağı halal edərək ali-Məhəmmədə düşmən kəsilər. Onun zülm və kefinə qarşı çıxanı öldürdər.*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman , 37)*

*("Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axır Zaman")* kitabının 52 və 53 -cü səhifələrində izah edilən uzun hədisdə, köməkçisi Haddam olan Süfyandan bəhs edilir. Hafız Əsadın köməkçisi də General Abdülhəlim Haddam idi.

***Süfyan Şam tərəfdən (Yabis deyilən) bir yerdən çıxacaq.***

***Süfyan Küfədən yola çıxacaq.***

***Necə yerlə-yeksan olan əsgərin Şamdan gələcəyinə dair rəvayətlər varsa, eləcə də İraqdan olduqlarına aid də rəvayətlər vardır.*** *(Kıyamet Alametleri, 172)*

***Hz. Əlinin nəslində olan Süfyaniyə gəlincə:***

***1) O böyük bədənli bir şəxsdir.***

***2) Bu adam Mehdidən əvvəl ətrafını yandırıb yıxacaq.***

***3) Bütün şərq ölkələrini gəzəcək.***

***4) Bir çox məliklə (başçılarla) müharibə edəcək.***

***5) Hər kəsi məğlub edəcəkdir.***

(Mehdilik ve Imamiye, 82 (el-Isa'a, li Esrat's Saa, 167 'den nakil) *)*

Bir şərhi də belədir:

1) Böyük bədənli olmağı, Süfyanın bəlkə də özü kimi insanların böyüklüyünə və ya müxtəlif vasitələrlə şəxsiyətinin olduqca böyük bir adam kimi göstərilməsinə işarə edilir.

2) Bu adam Mehdidən əvvəl ətrafını yandırıb yaxacaqdır...Deməli, Süfyan Mehdidən əvvəl çıxacaq, bir çox döyüşlərdə olacaq, ortalığı döyüş silahlarıyla yandırıb yıxacaq.

3) Bütün şərq ölkələrini gəzəcək...Hədisin bu qismi Süfyanın bir çox məmləkətə səyahət etməsinə işarə etdiyi kimi, fikir sisteminin də bu ölkələrdə yayılmasına işarə edə bilər.

4) Bir çox məliklə müharibə edəcək...Süfyan dövründə bir çox dövlətin ordusu ilə müharibə edəcək.

5) Və hər kəsi məğlub edəcək. Süfyan döyüşdüyü bütün orduları məğlubiyyətə uğradacaq, qəti bir zəfər qazanacaq. (Allahu aləm)

Hədisi-şəriflərdə bildirildiyi kimi, Məsih Dəccal daha sonrakı illərdə yəhudilər arasından çıxacaq, özü də şəxsən yəhudi olacaq. Dəccal sehr və hipnoz növündən müxtəlif hallar göstərərək, əvvəl gözlənilən Məsih olduğunu iddia edəcək, sonra ilah olduğunu iddia edəcək. Dinsizliyi və hər cür əxlaqsızlığı təşviq edərək özünə böyük tərəfdarlar yığacaq. Lakin axırda hz. İsa (ə.s) və hz. Mehdi (ə.s) tərəfindən öldürüləcək.

*Sələf və xələf (keçmişdəki və sonrakı) alimləri arasında bu xüsusiyyət çox şöhrət tapmışdır:*

*Axırzamanda mütləq bir adam zühur edəcək. Bu adam mənim Əhli-Beytimdən olacaq. Ona Mehdi deyiləcək. Sonra da Dəccalı öldürəcəklər.* (Taç Hadis Kitabı)

# KƏNANƏ VƏ SAHARİNİN ÇIXIŞI

*Mehdi Şam ilə Hicaz sərhədlərinə gələndə orada dayanacaq. Ona, "Nə dayanırsan, get!" deyiləndə isə belə cavab verəcək: "Əvvəl əmimə (Sahariyə) yazım, əgər mənə boyun əyməzsə, onda üzərinə gedərəm". Mehdinin məktubu ona çatdığı zaman yanındakı yoldaşları belə dedilər: "Artıq Mehdi çıxmışdır. Ya ona tabe olacaqsan, ya da səni öldürəcəyik". Bundan sonra Qüdsə gələcək... Sonra Kelp qəbiləsindən Kənanə adlı bir adam çıxıb Sahariyə gələcək və belə deyəcək: "Biz sənə beyət (tabe olduq) etdik, kömək etdik. Əlinə fürsət düşdükdə isə bu adama (Mehdiyə) beyət etdin, təəssüflər olsun sənə! Allah sənə bir köynək geyindirdi, sən isə onu çıxartdın!*

*—Yəni deyirsiz ki, verdiyim sözü pozum?*

*—Bəli" .*

*Digər bir rəvayətdə isə belə deyilmişdir: "Aradan üç il keçdikdən sonra əhdini və razılaşmanı pozacaq.* (Kıyamet Alametleri, 175)

# MEHDİNİN GERİDƏ QALANLARLA MÜBARİZƏSİ

"Dini ayaqda saxlayacaq keçmiş mahiyyətinə qovuşduracaq, İslama yenidən ruh verəcək, zəlil hala gələn İslamı onunla əvvəlki, güclü halına gətirəcək. O, İslamı öldükdən sonra Mehdi vəsiləsi ilə yenidən dirildəcək. Cizyəni (vergiləri) aradan qaldıracaq, qılınc vasitəsiylə insanları Allahın dininə dəvət edəcək. Ondan qaçan öldürüləcək, ona qarşı mübarizəyə girişən isə pərişan olacaq.

Hətta Rəsulullah yaşamış olsaydı, özü üçün heç bir şey etməyəcəkdi. Onunla olan hökmü isə bağlayacaqdı. Yəni Rəsulullah belə onun işinə müdaxilə etməyəcəkdi. Onun dövründə din tamamilə şərhdən təmizlənmiş olaraq əvvəlki düzgün olan vəziyyətini qazanacaq. Verəcəyi bir çox hökmlərdə alimlərin fikirlərinə müxalif (qarşı) çıxacaq. Buna görə ondan uzaq duracaqlar."

Hədisi-şəriflərdə Mehdiyə də bir çox azğınların qarşı çıxacağı bildirilmişdir. Onlar Mehdinin dini bidətlərdən (dinin əslində olmayan sonradan meydana gələn uydurmalar) təmizləyib, əslinə, əvvəlki halına döndərməsindən məmnun qalmayacaqları üçün hətta, "bu adam dinimizi məhv etmək istəyir" deyərək qarşı çıxacaqlar. Ancaq Mehdi Quran ayələrinin və peyğəmbərimizin sünnəsinin işığı altında hökm edəcək, bu fikri mübarizəsində çox qərarlı və müvəffəqiyyətli olacaq. Mehdi dövründə Allahın icazəsiylə, İslam dini Peyğəmbərimizin dövründə yaşandığı vəziyyətinə, yəni öz halına qaytarılacaqdır.

Qurani-Kərimdə peyğəmbərlərin inkarçılarla və bütə itaət edənlərə qarşı apardıqları mübarizələri xaricində onların azğın zehniyyətlə olan mübarizələrindən də bəhs edilmişdir. Bu zehniyyətin Peyğəmbərimizin dövründə məhv olmadığını və indiki vaxtda da yaşadığını bilməliyik. Quranda bir çox ayədə azğın insanların xüsusiyyətləri verilmiş və bu zehniyyət şiddətlə tənqid olunmuşdur.

1.Dini çətinləşdirərlər və bunun nəticəsində dinin vacib xüsusiyyəti olan Allaha iman və ibadətin əsası, ixlas unudular. Həqiqətdə isə dinin asan olduğunu və çətinliklərdən uzaq durmağı şəxsən Qurani-Kərim əmr edir.

**"...O, sizi seçdi və dində sizin üçün bir çətinlik qoymadı..."(Həcc surəsi, 78)**

**"Allah hər kəsi yalnız gücü çatdığı qədər yükləyər..." (Bəqərə surəsi, 286)**

**"Allah istər ki, üzərinizdə olanı (ağır yükləri) yüngülləşdirsin, çünki insan zəif yaradılmışdır." (Nisa surəsi, 28)**

**"...Allah sizi çətinliyə salmaq istəməz, lakin, O, sizi pak, təmiz etmək və sizə olan nemətini tamamlamaq (artırmaq) istəyər ki, bəlkə şükür edəsiniz! (Maidə surəsi, 6)**

**O kəslər ki, əllərindəki Tövratda və İncildə (adını, vəsfini və əlamətlərini) yazılmış gördükləri ümmi xəbər gətirici (Nəbi) olan elçiyə (Peyğəmbərə) tabe olarlar. (O Peyğəmbər) onlara yaxşı işlər görməyi buyurar, pis işləri qadağan edər, təmiz (pak) nemətləri halal, murdar (napak) şeyləri haram buyurar, onların ağır yükünü yüngülləşdirər və üstlərindəki buxovları (zəncirləri) açar (şəriətin çətin hökmlərini götürər). Ona (o Peyğəmbərə) iman gətirən, yardım göstərən və onunla (Quranın) ardınca gedənlər məhz onlar nicat tapanlardır!" (Əraf surəsi, 157)**

*Əbu Musadan edilən rəvayətə görə Peyğəmbərimiz (s.ə.v) belə buyurur:*

***Asanlaşdırın, çətinləşdirməyin. Müjdələyin, nifrət etdirməyin.*** (El-Lü'lüü Vel-Mercan, 2/296 *)*

***İbni Abbas (r.ə)-in rəvayətində Peyğəmbərimiz (s.ə.v)-in belə buyurduğu bildirilir:***

***Dində həddini aşmaqdan (əlavə edilmələrdən) çəkinin. Sizdən əvvəlkilər ancaq buna görə həlak oldular.*** *(Ramuz-El Ehadis, 1/176)*

*Hz. Aişə (r.a)-nin rəvayətində Peyğəmbərimiz belə buyurur:*

***Allah məni ruhaniyyətlə vəzifələndirmədi. Allah yanında dinin xeyirlisi asan tövhid yoludur.*** *(Rumuz El Ehadis, 2/498)*

2.Halal olduğu halda bir çox şeyi haram edərlər, (yemək, içəcək, texnologiya və s.) Allah adına onları insanlara qadağan edərlər.

**Dilinizin uydurduğu yalana əsasən: “Bu halaldır, o haramdır!”- deməyin, çünki Allaha qarşı yalan uydurmuş olursunuz. Şübhəsiz ki, Allaha qarşı yalan uyduranlar nicat tapmazlar! (Nəhl surəsi, 116)**

**De: "Allahın, sizin üçün ruzi olaraq endirdiyini gördünüzmü ki, onun bir qismini haram, bir qismini isə halal etdiniz?" De: "(Bunu deməyə) Allah Özü sizə izin verdi, yoxsa Allaha iftira atırsınız?" (Yunis surəsi, 59)**

**Axmaqlıqları üzündən dərk etmədən öz övladlarını öldürən və Allahın onlara verdiyi ruzini Allaha iftira ataraq haram edənlər, əlbəttə, ziyana uğramışlar. Onlar azdılar və doğru yola yönəlmədilər. (Ənam surəsi / 140)**

**Ey iman gətirənlər! Allahın sizə halal buyurduğu pak nemətləri (özünüzə) haram etməyin və həddi aşmayın. Doğrudan da, Allah həddi aşanları sevməz! (Maidə surəsi, 87)**

3. Təqva adı altında heç bir ilahi qaynağı olmayan təfərrüatı və izahları dinin əmri kimi təqdim edərlər.

Qurani-Kərim bu mövzu üzərində çox dəqiqliklə dayanmışdır.

Hz. Musa dövründə Allah Təala inananlara bir mal (inək, dana, buzov) kəsmələrini əmr etmiş, bunu çox açıq, qısa və dəqiq bir şəkildə bildirmişdi. Lakin o dövrün azğın zehniyyətli insanları bununla kifayətlənməmiş, dəfələrlə Allahdan təffərrüatlı izah istəmişdilər.

**(Musa) dedi: "(Rəbbim) buyurur ki, O, yeri şumlamaq və əkin sulamaq üçün boyunduruğa götürməyən, eyibsiz-qüsursuz və ləkəsiz (sapsarı) bir inəkdir". (Bu zaman) onlar: "İndi işi həqiqətə gətirib çıxartdın" -dedilər və onu (inəyi) kəsdilər. Amma az qalmışdı ki, bu işi yerinə yetirməsinlər. (Bəqərə surəsi, 71)**

Qurani-Kərimdə heç bir hekayə boş yerə izah edilməmişdir. Diqqət yetirilsə, bu hekayədə insanların təfərrüatlı və dəqiq şəkildə izah istəmələri heç də xoş qarşılanmamışdır. Çünki təfərrüat insanların ibadətlərini çətinləşdirdiyi kimi, əsl məqsədini də unutdurar.

4.Dinin sadəliyi və asanlığı ilə kifayətlənməyib bir çox əlavələr uydurarlar, batil inancları da buraya daxil edərlər. Qurani-Kərim onlar üçün heç bir vaxt bir qaynaq olaraq kafi görünməz.

Bu haqda Quranda belə deyilir:

**Sizə nə olub, necə hökm verirsiniz? Yoxsa sizin elə bir kitabınız vardır ki, üsyankarla itaətkarın eyni olduğunu ondan oxuyursunuz? (Qələm surəsi, 36- 37)**

5.Özlərinə çatan məlumatları doğruluğunu araşdırmadan kor-koranə qəbul edərlər. Səhv də olsa, eyni məlumatları uşaqlarına da öyrədərlər.

Allah bu barədə Quranda belə xəbər verir:

**"Onlara: "Allahın nazil etdiyinə itaət edin!"- deyildikdə, onlar: "Yox! Biz əcdadımızın getdiyi yolu tutub gedəcəyik!"- deyərlər. Əgər şeytan onları (Cəhənnəm) odunun əzabına doğru sürükləsə necə? (Loğman surəsi, 21)**

**Onlara: "Allahın nazil etdiyinə tabe olun!" - deyildikdə, onlar: "Xeyr, biz atalarımızın tutduğu yolu tutacağıq!" - deyirlər. Bəs ataları bir şey anlamayıb doğru yola yönəlməyiblərsə necə? (Bəqərə surəsi, 170)**

6. Şəkilçiliyə çox əhəmiyyət verərlər, dinlərini bu cür təbliğ etdiklərini sanarlar.

7. Onlar üçün əxlaq ikinci planda gələr. İnsanlarla dolana bilməmək, qırıcı olmaq, iynələyici danışma tərzi, xoş görünüşdən anlamamaq, kobudluq ümumi xüsusiyyətləridir. Halbuki, Peyğəmbərimiz "Mən ancaq gözəl əxlaqı tamamlamaq üçün göndərildim" buyurmuşdur.

8. Nəzakət və kibarlılıqla araları heç yaxşı olmaz.

9. Qadınları alçaltmaq, onları ikinci sinif (aşağı təbəqəli) varlıq kimi görmək də mühüm xüsusiyyətlərindən sayılır. Qadın sevgisi, qadına hörmət və etibar heç bilmədikləri mövzulardır.

10. Sənətdən anlamazlar, gözəl sənətlərin heç bir növünə maraq göstərməzlər, azmış kimi "haram" deyib uzaq durarlar.

11. Hər cür yeniliyə qarşı olarlar. Texnoloji bir yeniliyi qəbul etmədikləri kimi, dini də yeni bir metodla şərh (*) etməni də qəbul etməzlər.

12. Hər xurafatçı yalnız daxil olduğu qrupun-təriqətin haqlılığını müdafiə edər. Digər qrupların düşməni olar. Sırf qatı dinçiliyinə görə, digər din qardaşlarını qırmaqdan çəkinməz, onlardan gələn bir məlumatı gözəl də olsa qəbul etməz,

dərhal rədd edərlər. Onların müvəffəqiyyətlərini qısqandıqları kimi xidmətlərinə də mane olarlar, əngəl törədərlər.

Əslində, bütün insanlar iman etməyə, əxlaqlı olmağa və dini yaşamağa meyilli olaraq yaradılmışdır, yəni Allah insanları fitrət olaraq elə yaratmışdır

**...Allah sizə imanı sevdirmiş, onu qəlbinizə gözəl göstərmiş, sizdə küfrə, günaha və asi olmağa qarşı nifrət oyatmışdır... (Hucurat surəsi, 7)**

Lakin xalq nə vaxt İslamı öyrənməyə və ya öyrənib tətbiq etməyə niyyətlənsə, qarşılarındakı azğınları nümunə götürürlər. Onlarda gördüyü hər mənfi davranışın dindən qaynaqlandığını zənn edərək artıq başlanğıcında bu niyyətindən imtina edərlər. Bu vaxt dinə qarşı soyuqluq yaranar, hətta düsməncəsinə bir rəftar göstərələr. Bütün müsəlmanlar xalq nəzərində "hacı-hoca dəstəsi" deyə pislənər, hər pisliyin arxasında bir müsəlman axtarışı halına gələr.

Bəhs etdiyimiz mövzunun əhəmiyyəti buradan qaynaqlanır. Xalq İslamı əsl mənasıyla tanımadığı üçün azğınların, hoqqabazların surətində dini mühakimə etməyə başlayar. Din düşməni mətbuat və nəşr orqanlarının da qəsdli bir şəkildə islamiyyəti, qatı dinçiliyi və mürtəcelik (geridə qalmış) şəklində təqdim etmələrinin də səbəbi də buradan qaynaqlanır. Əslində, xalqın nifrət etdiyi islamiyyət deyil, xurafatçı zehniyyətdir. Xalq ən çox "Görəsən, mən də dinimi yaşamağa başlasam, bu insanlar kimimi olacağam?" düsüncəsiylə bu işdən utanarlar. Buna görə "müsəlmanam" deyən hər kəsin dinini çox yaxşı tanıması, oxuyub araşdırması və bilmədiklərini ixtisas sahiblərindən öyrənməsi lazımdır. Hər müsəlman səmimi və mədəni olmaq üçün səy göstərməlidir. Xoş görünüşü əldən buraxmayaraq, xalqı, Allahı tanımağa, dini yaşamağa və əxlaqlı olmağa dəvət etməlidir.

# MEHDİNİN DİNİ ƏSL HALINA QAYTARMASI

*"Fütühatül Məkkiyyə" adlı əsərində Muhyiddin Ərəbi belə bildirmişdir: ...Mehdi, dini, Peyğəmbərimiz(s.ə.v)-in dövründə olduğu kimi eynilə tətbiq edəcək. Yer üzündən məzhəbləri ləğv edəcək. Xalis və həqiqi dindən başqa heç bir məzhəb qalmayacaq.*

*Onun düşmənləri ictihad (din alimləri) alimlərinin təqlid edənləri olacaq. Çünki onlar, Mehdinin məzhəb imamlarının əksinə hökm etdiyini gördükləri zaman bundan xoşlanmayacaqlar, lakin qarşı da çıxa bilməyəcəklər...*

*Onun açıq düşmənləri fiqh (şəriət üzrə alimlər) olacaq. Çünki xalq arasında bir imtiyazları (fərqlilikləri) qalmayacaq. Hətta ehkam (hökmlər, qanunlar) barəsində elmləri də azalacaq. Bu imamın gəlişiylə alimlərin hökmlərdəki anlaşılmazlıqları da*

***aradan qaldırılacaq.. Əgər əlində qılınc (elm) olmasaydı, onun ölümünə fətva verərdilər.*** *(Kıyamet Alametleri, 186-187)*

Mehdi dini Peyğəmbərimiz (s.ə.v)-in tətbiq etdiyi kimi tətbiq edəcək. Yəni onun rəhbəri Allahın uca kitabı Qurani-Kərim və Peyğəmbərimizin sünnəsi olacaq. Peyğəmbərimizin tətbiqləri, sözləri, şərhləri və tövsiyələri Mehdinin fikri mübarizəsində çox əhəmiyyətli rol oynayacaq. Bununla yanaşı, Mehdi müsəlmanlar arasındakı yalnız vəhy qaynaqlı Allahın uca kitabı Qurani-Kərim ilə hökm və əməl edəcək. Müsəlmanlar arasında məzhəb ayrılıqlarını aradan qaldıracaq, dinin əslində olmayan, sonradan əlavə edilmiş bir çox inanc və ibadət formalarını ləğv edəcək. Bidət əhli indiyə kimi heç qarşılaşmadıqları bu vəziyyət qarşısında çox çaşacaqlar, hətta onlardan bir qismi Mehdinin dinlərini məhv etdiyini zənn edəcəklər.

***"Hz. Mehdi heç bir bidəti salamat buraxmayacaq".*** *(El-Kavlul Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 43)*

***"Mehdinin məhv etmədiyi bidət qalmayacaq. Axırzamanda eyniylə peyğəmbər kimi dinin zərurətlərini yerinə yetirəcək".*** *(Kıyamet Alametleri, 163)*

**Bidət: Dinin əslində olmayan, sonradan dinə əlavə olunmuş adətlərdir.**

***İmam Rəbbani bu mövzu haqqında belə demişdir:***

***Gələcəyi vəd edilən Mehdinin tərvicini (dəyərini artırmağı), sünnənin əhyasını (yenidən canlandırmasını) arzu etdiyi (istədiyi) zaman, bidət əhli ilə əməli adət edilən, həsənə zənni ilə dini qarışdıran (dinin əslində, özündə olmayan şeyləri, dinin əmri olaraq zənn edən bəzi insanlar) heyrətlə belə deyəcək:***

***-Bu insan (yəni Mehdi) dinimizi və şəriətimizi məhv etmək istəyir.*** *(Mektubat-i Rabbani, 1/535)*

***Hz. Peyğəmbər (s.ə.v) əvvəllər İslamı necə sağlam şəkildə ayaqda tutmuşdusa, hz.Mehdi də sonunda eyni şəkildə İslamı ayaqda tutacaq.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 27)*

***Naim ibn Hammad hz. Əli (r.ə)-dən belə rəvayət etdi. Peyğəmbərimiz buyurdu ki, Mehdi bizdəndir (soyumuzdandır). Allah bu dini bizimlə necə başlamışdısa, onunla da sona çatdıracaq və onlar bizimlə necə şirkdən xilas olmuşdularsa, onunla da fitnədən xilas olacaqlar.*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, 20)*

***Mehdinin məzhəb imamlarının əksinə hökm edəcəyinin bildirilməsi, onun öz rəyi ilə ictihad edəcəyini göstərir. Bədiüzzaman həzrətləri Mehdi haqqında "ən böyük müctəhid" (ayə və hədislərdən düzgün hökm çıxarma gücünə malik olan din alimi),***

*həm ən böyük mücəddid (yeniləşdirən), həm hakim, həm Mehdi, həm mürşid, həm qütbü-əzəm (ən böyük övliya) olan bir nurani şəxsi göndərəcək və o şəxs də Əhli-Beytin nəbəvidən olacaq (Peyğəmbərimizin soyundan olacaq).* (Mektubat, 411)

**Dində Ayrılıq Olmamalıdır**

İşarəli mənada ayələr:

**Firqələr öz aralarında ixtilafa düşdülər. Ağrılı-acılı bir günün əzabından vay zalımların halına! (Züxruf surəsi, 65)**

**Lakin ümmətlər öz dinini aralarında parçalayıb firqələrə böləndülər. Hər firqə özündə olana sevinir. (Muminun surəsi, 53)**

**Kim İslamdan başqa bir din ardınca gedərsə, (o din) heç vaxt ondan qəbul olunmaz və o şəxs axirətdə zərər çəkənlərdən olar! (Ali İmran surəsi, 85)**

**O kəslər ki, Quranı (müxtəlif) hissələrə böldülər... (Hicr surəsi, 91)**

**Bu ona görədir ki, Allah kitabı haqq olaraq nazil etmişdir. Kitab barəsində ixtilaf edənlər isə, əlbəttə, haqdan uzaq bir ziddiyyət içindədirlər. (Bəqərə surəsi, 176)**

Mehdi dövründə Qurani-Kərimə lazım olduğu qədər əhəmiyyət veriləcək. O dövrdə Quran hərdən baxılan, əzbərdən oxunan bir kitab olmaqdan qurtarılacaq, həyatın hər mərhələsini təşkil edən ən əhəmiyyətli müraciət kitabı olacaq. Mehdi dini Peyğəmbərin dövründəki kimi tətbiq edəcək.

# MEHDİNİN YAXIN KÖMƏKÇİLƏRİ

*Bu vəzirlər ondan aşağı və lakin beşdən yuxarı olacaq.* (Kıyamet Alametleri)

*Məmləkət işlərinin ağırlıqlarını onunla paylaşacaqlar. Doqquz nəfərdən ibarət olacaq.* (Kıyamet Alametleri, 187)

*Əbu Cəfər Məhəmməd ibn Əlidən belə rəvayət edildi:*

*Mehdi hələ çıxmamışdan əvvəl onun bir yoldaşı ona tabe olan bəzi insanlarla qarşılaşacaq və "Siz burada neçə nəfərsiniz?" deyə soruşacaq. Onlar da "40 adamıq" deyərək cavab verəcəklər. Təkrar olaraq: "Siz Mehdini gördüyünüz zaman nə edəcəksiniz?" - deyə soruşarlar, onlar da "O, dağların başında qalsa biz də qalarıq" deyə cavab verərlər. Sonra o adam gedəcək, ertəsi gecə yenə gələrək "Rəislərinizdən 10 adamı ayırın" deyəcək və Mehdi də onlarla görüşəcək.*

*Ertahdan belə rəvayət edildi:*

***...(Mehdinin Süfyan ilə döyüşündə ən böyük ordusu 100 (yüz) adamdan mütəşəkkildir (ibarətədir).***

***Qeyd: Bu iki rəvayət ("Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman") adlı əsərin Süleymaniyyə kitabxanasında olan nüsxəsində mövcuddur.***

***Bədr döyüşündəki əsgərlər kimi 313 adamı əmri altında tutaraq ətrafa meydan oxuyacaq. Çünki bu 313 adam gecə abid (ibadət edən) gündüzlər qəhrəman xüsusiyyətini daşıyacaqlar.*** *(Kıyamet Alametleri, 169)*

***Məhəmməd ibn Hənəfi (r.ə)-dən belə rəvayət edildi:***

***...Buludların səmada toplandığı kimi, Allah onun ətrafına bir qövm toplayar. Onların ürəklərini uzlaşdırar. Onlar içlərindən şəhid olana kədərlənməz, özlərinə qatılana da sevinməzlər. Sayları Bədr səhabələri (313) qədərdir. Əvvəlkilərin onları keçmədiyi kimi, sonrakılar da onlara çata bilməzlər və onların sayları Talut ilə çayı keçənlər qədərdir.*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, 57)*

***Hz. Mehdiyə aralarında qadınların da olacağı 314 adam beyət edəcək.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 25)*

Hz. Mehdi (ə.s)-ın ordusu əsl (xas) tələbələri, xasların havası şəklində fərqli təbəqələrlə ola bilər. Bəlkə də bu fərqli rəvayətlər, müxtəlif inkişaf mərhələlərindəki saylara işarə edir.

Hz. Mehdiyə əvvəl beyət edənlərin bu qədər az sayda (313) olması məqbul qarşılanmalıdır. Tarixin hər dövründə həmişə belə olmuşdur. Nuh (ə.s), Musa (ə.s) dövründə də belə idi. İsa (ə.s)-a inananlar 12 nəfər idi. Peyğəmbərimiz (s.ə.v) -ə də, ilk inanan insanlar çox az sayda olub. Bəzi rəvayətlərdən öyrəndiyimizə görə peyğəmbərliyin ilk altı ilində ona inananların sayı cəmi 40 nəfər idi.

Talut qoşunu ilə (öz yurdundan, Qüdsdən) ayrıldığı zaman (əsgərlərinə) dedi: "Allah sizi (axar) bir çay vasitəsilə imtahan edəcək. Kim onun suyundan içsə, o məndən (mənə tabe olanlardan) deyildir. Kim ondan dadmasa, dadsa da bir ovucdan artıq içməsə, o məndəndir"! Lakin onların az bir qismi müstəsna olmaqla, (hamısı) o sudan içdi. O (Talut), və onunla birlikdə olan möminlər (çayı) keçdikdən sonra (düşmən qoşununu görüb) dedilər: "Bu gün bizim Calut (düşmən hökmdar) və onun qoşunu ilə vuruşmağa taqətimiz yoxdur"! (İçərilərindən) Allahın rəhmətinə qovuşacaqlarına (Allahın dərgahına qayıdacaqlarına) inananlar isə dedilər: **"Neçə dəfə olub ki, az bir dəstə Allahın izni (iradəsi) ilə çox bir dəstəyə qalib gəlib! Allah səbir edənlərlədir!" (Bəqərə surəsi, 249)**

**Nəhayət, əmrimiz gəldiyi və təndir qaynadığı zaman (Nuha) dedik: "Hər heyvandan biri erkək, biri dişi olmaq şərti ilə bir cüt, həmçinin əleyhinə (ölümünə) əvvəlcədən hökm verilmiş şəxslər istisna olmaqla, qalan ailə üzvlərini və iman**

**gətirənləri gəmiyə mindir!" Əslində onunla birlikdə (tayfasından) çox az adam iman gətirmişdi. (Hud surəsi, 40)**

**Firon şəhərlərə (əsgər) toplayanlar göndərdi. (O dedi:) "Bunlar kiçik bir dəstədir! (Şüarə surəsi, 53-54)**

**Fironun və əyanlarının bəlası qorxusundan Musaya öz qövmündən (və ya Firon camaatından) yalnız kiçik bir dəstə (nəsil, gənclər) iman gətirdi. Çünki Firon o yerdə hakim idi. O, (küfr və azğınlıq etməkdə) həddi aşmışdı. (Yunis surəsi, 83)**

# QİYAMƏTƏ QƏDƏR MÜBARİZƏ APARACAQ CAMAAT

***Hz. Muaviyə (r. ə)-dən belə rəvayət edilmişdir.***

***Ümmətimdən bir tayfa hər kəs üzərində hakim olmadıqca qiyamət qopmaz. Onlar özlərini tərk edənlərin tərk etməklərini veclərinə almazlar (yəni bundan təsirlənib kədərlənməzlər) və onlara kömək edənə fikir verməzlər.*** *(Ramuz El-Ehadis, 472 (Hanbel'in Müsned'i - Buhari -Müslim))*

***Hz. Müaviyə ibn Kirra (r.ə)-dən belə rəvayət edilmişdir:***

***Ümmətimdən bir tayfa qiyamət qopana kimi kömək etməkdə davam edər. Onları tərk edənlərin ayrılmaları da onlara bir zərər verməz.*** *(Ramuz El-Ehadis, 472 (Hakim'in Müstedrek'i))*

***Ümmətimdən bir camaat davamlı olaraq Allahın əmri ilə düşmənlə məhv edənədək döyüşəcək, müxaliflərinə vaxt verməyəcək. Bu (hal qiyamətə qədər belə davam edəcək.)*** *(Kıyamet Alametleri, 286)*

Yuxarıdakı hədisi-şərifdə ümmətdən bir tayfanın qiyamət qopana qədər haqq yolunda mübarizə aparacağı bildirilir. Başqa hədisi-şəriflərdən də bilirik ki, qiyamət qopmasından bir müddət əvvəl möminlərin ruhu alınacaq və qiyamət kafirlərin üzərinə qopacaq. Buna əsasən burada qiyamət qopmağından qəsd edilən başqadır. Bununla əlaqədar digər bir rəvayət bu barədə xüsusi aydınlıq gətirir.

***Hz. Müaviyə ibn Currə (r.ə)-dən belə rəvayət edilmişdir:***

***...Dəccalla döyüş olana qədər ümmətimdən bir tayfanın "haqq üzrə" qalib gəlmələri davam edəcək.*** *(Ramuz Em-Ahadis, 65 (Ibni Asakir Tarihi -Ebu Muaym)*

Göründüyü kimi qiyamətin qopmasından bəhs edərkən nəzərdə tutulan şey Dəccala qarşı döyüşün başlamasıdır. Bir başqa hədisi-şərif də bu mübarək tayfanın Dəccalla mübarizə aparanların Mehdi və köməkçiləri olduğunu xəbər verir.

***Əhməd, Müslim, İbn Cüreyr, İbn Hibban və Cabir ibn Abdullah (r. ə) belə rəvayət etdilər: Qiyamətə (Dəccal ilə döyüşə) qədər mənim ümmətimdən bir qrup haqq üzrə qalib gələrək vuruşacaq və İsa ibn Məryəm göydən nüzul etdiyində onların əmiri (Mehdi) ona, "Gəl, bizə namazı qıldır" deyər. Ancaq o, bu ümmətə Allahın bir lütfü olaraq: "Sizin biriniz, digərlərinizə əmiridir" cavabını verər.*** (Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman 80)

***Hz. İmran (r.ə)-dən belə rəvayət edilmişdir:***

***Ümmətimdən bir tayfa, onlara qarşı düşmənlik edənlərə qalib gəldikləri halda Haqq üzərinə mübarizəyə davam edərlər. Hətta onların sonuncusu Məsih Dəccal ilə vuruşar.*** (Ramuz El-Ahadis, 472 (Hanbel'in Müsned'i -Ebu Davud-Tabarani -Hakim)

# MEHDİNİN YER ÜZÜNDƏ QALMA MÜDDƏTİ

***İbni Ebil Caad da, "Mehdi 21 və ya 22 il qaldıqdan sonra, gələcək kəslərin sonuncusu, saleh bir adam olacaq və 9 il ədalətli bir şəkildə hökm edəcək.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 28)*

***Naim ibn Hammad, Bakayyə ibn Vəliddən belə rəvayət etdi:***

***Mehdinin həyatı 30 ildir.*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, 83)*

***Əbu Səid əl-Hudri (r.ə)-dən belə rəvayət edilmişdir:***

***Ümmətimdə Mehdi vardır, çıxacaq və 5, ya 7, ya da 8 (şübhə edən rəvayətçilərdən Zeyddir) yaşayacaq. Əbu Səid deyir ki, "Bu müddət nədir? deyə soruşduq və Rəsulu Əkrəm "ildir!" buyurdu.*** *(Sünen-i Tirmizi , 4/93)(Ramuz El - Ahadis, 508 (Hanbel'in Müsned'i)*

***Əbu Səid əl-Hudri (r.ə)-in rəvayətinə görə Rəsulullah (s.ə.v) belə buyurdu:***

***Mehdi məndəndir...yeddi il hökm edər...*** *(Süneni-i Ebu Davud, 5/93)...**O şəxs yer üzündə 7 il qalar, sonra vəfat edər və müsəlmanlar ondan sonra namaz qılarlar.*** *(Sünen-i Ebu Davud, 5/95)*

***Naim ibn Hammad, hz. Əli (r.ə)-dən belə rəvayət etdi:***

***Mehdi insanların işlərini 30 - 40 il üzərinə götürəcək.***

*(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, 83) (El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 50)*

***Əbu Yala, Əbu Hüreyrə (r.ə)-dən belə rəvayət etdi: Dedi ki, dostum Əbu Qasım (s.ə.v) mənə belə buyurdu:***

***Əhli-Beytimdən biri çıxıb insanları Haqqa dönənə qədər mübarizə aparmadıqca qiyamət qopmaz. Mən dedim: "Onun hökmü nə qədər davam edəcək?" Buyurdu: " 5 və 2" il.*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, 82)*

***Bir az əvvəl keçən bu hədisi-şərif Katadədən rəvayət olundu. Katadə (Mehdinin yer üzündə qalma müddəti) 7 ildir, dedi.***

***Əbu Davud belə dedi: Hisamdan rəvayət edən rəvayətçilərdən Muazdan başqaları 9 ildir, dedi.*** *(Sünen-i Ebu Davud, 5/95)(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, 9)(Ramuz-El Ahadis 346 'Tabarani'nin Kebir'i - Ibni Adiy El Kamil)*

Yuxarıda hz. Mehdi (ə.s)-ın yer üzündə qalması, vəzifə və hökm müddətləri ilə əlaqədar müxtəlif rəvayətlər nəql edildi. Diqqət yetirsək, bu rəvayətlərdə keçən 5, 7, 8, 9, 20-21, 30, 40 illərinin ifadə etdiyi mənalar dəqiq və açıq şəkildə ifadə edilmədiyini görərik. Hədis təsnifçiləri, fərqinə vardıqları bu əksikliyi aradan qaldırmaq üçün, ya müxtəlif şərhlər etmişlər ya da təvil (bir sözü bilinən mənasından başqa bir mənada şərh etmək) yoluna üz tutmuşlar.

***...7 il - bütün ölkələrə 7 il hakim olacağını bildirir. 9 il- Kostantinoplu fəth etmə müddətini bildirir. 19 il isə- Süfyan ilə döyüşünün onu öldürüb hakim olacağının və bütün insanların əmrinin altına girməsinin müddətini bildirir ...*** *(Kıyamet Alametleri, 184)*

***7 il dünyaya malik olacaq. Bu bir çox məşhur rəvayətə görə belədir, ancaq buna müxalif başqa nəqllər də vardır. Bunlara görə bu müddət bəzilərində 19 il və bir neçə ay, 20 il, bəzilərində 40 il, 24 il, 30 il olaraq bildirilmişdir. Bir rəvayətdə də onun xəlifəliyi (hökmdarlığı) əsnasında 9 il əhli-rumla sülh içində qalacağı ifadə edilir. Fikrimizcə, bu rəvayətlərin hamısının səhih olması mümkündür. Belə ki, onun dünyada qalması 40 il, hər kəs tərəfindən zühuru və qüvvəti 7 il, bu zühur və güc başlanğıc və nəticə etibarı ilə 20 il davam edər.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 22)*

***Yuxarıda bildirdiyimiz kimi, Mehdinin 7 və ya 9 illik xəlifəliyi İsa (ə.s)-ın dövründə olması ehtimalına peyğəmbərimizin bu mübarək sözü ilə də zidd düşmür: "Başlanğıcda mən, ortasında Mehdi, sonunda İsanın içində olacağı bir ümmət əsla həlak olmayacaq.." Çünki İsa (ə.s)-dan 30 il əvvəl gələcək. Necə ki, Mehdinin 40 il qalacağına, İsanın (ə.s) isə 45 il qalacağına dair hədislər vardır. Buradan da anlayırıq ki, hər ikisinin bir yerdə qalması 7 və ya 9 il müddət davam edəcək. Digər illər isə ayrılıq müddətidir.*** *(Kıyamet Alametleri, 191)*

# QURANDAKI HEKAYƏLƏR VƏ MEHDİYYƏT

## KƏHF SURƏSİNİN AXIRZAMANLA BAĞLILIĞI

Rəsulullah (s.ə.v) Axırzamanda çıxacaq Dəccaldan qorunmaları və fitnələrindən əmin olmaları üçün müsəlmanlara Kəhf surəsini oxumalarını tövsiyə etmişdir:

***Nəvvas ibn Səman əl-Kulabi (r.ə)-dən belə rəvayət edilmişdir.***

***Sizdən kim Dəccala yetişsə, Kəhf surəsinin əvvəlini onun üzərinə oxusun, bu surənin sonu Dəccalın fitnəsindən qurtuluşunuzdur.*** *(Sünen-i Ebu Davud, 5/121)*

***Madən ibn Əbu Talha (r.ə)-dən belə rəvayət edilmişdir:***

***Kim Kəhf surəsinin əvvəlindən on ayəsini əzbərləsə, Dəccalın fitnəsindən əmin (qorunmuş) olar.***

***Əbu Davud, Düstu Vaidə, Katadədən belə nəql etdiyini dedi: Kim Kəhf surəsinin sonlarından on ayə əzbərləsə, Subə də Katadədən rəvayətində "Kəhf surəsinin axırından əzbərləsin" demişdi.*** *(Sünen-i Ebu Davud, 5/122)*

***Əbu Dərda (r.ə)-dən olunan rəvayətə görə Peyğəmbər (s.ə.v) belə buyuruşdu: Hər kim Kəhf surəsinin əvvəlindən üç ayə oxusa, Dəccalın fitnəsindən qorunar.*** *(Sünen-i Tirmizi, 5/30)*

***Əbu Ümamə əl-Bahili (r.ə)-dən rəvayət edilmişdir: ...kim onun (Dəccalın) cəhənnəminin bəlasına uğrasa, Allahdan kömək diləsin və Kəhf surəsinin ilk ayələrini oxusun ki, ataş İbrahim (ə.s)-a olduğu kimi bu ataş də o kimsəyə soyuq və salamatlıq olsun.*** *(Sünnəni İbni Macə, 10/332)* ***Hədisi-şərifdə belə buyurulmuşdur: ...Hər kim Dəccalın atəşi ilə zəbt və imtahan edilərsə, Allahdan kömək istəsin və Kəhf surəsinin başlanğıc ayələrini oxusun. Bu surətlə Dəccalın, atəşi ona qarşı soyuq və salamat olar.*** *(Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, 494)*

Rəsulullah (s.ə.v)-in Kəhf surəsi üzərindəki təkidli tövsiyələrinin böyük hikmətlərindən biri, Kəhf surəsində bəhs olunan hekayələrin xüsusiyyətinin, Axırzamanda çıxacaq Dəccaldan onun fitnələrindən qorunmaq və onlara qarşı mübarizə apara bilmək üçün lazımlı plan, taktika və strategiyanı göstərməkdir.

Hədisi-şəriflərdə, "Süfyan Dəccal" deyə xatırlanan İslam Dəccalının fitnəsini yenə hədislərdə bildirilən hz. Mehdi (ə.s) və köməkçiləri məhv edəcək. Hz. Mehdi dövründə oyanaraq, ona tabe olacaq Əshabı-Kəhfdən bəhs edən surənin oxunması tövsiyə edilərək, bəlkə də Axırzamanda bu mübarək şəxslərin Dəccal fitnəsinə qarşı aparacaqları mübarizənin xüsusiyyətlərinə işarə edilir.

***İbni Mərdüyə, təfsirində İbni Abbas hədisini yüksəldərək belə rəvayət etdi:***

***Əshabi-Kəhf Mehdinin köməkçiləri olacaq.*** *(Kitab ul Burhan Fi Alamet-il Mehdiyy il Ahir Zaman , 59)*

***İmam Əbu İshak Sələbi, təfsirində Kəhf hekayəsini izah edərkən belə dedi: Mehdi çıxdığı zaman Kəhf əhlinə gedib salam verəndə Allah onları diriləcək və Mehdinin yanında yerlərini tutacaqlar.*** *(Kitab ul Burhan Fi Alamet-il Mehdiyy il Ahir Zaman 39)*

Bir şərhi də belədir:

Bu rəvayətdə bu hekayənin bir bənzərinin həqiqi Əshabi-Kəhfə bənzədilən Mehdi və köməkçilərinə təkrar yaşanacağına işarə edilir. (Allahualəm)

Hz. Mehdi (ə.s)-ın gedib Əshabi-Kəhfə salam verməsi bəlkə də köməkçiləri ilə sonradan köçmələrinə və onları özü ilə birlikdə cihad etməyə çağıracağına işarə edir. Rəvayətdə keçən "diriltmə" ifadəsi isə keçmişdə yaşamış Əshabi-Kəhfin (Kəhf əhlinin) indiki dövrdə təkrar canlanıb həyata qayıtmaları deyil, Mehdi (ə.s) dövründə yaşayacaq və ona köməkçi olacaq oxşar gənclərin qəflət yuxusundan oyanıb, özlərini dərk etmələrinə və Mehdi (ə.s)-ın yanında yar alıb vəzifəyə başlamaqlarını bildirir, Allahualəm.

# ƏSHABİ-KƏHF HEKAYƏSİ (MAĞARA YOLDAŞLARI)

Rəsulullah (s.ə.v) hz. Mehdi (ə.s) və köməkçilərini əsl Əshabi-Kəhfə oxşatdığına görə, aralarında bir çox ortaq xüsusiyyətləri ola bilər.

Əshabi-Kəhfin Qurani-Kərimdə izah edilən xüsusiyyətləri və hz. Mehdi (ə.s) ilə köməkçilərinin hədisi-şəriflərdə bəhs edilən xüsusiyyətləri arasındakı oxşar xüsusiyyətləri təsbit etdiyimiz qədər nəzərinizə çatdırırıq.

## ƏSHABİ-KƏHF GƏNCLƏRDƏN İBARƏT BİRLİKDİR

**Xatırla ki, o zaman gənclər mağaraya sığınıb: "Ey Rəbbimiz! Bizə Öz dərgahından mərhəmət bəxş et və işimizə fərəc (asanlaşdır) ver! (Bizi kafirlərin bəlasından, düşmənlərin təhlükəsindən qoru, bizə ruzi verib doğru yola yönəlt!)" - demişdilər. (Kəhf surəsi, 10)**

**"...Həqiqətən onlar Rəbbinə iman gətirmiş gənclər idi. Biz də onların hidayətini (imanını, səbatını və bəsirətini) artırmışdıq". (Kəhf surəsi, 13)**

Hz. Mehdi (ə.s) və köməkçiləri də hədisi-şəriflərdə ifadə edildiyi kimi gənclərdən ibarət bir birlikdir.

***Hz. Əli (r.ə) belə rəvayət etmişdir: (Mehdi) bizdən, Qüreyşdən bir gəncdir, eyni zamanda gəlib Allah yolunda onu (xəzinələri-malları) böləcək.*** *(Kıyamet Alametleri, 202)*

***Naim ibn Hammad, İbn Abbasdan belə rəvayət etdi: Mehdi bizdən, Əhli-Beytdən bir gəncdir. İxtiyarlarınız (qocalarınız) ona yetişməyəcək, gəncləriniz isə onu ümid edəcəklər. Allah istədiyini edəcək.*** *(Kitab ul Burhan Fi Alamet-il Mehdiyy il Ahir Zaman ,23)*

***Hz. Ammar ibn Yasir (r.ə)-dən belə rəvayət edilmişdir:***

***Ya Abbas! Bu işi Allah (c.c) mənimlə başlatdı, sənin sülaləndən biri ilə də bitirəcək, o cavan (Mehdi) dünyanı əvvəlcə zülmlə dolduğu kimi təkrar, ədalətlə dolduracaq.*** *(Rumuz El-Ahadis, 498 (Dare Kutni'nin Sünen'i)*

***Mehdinin bayraqdarı (bayraq tutanı), saqqalı az, rəngi sarı, kiçik bir gənc olacaq.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 51)*

***Onun bayraqdarı şərqdən Təmimi soyuna mənsub bir gənc olacaq.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il)*

## SAYLARI AZ, KİÇİK BİR BİRLİKDİR

**(Sonra gələn nəsillər) Deyəcəklər ki: "üçdülər, onların dördüncüsü köpəkləridir." Və: "Beşdilər, onların altıncısı köpəkləridir!" deyəcəklər. (Bu,) bilinməyənə (qeybə) daş atmaqdır. "Yeddirlər, onların səkkizincisi köpəkləridir!" Deyəcəklər. De ki: "Rəbbim, onların sayını daha yaxşı bilir, onları az (insan) xaricində kimsə bilməz" elə isə onlar barəsində açıqda olan bir müzakirədən başqa müzakirə etmə və onlar haqqında bunlardan heç kimsəyə bir şey soruşma. (Kəhf surəsi, 22)**

Hz. Mehdi (ə.s)-ın köməkçiləri də Əshabi-Kəhf kimi sayları az olan bir camaatdır.

**Bu vəzirlər 10-dan aşağı lakin 5-dən yuxarı olacaq.**

***(Bu vəzirlər) Məmləkət işlərinin ağırlıqlarını Mehdi ilə paylaşacaqlar. 9 (doqquz) adamdan ibarət olacaqlar.*** *(Kıyamet Alametleri, 187)*

***Əbu Cəfər Məhəmməd ibn Əlidən belə rəvayət edildi:***

***Mehdi hələ çıxmamışdan əvvəl onun bir yoldaşı ona tabe olan bəzi insanlarla qarşılaşacaq və "Siz burada neçə nəfərsiz?" deyə soruşacaq. Onlar da "40 adamıq" deyə cavab verəcəklər.***

***Ertahdan rəvayət edildi ki, ...Mehdinin Süfyani ilə döyüşündə) ən böyük ordusu 313 adamın əmrini əlində tutaraq ətrafa meydan oxuyacaq.*** *(Kıyamet Alametleri, 169)*

Hz. Mehdi (ə.s)-ın köməkçiləri ilə əlaqədar bu cür müxtəlif rəvayətlər müxtəlif inkişaf mərhələlərinə işarə edir. Əvvəllər sayları çox az ikən sonralar 313 nəfərə qədər artır.

Bədiüzzaman Səid Nursi həzrətləri bu köməkçilərin azlığına baxmayaraq çox qiymətli olduqlarıını belə bildirir:

*...Bu vəzifənin istinad etdiyi qüvvət və mənəvi ordusu, tək ixlas və sədaqət və yardımsevər sifətlərinə tam sahib olan bir qisim şagirdlərdir. Nə qədər az da olsalar, mənəvi cəhətdən bir ordu qədər qüvvətli və qiymətlidirlər. (Emirdağ Lahikası, 259)*

## ALLAH (C. C)-Ə İMANLARI QÜVVƏTLİDİR:

**"... Həqiqətən onlar Rəbbinə iman gətirmiş bir neçə gənc idi. Biz də onların hidayətini (imanını, səbatını və bəsirətini) artırmışdıq". (Kəhf surəsi, 13)**

**"...onların ürəklərinə qüvvət (mətanət) vermişdik". (Kəhf surəsi, 14)**

Hz. Mehdi (ə.s) və köməkçiləri də Allaha qarşı olduqca itaətkar və imanları qüvvətli olan gənclərdir.

***Hz. Mehdi Allahdan çox qorxan biri olacaq. Eynilə, qartal cinsindən nəsr quşunun qanadlarıyla titrəməsi kimi Allahdan titrəyərək qorxacaq.*** *(Kitab ul Burhan Fi Alamet-il Mehdiyy il Ahir Zaman, 53)* ***Onlar Allahın xas qullarıdır.*** *(Kıyamet Alametleri)* ***Onların ürəkləri dəmir kimidir və onlar gündüz aslan, gecə də ibadət edərlər.*** *(Kitab ul Burhan Fi Alamet-il Mehdiyy il Ahir Zaman, 57)*

***Şübhəsiz ki, onlar hidayət bayraqlarıdır.*** *(Ramuz el-Ehadis, 1/153)* ***Allah yolunda heç bir qınayanın qınamasından qorxmayan seçmə müsəlmanlardır.*** *(Sünen-i Ibni Mace, 10/259)*

## YAŞADIQLARI DÖVR DİN DÜŞMƏNLİYİ DÖVRÜDÜR:

**Bizim bu camaat (qövmümüz) Allahdan başqa tanrılar qəbul etdilər. Elə isə onlar öz tanrıları barəsində (bütlərə ibadət etməyin düzgün olması haqqında) bir dəlil gətirməli deyildilərmi? Allaha qarşı yalan uydurub böhtan atandan daha zalım (özünə zülm edən) kim ola bilər?! (Kəhf surəsi, 15)**

Ayələrdə və təsfirlərdə də göründüyü kimi, Əshabi-Kəhf dövründə xalq dövrünün dəccalı olan zalım kralın məcburiyyətiylə artıq bir olan Allaha inanmırmışlar. Xalq yenidən bütlərə tapınmağa, Allahın haram buyurduğu bütün hərəkətləri etməyə başlamışdılar. Məhz hz. Mehdi və köməkçilərinin zühurundan əvvəl də buna oxşar bir vəziyyət hədisi-şəriflərdə xəbər verilmişdir.

***Əbu Hüreyrədən belə rəvayət edilir:***

***Hər kəsin gözü qabağında və açıq-aşkar Allah Təala inkar edilənə qədər hz. Mehdi gəlməz.*** *(Kitab ul Burhan Fi Alamet-il Mehdiyy il Ahir Zaman , 27)*

***Bir hədisi-şərifdə Rəsulullah (s.ə.v) belə buyurmuşdur: "Küfr hər yeri zəbt edib hökmü cəmiyyət içində aşkarda işlənmədikcə Mehdi zühur etməz".*** *(Mektubat-i Rabbani, 2/258)*

***Hz. Mehdi bütün haramların halal sayıldığı böyük bir fitnədən sonra çıxacaq.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar,39)*

***Heç bir tərəfin ondan məhfuz (gizli) qalmayacağı bir fitnə zühur edəcək, bu fitnə qaldığı yerdən dərhal başqa bir tərəfə yayılacaq və bu vəziyyət bir nida edənin səmadan səslənərək "Ey insanlar, əmriniz artıq Mehdidir." deməyinə qədər davam edəcək.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar,2 4)*

## DÖVRÜN DƏCCALİYYƏT NİZAMINA QARŞIDIRLAR

**... Demişdilər ki: "Rəbbimiz göylərin və yerin Rəbbidir. Biz Ondan başqa heç bir tanrıya ibadət etməyəcəyik. Əks təqdirdə, həddi aşmış (ifrata varmış) olarıq!"... (Kəhf surəsi, 14)**

**Gənclərin biri demişdi ki, "Onları və Allahdan başqa tapındıqları tanrıları tərk edib getdiyiniz zaman, mağaraya çəkilin ki, Rəbbiniz sizə Öz mərhəmətindən əta etsin və işinizdə sizin üçün fayda hazırlasın". (Kəhf surəsi, 16)**

## ZALIM KRALA VƏ ƏYANLARINA QARŞI ÇOX TƏMKİNLİDİRLƏR

**...İndi içərinizdən birini bu gümüş pulunuzla şəhərə göndərin ki, görsün ən təmiz təam hansıdırsa ondan sizə ruzi (yemək alıb) gətirsin. O, çox ehtiyatlı olsun (ağıllı davransın) və sizin barənizdə heç kimə bir xəbər (nişan) verməsin! (Kəhf surəsi, 19)**

**Əgər onlar sizi tapsalar ya sizi daşqalaq edər, ya da öz dinlərinə döndərərlər. (Onda) siz heç vaxt nicat tapa bilməzsiniz!" (Kəhf surəsi, 20)**

Hz. Mehdi və köməkçilərinin də, eyni ilə Əshabi-Kəhf kimi çox təmkinli hərəkət edəcəklərini mübarizələrini sakit icra edəcəklərini hədisi-şəriflərdən anlayırıq.

***(Mehdi) zamanında kimsə nə yuxusundan oyandırılacaq, nə də bir kəsin burnu qanayacaq.*** *(Kiyamet Alametleri, 163)*

***Mehdi əsgərləriylə birlikdə yola çıxacaq və çox sükunət içində gedəcək.*** *(Kiyamet Alametleri, 173)*

LAKİN QÖVMLƏRİ O NİZAMA TABE OLMUŞLAR:

**"...Bizim bu camaat (qövmümüz) Allahdan başqa tanrılar qəbul etdi..." (Kəhf surəsi, 15)**

Həm də surənin digər ayələrində ifadə edilən xüsusiyyətlərdə də hər şey çox dəqiq aydın olur.

GƏNCLƏR BAĞLI BİR MƏKANDA OLACAQLAR

**... o zaman gənclər mağaraya sığınıb: "Ey Rəbbimiz! Bizə Öz dərgahından mərhəmət bəxş et və işimizə asanlıq ver (bizi müvəffəqiyətli et) -demişdilər! (Kəhf surəsi, 10)**

Əshabi-Kəhfin sığındığı mağara təfsirçilərin şərhinə görə bir dağın ətəklərində olub qapısı dəniz tərəfə baxacaq.

Hədisi-şəriflərdən anladığımız kimi, hz. Mehdi və köməkçilərinin də hərəkət mərkəzi dəniz sahilində olacaq.

***Mehdi səhər namazına dəstəmaz almaq üçün dənizin yanına bayrağı taxacaq.*** (El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar,57, Kiyamet Alametleri, 181*)**Bu ordunun hərəkət etməsi və göndərilməsi, Məğrib (Qərb) dağındakı Masinə deyilən yerdəki dəniz sahilindən olacaq.*** *(Ölüm-Kiyamet-Ahiret ve Ahirzaman Alametleri, 439)*

GƏNCLƏRİN MÜBARİZƏ YERİ MAĞARALARI OLACAQ

**...Gənclər mağaraya sığınıb: "Ey Rəbbimiz! Bizə Öz dərgahından mərhəmət bəxş et və işimizə fərəc ver (bizi müvəffəqiyətli et)! (Kəhf surəsi, 10)**

**Gənclərin biri demişdi ki, "Onları və Allahdan başqa tapındıqları tanrıları tərk edib getdiyiniz zaman mağaraya sığının ki, Rəbbiniz sizə Öz mərhəmətindən əta etsin və işinizdə sizin üçün fayda hazırlasın".(Kəhf surəsi, 16)**

Əshabi-Kəhfin mağarası onların yalnız sığınıb qaldıqları bir yer deyil. Ora eyni zamanda onların strategiyalarını təyin etdikləri mübarizə yeridir. Çünki mağaraya girdikdən sonra etdikləri dualarında "bizə işimizdə asanlıq göstər, bizi müvəffəqiyətli et" deyə Allahdan kömək istəmişdilər. Buradan da aydın olur ki, onlar mağarada mübarizə ilə məşğul olurmuşlar.

MAĞARANIN ORTASINDA GENİŞ BİR YERİ VAR

**"...Onların da mağaranın ortasında geniş bir yerdə olduqlarını (küləyin onları oxşadığını və rahat nəfəs aldıqlarını) görərdin". (Kəhf surəsi, 17)**

MAĞARANIN QAPISINDA BİR GÖZƏTÇİ VAR

**"...İt də iki əlini (qabaq pəncələrini mağaranın) astanasına uzadıb yatmışdı..." (Kəhf surəsi, 18)**

MAĞARANIN YAXINLIĞIINDA BİR MƏSCİD VAR

**"...Onların barəsində mübahisə edirlər: "Onların üstündə bir bina tikin. Rəbbi onları daha yaxşı bilər!" Onların (Əshabı-Kəhfin) haqqındakı mübahisədə qalib gələnlər (möminlər) isə: "Onların üstündə (Allaha ibadət etmək məqsədilə) bir məscid tikəcəyik!" - dedilər". (Kəhf surəsi, 21)**

XARİCİ HADİSƏLƏRDƏN KƏNARDIRLAR **Biz onları mağarada illərlə yuxuya verdik. (Kəhf surəsi, 11)**

Bəzi təfsirlərdə Əshabı-Kəhfin sığındıqları mağarada uzun illər yalnız yatdıqları və başqa bir işlə məşğul olmadıqları izah edilir. Bu şərhi bir az açıqlamaq lazımdır. Beləliklə, Əshabı-Kəhf bu mağarada mübarizələrini də davam etdirirdilər. 10 və 16-cı ayələrdə " **"Ey Rəbbimiz! Bizə Öz tərəfindən mərhəmət bəxş et və işimizdə bizə düz yol göstər..."** deyə dua etdiklərini görürük, buradan da mübarizə apardıqları üzə çıxır. Uzun illər ancaq yatan insanların bu formada dua etmələri mümkün deyil. Əslində 18-ci ayədə də onların yatmadığı aydın olur. Çünki Allah Təala "Onları görsəydin ayıq olduqlarını düşünərsən..." deyərək, gözlərinin açıq olduğunu, normal insanlar kimi ayaqda fəaliyyətlərini davam etdirdiklərini, yəni yatmadıqlarını izah edir. Ayənin **"...halbuki, onlar yuxudadırlar"** cümləsində keçən **"yuxu"** isə anladığımız yuxu deyil. Burada insanın yuxu halındakı **"hüzur və sakitliyi, təhlükəsizlik və etibarı"** mənasında verilmişdir. Qurani-Kərimdə **"yuxu"** sözünün bu mənada istifadə edildiyi başqa ayələr də mövcuddur.

**"...Öz tərəfindən qorumaq əlaməti olaraq, sizi yuxuya daldırdı. (Ənfal surəsi, 11)**

**Bu qəm qüssədən sonra Allah sizə rahatlıq üçün yüngül bir yuxu (mürgüləmə) göndərdi. O sizin bir qisminizi bürüdü. (Ali-Imran surəsi, 154)**

SONRADAN XALQ TƏRƏFİNDƏN TANINACAQLAR

**... Allahın vədinin doğru olduğunu və qiyamətin həqiqətən qopacağına əsla şübhə olmadığını bilsinlər deyə onların halı ilə beləcə tanış etdik (şəhər xalqına və sonrakı insanlara onları tapdırmış olduq)... (Kəhf surəsi, 21)**

BAŞ VERƏN HADİSƏ QİYAMƏTƏ DƏLİLDİR:

**... Allahın vədinin doğru olduğunu və qiyamətin həqiqətən qopacağına əsla şübhə olmadığını bilsinlər deyə onların halı ilə beləcə tanış etdik (şəhər xalqına və sonrakı insanlara onları tapdırmış olduq)... (Kəhf surəsi, 21)**

Əshabı-Kəhfin əvvəl yuxuya verilməsi, aradan 300+9 il keçdikdən sonra oyandırılması Allah Təala üçün öldükdən sonra diriltmənin nə qədər asan olacağına bir dəlil olduğu kimi, bu hadisə eyni zamanda qiyamətin qopacağına və axirət həyatının varlığına da açıq bir dəlildir. Qiyamət qopandan sonra ölülərin təkrar həyata qovuşaraq məhşərə göndəriləcəklərinə dair gözlə görünən gözəl bir nümunədir.

Əshabi-Kəhfin oyandırılması qiyamətin qopacağına dair necə bir misal və dəlildirsə, eləcə hz. Mehdi və köməkçilərinin zühuru da bu vəd edilən vaxta yaxınlaşıldığını göstərən ilk əlamətdir.

***...Və Mehdinin zühuru da qiyamət əlamətlərindən birincisidir.*** *(ölüm-Kiyamet-Ahiret ve Ahirzaman Alametleri, 494)*

Bu surədə Əshabı-Kəhfin yanında Əshabı-Raqimdən də bəhs edilir.

***İbni Abbas (r.ə)-in rəvayətində Raqim (yazıçıdır), kitabədir. Səid İbni Cübeyr isə Raqimin daşdan bir lövhə olduğunu və bunun əsasında Əshabı-Kəhfin hekayəsinin yazıldığını nəql etmişdir.*** *(Ibni Kesir Tefsiri , 9/4938)*

Hədisdə Əshabı-Kəhfə bənzədilən Mehdi və köməkçilərinin bəlkə də Raqim (lövhə) kimi hər hansı bir şey üzərində adlarının toplu olaraq yazılı olacağına işarə edilir. (Allahu aləm).

# TALUT HEKAYƏSİ

*Məhəmməd ibn Hənəfi (r.ə)-dən belə rəvayət edilir:*

***Bir gün biz hz.Əlinin yanındaykən biri hz. Mehdiyə aid sual verdi. Əli (r.ə) "Təəssüf" dedi. Sonra əliylə bir doqquz rəqəmi yazdı və sonra da, o, Axırzamanda adama "Allahdan qorx , Allahdan qorx" deyildiyi vaxtda çıxar dedi və belə davam etdi:***

***Buludların səmada toplandığı kimi, Allah Onun ətrafına bir qövm toplayar. Onların ürəklərini uzlaşdırar. Onlar içlərindən şəhid olana kədərlənməz, onlara qatılana da sevinməzlər. Sayları Bədr səhabələrinin sayı qədərdir. Əvvəlkilər onları keçmədiyi kimi, sonrakılar da onlara çata bilməzlər.*** *(Kitabul Burhan Fi Alametil Mehdiyyil Ahir Zaman .57)*

Bir şərhi də belədir:

Bu rəvayətdə bildirilən "9" işarəsi əbəs yerə deyilməsi mümkün deyildir. Sual zaman bildirilən bir söhbətin başlanğıcı olduğuna görə, bu "9" hz. Mehdinin çıxış dövrü ilə əlaqədar bir rəqəmə işarə edə bilər. Məsələn, Mehdinin zühur ili hicri XIV əsrin əvvəli, miladi təqvimi ilə 1979-cu ildir. (Allahu aləm)

**Bu "9" işarəsinin bir başqa şərhi də belədir:**

***Doqquz il ilə işarə edilməsi eyni zamanda Konstantinopolu fəth etmə müddəti ilə də uyğun gəlir.*** *(Kıyamet Alametleri, 183)*

Yuxarıdakı rəvayətdə də göründüyü kimi bu "9" hz. Mehdi (ə.s)-ın Konstantinopolu mənəvi cəhətdən fəth edəcəyi ilin müddətidir. (Allahu aləm)

**Buludların səmada toplandığı kimi...**

Rəvayətin ikinci qisminin buludların səmada toplandığı kimi xüsusilə bəlli olmuş bir bənzətmə ilə başlaması da səbəbsiz yerə deyil (Allahu aləm). Bu bənzətmənin işarə etdiyi cəhət də çox diqqət cəlb edir. Çünki bulud tüstü kimi səmadan bəzi əlamətlər, Mehdinin, çıxacağı dövrələrə aid əlamətlər kimi bir çox rəvayətdə keçir, məsələn:

*Əbu Naim, İbni Ömərdən belə rəvayət etdi:*

***Hz. Mehdi başının üstündə bir bulud olduğu halda çıxacaq, o buludda bir münadi "Bu Allahın xəlifəsi Mehdidir, ona tabe olun" deyə səslənəcək.*** *(Kitab ul Burhan Fi Alamet-il Mehdiyy il Ahir Zaman)*

Bir şərhi də belədir:

Bu bulud bəlkə də Mehdi dövründə zühur edəcək, onun çıxış əlamətlərindən sayılacaq bir tüstü hadisəsinə işarə edir.

**... Allah onun ətrafında bir qövm toplayar. Onların ürəklərini uzlaşdırar...**

Axırzamanda Allah Təala hz. Mehdinin ətrafında elə bir mübarək qrup toplayar ki, bu qrup munis (sevimli), ürəkləri uzlaşmış və bir-birlərinə böyük bir sevgi ilə bağlanmışlar, bu qövmün Mehdiyə qarşı sevgiləri də olduqca çox böyükdür.

**...Onlar aralarında şəhid olana kədərlənməz, onlara qatılanlara da sevinməzlər...**

Mehdinin ətrafindakı bu qrup hər şeyi Allah Təaladan gəldiyini bildikləri üçün, aralarından hər hansı birinin ayrılmasına və azalmasına görə kədərlənməz, heç sarsılmadan igidcəsinə mübarizələrinə davam edərlər. Yenə onlara qatılan biri olduqda isə bu yeni qardaşlarını Allah Təalanın göndərdiyini, ona hidayət verdiyini, əxlaqını gözəlləşdirdiyini, ürəyinə məhəbbət və sevgi saldığını bilərlər, nəfsləri bundan bir pay çıxarıb sevinməzlər.

**Əvvəlkilər onları keçmədiyi kimi, sonrakılar da onlara çata bilməyəcəklər...**

Burada isə Mehdinin köməkçilərinin mücadilələrində göstərdikləri ixlas, sədaqət, köməkləşmə kimi bir sıra müsbət xüsusiyyətlərindəki üstünlüklərə görə, əvvəlki və sonrakılardan üstün olacaqlarına diqqət çəkilir. Bu cihad edənlərin üstünlüklərinin cəhətləri müxtəlifdir, lakin buradakı izahın möhtəşəm bir müjdə olduğunu da açıq şəkildə görürük.

**...Və onların sayları Talut İlə çayı keçənlər qədərdir**

Mehdi və ordusundan bəhs edən bu hədisi-şərifdə onların yalnız sayı və xüsusiyyətləri verilməmişdir, Talutun da adı zikr edilərək onun ordusuyla bir bənzərlik olduğu da verilmişdir. Eyni zamanda bu hədis Mehdi ilə Talutun mübarizələrində bir sıra ortaq xüsusiyyətlərin ola biləcəyinə diqqət çəkərək, sonradan gələləcək Mehdi və ordusuna bu ibrətli hekayədən həm xəbərdarlıq, həm irşad ala biləcəklərini tövsiyə edir.

Qurani-Kərim Talut hekayəsini Bəqərə surəsində belə xəbər verir:

**Musadan sonra İsrail oğullarından bir dəstəni (onların başına gələnləri) bilmirsənmi? O zaman onlar öz peyğəmbərlərinə dedilər: "Bizə bir hökmdar təyin et ki, Allah yolunda vuruşaq!" O dedi: "Sizə vuruşma vacib edilsə, ola bilsin ki, vuruşmayasınız?" Onlar dedilər: "Madam ki, biz yurdumuzdan çıxarılmışıq və övladlarımızdan ayrılmışıq, onda nə üçün Allah yolunda vuruşmayaq?" Vuruşmaq onlara vacib edildikdə isə onlardan az bir qismi istisna olmaqla (hamısı döyüşdən) üz çevirdilər. Allah zalımları tanıyır.! (Bəqərə surəsi, 246)**

Bu ayəti-kərimədə bir qisim insanlara cihad etmək fərz edildikdə, çox azı müstəsna olmaqla mübarizəyə qatılmadıqları bildirilir.

Dövrümüzdə də mücadilə fərz olduğu halda böyük bir kütlə əmri bil maruf və nəhyi-anıl münkər (yaxşılığı əmr etmək və pislikdın çəkindirmək) olaraq təyin olunan təbliğdən, mübarizədən qaçırlar. Çox kiçik bir azlıq bu müqəddəs vəzifəni deruhtə (əmr olunan vəzifəni öz üzərinə alır və yerinə yetirir) edir.

**Peyğəmbərləri onlara dedi: "Allah Talutu sizə hökmdar təyin etdi!" Onlar dedilər: "O necə bizə hökmdar ola bilər ki, biz hökmdarlığa ondan daha çox layiqik və ona heç böyük var-dövlət də verilməmişdir". O dedi: "Allah sizin üzərinizə onu (hökmdar) seçdi, elm və bədəncə onun gücünü artırdı. Allah Öz mülkünü istədiyi kəsə verir. Allah (hər şeyi) Əhatə edəndir, Biləndir"!" (Bəqərə surəsi, 247)**

O dövrdə bəziləri Talutu şan-şöhrət, zənginlik, ehtişam içində bir şəxs olaraq gözləyirdi, hökmdarlıq xüsusiyyətində olan adamın ancaq bu kimi xüsusiyyətlərə sahib olması lazım olduğunu sanaraq yanılırdılar. Lakin Allah Təala da Talutun elm və bədən baxımından güclü olmasını istəyərək mülkünü dilədiyinə verəcəyini bildirir. Zamanımızda da, bir qisim avam, cahil insanlar Mehdini şan-şöhrət, səltənət içində bir şəxs olaraq gözləyir. Halbuki, Allah (c.c) mülkü istədiyinə verəcəyindən, bu şəxslər avamın ümid etmədiyi, heç təxmin etmədiyi kəslərdir. (Allahu aləm)

Yuxarıda 247-ci ayəti-kərimin işarəli qisminin əbcədi (hesablama ilə) 1379 və ya L (lam) şəddəsiylə birlikdə 1409 rəqəmini verir.

Görəsən, hicri 1409-cu ilin (Miladi 1988-1989 illəri) İslam alimlərinin əksəriyyəti tərəfindən Mehdinin çıxış ili olaraq qəbul etdikləri, hicri 1400-cü illərin əvvəllərinə uyğun gəlməsi, bizlərə Mehdinin də ayəti-kərimənin tərcüməsinə uyğun bir şəkildə, müsəlmanlar üzərinə seçildiyini və vəzifələndirildiyini müjdələyirmi? (Allahu aləm)

**Peyğəmbəri onlara dedi: "(Talutun) padşahlıq əlaməti (Musaya verilən) sandığın sizə gəlməsidir. Onun içində (sizin üçün) Rəbbinizdən bir təskinlik, rahatlıq (mənəvi bir qüvvə, səbat), həmçinin Musa və Harun ailəsindən qalan əşyalar (Musanın əsası, Tövratın bəzi lövhələri, bir az qüdrət halvası və s.) vardır. Onu mələklər gətirəcək. Əgər siz möminsinizsə, onda sizin üçün (peyğəmbərin verdiyi xəbərin doğruluğunu təsdiq edən) qəti dəlil vardır". (Bəqərə surəsi, 248)**

Talutun hökmdarlığının əlaməti müqəddəs tabutdur (sandıq). Bəhs olunan müqəddəs tabutun içində bu rəvayətə görə hz. Musanın əsası ilə bəzi Tövrat lövhələri və hz.Harunun əsası ilə sarığı kimi bir sıra müqəddəs əmanətlər var.

Talut ilə Mehdi arasında bir bənzərlik də burada görünür. Axırzaman da, Mehdinin dövründə də müqəddəs tabutun tapılacağı rəvayət edilmişdir hansı ki, bu

müqəddəs tabut da Mehdinin hökmdarlığının əlamətlərindən biri olacaq. (Allahu aləm)

***Hz. Mehdi tabutu-Səkinəni Antakya mağarasından çıxaracaq.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar ,54)*

***Mehdinin əlində (zamanında) Səkinə (rahatlıq, inanc) olan tabut Təbəriyə gölündən çıxarılar və Beytül-Makdisdə Onun önünə gətirilər. Yəhudilər bunu görüncə az bir qismi istisna olmaqla, çoxu müsəlman olarlar.*** *(Kitab ul Burhan Fi Alamet-il Mehdiyy il Ahir Zaman,77)*

***Hz. Mehdi ... Beytül-Müqəddəsin xəzinələrini, tabutu-Səkinəni Bəni-İsrail süfrəsi ilə lövhələrin mədənlərini, hz. Adəmin cübbəsini, hz. Süleymanın minbərinin əsasını və Allahın Bəni-İsrailə göndərdiyi süd qədər ağ olan əlcəkləri çıxaracaq.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar,35)*

Hz. Talutun sayı az, lakin olduqca seçilmiş, nəfsini idarə edə bilən bir ordusu vardı. Bu ordusunu seçmək üçün bir çaydan içməmələrini dedi. Nəfsinə hakim ola bilməyən böyük bir kütlə bu çayın suyundan çox içərək o mübarək orduya layiq olmadıqlarını göstərdilər.

**Talut qoşunla birlikdə (döyüşə) yola düşdükdə (əsgərlərinə) dedi: "Allah sizi bir çayla imtahan edəcək. Kim ondan içsə, məndən deyildir. Bir ovuc götürən istisna olmaqla, kim ondan dadmasa, o, məndəndir". Onların az bir qismi istisna olmaqla (hamısı) ondan su içdilər. (Talut) onunla olan möminlərlə birlikdə çayı keçdikdən sonra (bəziləri) dedilər: "Bu gün bizim Caluta və onun qoşununa gücümüz çatmayacaq". Allahla qarşılaşacaqlarını yəqin bilənlər isə dedilər: "Neçə-neçə az saylı dəstələr Allahın izni ilə çox saylı dəstələrə qalib gəlmişdir!" Allah səbir edənlərlədir!" (Bəqərə surəsi, 249)**

Axırzamanda hz. Mehdi (ə.s) mübarizəsində də insanlar bir növ belə çaylarla (maneələrlə) yoxlanacaqlar, seçmə, nəfsinə hakim olan müsəlmanlar ancaq seçiləcəklər. Bu haqda Mehdinin qarşılaşacağı Dəccal və Dəccalın yalançı çayları ilə əlaqədar olaraq müxtəlif rəvayətlər də bildirilmişdir.

***Hüzeyfə (r.ə) dediyinə görə Rəsulu Əkrəm (s.ə.v) belə buyurmuşdur:***

***Şübhəsiz ki, mən Dəccalın səviyyəsində olan şeyləri ondan daha yaxşı bilirəm. Onun yanında iki axan çay vardır. Onlardan biri gözlə görünə bilən ağ bir sudur. Digəri də gözlə görünən öz-özünə alovlanıb yanan bir atəşdir. Əgər kimsə ona çatsa, atəş olaraq gördüyü çaya gəlsin. Sonra başını salsın. Sonra başını aşağıya əyib ondan içsin, çünki ,o çay (əslində) soyuq bir sudur.*** *(Ölüm-Kiyamet-Ahiret ve Ahirzaman Alametleri, 48)*

Dəccalın fitnəsiylə qarşılaşanlar, dərk etmədən ona gözəl görünən və bu zahirən faydalı sandığı hərəkətləri (ayədə keçən çox su içmək kimi) işləyərək əslində pis yola düşərlər. Bu fitnədən xilas olmaq üçün Dəccalın zahirən pis göstərdiyi əməlləri işləmək və nəfsdən gələn hərəkəti etməmək lazımdır.

Ayədə ifadə edildiyi kimi hz.Talut (ə.s)-a tabe olanların bir çoxu nəfslərinə təslim olaraq (xəbərdarlıq edildiyi halda bir ovucdan çox su içərək) özlərinə böyük zərər vermişlər, düşmənlə döyüşərək taqətdən düşmüşlər.

İndi də Dəccalın rəvayətlərdə bildirilən çaylarından doya-doya yeyib içən nəfslərinə hakim ola bilməyən əhli-dəlalət imtahandan keçməyərək ancaq bir ovuc cihad edən bu müqəddəs orduya qatılmaqla haqq qazanır.

**Onlar Calut və əsgərləri ilə qarşılaşdıqları zaman dedilər: "Ey Rəbbimiz, bizə bol səbir və dizimizə (ayaqlarımıza) qüvvət ver! Bizə kafir qövm üzərində qələbə qazandır!" (Bəqərə surəsi, 250)**

Hz. Talut və ordusu, o dövrdəki küfrün lideri və Dəccalı olan Caluta qarşı güc, qüvvət və dözümlülük verməsi üçün Allah Təalaya dua edir.

**".... Ey Rəbbimiz! üzərimizə səbir yağdır."**

Çox lətif bir təslimiyyətdir, Talut və ordusunun etdiyi bu duanın əbcəd hesabı 1988 rəqəmini verir. Görəsən, 1988 ili (hicri 1408) Mehdinin çıxış ili olaraq qəbul edilən hicri XIV əsrin lap əvvəlinə uyğun gəlməyi Mehdi və ordusunun belə bir duası olacağını bizlərə xəbər verirmi?

**Nəhayət, onlar Allahın izni (iradəsi və köməyi) ilə Calutu və qoşununu məğlub etdilər. Davud Calutu öldürdü. Allah Davuda həm hökmranlıq, həm də hikmət (peyğəmbərlik) verdi və ona istədiyini (zireh düzəltmək, quşların dilini bilmək, gözəl səslə oxumaq) öyrətdi. Əgər Allah insanların bir qismini, digər bir qismi ilə məğlub etməsəydi, yer üzü fitnə-fəsada uğrayardı. Lakin Allah bütün aləmlərə qarşı lütfükardır. (Bəqərə surəsi, 251)**

Yuxarıdakı ayədə Talutun Caluta qarşı qələbəsi izah edilir. Allah İnşaAllah Mehdi və ordusunu da Dəccala qarşı müvəffəq edəcək, Dəccalın fitnə və fəsadını onların əliylə ortadan qaldıracaq, məğlub edəcək.

Talut hekayəsinin Qurani-Kərimdə izah edilən xüsusiyyətləri ilə mehdiyyət hadisəsinin, hədisi-şəriflərdə bildirilən xüsusiyyətləri arasındakı bənzərlik bununla bitmir.

**1. Hz. Talutun gələcəyini İsrailoğullarının peyğəmbərləri xəbər verir.**
**Hz. Mehdinin gələcəyini də bizlərə Peyğəmbərimiz (s.ə.v) xəbər vermişdir.**

2. Hz. Talutun ordusu rəvayətlərə görə 313 adamdır.

Hz. Mehdinin ordusu da cəmi 313 adam olacaqdır.

3. Hz. Talutdan sonra başa bir peyğəmbər (hz. Davud) keçir.

Hz. Mehdidən sonra da başa, səmadan nüzul edəcək olan hz. İsa keçəcək. (Allahu aləm).

# ZÜLQƏRNEYN VƏ MEHDİ

***Ümumilikdə, yer üzünün  dörd məliyi olub. Onların ikisi möminlərdən, ikisi də kafirlərdəndir.***

***Zülqərneyn və Süleyman möminlərdəndir. Nəmrud və Buhtunnasir isə kafirlərdəndir.***

***Yerə beşinci olaraq Əhli-Beytimdən biri sahib olacaq. Yəni Mehdi.***

(Mektubat-i Rabbani, 2/251)(Kitab ul Burhan Fi Alamet-il Mehdiyy il Ahir Zaman, 32)

***Mehdi eyniylə Zülqərneynlə Süleyman kimi bütün dünyaya hökm edəcək.***

*(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 32)*

*(Kiyamet Alametleri, 183)*

***İbni Cevzi, Tarix adlı əsərində İbni Abbasdan belə rəvayət etdi:***

***Yer üzünə dörd adam malik olmuşdur. İkisi mömin, ikisi kafirdir. Möminlər Zülqərneyn və Süleyman (ə.s) kafirlər isə, Nəmrud və Buhtunnasirdir. Beşinci olaraq Əhli-Beytimdən biri gələcək və o da, dünyaya malik olacaq.*** *(Kitab ul Burhan Fi Alamet-il Mehdiyy il Ahir Zaman , 10)*

Bu günə qədər müsəlmanlardan dünyaya iki lider hakim olmuşdur: Hz. Zülqərneyn və hz. Süleyman (ə.s). Dünyaya hakim olacaq üçüncü müsəlman lider hədisi-şərifin "eyniylə Zülqərneyn və Süleyman kimi" deyə xəbər verdiyi hz. Mehdi (ə.s)-dır. Bu oxşarlıqdan meydana gələn hz. Zülqərneyn və Süleyman (ə.s)-da xüsusiyyətlərin, eyni ilə onlar kimi dünyaya hakim olacaq hz. Mehdidə də olması mümkündür.

Zülqərneyn məna etibarilə "iki cəhətli" və "iki çarxlı", dəbilqəsində "iki buynuz olan" və ya "saçı iki bölük olan" deməkdir. Sayılan bu xüsusiyyətlər Mehdidə də əsas cəhətlərdən ola bilər. Lakin biz əsl ayə və hədislərdə təsbit etdiyimiz bənzər xüsusiyyətləri sadalayacağıq.

Zülqərneyn hekayəsi Qurani-Kərimdə Əshabi-Kəhf hekayəsinin izah edildiyi Kəhf surəsində keçir. Çox gözəl bir uyğunluq var, bu hekayə 80-ci ayələrdə izah edilməyə başlanır.

**(Ya Rəsulum!) Səndən Zülqərneyn barəsində soruşarlar. De: "Onun barəsində sizə bir hekayə (bəzi xəbərlər, öyüd-nəsihət) danışacağam!" (Kəhf surəsi, 83)**

Qurani-Kərim hz. Zülqərneyndən  xəbər verərkən hədislər də hz. Mehdidən xəbər verir.

***Mehdinin gələcəyinə dair səhih hədislər təvatür (içində yalan ehtimalı olmayan) dərəcəsindədir.*** *(Kiyamet Alametleri, 193)*

**Biz onu yer üzərində möhkəmləndirib qüvvətləndirdik və hər şey verdik (hər şeyin yolunu ona öyrətdik). (Kəhf surəsi, 84)**

Bu ayənin təfsirlərində hz. Zülqərneynin yer üzündə qüdrətə çatdırılması, onun dünyaya hakim olduğu kimi izah edilmişdir. Yenə onun müxtəlif ilahi köməklərə (elm, qənaət) qovuşduğu da xəbər verilmişdir.

Mehdinin də dünyaya hakim olacağını hədislərdən öyrənirik.

***Abdullah ibn Məsuddan belə rəvayət edilmişdir: Mehdi dünyaya sahib olar.*** *(Ramuz el-Ehadis,1/135)*

***Dünyadan bir gün qalsa belə Allah, o günü uzadıb mənim Əhli-Beytimdən birini dünyaya hakim etmək üçün göndərəcək.*** *(El-Kavlul Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar,24)*

Mehdi də Zülqərneyn kimi Allah (c.c)-dən kömək görər. (Vəhbi (Allahdan vəhy edilir) elmi buna misaldır.)

**Mehdi bizdən Əhli-Beytdəndir. Allah (c.c) onu bir gecədə islah edər, yetkinləşdirər. (Ona imamət mövqeyi və xariqüladə (adətlərin xaricində) hallar verib insanlığa göndərər.)**

**O da, bir yol tutdu. (Kəhf surəsi, 85)**

Hz. Zülqərneynin izah edilən hekayəsində 3 yol izlədiyi bildirilir. Birinci şərqdən qərbə, sonra qərbdən şərqə, üçüncü də şimala doğru yola çıxdığı bildirilir. Bunlar ayələrin əsl mənalarıdır. Həm də bu ayəti-kərimələr, "eyniylə Zülqərneyn kimi" deyə bənzətmə edilən hz. Mehdiyə və onun da 3 ayrı yol tutmasına işarə edilir. (Allahu aləm)

Hz. Zülqərneyn (ə.s)-ın səfərində mühüm bir mərhələdə əhəmiyyətli bir hadisə ayələrdə belə izah edilir:

**Nəhayət, günəşin batdığı yerə gəlib çatdıqda onu qara palçıqlı bir çeşmədə (lehməli bir suda) batan gördü. O, çeşmənin yanında (Allahı tanımayan, kafir) bir tayfa da gördü. Biz ona belə buyurduq: "Ya Zülqərneyn! Sən onlara (imana gəlməsələr) əzab da verə bilərsən, (haqq yola dəvət edib) onlarla yaxşı rəftar da edə bilərsən!" (Kəhf surəsi, 86)**

Ayəti-kərimənin qəribə və sirli bir izahatı olduğu üçün mütləq dərin bir mənası, mühüm bir işarəsi vardır.

**Gedə-gedə günəşin batdığı yerə çatdıqda**

Bilindiyi kimi hər nə qədər gedirsə gedilsin, günəş (qütb dairələri xaric) dünyanın hər tərəfindən hər gün doğular və batar. **Lakin ayədə, xüsusilə, günəşin batdığı müəyyən bir yer və müəyyən bir zamandan bəhs edilir.**

**Günəşi isti**

Bu günəş isti bir mühitdə gözdən itir

**Və qara palçıqlı**

Günəşin itdiyi yer bataqlıq və murdar bir yerdir

**Bir çeşmədə batan gördü**

Günəş kiçik bir yerdə batır, gizlənir.

Ayənin son qismində isə günəşin batdığı bataqlıq yer, zülm edən zalımların olduğu bir qövmün varlığına işarə edir. Bu günəşin batması ilə zalımların əlaqəsi nədir görəsən?

Günəşin gözlərdən itməsi hadisəsindən dərhal sonra haqsız yerə insanlara çətinlik və ağrı-acı, zülm verən din əleyhdarlarının davranışlarında olan zalımlıqdan bəhs edilməsi böyük məna kəsb edir.

Bir sonrakı ayə bu xüsusiyyətə daha da aydınlıq gətirir.

**O, belə cavab verdi: "Zülm (küfr) edənə əzab verəcəyik. Sonra o, Rəbbinin hüzuruna qaytarılacaq. (Rəbbi də) ona (cəhənnəmdə) görünməmiş bir əzab verəcəkdir! (Kəhf surəsi, 87)**

88-ci ayədə də möminlərə müjdə verilir.

**İman gətirib yaxşı iş görənləri isə ən gözəl mükafat (Cənnət) gözləyir. Biz ona asan bir şey əmr edəcəyik!". (Kəhf surəsi, 88)**

**Sonra o, başqa bir yola tərəf üz tutub getdi. (Kəhf surəsi, 89)**

Təfsirlərdə hz. Zülqərneyn (ə.s)-ın bu səfər şərqə tərəf yola çıxması izah edilir (Allahu aləm). Hz. Mehdi də əvvəl qərbə sonra şərqə tərəf yola çıxacaq.

***Mehdi şərq ilə qərb arasındakı hər yeri fəth edər.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar,57)*

**Nəhayət, günəşin doğduğu yerə çatdıqda onu elə bir qövm üzərində doğan gördü ki, onlar üçün (günəşə) qarşı heç bir örtük yaratmamışdıq. (Kəhf surəsi, 90)**

**Bax belə! Biz onun başına gələnlərin hamısından xəbərdarıq. (Kəhf surəsi, 91)**

Zülqərneynin bir mənası da "iki cəhətli" deməkdir. Hz. Zülqərneynin əvvəl günəşin gizləndiyi bir tərəfə, sonra günəşin doğduğu bir tərəfə qovuşması çox əhəmiyyət kəsb edir, bəzi şifrələrə, sirlərə işarə edir. (Allahu aləm) Bəlkə də bu sirlərin hz. Mehdi ilə də bir əlaqəsi ola bilər.

Hz. Zülqərneyn (ə.s) bu səfər şimala tərəf üz tutdu.

**Sonra başqa bir tərəfə yola düşdü. (Kəhf surəsi, 92)**

**Nəhayət, (Yəcuc-Məcüc tayfaları yaşayan ərazidəki) iki dağ arasına gəlib çatdıqda, onların ön tərəfindən az qala söz anlamayan (yaxud danışıqları çox çətin başa düşülən) bir tayfa gördü. (Kəhf surəsi, 93)**

İndiki vaxtda İslam və xristian dünyası dağ kimi böyük və güclü bir quruluş ifadə edir. Lakin bu iki böyük kütlə aralarının pozulduğuna görə dinsizliyə və kommunizmə qarşı bir ittifaqa girmirlər. Bu aralıqdan istifadə edən baş güclər isə dünyanı ələ keçirməyə çalışır və fitnə-fəsad çıxardırlar.

Hz. Həmdi Yazar "Quran Dili 5/3287"-də təfsirçilərin bu qövm üçün "türklərdir" dediyini nəql etmişdir.

**Onlar (tərcüməçi vasitəsilə) dedilər: "Ey Zülqərneyn! Yəcuc-Məcuc (tayfaları) bu ərazidə fitnə-fasad törədirlər. Bizimlə onlar arasında bir sədd çəkmək üçün sənə müəyyən məbləğ (yaxud xərac) versək olarmı?" (Kəhf surəsi, 94)**

Hz. Mehdi və Isa (ə.s)-ın görüşdüyü bir dövrdə, yəni hz. Mehdi (ə.s) İslam aləminin başında olduğu və hz. Isa (ə.s) əmri altındakılarla güc birliyi qurduğu bir zamanda qiyamət əlaməti olaraq zikr edilən Yəcüc və Məcüc çıxacaqdır.

**O (Zülqərneyn) dedi: "Rəbbimin mənə verdiyi (qüdrət və sərvət sizin mənə verəcəyiniz məbləğdən) daha xeyirlidir. Gəlin öz qüvvənizlə (bənna, fəhlə, dülgər və s.) mənə kömək edin, mən də sizinlə onlar arasında möhkəm bir sədd çəkim ! (Kəhf surəsi, 95)**

**Mənə dəmir parçaları gətirin!" (Onlar gətirdilər). O (Zülqərneyn) iki dağın arasını (dəmir parçaları ilə doldurub) bərabərləşdirən kimi: "(Körükləri) üfürün!" - dedi. (Onlar körükləri üfürdülər). (Zülqərneyn dəmiri) od halına gətirdikdə: "Mənə ərimiş mis gətirin, onun üstünə tökün!" dedi. (Dəmir və mis bir-birinə qarışdı, ərimiş mis divarın dəliklərini doldurdu və beləliklə, möhkəm bir sədd əmələ gəldi). (Kəhf surəsi, 96)**

**(Yəcuc-Məcuc tayfaları) artıq nə (səddi) aşa bildilər, nə də onu dəlib keçə bildilər. (Kəhf surəsi, 97)**

Hz. Zülqərneyn (ə.s) iki dağ kimi maneə və iki fəsadçı qövm ilə qarşılaşır. Bu iki dağın arası açıq olur. Bu iki dağın arasının açıq olması Yəcüc və Məcücun fitnə və fəsad çıxartmalarına yol açırdı və fürsət yaradırdı.

Hz. Zülqərneyn (ə.s) qarşılaşdığı bu qövmdən maddi, texnoloji kömək alır. Bu kömək sayəsində iki dağın arasını birləşdirir.

Hz. Zülqərneyn (ə.s) bu fəsadçı qövmə qarşı müdafiə etmə şəbəkəsi istehsalında böyük miqdarda dəmir və mis cövhərindən faydalanır.

Hz. Zülqərneyn (ə.s)-a bənzədilən hz. Mehdi (ə.s) dövründə də İnşaAllah arası açıq iki böyük kütlə İslam və xristian dünyası birləşəcək, ateizm və onun nümayəndələrinə qarşı ortaq bir ittifaq və müdafiə etmə sənayesi quracaqlar, dəmir və mis ilə işarələnilmiş texnoloji sistemlər də onlara qarşı bir şəbəkəvari vəzifəsini yerinə yetirəcək. (Allahu aləm)

# HZ. SÜLEYMAN VƏ MEHDİ

Hz. Süleyman (ə.s) və hz. Mehdi arasındakı rəvayətlərdə bildirilən ortaq xüsusiyyətlər bunlardır:

Ədalətli olmaları:

***Hz. Süleyman (ə.s) çox ədalətli bir hökmdardır.*** *(Esbab-i Nüzul - ö.N. Bilmen Tefsiri - Ibni Kesir Tefsiri)*

***Mehdi əvvəllər zülmlə olan dünyanı ədalətlə dolduracaq.*** *(Kitab ul Burhan Fi Alamet-il Mehdiyy il Ahir Zaman, 11)*

Dövrlərində bolluq və rifah olması:

*Hz. Süleyman dövründə bolluq olduğu bildirilir.*

***Ümmətim o dövrdə (Mehdi dövründə) elə bir rifah (bolluq) görəcək ki, o günə kimi hələ onun mislini belə görməmişdir.*** *(Sünen-i Ibni Mace 10/347)*

Çıxışlarından əvvəl fitnələrin baş verməsi:

***Hz. Süleyman (ə.s) səltənətindən əvvəl çox böyük bir fitnə olmuşdu.*** *(Esbab-i Nüzul - ö.N. Bilmen Tefsiri - Ibni Kesir Tefsiri.)*

***Mehdi bütün haramların halal sayıldığı böyük bir fitnədən sonra çıxacaq.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar,37)*

Qalma müddətləri:

***Hz. Süleyman (ə.s) 40 il maddi-mənəvi səltənət sürmüşdür (hökmdar olmuşdur).*** *(Esbab-i Nüzul - ö.N. Bilmen Tefsiri - Ibni Kesir Tefsiri )*

Hz. ***Mehdi də 40 il baqi qalacaq.*** *(Esbab-i Nüzul - ö.N. Bilmen Tefsiri - Ibni Kesir Tefsiri, 50)*

Müqəddəs əmanətlər haqqında:

***Hz. Süleyman (ə.s)-ın yanında dövrünün müqəddəs əmanətləri (Tövratı-şərif, Musanın əsası) var idi.*** *(Esbab-i Nüzul - ö.N. Bilmen Tefsiri - Ibni Kesir Tefsiri)*

***(Mehdinin) əlamətlərinə gəldikdə yanında Allah Rəsulunun köynəyi, qılıncı, bayrağı (müqəddəs əmanətlər) olacaq.*** *(Kiyamet Alametleri, 164)*

Memarlıq işlərinə önəm verməmləri:

***Hz. Süleyman (ə.s) dövründə abadlıq işlərinə böyük əhəmiyyət verilmişdi. Əmri altında bir çox memar və sənətkar işlədirdi.*** *(Esbab-i Nüzul - ö.N. Bilmen Tefsiri - Ibni Kesir Tefsiri)*

***Mehdi Konstantinopol və digər diyarların abadlığına dair işlər görəcək.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar,42)*

# RİSALƏ-İ NUR KÜLLİYYATINDA MEHDİ
# HƏR ƏSRİN ƏVVƏLLİNDƏ MÜCƏDDİD GÖNDƏRİLMƏSİ

**Mücəddid**: Yeniləyən, yeniləyici. Səhih hədislərlə bildirilən, hər əsrin əvvəllində dini həqiqətləri dövrün ehtiyaclarına görə açıqlayan böyük alim və Peyğəmbərimiz (s.ə.v)-in varisi olan şəxs.

***Əshabı-Kütubi Sittədən İmamı Hakim, "Müstədrək"ində və Əbu Davud "Kitabi-Sünən"ində Bəyhaki, "Suabı Iman"-da rəvayət etdilər: "Hər yüz ildə Cənab Haqq bir din mücəddidi göndərir". Hədisi-şərifinə məzhər (bir şeyin zühur etdiyi yer) və masadak (təsdiq edilən, qəbul edilən) və müzhiri tam olan Mövlana əssəhir kutbül-arifin (övliya), qavsül-vasilin (həqiqətə çatanların başçısı) varisi Məhəmmədi, kamilüt-təriqətül-aliyyə (tam olaraq Allaha qovuşmaq üçün yol tutan) vəl mücəddidiyyə Xalidi Zülcenaheyn Kuddisə sirruhu (dünyaya və axirətə aid sirrləri bilən)... və il. ...*** *(Barla Lahikası , 119)*

Hər əsrin əvvəlində bir mücəddid (dini canlandıran, yeniləyən) göndəriləcəyini Rəsulullah (s.ə.v) hədisləriylə müjdələmişdir. Küfrün, fahişəliyin, azğınlığın və dəlalətin həddi aşdığı, hicri 1400-cü ildə (1979-1980), yəni XIV əsrin əvvəlində hədisin xəbər verdiyi kimi bir mücəddidin göndərilməsi lazımdır. Bu da hədislərin və alimlərin izahlarına görə, İslam aləminin 1400-cü ildə gözlədiyi Mehdidir.

***Əbu Hüreyrənin rəvayətinə görə, Rəsulullah (s.ə.v) belə buyurmuşdur: "Həqiqətən, Əziz və Cəlil olan Allah hər əsrin əvvəlində bu ümmətin dinini bidətdən (xurafatlardan) təmizləyən, ayıran, yeniləyən (elm sahibi) bir şəxsi göndərər".*** *(Sünen-i Ebu Davud, 5/100)*

***Hər əsrin əvvəlində bu ümmətin üləması (alimləri) arasından bir mücəddid çıxacaq və şəriəti canlandıracaq. Xüsusilə, aradan min il keçdikdən sonra. Buna görə, aradan min ilin keçdiyi vaxt keçən ümmətlərdə ulül-əzm (Allahın əmrlərinə olduqca tabe olan) bir peyğəmbərin gəldiyi vaxtdır.*** *(Mektubat-i Rabbani, 1/520)*

## Bədiüzzaman Səid Nursi hicri XIII əsrin mücəddididir

Şamlı Hafiz Tefik Əfəndi bir risaləsində Mövlana Xalid Bağdadi ilə Bədiüzzaman Səid Nursi həzrətlərinin həyatlarını müqayisə etdiyini və 4 əsas uyğunluqla qarşılaşdığını belə bildirir:

**Birincisi:** Həzrəti Mövlana 1193-cü ildə dünyaya gəlmişdir. Ustadım isə Ərəbi 1293-cü ildə. Tam Mövlana Xalidin yüz ili bitdikdən sonra dünyaya gəlmişdir.

**İkincisi:** Həzrəti Mövlananın təcdidi-din (dini xurafatlardan təmizləmə) mübarizəsinə və müqəddiməsinə (bir hadisənin başlanğıcı), Hindistanın paytaxtında

1224-cü ildə başlamışdır. Ustadım isə yüz il sonra 1324-cü ildə mənəvi təbliğinə və mübarizəsinə Osmanlı Səltənətinin paytaxtında başlamışdır.

**Üçüncüsü:** Siyasət əhli həzrəti Mövlananın fövqəladə şöhrətindən (təvəhhüm edərək) düşərək Şam diyarına 1238-ci ildə nəqli məkan etdirilmişdir (köçürülmüşdür). Ustadım isə eynilə yüz il sonra 1338-ci ildə Ankaraya gedib, onlarla uyğunlaşa bilməyib, onları rədd edərək, küsərək, təkrar Vana qayıdıb, bir dağda inziva edərkən (dünya işlərindən əlaqəsini kəsərək) 1338-ci ilin ardınca, Şeyx Səid hadisəsi ilə qarşılaşaraq hadisə ilə əlaqədar əhli-siyasətin vəhminə toxunmuşdur. Ondan qorxaraq, Burdur və Sparta vilayətlərində 9 il yaşamağa məcbur etdirilmişdir.

**Dördüncüsü:** Həzrəti Mövlana Xalid iyirmi yaşına çatmamışdan əvvəl əllaməsi (çox bilikli) zaman hökmündə (Allahın hökmü ilə), fuhulu üləmadan üstün görünmüş (alimlərin ən üstünü olan), dərs oxutmuşdur. Ustadım isə həyatının tarixçəsini görənlərə və bilənlərə də məlumdur ki, on dörd yaşında icazə alıb, aləmi üləması zamanla muarazaya girişmiş (yəni on dörd yaşında ikən, icazet (diplom) almağa yaxın tələbələri tədris etmişdir).

<u>Nəticə etibarı ilə:</u> ***Başdakı hədisi-şərifin "hər yüz ilin əvvəllində dini yeniləyən bir mücəddidi göndərir" müjdəsi ilə yanaşı həzrəti Mövlana Xalid -əksər həqiqət əhlinin təsdiqi ilə -1200-cü ilin, yəni on ikinci əsrin mücəddididir. Tam yüz il sonra eynilə bu 4 xüsusiyyətə uyğun olaraq Risalə-i Nur əczaları (qisimləri) eyni vəzifəni yerinə yetirmişdir. Belə qənaətə gəlinir ki, nassı (açıq) hədislə - Risalə-i Nur təcdidi (yenilənən) din barəsində bir mücəddid hökmündədir.*** *(Barla Lahikası 119-121)*

Yuxarıdakı izahlarda Mövlana Xalidin XII əsrin, Bədiüzzaman Səid Nursinin isə XIII əsrin mücəddidi olduğu aydın olur. Mehdinin isə XIV əsrin mücəddidi olaraq hicri 1400-cü ilin əvvəllərində çıxması gözlənilir.

Bədiüzzaman həzrətləri həm özündən sonra gələcək mücəddid olması, həm də ümmətin 1400 ildir ki, şövq və həyəcan qaynağı olduğuna görə, hz. Mehdidən çox açıq şəkildə, dəqiqliklə bəhs etmişdir.

## Mehdi hicri XIV əsrdə gələcəkdir

***Axırzamanda həyatın geniş dairəsində əsl sahibləri, yəni Mehdi və şagirdləri, Cənab Haqqın icazəsiylə gələr, o dairəni genişləndirər və o toxumlar sünbüllənər. Bizlər də qəbrimizdə seyr edib Allaha şükür edərik.*** *(Sikke-i Tasdik-i Gaybi, 138-Kastamonu Lahikası, 72)*

***Qədim dövrlərdə bir əhli-vəlayətdən (vəlilik mərtəbəsinə yüksələn şəxsdən) eşitdim ki, o şəxs, keçmiş vəlilərin qeybi işarələrindən istihrac etmiş (aydınlıq gətirmiş) və belə qənaətə gəlmişdir ki, "Şərq tərəfdən bir nur zühur edəcək, bidətlər (xurafatlar) zülmətini dağıdacaq." Mən belə bir nurun zühurunun çox intizarında olmuşam və olacam. Lakin çiçəklər baharda gələr. Belə müqəddəs çiçəklərə zəmin***

***hazırlamaq lazım olur və anladıq ki, bu xidmətimizlə o nurani şəxslərə zəmin hazırlayırıq.*** *(Sikke-i Tasdik-i Gaybi- 189 Mektubat, 345)*

***O, sonra gələcək olan heyrətamiz şəxsin bir xidmətçisi və ona yer hazır edəcək bir dümdarı (ordunun arxasındakı qüvvət) və o böyük komandirin pisar (xidmətçisi) olduğunu zənn edirəm.*** *(Barla Lahikası, 162)*

Bədiüzzaman həzrətləri yuxarıda izah etdiyi işlərlə Mehdiyə uyğun mühit hazırladığını və Mehdi gələndə özünün vəfat etmiş olacağını, Mehdinin xidmətlərini öz qəbrindən seyr edəcəyini ifadə etmişdir.

Risaləi-Nur külliyyatında Mehdinin mübarizə və hakimiyyət dövrələri ilə əlaqədar verilən əbcədlər (hesablamalar):

**Onlar Allahın nurunu (dəlillərini, İslam dinini, Quran) ağızları (batil sözləri) ilə söndürmək istəyirlər. Allah isə kafirlərin xoşuna gəlməsə də, ancaq öz nurunu (dinini) tamamlamaq istəyər. (Tövbə surəsi, 32)**

Ayədəki .... **"Allah öz nurunu tamamlamaq istəyər"** cümləsi haqqında Bədiüzzaman həzrətləri belə demişdir:

***İndi xatirladım ki, əgər şəddəli "lam"lar və "mim"lər iki sayla bundan bir əsr sonra zülməti dağıdacaq şəxslər isə həzrəti Mehdinin şagirdləri ola bilər.*** *(Sualar / 605)*

Bu ayənin əbcəd hesabı hicri -1424, miladi- 2004-cü ili verir, bu da Mehdi öndərliyində İslamın dünya hakimiyyəti dövrlərinə işarə edir.

**...Kafirlərin dostu isə Tağutdur... (Bəqərə surəsi, 257)** ayəsindəki **"tağut"** (küfrün fikir sistemi) sözünün öz daxilində çökmə və dağılma tarixini də Bədiüzzaman əbcəd hesabı olaraq hicri 1417-ci (miladi 1995) ili vermişdir.

***Bu zamanda elə fövqəladə cərəyanlar var ki, hər şeyi öz hesabına götürdüyü üçün, fərz olan, həqiqi gözlənilən və bir əsr sonra gələcək o şəxs, bu zamanda gəlsəydi, hərəkatını o cərəyanlara görə dəyişdirəcəkdi deyə təxmin edirəm. (Kastamonu Lahikası, 57)***

Bədiüzzaman Səid Nursi "həqiqi gözlənilən və bir əsr sonra gələcək o şəxs" deyərək, Mehdinin hələ gəlmədiyini, müsəlmanlar tərəfindən gözlənildiyini və öz yaşadığı dövrdən bir əsr sonra gələcəyini bildirmişdir. Bədiüzzaman həzrətləri hicri XIII əsrdə yaşamışdır. Özündən sonra gələcək əsr hicri XIV əsrdir. Bu əsr Mehdinin çıxış dövrüdür.

***"Məhz bu həqiqəti bilməyən insafsızlar deyərlər ki, "axirətin təfsilatını dərs alan müteyakkiz (gözüaçıq), ürəkli, iti nəzərli səhabələrin fikirləri nə üçün min il həqiqətdən uzaq düşmüşdür və gələcəkdə min dörd yüz il sonra gələcək bir həqiqəti öz əsrlərində qəribə saymışlar?".*** *(Sözlər, 318)*

**"1400 il sonra gələcək bir həqiqəti"**

Burada nə 1373, nə 1378, nə də 1398 deyilməmişdir, dəqiq olaraq 1400 deyilmişdir. Yəni hicri XIV əsr, hicri 1400-cü il ümmətin başsız qaldığı, fahişəliyin azğınlığın, küfrün yüksək dərəcəyə çatdığı, müsəlmanların maddi və mənəvi böyük itkilərə uğradığı bir əsrin başlanğıcıdır. Necə ki, hər əsrin əvəlində bir mücəddid (dini yeniləyən, dini bidətlərdən (xurafatlardan) təmizləyən, azğınlıqların qarşısını alan) göndərilmiş, bu ümmətin fəsadlı dövründə də bunu dağıdacaq, küfrü məhv edəcək, müsəlmanların birləşməsinə səbəb olacaq bir mücəddidin gəlməsi lazımdır. Bu da müsəlmanların 1400 ildir gözlədiyi hz. Mehdidir.

**Bədiüzzaman həzrətlərinin Şam xütbəsi**

Bədiüzzaman həzrətləri (hicri) 1327-ci ildə Şamda Əməvi məscidində 10 min nəfərlik bir camaata verdiyi xütbəsində, 1371-ci ildən sonrakı İslam aləminin gələcəyinə istiqamətli izahlar etmiş, Axırzamanla əlaqədar müxtəlif tarixlər verərək, gözlənilən Mehdinin mübarizə zamanlarına və sonunda onları məğlub edəcəyi tarixə diqqət çəkmişdir.

***1371-ci ilindən sonrakı İslam aləminin müqəddəratına (taleyinə) nəzər salan xütbeyi-Samiyədəki həqiqətlər...Bəli, indi olmasa da otuz-qırx il sonra fənn və həqiqi bacarıq, mədəniyyətin mehasını o üç qüvvəti tam təchiz edib (tamamlayıb), cihazatını (alətlərini) verib o doqquz maneələri məğlub edib dağıtmaq üçün taharrii-həqiqət meyelanını (həqiqətləri araşdırmaq niyyəti), məhəbbəti-insaniyəni o 9 düşmən sinfinin (tayfasının) cəbhəsinə göndərmiş, İnşaAllah yarım əsr (əlli il) sonra onları darmadağın edəcək.*** *(Hutbe-i Samiye, 25)*

***Bəli indi (1371-ci ildə) olmasa da otuz -qırx (30-40) il sonra...***

***1.Fənn: Müsbət elmlər, biologiya, fizika, kimya və s.***

***2.Həqiqi bacarıq: hünər, sənət, elm və fənlərlə öyrənilən məlumatlar.***

***3.Mədəniyətin mehasını: mədəniyyətin yaxşılıqlarını o üç qüvvətlə təchiz edib, lazımlı ehtiyacını qarşılayıb o doqquz maneəni dəf edib, dağıtmaq üçün,***

***4. Taharrii həqiqət meyelani: Həqiqəti araşdırma meyli***

***5.İnsaf***

***6. Muhabbəti insaniyeyi: İnsan sevgisini.***

***O doqquz düşmən sinfinin (tayfası) cəbhəsinə göndərmiş inşAllah yarım əsr sonra (50 il) onları darmadağın edər.***

1371 + 30 = 1401 (miladi 1981)

1371 + 40 = 1411 (miladi 1991)

1371 + 50 = 1421 (miladi 2001)

Bədiüzzaman həzrətləri hicri 1400-cü ilin əvvəllərində böyük Mehdi (ə.s.)-ın inkarçılarla qarşı mübarizə dövrünə 1401-1411 = 1981 -1991 illəri arası - fənn, hünər, sənət və mədəniyyətin yaxşılıqlarını birləşdirib bunları məğlub ediləcəyi, darmadağın edəcəyi tarixə 1421=2001-ci illərə diqqət çəkir.

***Yetmiş birdə, fəcri sadiq (aydınlıq, şəfəq) başladı və ya başlayacaq. Əgər bu, fəcri qazıb (yalançı şəfəq, birinci şəfəq) olsa, otuz-qırx il sonra fəcri sadiq (şəfəq, yəni qurtarıcı) çıxacaq.*** *(Xütbəi Samiyə, 23)*

**Şəfəq**: Dan yerinin ağarması, günəş doğulmadan əvvəlki qırmızılıq, səhər vaxtı

**Fəcri-Qazıb**: Səhərə qarşı şərq üfüqündə yayılmağa başlayan birinci qırmızılıq.

**Fəcri-Sadiq**: Fəcri Qazıbdan sonra yayılmağa başlayan ikinci işıqlanma,

1371 + 30 = 1401 = 1981

1371 + 40 = 1411 = 1991

Bədiüzzaman İslamın dünyaya təkrar hakim olmasını günəşin doğuşuna oxşadır. Bu bənzətməklə günəşin batdıqdan sonra, sabahı gün yenidən doğulması kimi, İslamın da dünyaya təkrar doğulub parlayacağına işarə edir. Fəcri-qazıb və fəcri-sadiq ifadələriylə bu doğuşun başlanğıc illərinə diqqət çəkilmişdir. Buna görə zülmün, qaranlığın dağılmağa başlaması 1981-1991-ci illəri, tamamilə susdurulub dağılması isə 2001-ci ildə tamamlanacaq.

Diqqət və heyrətə gətirən nöqtə budur ki, 3 fikrə əsaslanaraq min beş yüz (1500) tarixini göstərmələri ilə yanaşı, eyni zamanda, məqbul və hikmətli bir surətdə min beş yüz altıdan (1506) da qırx ikiyə, qırx beşə (1542, 1545) qədər 3 inqilabın müxtəlif dövrlərinə uyğun gəlir.

***Fatihədə doğru yolda olanlar əshabının taifei-kübrasını (böyük tayfanı) təsvir edən fikrası (üslubu), sözsüz min beş yüz altı (1506) və ya yeddi (1507)-yə işarə edərək bütünlüklə mövzunun mövqeyinə bir-biri ilə uyğunluğuna şübhə yaratsa, üç fərqli nöqtədən tam uyğun gələrək və mənaca müvafiq olan bu hədisin işarəsini dəstəkləyərək (qüvvətləndirərək) işarə edir.*** *(Kastamonu Lahikası, 23)*

Suyuti həzrətləri ümmətin ömrünün hicri 1500-cü ili keçməyəcəyini bildirir. Bədiüzzaman həzrətləri də, ümmətin qalib surətində mübarizəsinin 1500-1506-cı illərdə bitəcəyini, bundan sonra zəifləmələr başlayıb, qiyamətin gözləniləcəyini ifadə edir. Ümmətin qalib olaraq ömrü 1500-1506 illərində bitəcəksə, o zaman 1400-1500-cü illər arasında Mehdi və İsa (ə.s)-ın gəlməsi, həm də hz. Mehdinin də 1400-cü ilin əvvəllərində vəzifəyə başlaması lazımdır. Çünki 1500-cü ilə bundan başqa bir əsr qalmamışdır.

Mehdi liderliyində İslamiyyət dünyaya hakim olacaq

*Cavab: Cənab Haqq, kamalından, rəhmətindən, İslam şəriətinin ədəbiyyatına bir əsəri qoruyaraq, hər bir fəsadı ümmət zamanında bir muslih (islah edən, düzəldən), bir mücəddid (dini yeniləyən, əvvəlki hala gətirən), bir xəlifə, bir qütbü-əzəm (ən böyük öndər), bir mürşidi-əkməl (ən mükəmməl birisini) və yaxud bir cür Mehdi hökmündə mübarək şəxsləri göndərmiş. Fəsadı aradan qaldırıb, milləti islah etmiş, Dini-Əhmədiyə (s.ə.v) mühafizə etmiş. Necə ki, adət elə cərəyan edir ki, Axırzamanın ən böyük fəsadı (qarışıqlıq) zamanında, əlbəttə, ən böyük bir müctəhid (ayə və hədislərdən hökm çıxarda bilən, düzgün təsfir edən), həm ən böyük bir mücəddid (dini xurafatlardan təmizləyən), həm hakim, həm Mehdi, həm mürşid, həm qütbü-əzəm (öndər, başçı) olaraq bir nurani şəxsi göndərəcək və o şəxs də, Əhli-Beyti nəbəvidən olacaq.*

*Cənab Haqq, bir dəqiqə ərzində beyn-əssəmə vəl-ərz (yerlə göy arasını) aləmini buludlarla doldurub boşaltdığı kimi, bir saniyədə dənizin fırtınalarını yatızdırar və bahar içində bir saatda yay mövsümünün nümunəsini və yayda da, bir saatda, qış fırtınasını icad edən Qədri-Zülcəlaldır (Güclü olan uca Allahdır). Mehdi ilə də aləmi İslamın zülmətini dağıda bilər və bunu vəd etmişdir, vədini də əlbəttə ki, yerinə yetirəcək. Allahın qüdrətiylə baxılsa, çox asandır. Əgər Rəbbimizin hikmətiylə düsünülsə, yenə o qədər məqbul və yerinə layiqdir ki, əgər müxbiri-Sadiqdən rəvayət olmasa da, hər halda elə olmaq lazımdır və olacaqdır deyə əhli-təfəkkür hökm edər.* (Mektubat, 411-412)

**Axırzamanın ən böyük fəsadı**: Qarışıqlıq, zülm.

**Ən böyük bir müctəhid**: Ehtiyac hasil olanda ayə və hədislərdən hökm çıxaran böyük İslam alimi və öndər.

**Həm ən böyük bir mücəddid**: Dini həqiqətləri dövrün ehtiyaclarına görə izah etmək üçün göndərilən böyük alim və Peyğəmbərimiz (s.ə.v)-in varisi olan şəxs.

**Həm Hakim**: Haqlı və haqsızı ayırıb ədalətlə hökm edən, dövləti idarə edən.

**Həm Mehdi**: Hidayətə vəsilə olan.

**Həm Mürşid**: Doğru yolu göstərən, qəflətdən oyandıran.

**Həm Qütbü-Əzəm olan**: Bir çox müsəlmanın bağlandığı, dövrün ən böyük yol göstəricisi bir nurani şəxs göndərəcək.

**O şəxs Əhli-Beyti nəbəvidən**: Peyğəmbərimiz (s.ə.v)-in soyundan olacaq.

Bədiüzzaman həzrətləri, Axırzamanın ən böyük qarışıqlıq dövründə hz. Peyğəmbərimiz (s.ə.v)-in soyundan bu qarışıqlığı dağıda bilən yeganə bir şəxsin, bir nurani şəxsin vəsiləsi ilə İslam aləmindəki zülməti (qaranlığı) dağıdacağını bildirir və

bunun qışdan sonra baharın gəlməsi kimi adətullaha uyğun olduğunu, buna da Allahın gücü çatdığını ifadə edir.

Rəvayətlərdə Axırzamanın əlamətlərindən olan və ali-beyti nəbəvidən həzrəti Mehdi haqqında müxtəlif xəbərlər var. Hətta bir qisim elm əhli və əhli vəlayət onun çıxacağını bildirmişlər.

Bu müxtəlif rəvayətlərin bir şərhi də belədir:

Böyük Mehdinin çox vəzifələri var və siyasət aləmində, diyanət (din) aləmində, səltənət aləmində, cihad aləmindəki çox dairələrdə işləri olduğu kimi, hər bir əsr məyusiyət (ümidsizlik) vaxtında, mənəvi qüvvəsini sağlamlaşdıracaq bir yeni Mehdiyə və yaxud Mehdinin onların imdadına o vaxtda gəlmək ehtimalına möhtac olduğundan İlahinin rəhməti ilə hər dövrdə bəlkə hər əsrdə yeni Mehdi ali-beytdən çıxmış, cəddinin (ulu babasının-Məhəmməd s.ə.v-in) şəriətini mühafizə və sünnəsini canlandırmışdır. Məsələn: Nəqşibənd və aktabı ərbaa (yüksək dərəcəyə çatmış dörd alim, əhli sünnət alimləri ) və 12 imam kimi böyük Mehdinin bir qisim vəzifələrini icra edən şəxslər də daxil olmaqla, Mehdi haqqında olan rəvayətlərin Məhəmməd əleyhissalatu vəssələmdən olduğuna görə mənasına nəzərən rəvayətlər arasında uyğunsuzluq var və bir qisim əhli həqiqət belə demişdir: "Əvvələr çıxmışdır. Hər nə isə...

***Bəli, yüzlərlə müqəddəs qəhrəmanlar yetişdirən və minlərlə mənəvi başçıları ümmətin başına keçirən və həqiqəti Quranın mayasıyla, imanın nuruyla, İslamiyyətin şərəfiylə bəslənən, təkəmmül edən (kamala çatmış), ali-beyt, əlbəttə, Axırzamanda şəriəti-Məhəmmədiyəni və həqiqəti-Furqaniyəni və sünnəti-Əhmədiyəni (s.ə.v) əhya ilə, elan və icra ilə, başçıları olan "Böyük Mehdi" nin kamalı ədalətini, haqq və ədalətini dünyaya göstərmələri çox məqbul olmaqla birlikdə, çox lazım, zəruri və ictimai həyatı insaniyətdəki düsturların lazımlısıdır..."*** *(Suyalar, 456 )*

**Şəriəti-Məhəmmədiyyə**: Peyğəmbər (s.ə.v)-in şəriəti, xəlifəlik

**Şəriət**: Qurani-Kərimin göstərdiyi və bildirdiyi yol

**Həqiqəti-Furqaniyə**: Qurani Kərimin əsası və mahiyyəti

**Əhya**: Yenidən canlandırma

**Elan**: Hər kəsə eşitdirmə

**İcra**: Tətbiq etmə

Bədiüzzaman həzrətləri hər əsrdə müsəlmanların ümidsizliyə qapıldıqları vaxtda, mənəvi güclərini dəstəkləmək, şövqlərini, mübarizədə güclərini artırmaq üçün bir yeni Mehdi mənasında (mücəddid) göndərildiyini və bu şəxslərin Axırzamanda gəlməsi gözlənilən böyük Mehdinin vəzifələrindən yalnız bir qismini yerinə yetirdiklərini ifadə edir.

Axırzamanda gözlənilən böyük Mehdi (ə.s)-ın da çıxdığı zaman Peyğəmbərimiz (s.ə.v)-in şəriətini xəlifə olaraq tətbiq edəcəyini, Qurani-Kərimin imanın əsası olduğunu və mahiyyətini izah edib ümmətin imanını gücləndirəcəyini, Peyğəmbərimiz (s.ə.v)-in sünnəsini canlandıracağını, bunları açıq-aşkar bütün dünyaya göstərəcəyini və hər kəsə eşitdirəcəyini bildirir.

Peyğəmbərimiz (s.ə.v)-in hədislərində işarə edilən əlamətlərin böyük əksəriyyətinin reallaşdığını, bir çox alimin və Bədiüzzamanın izahlarında da ifadə edildiyini göstərir, inşAllah, hicri XIV əsrdə, yəni hal-hazırda yaşadığımız əsrdə hz. Mehdi (ə.s)-ın başçılığı ilə İslam dünyaya hakim olacaq və bütün dünya bunu təsdiq edəcək. (Allahu aləm)

**Mehdinin üç böyük vəzifəsi :**

***...Çox vaxt məktublarımda işarə etdiyim kimi, Mehdi Ali-Rəsulun təmsil etdiyi qüdsi camaatının şəxsi-mənəvi olan üç vəzifəsi var.*** *Əgər qiyamət tez qopmazsa və bəşər tamamilə yoldan çıxmazsa, o vəzifələri onun cəmiyyəti və seyidlər camaatının edəcəyini, rəhməti-ilahiyyədən (Allahın rəhmətindən) gözləyirik.* ***Və onun üç böyük vəzifəsi olacaq:***

***Birincisi : Fənn və fəlsəfənin əsiriylə və madiyun (materializmin) və tabiyyun taunu (darvinizm, təbiətçilik inancının ), bəşər içinə intisar etməsiylə (yayılmasıyla), hər şeydən əvvəl fəlsəfəni və materializm fikrini tamamilə susduracaq bir tərzdə imanı xilas edəcək.***

*Əhli-imanı (imanlıları) dəlalətdən mühafizə etmək və bu vəzifə həm dünya, həm hər şeyi buraxmaqla, çox zaman tədqiqatla (araşdırmalarla) məşğuliyyəti iktiza etdiyindən (lazım bildiyinə görə), hz. Mehdinin o vəzifəsini şəxsən özü yerinə yetirməyə vaxtı çatmaz və halı buna icazə verməz. Çünki Məhəmmədiyə (s.ə.v) xəlifəliyi cəhətindəki səltənətə görə, onunla məşğul olmağa vaxtı qalmır.*

***Hər halda o vəzifəni ondan əvvəl bir tayfa yerinə yetirəcək. O şəxs, o tayfanın uzun təsdiq etdiyi və yazdıqları əsəri özünə hazır proqram edəcək, onun ilə o birinci vəzifəni tam yerinə yetirmiş olacaq. Bu vəzifənin istinad etdiyi güc və mənəvi ordusu tək ixlas, sədaqət və qarşılıqlı sifətlərinə tam sahib olan bir qisim şagirdlərdir. Nə qədər az da olsalar, mənəvi cəhətdən bir ordu qədər qüvvətli və qiymətli sayılarlar.*** *(Emirdağ Lahikası, 259)*

**Bədiüzzaman həzrətləri, Mehdinin 3 vəzifəsi olacağını bildirir.**

..Fənn və fəlsəfənin təsiriylə və madiyyun (materializm) və tabiyyun (darvinizmin, təbiətçilik inancının) bəşər içində intisar etməsiylə (yayılmasıyla) hər şeydən əvvəl fəlsəfəni və maddiyun fikrini (materialist düşüncəsini) tam susduracaq.

Bədiüzzaman burada Mehdinin birinci və ən mühüm olan vəzifəsinin fəlsəfəni və materializm fikrini, yəni Allahı inkar etmək üçün qurulmuş materialist fəlsəfəni bütünlüklə susdurmaq olduğunu bildirir.

***.... Mehdinin o vəzifəsini şəxsən özü yerinə yetirməyə vaxtı olmayacaq və halı da buna icazə verməz. Hər halda o vəzifəni ondan əvvəl bir tayfa (qrup) bir cəhətdə (bir istiqamətdə) yerinə yetirəcək. O şəxs (Mehdi), o qrupun uzun araşdırmaları ilə yazdıqları əsərləri özünə hazır bir proqram edəcək. Onun ilə o birinci vəzifəsini tam yerinə yetirmiş olacaq.***

Bədiüzzaman həzrətləri burada Mehdinin ən əsas vəzifəsi olan fəlsəfəni və materializm fikrini, yəni materialist fəlsəfəni susdurduğu üçün, vaxtının olmayacağına görə, tələbələrinin geniş araşdırmalar nəticəsində hazırladıqları əsərləri özünə proqram olaraq seçəcəyini, onlardan faydalanacağını bildirir.

Bu vəzifənin istinad etdiyi güc və mənəvi ordusu, tək ixlas, sədaqət və təsanüd (qarşılıqlı yardımlaşma) sifətlərinə tam sahib olan bir qisim şagirdləridir (tələbələridir). Nə qədər az olsalar da, mənəvi cəhətdən bir ordu qədər qüvvətli və qiymətli sayılarlar.

Bədiüzzaman həzrətləri hz. Mehdi (ə.s)-a birinci vəzifəsinin yerinə yetirilməsində kömək edən tələbələrinin ixlas, sədaqət və təsanüd sifətlərinə (qarşılıqlı yardımlaşma) tam sahib olduqlarını, saylarının çox az olmasına baxmayaraq, etdiyi işlərə görə bir ordu qədər qüvvətli və qiymətli olduqlarını bildirir.

***İkinci vəzifəsi: Xilafəti-Məhəmmədiyə (s.ə.v) (peyğəmbərimizin yerinə xəlifə) ünvanı ilə seairi-İslamiyəni (İslamın adətlərini) canlandırmaqdır. İslam aləminin vəhdətini (BİRLİK) nöqtəsini istinad edib (əsaslanıb) bəşəriyyəti maddi və mənəvi təhlükələrdən və qadabi İlahidən (Allahın qəzəbindən) qurtarmaqdır. Bu vəzifənin, istinad nöqtəsi və xidməti üçün milyonlarla fərdi ordular lazımdır.*** *(Emirdag Lahikası, 259)*

***Hz. Mehdi (ə.s)-ın ikinci vəzifəsi isə xilafəti-Məhəmmədiyyə (peyğəmbərimizin yerinə xəlifə) ünvanı ilə seairi-İslamiyəni (İslamın adətlərini) yenidən canlandırmaqdır.*** *(Emirdağ Lahikası, 259)*

**Hz. Mehdi (ə.s) bu anda müxtəlif qruplar halında dağınıq olan müsəlmanları birləşdirib, xəlifə olaraq başlarına keçəcək, İslamın əmrlərini, adətlərini, peyğəmbərimizin sünnələrini canlandıracaq, bidətləri (dinimizdə olmayan adətləri) aradan qaldıracaq.**

***Üçüncü vəzifəsi: İnqilab zamanıyla çox (inqilabın uzun müddətli olduğuna görə) ehkamı Quraniyənin (Qurani-Kərimin qəti əmirlərini) zədələnməsi ilə və şəriəti-Məhəmmədiyənin (s.ə.v) qanunları bir dərəcə boşluğa uğradığına görə (müəyyən müddət dayanmasıyla, yerinə yetirilməməsiylə) O şəxs, bütün əhli-imanın mənəvi köməkləriylə, İslam Birliyinin muavinətiylə (köməyi ilə), bütün alimlərin, övliyaların və xüsusilə Ali-Beytin nəslindən hər əsrdə qüvvətli və milyonlarla fədakar***

***seyidlərin iltihaklarıyla (qatılmalarıyla, iştirakıyla) o vəzifəni yerinə yetirməyə çalışacaq.** (Emirdağ Lahikası, 260)*

Hz. Mehdi (ə.s)-ın üçüncü vəzifəsinin dövrün dəyişib və küfrün hakim olmasıyla zədələnilən bir çox Qurani-Kərim ehkamını (əmirlərini, hökmlərini) və müəyyən bir müddət təxirə salınan Peyğəmbərimiz (s.ə.v)-in şəriətini bütün müsəlmanların və Peyğəmbərimizin soyundan gələn seyidlər camaatının köməyi ilə yenidən canlandırmaq və tətbiq etmək olduğu bildirilir.

***Birincisi: Axırdakı iki vəzifə, hərçənd, həqiqət nöqtəsində birinci vəzifə dərəcəsində deyildirlər, lakin xəlifeyi-Məhəmmədiyə (s.ə.v) və İslam Birliyi ordularıyla zəmin üzərində səltənəti, islamiyyəti davam etdirmək üçün hər kəs, xüsusilə, avam da, əhli-siyasət də, xüsusilə, bu əsrin fikirlərində o birinci vəzifədən min dəfə böyük görünür. Bu ad bir adama verildiyi vaxt bu iki vəzifə yada düşür. Siyasət mənasını hiss etdirər, bəlkə də özündən razılıq mənasını xatırladar, bəlkə bir şan, şərəf mövqepərəstlik və şöhrətpərəstlik arzularını göstərər və keçmişdən bəri çox safdil (axmaq) və mövqepərəst şəxslər "Mehdi olacağam" deyə iddia edərlər. Hərçənd hər əsrdə hidayətedici bir yeni Mehdi və mücəddid gəlir və gəlmiş, lakin hər biri üç vəzifədən yalnız birini bir cəhətdə yerinə yetirməsi etibarilə Axırzamanın Böyük Mehdi ünvanını almamışlar. (Emirdağ Lahikası, 260)***

Bədiüzzaman həzrətləri keçmiş əsrlərdə gələn mücəddidlərin yuxarıda sayılan 3 vəzifədən (iman, həyat-şəriət) yalnız birini, bir cəhətdə yerinə yetirdiklərini və bu səbəblə Axırzamanın böyük Mehdisi ünvanını ala bilmədiklərini bildirir. Lakin Axırzamanda gələcək böyük Mehdi (ə.s) bu 3 vəzifənin hamısını qüsursuz olaraq yerinə yetirəcəyinə görə bu ünvanı alacağı bildirilir. Nəticə olaraq Axırzamanda gələcək Mehdi (ə.s) insanların imanının xilas olmasına vəsilə olacaq, materialist fəlsəfəni təmamilə məhv edəcək, xəlifə olaraq başa keçib, İslamın əmrlərini tətbiq edəcək, Quranın hökmlərini və peyğəmbərimizin şəriətini elan edəcək.

***Ümmətin gözlədiyi Axırzamanda gələcək şəxsin üç vəzifəsindən ən mühümü, ən böyüyü və ən qiymətli olanı imanı təhqiqini (araşdırmaqla) əhli-imanı dəlalətdən qurtarmaqdır.***

***O şəxsin ikinci vəzifəsi şəriəti icra və tətbiq etməkdir. Birinci vəzifə maddi cəhətdən deyil, bəlkə, güclü etiqad, ixlas və sədaqətli olduğu halda bu ikinci vəzifə üçün çox böyük maddi bir qüvvət, bir hakimiyyət lazımdır ki, o ikinci vəzifə tətbiq edilsin.***

***O şəxsin üçüncü vəzifəsi, Xəlifeyi-İslamiyəti (İslam xəlifəliyini, hakimiyyətini) İslam Birliyinə bina edərək, İsəvi ruhaniləriylə ittifaq qurub İslam dininə xidmət etməkdir. Bu vəzifə çox böyük bir səltənət və qüvvət və milyonlarla fədakarların köməyi ilə tətbiq edilə bilər. Birinci vəzifə, o iki vəzifədən 3-4 dərəcə daha çox qiymətlidir, lakin o ikinci, üçüncü vəzifələr çox parlaq və çox geniş bir dairədə və***

***parlaq bir tərzdə olduğuna görə, ümumi olaraq, hər kəsin və avamın nəzərində belə daha əhəmiyyətli görünər.*** *(Sikke-i Tasdik-i Gaybi, 9)*

Bədiüzzaman həzrətləri burada da Axırzamanda gələcək Mehdi (ə.s)-ın üç böyük vəzifəsinin olacağını bildirir. Bunlardan ən əhəmiyyətlisinin imana aid bütün məsələləri ixlasla, sədaqətlə yaymaq, əhli imanı dəlalətdən, İslamdan çıxmalardan, uzaqlaşmalardan qurtarmaq, ikinci vəzifəsinin şəriəti tətbiq etmək, üçüncü vəzifəsinin də xəlifə olaraq bütün İslami gücləri birləşdirib, bütün dünyanı fəsaddan, küfrdən, təmizləmək olduğunu bildirir.

***Lakin ən əhəmiyyətli, ən müqəddəs, ən böyük vəzifəsi həqiqi imanı mühafizə nöqtəsində təcdid (yeniləmə, əvvəlki hala gətirmək) etməkdir. Şəriət ictimai həyat və siyasi dairələri ona nisbətən ikinci, üçüncü, dördüncü dərəcədə qalır. Hədisdəki rəvayətdə, dinin təcdidinin (dini yeniləmə) çox əhəmiyyətli olması isə, iman həqiqətlərinin təcdid etibarıyladır. Lakin, əfkarı-ammədə (ümumi düşüncələr), həyatpərəst insanların nəzərində zahirən geniş və hakimiyyət nöqtəsində cazibədar olan həyatı, ictimai İslami və dinin siyasi cəhətləri daha çox əhəmiyyətli göründüyü üçün, o nöqteyi-nəzərdən baxılar, məna verilər.***

***Həm bu üç xüsusiyyətin hamısının bir şəxsdə, yaxud camaatda bu dövrdə olması, mükəmməl olması və bir-birinə zərər verməməsi çox uzaq, sanki məqbul görünmür. Axırzamanda ali-beyt nəbəvinin (s.ə.v) camaatı nuraniliyi təmsil edən həzrəti Mehdi və camaatındakı şəxsi-mənəvidə ictimai (bir yerdə, cəmiyyətdə) edə bilər.***

*(Kastamonu Lahikası, 139) (Sikke-i Tasdik-i Gaybi, 156)*

Bədiüzzaman həzrətləri öz yaşadığı dövrdə bütün bu vəzifənin icrasının bir şəxsdə və ya bir camaatda olmasının qeyri-mümkün olduğunu, bunların hamısını ancaq Axırzamanda gələcək Mehdi və onun camaatının edəcəyini bildirir.

***Bu zamanda elə fövqəladə cərəyanlar var ki, hər şeyi öz hesabına götürdüyü üçün, fərz olan, həqiqi gözlənilən və bir əsr sonra gələcək o şəxs, bu zamanda gəlsəydi, hərəkatını o cərəyanlara görə dəyişdirəcəkdi deyə təxmin edirəm. Həm də üç məsələ var: Biri həyat, biri şəriət, biri imandır. Həqiqət nöqtəsində ən mühüm və ən maksimum dərəcədə əsas olan iman məsələsidir. Lakin indi ümumi insanların nəzərində və halı aləm ilcaatında (məcbur edən) ən mühüm məsələ həyat və şəriət göründüyünə görə, o şəxs indi olsa da, 3 məsələni birdən ümumi rüyi-zəmində (dünyada) vəziyyətlərini dəyişdirməyin bəşərdəki cari olan adətullaha müvafiq olmadığından iman xidməti, safvetini (təmizliyini, paklığını) insanların ümumi nəzərində pozmasın deyə və avamın tez aldandığına görə, ağıllarında o xidmət başqa məqsədlərə alət olmadığı təsdiqlənənə kimi hər halda ən əsas məsələni vacib***

***edib, digər dərəcəli məsələləri əsas görməyəcək.*** *(Kastamonu Lahikası, 57 Sikke-i Tasdik-i Gaybı, 43)*

<u>"Fərz edək ki, həqiqi gözlənilən o şəxs" bu zamanda gəlsə...</u>

Bədiüzzaman həzrətləri burada Mehdinin hələ gəlmədiyini ifadə edərək, öz yaşadığı dövrdə müsəlmanların imani məsələlərinin hələ həll edilmədiyini, Mehdinin gəlməsi üçün mühitin uyğun olmadığını və gözlənilən şəxsin o zaman da gəlsə, imani məsələlərin həll edilməsi üçün çalışacağını, özünün bu məsələlər üzərində işləyərək Mehdiyə mühit hazırladığını ifadə edir.

Bədiüzzaman Səid Nursi Həzrətlərinin daha əvvəlki izahlarında da ifadə etdiyi kimi hz. Mehdi (ə.s) əvvəl ən əzmli (qəti olan) və ən böyük məsələ olan iman mövzusunu həll edib, xüsusilə, aydın təbəqənin imanının xilas olmasına vəsilə olacaq. Birinci məsələ həll olduqdan sonra digər iki vəzifəsini də yerinə yetirib, bu üç əhəmiyyətli vəzifəni bitirəcək.

## İsa (ə.s)-ın enməsinə dair hədislər təvatür dərəcəsindədir

**Təvatür**: Etibarlı, qüvvətli xəbər, içində yalan ehtimalı olmayan və bir camaata istinad edən, qüvvətli xəbər deməkdir. *(Büyük Lugat-Tur-Dav, 3003)*

***Şövqani də İsa (ə.s)-ın enəcəyinə dair hədislərin sayının 29-a çatdığını deyərək bunları bir-bir nəql etmiş və sonda: "Bizim nəql etdiyimiz hədislər göründüyü kimi təvatür həddinə çatdı. Bu bəyanımızla bu nəticəyə gəlinir ki, gözlənilən Mehdi haqqındakı hədislər, Dəccal haqqındakı hədislər və İsa (ə.s)-ın enməsinə dair hədislər mütəvatirdir" - demişdir.*** *(Sünen-i Ibn-i Mace, 10/338)*

***Qiyamətin böyük əlamətlərindən biri olan Axırzamanda hz. İsa (ə.s)-ın göydən yerə enəcəyini bildirən hədislər təvatür dərəcəsindədir.*** *(Sahih-i Müslim, 2/58)*

***Allah Rəsulu (s.ə.v)-dən mütəvatir olaraq rəvayət edilən hədislərə əsasən Allahın Rəsulu (s.ə.v) hz. İsa (ə.s)-ın Qiyamət günündən əvvəl ədalətli bir imam və hakim olaraq enəcəyini xəbər vermişdir.*** *(Ibn-i Kesir, Hadislerle Kur'an Tefsiri, 13/7163)*

Mütəvatir: ***Təvatür yoluyla nəql edilən xalq arasında söylənərək ağızdan-ağıza dolaşan xəbər.***

# İSA (Ə.S)-IN GƏLƏCƏYİNİ BİLDİRƏN SƏHİH HƏDİSLƏR

*Əbu Hüreyrənin dediyinə görə Rəsulullah (s.ə.v) belə buyurmuşdu:*

*Həyatım əlində olan Allaha and içirəm ki, Məryəm oğlu (İsa əleyhissəlam)-ın ədalətli bir hakim olaraq sizin içinizə (aranıza) enməsi, şübhəsiz, yaxındır. O, salibi (xaçı) qıracaq, donuzu öldürəcək, cizyəni (vergini) aradan qaldıracaq, mal o qədər çoxalıb daşacaq ki, heç kim mal qəbul etməcək.* (Sahih-i Müslim, 6/532)

*Əbu Hüreyrə (r.ə)-dən edilən rəvayətə görə Rəsulullah (s.ə.v) belə buyurdu:*

*Mənliyimə hakim olan zata and içirəm ki, Məryəmin oğulunun ədalətli bir hakim olaraq sizin aranıza enməsi çox yaxındır. O xaçı qıracaq, donuzu öldürəcək, cizyəni (vergini) aradan qaldıracaq, mal o qədər çoxalacaq ki, kimsə onu qəbul etməyəcək.* (Sünen-i Tirmizi, 4/93)

*Əbu Hüreyrədən rəvayət edildiyinə görə, Peyğəmbər (s.ə.v) belə buyurdu :*

*İsa ibn Məryəm ədalətli bir hakim və ədalətli bir imam (dövlət başçısı) olaraq (göydən yerə) enmədikcə qiyamət qopmayacaq. O (endiyində) xaçı qıracaq, donuzu öldürəcək, cizyəni (vergini) aradan qaldıracaq. Mal da o qədər çoxalacaq ki, heç kim mal qəbul etməyəcək.* (Sünen-i Ibni Mace, 10/340)

*Rəsulullah (s.ə.v) buyurdu :*

*İsa ibn Məryəm (ə.s) mənim ümmətim içində:*

*1- ədalətli bir hakim və (rəhbərlikdə) ədalətli bir imam olacaq.*

*2- xaçı sındıracaq və donuzu öldürəcək.*

*3- zimmilərdən (yəni qeyri-müsəlmanlardan) cizyəni (vergini) aradan qaldıracaq*

*4-Zəkatı tərk edəcək. Artıq nə qoyun, keçi, mal sürüsü, nə də dəvə sürüsü üzərində zəkat məmuru qoyulmayacaq.*

*5-Qab su ilə dolduğu kimi yer üzü sülhlə dolacaq.*

*6- Din birliyi də olacaq, artıq Allahdan başqasına ibadət olunmayacaq.* (Sünen-i Ibni Mace, 10/334)

*1- Hz. İsa (ə.s) ədalətli bir idarəçi olacaq.*

*2- Hədisdə hz. İsa (ə.s)-ın xaçı qırıb, donuzu öldürəcəyi ifadə edilmişdir. "Şərhüs-Sünnə"də və başqa hədis kitablarında hz. İsa (ə.s)-ın təhrif olmuş, yəni*

*əslindən uzaqlaşan xristianlığı ləğv edərək səri-şərifimizlə (İslamiyyətlə) hökm edəcəyi ifadə edilmişdir. Hz. İsa (ə.s) təkrar gəldiyi vaxt təslis inancı (xristianların Allahı 3 olaraq qəbul etmələri), xaça tapınma, ruhaniyyət... kimi xristianlığın da əsasında olmayan xurafatları ləğv edəcək, bu dini endirildiyi ilk halına döndərəcək.*

*İsa (ə.s)-ın donuzu öldürməsinə dair hədisin mənası da belədir: O, donuz bəsləməyi və yeməyi qadağan edəcək və öldürülməsini əmr edəcəkdir. Artıq yer üzündə donuz buraxmayacaq və beləcə donuzun yeyilməsinin qarşısını tamamilə alacaq.*

*3- İsa (ə.s)-ın cizyəni, yəni əhli-kitabdan alınan vergini ləğv etməsinə dair hədis də belə şərh olunmuşdur: Yəni İsa (ə.s), əhli-kitabdan olan insanları müsəlmanlığı qəbul etməyə vadar (məcbur) edəcək və beləcə cizyə (vergi) vermələrini qəbul etməyəcək.*

*Digər bir şərhi də belədir: Cizyə (vergi) heç bir qeyri-müsəlmandan alınmayacaq. Bu səbəblə cizyə almağa da ehtiyac qalmayacaq. Çünki cizyə müsəlmanların ehtiyaclarında istifadə edilmək üçün alınar. Ehtiyac qalmayınca cizyə almağa da ehtiyac olmaz.*

*4- İsa (ə.s)-ın zəkatı tərk etməsi də, malın bolluğu və zəkata ehtiyacı olan kasıbın qalmamasına görədir. Bu hökm də cizyə ilə əlaqədar hökm kimidir. Yəni, İsa (ə.s) İslam dininin qoymuş olduğu zəkat hökmünü ləğv etməyəcək. Belə bir məna heç düşünülə bilməz. Məqsəd budur: Uca dinimiz zəkat müəssisəsini o dövrə qədər tətbiq etmək və o dövrdə ehtiyac olnmadığından tətbiq etməməyi buyurmuşdur. İsa (ə.s) da İslamın qoyulmuş hökmlərini tətbiq edəcək.*

*5- İsa (ə.s) dövründə yəhudilərin başına keçən Məsih Dəccal öldürülüb, fikir sistemi məhv ediləcək və dünyadakı yəhudi hakimiyyəti bütünlüklə sona çatacaq. Masonluq və s. kimi nifaq mərkəzləri tamamilə məhv ediləcək, bütün dünya hüzur, əmin-amanlıq içində yaşayacaq.*

*6- Bir hədisi-şəriflərində Rəsulu Əkrəm (s.ə.v) belə buyurmuşdur:*

*Şübhəsiz, o, yer üzünə enəcək... İnsanları İslama dəvət edəcək. Onun zamanında Allah Təala İslam xaricində bütün dinləri ortadan qaldıracaq.* (Tezkiret-il Kurtubi, 499)

Yuxarıdakı hədislərdə hz. İsa (ə.s)-ın yer üzünə endirilmə əlaməti olaraq bildirilən vəziyyətlərin heç birisi reallaşmamışdır. Xristianlıq pozulmuş, təhrif edilmiş (dəyişdirilmiş) şəkli mühafizə edilir, təslisə (üçləmə, xristianların Allahı 3 olaraq qəbul etmələrinə) inanılır, donuz əti yeyilir. Dünya qarışıqlıqlar içindədir, hüzur, əmin-amanlıq, etibarlılıq, sülh mühiti yoxdur, döyüşlər, vətəndaş müharibələri davam edir. Bolluğun əksinə yoxsulluq hakimdir. Bu vəziyyətdə İsa (ə.s)-ın gəlmədiyi aydın olur. Yaxın zamanda, yəni hicri XIV əsrdə dünyaya təkrar gələcəkdir.

# İSA (Ə.S) VƏ MƏSİH DƏCCAL

***Məsihi Dəccal: Haqqı batil, batili haqq göstərən, səhih hədislərdəki xəbərlərə görə, Axırzamanda gələcək və Allah (c.c)-ni inkar edib, özünün ilah olduğunu iddia edəcək, dünyanı fəsada verəcək (yəni qarışıqlıq salacaq), yəhudilər arasından çıxan tək gözlü kor şəxs olacaq.*** *(Büyük LUGAT TÜR-DAV)*

***Hər biri Allahın rəsulu olduğunu iddia edən otuza yaxın yalançı dəccal göndərilmədikcə qiyamət qopmayacaq.*** *(Sünen-i Tirmizi, 4/82)*

**Hz. İsa (ə.s) çıxmamışdan əvvəl bir çox saxta Məsih (dəccal) çıxacaq:**

Hz. İsa (ə.s) ilk dəfə göyə alındığı halıyla yer üzünə buraxılacağına görə, öz dövründə anası, atası olan, doğulub böyüyən 33 yaşına çatmış bir insanın hz. İsa (ə.s) olması mümkün deyil. Amma ondan əvvəl çıxan saxta Məsihlərin (dəccalların) o dövrdə ana və ataları olacaq. Doğulub, böyüyüb müəyyən bir yaşa gəldikdən sonra havalanıb özlərinin hz. İsa (ə.s) olduğunu iddia edəcəklər. Lakin diqqətli, fərasətli, mədəni, ağıllı insanlar bu yalanların fərqinə varıb onlara aldanmayacaqlar. Bu vəziyyət yəhudilərin dünyaya hakim olması üçün materialist-marksist strategiyanı tamamilə tərk etmələrinə qədər davam edəcəkdir.

Yəhudilik bu səfər dünyaya hakim olmaq üçün yenidən strategiyalarını dəyişdirəcəklər, dünyada materializmə qalib gəlmiş "yaradılış" inancını öz mənfəətlərinə uyğun şəkildə istifadə etmək istəyəcəklər. Bu zaman ən şərli və ən qabiliyyətli olan adamı bir sözlə Məsih Dəccalı idarəetmə vəzifəsinə seçəcəklər.

***"Dəccal yəhudidir!"*** *(Sahih-i Müslim, 11/365)*

Məsih Dəccal hipnoz, manqnetizm və sehrdən bəzi üsulları istifadə edərək bir çox dərəcələrlə yüksəlişi (*) möcüzələr göstərəcək, özünün gözlənilən Məsih (yəni İsa) olduğunu iddia edəcək. (Məsih İsa peyğəmbərin ləqəbidir).

Onların başına keçən ən böyükləri, spirtizm (hipnoz) və maqnetizmin növündən dəhşətli möcüzələrə zühur edən dəccal isə, daha da həddini aşaraq məcburcasına riyakar hökumətini yeni ağalıq təsəvvür edib ilah olduğunu elan edər.

***Yəhudilərin və xristianların böyük bir qismi onun liderliyi altında birləşəcəklər. "Dəccalın tabeliyində ən çox olanlar yəhudilərdir".*** *(Sahih-i Müslim, 11/362)*

Özünə Məsih deyən Məsih Dəccal, hələ də Avropada, Amerikada, İsraildə, Rusiyada və bir çox ölkədə qanuni göstərilən əxlaqsızlığı, cinsi pozğunluğu, homoseksuallığı daha da təşviq edəcək. İçki, donuz əti başda olmaqla, yuxarıda saydığımız pozğunluqları qəbul edən bir çox xristian sevinclə ona qatılacaqlar. Yəhudilər də tam xəyallarındakı kimi əxlaqsız, zalım, sadist biri Məsih olaraq qəbul etmənin sevinci ilə ona möhkəm bağlanacaqlar.

Bir çox saf xristian o dövrdə hz. İsanı gözlədiklərinə görə onu təhrif edilmiş, İncildəki dəyişdirilmiş xüsusiyyətləri ilə gözləyəcəklər. Məsih Dəccal da tam onların xəyal etdikləri kimi möcüzələr göstərəcək. Məsələn: bir şəxsə hipnoz təlqini (bir şeyi anladıb beyninə soxmaqla) ilə ölmüş anasını danışan halda göstərəcək. Həm də, yenə sehr və hipnozla, anasının ona qatılmasını tövsiyə etdiyini ona eşitdirəcək. Görmə və eşitmə hallüsinasiya (hallüsinasiya - bir hiss orqanını uyaran, heç bir əşya, obyekt və ya, uyarıcı olmadan, alınan bir hissin mövcudluğuna inanma halıdır) olacaq. (Kənardan baxan, yəni, sehrin təsirində olmayan bir adam o görüntüləri görməz).

Dəccal bundan əlavə əvvəl gözlənilən İsa olduğunu iddia edəcək, sonra da xristianlığın təslis inancındakı kimi Allahın özünə hulül etdiyini (içinə girdiyini) söyləyərək (haşa) ilahlığını elan edəcək. Xristian və yəhudi inanclarına uyğun pozğun fikirlərini yayaraq dünyada böyük bir tərəfdar kütləsi qazanacaq. Daha çox kefə və zövqə istiqamətli, əxlaqsız olaraq öyrətmələri və tövsiyələri olacağı üçün bu saylar daha da artacaq.

Belə azğınlığın artdığı bir dövrdə İslam aləmi də hz. Mehdi (ə.s)-ın liderliyində birləşəcək. Hz. Mehdi (ə.s) hər nə qədər xristian aləmini saxta Məsihə qarşı xəbərdar etsə də, xristianlar tam gözlədikləri kimi pozğun iddialarda olmalarından, gözlədikləri zamanda zühur etməsindən və yavaş-yavaş bir çox möcüzələr göstərdiyindən bu izahlara fikir verməyəcəklər.

Hz. Mehdi (ə.s)-ın onun göstərdiyi dərəcə-dərəcə yüksəlişə yönələn möcüzələrini pozmağa gücü çatmayacaq. O sayıqlamalardan ibarət olan möcüzələri ancaq hz. İsa (ə.s) pozacaq.

***Sehr, maqnetizm və spirtizm kimi istidracı möcüzələriylə özünü mühafizə edən və hər kəsə təsir edən (təsiri altına alan) o dəhşətli Dəccalı öldürəcək, peşəsini dəyişdirəcək, ancaq möcüzə göstərən, hər kəsə uyğun bir şəxs ola bilər ki, o şəxs ən çox əlaqədar olan və əksər insanların peyğəmbəri olan həzrəti İsa əleyhissalamdır.*** *(Mektubat, 53)*

Buna işarə edən ayələr:

***(Musa) əsasını (yerə) atan kimi, o dərhal açıq-aşkar bir əjdahaya çevrildi.*** **(Şüəra surəsi, 32)**

***Biz də Musaya: "Əsanı at yerə!" - deyə vəhy etdik. Bir də baxıb gördülər ki, əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. (Əraf surəsi, 117)***

Hz. Musa (ə.s) o dövrün dəccallarının isdidraclarını ancaq möcüzə ilə yox etmişdi.

***...Onun (hz. İsa ə.s-ın) nəfəsinin qoxusunu duyan hər hansı kafirin ölməməsi mümkün deyil. Dəccalın yalançı olduğu ətrafa dalğa-dalğa yayılacaq. Dəccaliyyət pərişan olacaq, fikir sistemi məhv ediləcək.*** *(Sünen-i Ibn-i Mace, 10/323)*

Hz. İsa (ə.s) də Məsih Dəccalın istidraclarını, oyunlarını möcüzə ilə pozacaq. Dəccalın yalançı olduğu ətrafa dalğa-dalğa yayılacaq. Dəccaliyyət pərişan olacaq, fikir sistemi məhv ediləcək.

***İsa (ə.s) Dəccala nəhayət Lud qapısının yanında yetişəcək və onu öldürəcək.*** *(Sünen-i Tirmizi, 4/105)*

Hz. İsa (ə.s.) Lud qapısında Məsih Dəccal ilə qarşılaşacaq, onu mübahisə edərək məğlub edəcək. Dəccalı öldürmək dedikdə onun fikir sistemini yox etməsi nəzərdə tutulur. Fiziki cəhətdən öldürəcəyini isə bilmirik. Hz. Musa (ə.s) Fironun fikir sistemini məhv etmişdi. Hz.İbrahim (ə.s) Nəmrudun fikir sistemini yox etmişdi. Hz. Mehdi (ə.s) Süfyanın şəxsini deyil, fikir sistemini yox edəcək. Hz. İsa (ə.s) da Məsih Dəccalın fikir sistemini məhv edəcək. Mühüm olan da məhz fikir sistemidir. Şəxsin ölməsi fikir sistemi məhv edilmədən heç bir əhəmiyyət kəsb etməz.

Dəccalı möcüzə ilə məğlub edən hz. İsa (ə.s.)-ın həqiqi Məsih olduğunu anlayan xristian aləmi böyük bir sürətlə onun düzgün olan yoluna, yəni İslama girəcək. Yəhudilər inadlarına davam edəcəklər, müsəlmanlara qarşı etdikləri bir döyüşdən sonra məğlub olacaqlar. (**Melaheme-i Uzma** xristian dilində Armegedon deməkdir). Bundan sonra bir tək din: İslamiyyət qalacaq. Digər bütün dinlər ortadan qalxacaq. (Allahu aləm)

# İSA (Ə.S) DÖVRÜNDƏ YER ÜZÜ SÜLHLƏ DOLACAQ

***Qab su ilə dolduğu kimi yer üzü də sülhlə dolacaq.***

***-Kimlərinsə arasında bir düşmənçilik qalmayacaq.***

***-Bütün düşmənçiliklər, boğuşmalar, qısqanclıqlar, şübhəsiz, yox olub gedəcək.*** *(Sahih-i Müslim, 1/136)*

***Döyüş (döyüşçülər) də ağırlıqlarını (silah və vəsaitlərini) buraxacaq, tərk edəcək.*** *(Sünen-i Ibn-i Mace, 10/334)*

***Hərb (hərbçilər) ağırlıqlarını (yəni silah və düşmənçiliklərini) tərk edər.*** *(Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, 496)*

Hz. Mehdi (ə.s) və hz. İsa (ə.s) yəhudilərin başına keçən Məsih Dəccalı öldürüb, sistemini dağıtdıqdan sonra dünyaya hakim olacaqlar. O zaman tək bir dinin, yəni İslamiyyətin yer üzünə yayılması ilə irqçilik, milli eqoizm yox olacaq. Sevgi, qardaşlıq, gözəl əxlaq əsas düşüncə halına gələcək. Həm də masonluq, sionizm, materialist fəlsəfə, kommunizm, faşizm, kapitalizm və s. tarixdən silinəcək, eqoistlik, eqoizm, kin, düşmənçilik hər cür azğınlıqlar fəaliyyətini dayandıraraq yox olacaq. Döyüşlərin, qarışıqlıqların səbəbləri yox olacağı üçün, döyüş sənayesinə (silah-sursatlara) xərclənən trilyonlarca pullar bu səfər qanuni ehtiyaclara, qidaya, abadlığa, texnologiyaya, mədəniyyət xərclərinə, sağlamlıq ehtiyaclarına və s. kimi insanların xoşbəxtliyi üçün lazımlı digər sərmayələrə xərclənəcək. (Allahualəm)

# İSA (Ə.S) DÖVRÜNDƏ BÖYÜK BOLLUQ OLACAQ

***...Mal da o qədər çoxalacaq ki, heç kim mal qəbul etməyəcək.*** *(Sünen-i Ibn-i Mace, 10/340)*

***Məryəm oğlu (İsa) enər və Dəccalı öldürər. Ondan sonra qırx il bol nemət içində yaşayarsınız.*** *(Kitab ul Burhan Fi Alamet-il Mehdiyy il Ahir Zaman, 90)*

***İsa (ə.s)-ın zəkatı tərk etməsi də malın bolluğu və zəkata möhtac kasıbın qalmamasından irəli gəlir.*** *(Sünen-i Ibn-i Mace, 10/339)*

Hz. İsa (ə.s) dövründə elmin inkişafı ilə heyvan və bitki mənşəli qidaların istehsalı artırılacaq, elm və texnologiya son mərhələyə çatacaq, dünya qurulandan bu yana texnologiya cəhətdən ən inkişaf etmiş dövr olacaq. İnsanlar texnologiyanın imkanları ilə çox rahat və bolluq içində yaşayacaqlar. **Buna görə, bu dövrə "Qızıl Dövr" adı verilmişdir.** (Allahu aləm)

# İSA (Ə.S) YENİ BİR DİN GƏTİRMƏYƏCƏK

***Əbu Səyhin, Kitabül-Fitəndə Əbu Hüreyrədən etdiyi rəvayətə əsasən, Rəsulullah belə buyurmuşdu: "İsa ibn Məryəm enər, Dəccalı öldürər və qırx (40) il Allahın kitabı və mənim sünnətimlə hökm edər, sonra vəfat edər.*** *(Kitab ul Burhan Fi Alamet-il Mehdiyy il Ahir Zaman, 92)*

***İmam Nəvəvi: "Hz. İsa Məhəmməd ümmətinə peyğəmbər olaraq deyil, şəriəti-Məhəmmədiyyəni tətbiq etmək üçün gələcəkdir" demişdir.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 68)*

***Kadi İyaz: "İsa (ə.s)-ın enməsi, Dəccalı öldürməsi haqdır və həqiqətdir. Əhli-sünnə məzhəbi və yolu bu mövzu ilə əlaqədar varid olan (bizə gəlib çatan) hədislərə görə belədir. Nə ağıl cəhətdən nə də səri-şərifdə bu fikri ləğv edə biləcək heç bir dəlil yoxdur. Beləliklə, bu hökm sabitdir. Mütəzilə və Cəhəmiyə (haqq məzhəbindən ayrılan kəslərin məzhəbi, batil olan məzhəb) məzhəblərinə mənsub bəzi kəslər və onlara qatılanlar bu mövzudakı hədislərin Allahın (Əhzab surəsi, 40 -cı ayədə) "Məhəmməd, ... ancaq o, Allahın Elçisi və peyğəmbərlərin sonuncusudur." tərcüməsindəki ayəyə, Peyğəmbərimizin "Məndən sonra heç bir peyğəmbər yoxdur" tərcüməsindəki hədisinə və Peyğəmbərimiz (s.ə.v)-dən sonra heç bir peyğəmbərin olmadığına və şəriətinin qiyamətə qədər əbədi olub, hökmlərinin qüvvədən düşməyəcəyinə dair müsəlmanların icmasına əks olduğuna görə rədd edildiyini hesab etsələr də, bu iddia və səbəb batildir. Çünki İsa (ə.s) -ın enməsindəki məqsəd onun şəriətimizi ortadan qaldırıcı bir şəriətlə və peyğəmbər olaraq enməsi deyil (yeni peyğəmbərlik gətirmək deyil). Nə bu hədislərdə, nə də başqa hədislərdə belə bir şey yoxdur. Əksinə, İsa (ə.s)-ın şəriətimizlə hökm edəcək ədalətli bir hakim və xalqın tərk etdiyi şəriətimizin hökmlərini canlandırıcı olaraq enəcəyi səhih hədislərlə sabitdir" demişdir.*** *(Sünen-i Ibn-i Mace, 10/338)*

***Hz. İsa (ə.s) enəcək və hatemür-rüsul (peyğəmbərlərin sonuncusu Məhəmməd) Rəsulullah (s.ə.v)-in şəriətinə tabe olacaq.*** *(Mektubat-i Rabbani, 2/1309)*

Hz. İsa (ə.s) Axırzamanda yer üzünə endirildiyi vaxt, peyğəmbərliklə vəzifəli olaraq yeni bir şəriət gətirməyəcək. Səhih hədislərin və imam-Rəbbani həzrətlərinin izahında ifadə edildiyi kimi, Peyğəmbərimiz (s.ə.v)-in şəriətini tətbiq edəcək. Qurani-Kərimin ayələrinə görə hökm verəcək.

# İSA (Ə. S)-IN GÖRÜNÜŞÜ VƏ XÜSUSİYYƏTLƏRİ

*Peyğəmbərimiz (s.ə.v) belə buyurmuşdur:*

*Onu gördüyünüz vaxt bu əlamətlərlə tanıyın:*

*1.Uzuna yaxın orta boylu*

*2.Rəngi qırmızı ilə ağın qarışığı (qırmızının ağa çalan rəngi)*

*3. Əynində herd boyası ilə boyanmış iki paltar vardır.*

*4. O qədər təmizdir ki, sulu olmadığı halda elə bil başından (saçlarından) su süzülür.* (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, 499)

*Əbu Hüreyrə (r.ə)-in rəvayətinə görə Peyğəmbər (s.ə.v) belə buyurdu:" Gecə icrası zamanı vaxt Musa əleyhissalama qovuşdum. (peyğəmbər onu təsvir edərək:) Bir də gördüm ki, O Sənüe qəbiləsinin kişiləri kimi qarayanız, ucaboylu, balıq ətli, düz saçlı bir şəxsdir. İsaya da qovuşdum (Peyğəmbər onu da təsvir edərək:) İsa orta quruluşlu (boylu), sanki hamamdan çıxmış kimi al çöhrəli (üzü qızarmış) idi.* (Sahih-i Müslim, 2/1053)

*Yenə Abdullah ibn Ömər (r.ə)-dən rəvayət olunduğuna görə, Nəbi (s.ə.v) belə demişdir:*

*Mən bu gecə özümü yuxumda Kəbədə gördüm. Qəflətən əsmər bir adam gördüm. Sanki o əsmər insanlardan ən gözəli, başının saçı iki çiyninin arasına sallanırdı. Sanki yeni daranmış və təmizlənmiş saçlarından su damırdı. İki əlini iki adamın iki çiyininə qoyaraq Beyti təvaf (Kəbənin ətrafına fırlanırdı) edirdi. Orada olanlara " bu kimdir?" deyə soruşdum. Onlar: "bu Məryəmin oğlu İsa Məsihdir" dedilər.* (Sahih-i Buhari, 9/177)

# İSA (Ə.S) PEYĞƏMBƏRİMİZİN (S.Ə.V)-İN QƏBRİNİN YANINDA DƏFN EDİLƏCƏK

***İbn Asakir Abdullah ibn Salamdan: "Tövratda Peyğəmbərin sifəti izah edilir və orada İsa əleyhissalamın onunla birlikdə dəfn ediləcəyi yazılır.***

***Buxari Tarixində, İbni Asakirin Abdullah ibn Salamdan nəql etdiklərinə görə, İsa əleyhissalam Rəsulullah ilə iki səhabəsi (Əbu Bəkr və Ömər (r.ə)-nin yanında dəfn ediləcək və qəbirlərin sayı dördə çatacaq.***

***İbn Cevzinin, Abdullah ibn Ömər (r.ə)-dən nəql etdiyi bir rəvayətdə belə buyurulmuşdur:***

***"İsa əleyhissalam yer üzünə enəcək, evlənəcək uşaq sahibi olub qırx beş il yaşayacaq, sonra öləcək, mənimlə ayrı qəbirə basdırılacaq, sonra mən və İsa eyni qəbirdən Əbu Bəkr ilə Ömər (r.ə) arasından qalxacağıq!"*** *(Kıyamet Alametleri, 246/247)*

***Hz. İsa yer üzündə ikən evlənəcək və bir uşağı olacaq. Öləndə müsəlmanlar onun namazını qıldıqdan sonra Ravzai-Mutahharedə (Məhəmməd s.ə.v-in mübarək qəbri) dəfn edəcəklər.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 65)*

***Şübhəsiz ki, Məryəm oğlu İsa yer üzünə endiyi zaman evlənəcək, uşağı olacaq, yer üzündə 45 il qalacaq.*** *(Miskatü-l Mesabih, 3/47)*

***İsa (ə.s) yer üzündə endikdən və 40 il qalıb yaşadıqdan sonra vəfat edər. Müsəlmanlar onun cənazə namazını qılaraq onu torpağa tapşırarlar.*** *(Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, 498-499)*

***Həzrəti İsa (ə.s) yer üzündə qırx il yaşadıqdan sonra vəfat edəcək. Müsəlmanlar onun cənazə namazını qılacaqlar və dəfn edəcəklər.*** *(Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, 498-499)*

Hz. İsa (ə.s) yer üzündə təxminən 40-45 il qaldıqdan sonra vəzifəsini tam yerinə yetirəndən sonra vəfat edəcək. Müsəlmanlar cənazə namazını qılıb, Peyğəmbərimiz (s.ə.v)-in qəbri yanında dəfn edəcəklər.

## İsa (ə.s) dünyaya təkrar göndəriləcək

Süfyan və Mehdi haqqındakı hədislərin ifadə etdikləri məna budur ki, Axırzamandan dinsizliyin iki cərəyanı güclənəcək.

***Biri: Nifaq pərdəsi altında risaləti-Əhmədiyəni (s.ə.v) (yəni Məhəmməd peyğəmbəri) inkar edəcək süfyan əhlindən böyük bir şəxs əhli-nifaqın başına keçəcək, İslam şəriətinin əleyhinə işlər görəcək. Ona qarşı ali-beyti nəbəvinin silsileyi-nuranisinə bağlanan (yəni Məhəmməd (s.ə.v)-in nəslindən), əhli-vəlayət və əhli-kamalın başına keçəcək ali-beytdən Məhəmməd Mehdi adında nurani bir zat (şəxs), o Süfyanın şəxsi-mənəviyyatı olan cərəyanı-münafiqliyi məhv edib dağıdacaq.*** *(Mektubat, 53)*

Hədisi-şəriflərdə İsa (ə.s)-dan əvvəl gələcəyi bildirilən hz. Mehdi, Süfyanın İslam aləmində etdiyi mənəvi təxribatı düzəltməyə çalışacaq, İslamiyyətin yenidən canlandırılmasına və dünya səviyyəsində yayılmasına səy göstərəcək.

Hz. Mehdi (ə.s) Allahı inkar üçün qurulmuş bütün fəlsəfə və nəzəriyyələri tamamilə susduracaq, başda Süfyandan qaynaqlanan bütün fitnə və fəsad mərkəzlərini, təşkilatlarını bağlayacaq. Mehdi xəlifə ünvanıyla İslam aləminin başına keçəcək, Qurani-Kərimi və iman əsaslarını günün şərtlərini də diqqətə alaraq, elmi bir şəkildə insanlara açıqlayacaq, möminlərin imanlarını gücləndirəcək.

**İkinci cərəyan isə**: Tabiyyun, maddiyyun (maddənin əzəli və əbədi olduğuna inananlar, hər şeyin təməlinin maddə olduğunu qəbul edənlər, materialistlər) fəlsəfəsindən qaynaqlanan bir nəmrudanə cərəyanı, getdikcə Axırzamanda maddə fəlsəfəsi vasitəsiylə yaymaqla özündə güc tapıb, üluhiyyəti (Allahı) inkar edəcək dərəcəyə çatar.

Necə bir padşahı tanımayan və ordudakı polisin və onun əsgərləri olduğunu qəbul etməyən vəhşi bir adam hər kəsə, hər əsgərə bir növ padşahlıq və bir günlük hakimiyyət verirsə, eləcə də: "Allahı inkar edən o cərəyan fərdləri bir kiçik Nəmrud hökmündə nəfslərində bir ağalıq verər. **Onların başına keçən ən böyükləri, spirtizm və maqnetizmin hadisə növündən möhtəşəm möcüzələrə sahib olan dəccal isə daha da həddini aşıb, məcburi riyakar hökumətinə bir növ ağalıq təsəvvür edib üluhiyyətini elan edər.** Bir ağcaqanada məğlub olan və bir ağcaqanadın qanadını belə icad edə bilməyən aciz bir insanın üluhiyyət iddia etməsinin nə dərəcədə axmaqlıq və məsxərəlik olduğu məlumdur.

Hz. Mehdi (ə.s)-ın öndərliyində İslam aləminin birləşib fövqəladə nəticələr almasından və yeni bir mədəniyyətin doğulmasına səbəb olan, çox təsirlənən yəhudilik, bu səbəbdən sionizm, bu səfər dünya hakimiyyəti üçün hz. Mehdi (ə.s)-a alternativ olaraq Məsih Dəccal ləqəbli, hipnoz, sehr, maqnetizm kimi, yavaş-yavaş

inkişaf edən möcüzələri olan bir şəxsi çıxaracaq. Bu şəxs əvvəl peyğəmbər, sonra isə (haşa) İlah olduğunu iddia edəcək.

***Məhz belə bir dövrdə, o cərəyanın çox güclü göründüyü bir vaxtda, həzrəti İsa (ə.s)-ın mənəvi şəxsindən ibarət olan həqiqi İsəvilik dini zühur edəcək, yəni, İlahiyyənin rəhmət səmasından zühur edəcək. Hal-hazırdakı xristianlıq dini o həqiqətə qarşı təmizləmə işləri aparacaq, xurafatdan və təhrifatdan (müqəddəs kitablarda dəyişdirilmiş kəlamlardan) sıyrılacaq, İslamiyyətlə birləşəcək, məna cəhətdən xristianlıq bir yeni İslamiyyətə inqilab edəcək (yəni dəyişəcək)... və Qurana iqtida edərək (tabe olaraq), o İsəvilik, şəxsi-mənəvisi tabe olacaq (İslama tabe olacaq) və İslamiyyət, mətbu (öz halında, yəni hər kəsin ona tabe olacağı halda) mövqeyində qalacaq. Haqq dini, bu iltihak (qatılmaq) nəticəsində əzmli bir güc tapacaqdır. Dinsizlik cərəyanına qarşı ayrı-ayrı ikən, məğlub olan İsəvilik, İslam birliyi nəticəsində, dinsizlik cərəyanına qələbə çalıb dağıdarkən, göylər aləmindən zühur edən İsa əleyhissalam o dini haqq cərəyanının başına keçəcəyini bir müxbiri-sadiq (doğru xəbər verən), bir Qədri-Küllü-şeyin vədinə istinad edərək xəbər vermişdir. Xəbər vermişdirsə, deməli haqdır, Qədri-Küll-şey vəd etmişsə, əlbəttə, yerinə yetirəcək.*** *(Mektubat, 53-54)*

Məsih Dəccalın çox güclü olduğu bir dövrdə xristianlıq, dinin daxilində olduğu xurafatlardan, azğınlıqlardan (Allahın üç olaraq qəbul edilməsi, xaç, donuz əti yemək və s.) təmizlənəcək, ilk endirildiyi, orijinal halına dönəcək, bir yeni İslamiyyət kimi olacaq. İlahi dinlər bir-birinin davamı olduğundan biri pozulunca digəri onu düzəltmək və yeni hökmlər qoymaq üçün göndərildiyinə görə, xristianlıq da xurafatlardan, azğın inanclardan xilas olduqdan sonra məna etibarı ilə bir yeni İslamiyyət olacaq. Xristianlar da, Qurani-Kərimə tabe olacaqlar. Müxtəlif yollara ayrılan xristianlıq İslamiyyətin birləşməsi nəticəsində güclənib, dinsizlik cərəyanını məhv edə biləcək bir gücə gəldikləri vaxtda hz. İsa (ə.s) Allah (c.c) tərəfindən cismani olaraq dünyaya göndəriləcək və bu qüvvənin başına keçəcək. Bunu Peyğəmbərimiz (s.ə.v) Allahın vədinə əsasən xəbər vermişdir. Allah (c.c), əlbəttə, vədini yerinə yetirəcək.

Səhih hədislərdə müjdələnilən xüsusiyyətlər bunlardır. Axırzamanda gəlişi gözlənilən hz. İsa (ə.s)- ı yeganə bir şəxs olaraq deyil, “şəxsi-mənəvi və ya camaat” şəklində düşünmək və ya "gəlmişdir, vəzifəsini yerinə yetirib vəfat etmişdir" iddiasında olmaq, artıq təsdiqlənmiş bu mövzunu yalana çıxarmaq, mənəvi məsuliyyət gətirə və müsəlmanlara çox böyük zərər verə bilər. Allah (c.c) bunu vəd etmişdir və vədini, əlbəttə, yerinə yetirəcək. Bədiüzzaman başqa bir əsərində də İsa (ə.s)-ın dünyaya yenidən gəlməsinin qəti olduğunu bildirir.

**Bəli, hədisi-şərifin ifadəsi ilə həzrəti İsanın səmavi enişi (zühur) ilə yanaşı,** mənalı işarəsiylə başqa həqiqətləri ifadə etdiyi kimi bu həqiqətə də möcüzəvi şəkildə işarə edir. *(Kastamonu Lahikası, 50)*

## İsa (ə.s) Məsih Dəccalı öldürəcək:

Qəti (dəqiq) və səhih rəvayətlərə əsasən: "İsa əleyhissalam böyük Dəccalı öldürəcək."

“Vəlilmü indallah” bunun da iki yolu, iki tərzi var:

***Bir yolu belədir: Sehr və maqnetizm və spirtizm kimi istidracı (layiqsiz) möcüzələriylə özünü mühafizə edən və hər kəsi təsiri altına salan, zəbt edən o dəhşətli Dəccalı öldürə biləcək, peşəsini dəyişdirtdirə biləcək insan, ancaq möcüzəli və hamının qəbul etdiyi bir şəxs ola bilər. Bu şəxs də ən çox əlaqəsi olan və əksər insanların peyğəmbəri olan həzrəti İsa əleyhissalamdır.***

***İkinci yolu da budur ki, "hz. İsa (ə.s)-ın qılıncı və maktul olan (öldürülən) şəxsi, Dəccalın, təşkil etdiyi dəhşətli maddiyunluq (maddənin əzəli və əbədi olduğuna inananlar, hər şeyin təməlinin maddə olduğunu qəbul edənlər, materialistlər) və dinsizliyin əzəmətli heykəlini və şəxsi mənəviyyatını məhv edəcək, ancaq İsəvi ruhaniləri hansi ki, İsəvi dininin həqiqətini İslamiyyətin həqiqəti ilə mezcaderek (qarışdıraraq), bu cür qüvvə ilə onu dağıdacaq, mənəvi cəhətdən öldürəcək. Hətta "həzrəti İsa (ə.s) gələr, həzrəti Mehdiyə namazda tabe olar" deyə rəvayəti bu ittifaqa və Quranın həqiqətliyinə və hakimiyyətinə işarə edir***. *(Sualar, 493)*

Sehr və hipnoz kimi adətdən kənar olan qüvvələrlə hər kəsə təsir edərək varlığını davam etdirən dəccal və onun fikir sistemi ancaq vəhylə hərəkət edən lazım olduğunda möcüzələrlə dəstəklənən İsa (ə.s) tərəfindən məhv ediləcək.

Hz. İsa (ə.s) təkrar dünyaya gəldiyi vaxt yeni bir din gətirməyəcək, İslam dininə tabe olacaqdır. Lakin bir peyğəmbər olduğu üçün ona vəhy gələcək və möcüzə göstərəcək.

Hz. İsa (ə.s)-ın başçılığı altında xristianlığın əsli ilə İslamiyyəti birləşdirən tələbələri, bu birləşmənin əmələ gətirdiyi güc ilə Məsihi Dəccalın dinsizlik cərəyanını, Allah (c.c)-ni inkar fikirini təsirsiz hala gətirib, məhv edəcək.

Həm insan aləmində, inkarı üluhiyyət (özün ilah etmək) niyyətiylə mədəniyyət və müqəddəsatı (bəşəriyyətin müqəddəs şeylərini) zirü-zəbər (alt-üst) edən Dəccal komitəsini, hz. İsa (ə.s)-ın dini həqiqətini İslamiyyətin həqiqətiylə birləşdirməyə çalışan xislətli və fədakar bir İsəvi camaatı adı altında və **"Müsəlman İsəvilər" ünvanına layiq bir cəmiyyət, o Dəccal komitəsini həzrəti İsa (ə.s)-ın başçılığı altında öldürəcək və darmadağın edəcək, bəşəriyyəti inkarçı üluhiyyətdən qurtaracaq.** *(Mektubat 413)*

Bədiüzzaman həzrətləri xristianlığı bütün azğınlıqlardan təmizlənmiş tətbiq edən müsəlman isəvilərin, (xristiyanlar) hz. İsa (ə.s)-ın əmri ilə yəhudilərin başına keçən Məsih Dəccalın fikir sistemini bir daha əmələ gələ bilməyəcək dərəcədə məhv edəcəyini və Allah (c.c) -nin dünyanı inkardan qurtaracağını bildirir. Beləliklə,

dünyadakı yəhudi hakimiyyəti tamamilə sona çatacaq, gözəl əxlaq, xoş güzəran, sevgi-hörmət üzərində qurulmuş İslamiyyət dünyaya hakim olacaq.

## İsa (ə.s) gələndə əvvəlcə tanınmaması:

***Həzrəti İsa əleyhissalam gəldiyi vaxt, hər kəs onun həqiqi İsa olduğunu bilməyəcək. Onun yaxınlığı və gözəl keyfiyyətləri imanın nuru ilə hiss edilər, tanınar. Yoxsa bədahətən, yəni birdən-birə hər kəs onu tanımayacaq.*** *(Mektubat, 54)*

Bədiüzzaman həzrətləri, hz. İsa (ə.s)-ın dünyaya gəldiyinin ilk illərində ancaq yaxın tələbələri tərəfindən imanın nuru ilə tanınacaq, hər kəsin açıq-aşkar onu tanıya bilməyəcəyini bildirir.

***Hətta həzrəti İsa (ə.s)-ın enməsi belə və onun İsa əleyhissalam olduğu, yalnız imanın nurunun diqqətiylə bilinər, daha hər kəs bilə bilməz.*** *(Sualar, 487)*

Hz. İsa (ə.s) yer üzünə ilk gəldiyi vaxt (endiyi vaxt) imtahan sirri olaraq özünü tanımayacaq, bir az sonra özünün fərqinə varacaq. Tələbələri də imanın nuru ilə onu zənni-qaliblə (böyük zənlə) sonradan tanıyacaqlar. Hər kəs açıq şəkildə onun hz.İsa (ə.s) olduğunu bilməyəcək. Kiçik bir xristian qrupunun içərisində mübarizəsinə başlayacaq.

İsa (ə.s) tamamilə zühur etdikdən sonra görə bilən hər kəs onu görəcək və həqiqi İsa (ə.s) olduğunu biləcəklər. Lakin yenə də "görəsən həqiqətən İsa budur?" deyə şübhə edənlər olacaq. Belə şübhəsi olanlar küfrlə günahlandırıla bilməz, çünki bu mövzu bir əqidə mövzusu deyil. Yalnız belə şübhədə olanlar bu mübarək şəxsin bolluğundan, bərəkətindən məhrum qala bilər.

### İsa (ə.s)-ın kiçik bir camaatı olacaq:

İsa əleyhissalamı imanının nuru ilə tanıyan və ona tabe olan camaatı (ruhani mücahidlərin sayı), Dəccalın məktəb cəhətdən və əsgər cəhətdən elmi və maddi ordularına nisbətən çox az və kiçik olacağına işarə edir. *(Sualar, 495)*

Hz. İsa (ə.s) kiçik bir camaatın arasında vəzifəyə başlayacaq. Ən çox İsrail və İsrailə yaxın bölgələrdə fəaliyyət göstərəcək. Məktəblərdə və əsgəri vahidlərdə tələbələri olacaq, başlanğıcda özlərini gizləyəcəklər. (Allahu aləm)

***Hakim ət-Tirmizi, "Nevdirül-Üsul"-da Peyğəmbərimiz (s.ə.v)-in belə buyurduğunu nəql etmişdir: Məryəm oğlu İsa ümmətim arasında həvarilərindən bir sıra xalqı tapacaq. Başqa rəvayətdə isə Peyğəmbərimiz (s.ə.v) üç dəfə:" Şübhəsiz ki, Məsih (İsa) əleyhissalam bu ümmətdən bəzi qövmlərə yetişəcək, hansı ki, onlar da sizin kimidirlər. Yaxud, sizdən daha xeyirlidirlər. "İlkində (əvvəldə) mənim, sonunda Məsihin (İsa) olduğu bir ümməti Allah əsla utandırmaz"- deyə buyurmuşdur.*** *(Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametler, 501)*

*Rəsulullah (s.ə.v) belə buyurdu:*

***And içirəm ki, Məryəm oğlu İsa o gün yer üzünün ən xeyirli 800 kişi və 400 qadının yanına enəcək.*** *(Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametler, 498)*

## İsa (ə.s) haqqında bəzi hədislər mütəşabehdir (üstü örtülü şəkildə verilmişdir):

Bədiüzzaman Səid Nursi İsa (ə.s)-ın enməsinə və Dəccalı öldürməsinə aid hədislərin təşbehli (bənzətmələrlə izah edilən) olduğunu, mütləq şərhinin edilməsi, yəni mütəşabihatının həll edilərək açıqlanması lazım olduğunu bildirmişdir. Əks halda, saxta alimlərin bu hədislərin mütəşabihatına fikir vermədən, zahirinə baxıb şübhəyə düşdüyünü və hədisi tamamilə rədd etmək dərəcəsinə gətirib çıxardacaqlarını bildirmişdir.

Axırzamanda həzrəti İsa (ə.s) zühuruna və Dəccalı öldürməsinə aid hədisin həqiqi mənası aydın olmadığından bir qisim zahirinə fikir verən din alimləri o rəvayət və hədislərin zahirinə baxıb şübhəyə düşmüşlər və ya həqiqi mənasını inkar edib, ya xurafatvari bir məna verib sanki muhal (mümkün olmayan, batil) bir surəti gözlənilən bir tərzdə avamı-müsliminə (savadı olmayan müsəlmanlara) zərər verərlər. Mülhidlər (imansızlar) isə bu kimi zahirən ağıldan çox uzaq hədisləri şərri-rüşdə edərək (pisliyə yönəldərək) həqiqi İslamiyyətə tezyifkaranə baxıb (məsxərəyə qoyub) hücum edərlər. Risalə-i Nur belə mütəşabeh hədislərin həqiqi şərhlərini Quranın genişliyi ilə göstərmişdir. Hələlik nümunə olaraq bir misal göstəririk. Beləliklə:

Həzrəti İsa (ə.s.) Dəccal ilə mübarizəsi zamanında həzrəti İsa onu öldürəcəyi vaxtda on arşın yuxarıya qalxıb (tullanıb) sonra qılıncı onun dizinə çatdıra biləcək dərəcəsində, bədəncə Dəccalın quruluşu həzrəti İsa əleyhissalamdan on, bəlkə iyirmi dəfə hündür qamətli olması lazımdır. Bu rəvayətin zahiri ifadəsi sirri-teklifin (insanların dünyaya gəlib, Allah tərəfindən bəzi vəzifələrlə məsul tutulmasının sirri) və sirri-imtahana münafi (zid) olduğu kimi bəşərdə məqbul olan adətullaha müvafiq deyil. *(Kastamonu Lahikası, 49)*

****

Rəvayətdə göstərilir ki, İsa əleyhissalam Dəccalı öldürməsi münasibətiylə "Dəccalın fövqəladə böyük və minarədən də yüksək bir əzəmətli quruluşda və həzrəti İsa əleyhissalam ona nisbətən çox kiçik olduğunu.." göstərir.

Bunun şərhi belə olmalıdır:

***İsa Əleyhissalamı imanın nuru ilə tanıyan və ona tabe olan camaatın kəmiyyəti (gücü, sayı və.s) Dəccalın tədris və hərbi cəhətdən elmi və maddi ordularına nisbətən çox az və kiçik olduğuna işarə edir.*** *(Sualar, 495)*

Bədiüzzaman həzrətləri hədisi-şərifdə İsa əleyhissalamın Dəccal ilə mübarizəsində onu öldürəcəyi vaxtda on arşın (5 metr) yuxarıya tullanaraq sonra qılıncı ancaq onun dizinə çatdıra bildiyi dərəcəsində Dəccalın İsa (ə.s)-a nisbətən boyunun on-on iki qat (18-20 m.) uzun olması lazım olduğunu bildirir. Belə bir yaradılış Allahın qüdrəti daxilində olmaqla yanaşı adətullaha ziddir.

**Adətullah**: Allahın kainatda qoyduğu dəyişməz qanunlar.

Belə bir tərz yalnız Dəccalın əsgər gücünə, təhsil təşkilatlarına və hər sahədə maddi cəhətdən üstün ordularıyla müqayisə edilir, İsa (ə.s) və camaatının say cəhətdən daha az olduğuna işarə etdiyi kimi açıqlansa, məsələ daha ağlabatan olar.

# QURANDAN MEHDİ VƏ AXIRZAMANA AİD İŞARƏLƏR

Tarix boyu bir çox İslam alimi Axırzaman, Mehdi və hz. İsanın yenidən yer üzünə gəlişinə dair mövzuların üzərində dayanmış, bu mövzularla əlaqədar çox dəyərli işlər görmüşdür. Axırzamanda bir-birinin ardınca reallaşan əlamətlər, pisliklərin nümayəndəsi olaraq zikr edilən Dəccalın çıxışı və insanları bu qaranlıq dövrdən qurtaracaq hz. Mehdinin gəlişi, bu işlərin əsas məğzi (mövzusu) olmuşdur.

Mehdinin gəlişi, xüsusiyyətləri və dünyada qaldığı müddət ərzində edəcəkləri peyğəmbərimizin hədislərində çox dəqiq bildirilmişdir. Hədislərdə bildirildiyinə görə, Axırzaman - döyüşlərin, ixtişaşların, cinayətlərin, əxlaqi degenerasiyanın, zülmün, qıtlıq və səfalətin çox böyük bir artacağı dövr olacaq. Dünyanın dörd bir tərəfi fəlakətlərə bürünəcək, əxlaqi və ictimai çöküş qarşısında çarəsiz qalan insanlar düşdükləri vəziyyətdən xilas olmaq üçün Allahdan bir yardım edən, bir qurtarıcı istəyəcəklər.

Qurana baxdıqda tarix boyu bir çox qövmün Axırzamandakı insanlarla eyni vəziyyətə düşdüyünü və **"...Rəbbimiz, bizi xalqı zalım olan bu ölkədən çıxar, bizə qatından bir vəli (qoruyucu sahib) göndər, bizə qatından bir kömək edən göndər..." (Nisa surəsi, 75)** ayəsində də bildirildiyi kimi bir qurtarıcı istədiklərini görərik. Allah köməkçi istəyən bu qövmlərə elçilərini, xəbərdar edən və qorxuducu olaraq göndərmiş, onları hidayət yoluna dəvət etmişdir. Bu qurtarıcı onların yaşadıqları mövcud sistemin bütün mənfi istiqamətlərini düzəltmiş, ədaləti, sülhü və təhlükəsizliyi təmin etmişdir.

Qurandakı hekayələrdən anladığımıza görə, hər qövmün başına gələn hadisələrin əksəriyyətinin oxşar olmasıdır. İnsanların yaşadıqları ictimai çöküş, sonra Allahın xəbərdaredici olaraq elçilərini göndərməsi və elçinin gəlişiylə birlikdə yaşanan ədalətli, dinc həyat... Tarix boyu hər qövmün oxşar prosesləri yaşaması, Allahın bir ilahi qanunudur. Necə ki, Allah ayələrində bu haqda belə xəbər verir.

**(Bu,) Daha əvvəldən gəlib-keçənlər haqqında (tətbiq olunan) Allahın qanunudur (sünnəsidir). Allahın qanununda (sünnəsində) qəti olaraq heç bir dəyişiklik tapa bilməzsiniz. (Əhzab surəsi, 62)**

Allahın qanunlarında heç bir dəyişiklik olmadığı haqqında başqa ayələrdə isə belə xəbər verilir:

**Onlar Allaha çox möhkəm and içdilər ki, özlərinə qorxudan (bir peyğəmbər) gəlsə, hər hansı ümmətdən daha çox doğru yolda olacaqlar. Onlara qorxudan (peyğəmbər) gəldikdə isə bu, onların ancaq nifrətini artırdı. (Bütün bunlar) onların yer üzündə təkəbbür göstərmələrinə və yaramaz hiyləgərliklər törətdiklərinə görə idi. Yaramaz hiylələr isə ancaq öz sahiblərini qaplayar. Onlar əvvəlkilərin başlarına**

**gələn aqibətdən başqasınımı gözləyirlər? Sən Allahın qayda-qanununda heç bir dəyişiklik də tapa bilməzsən! (Fatir surəsi, 42-43)**

**...Onlara xəbərdar edən-qorxuducu gəldiyində, nifrətlərindən başqa heç nəyi artırmadı. (Həm də) Yer üzündə böyüklük göstərərək və pisliyi düzüb-qoşaraq. Halbuki hiyləli tələ, öz sahibindən başqasını bürüyüb-əhatə etməz. Artıq onlar əvvəlkilərin qanunundan (sünnəsindən) başqasınamı əməl edirlər? Sən, Allahın qanununda (sünnəsində) qəti olaraq bir dəyişiklik tapa bilməzsin və sən, Allahın qanununda (sünnəsində) qətiliklə bir çevrilmə də tapa bilməzsən. (Fatır Surəsi, 42-43)**

Axırzamanda da döyüş və iğtişaşlar bütün dünyanı bürüyəcək, əxlaqi çöküş kiçikdən böyüyə kimi bütün insanları öz təsiri altına salacaq, istər zəngin olsun, istərsə də kasıb olsun, hər ölkənin insanları iqtisadi cəhətdən çətinliyə düşəcəklər. Allah Axırzamanda baş verən bu böyük zülm qarşısında çarəsiz qalan insanların xilaskar tələblərinə görə hz. Mehdini göndərərərək cavab verəcək. O, insanları zülmdən qurtaracaq, bütün yer üzünü sülhlə dolduracaq. Mehdi ilə birlikdə kasıblığın yerini zənginlik, qıtlığın yerini bolluq, döyüşlərin yerini sülh, zülmün yerini sevgi və ədalət dolu bir həyat alacaq. İslam əxlaqının bütün batil dinlər üzərində hakim olacağı dövrün adı isə “Qızıl dövr” olaraq tanınır.

Oxuduğunuz bu işin bir məqsədi, Allahın insanlara bir rəhmət, hidayət rəhbəri və yol göstərici olaraq endirdiyi Qurani-Kərimdə Axırzamana və Mehdinin gəlişinə işarə edən ayələr üzərində dərindən düşünməkdir.

Quran - hökmü qiyamətə qədər etibarlı olan, möminlərin həyatının bütün sahələrini əhatə edən, hər hökmün qüsursuz olaraq bildirilən Allahın bənzərsiz kitabıdır. Quranın ən böyük möcüzələrindən biri ilk vəhyin gəlməsindən bu yana, hər əsrdə yaşayan bütün müsəlmanların onda öz dövrlərinə aid bir yol, bir işarə tapa bilmələridir. Quranda Axırzamana aid də işarələr mövcuddur. Xüsusilə, peyğəmbərlərin hekayələrində Axırzamana aid işarəli mənada ayələr var. Bu hekayələr üzərində düşünüləndə günümüzdəki hadisələrə işarə edən çox mühüm olan sirləri tapmaq mümkündür. Allah möminləri hekayələr üzərində düşünməyə təşviq edir:

***Onların (Peyğəmbərlərin) rəvayətlərində ağıl sahibləri üçün bir ibrət vardır. (Bu Quran) uydurulmuş bir kəlam deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi müfəssəl izah edəndir, iman gətirən bir camaat üçün hidayət və mərhəmətdir.. (Yusif surəsi, 111)***

Ayələrdəki işarələr Quranın hər əsrə aid və çox mənalı bir kitab olmasının nəticəsidir. Quran peyğəmbərimizin dövründə yaşanan hadisələrə, müxtəlif proseslərə aid olduğu kimi, Axırzamandakı hadisələrə də aiddir. Ayələrdə peyğəmbərimizin dövründə möminlərin apardıqları mübarizələri, ədalətli tətbiqləri

və həyatları haqqındakı hekayələrdə, eyni zamanda bütün əsrlərə aid öyüdlər də verilmişdir. Hər bir ayə diqqətlə oxuyanlar üçün çox mənalar kəsb etmişdir, ayələrdə insanların ehtiyac duyduqları hər şey açıqlanmışdır. Bir ayədə Quranın bu xüsusiyyəti belə bildirilir:

**"Biz Kitabı sənə, hər şeyin açıqlayıcısı, müsəlmanlara bir hidayət, bir rəhmət və bir müjdə olaraq endirdik". (Nəhl surəsi, 89).** ***Bədiüzzaman Səid Nursinin "Qurani-hakim həqiqi elmləri havi (ehtiva edən, açıqlayan) bir müqəddəs kitabdır və bütün əsrlərdə insanların ümumi təbəqələrinə xitab edən, əzəli bir xütbədir (insanlara verilən öyüddür)".*** (Konfrans, 11) kimi sözlərində də Quranın hər əsrdəki insanlara xitab etdiyinə diqqət çəkilmişdir.

Bu dünyaya baxış cəhətdən araşdırılanda Quranda İslam əxlaqının yer üzünə hakim olacağı bir dövrün varlığına işarə edən bir çox ayələrin olduğu görünür. Allah Tövbə surəsində iman edən qullarını belə müjdələmişdir:

**Onlar ağızları ilə Allahın nurunu söndürmək istəyirlər. Allah isə (buna) yol verməz, kafirlərin xoşuna gəlməsə də, O, Öz nurunu tamamlayar. Müşriklərin xoşuna gəlməsə də, İslamı bütün dinlərdən üstün etmək üçün Öz Elçisini doğru yol göstərən rəhbərlə və haqq din ilə göndərən Odur! (Tövbə surəsi, 32-33)**

Allah ayələrində İslam dinini bütün digər dinlərə üstün edəcəyini də xəbər vermişdir. İnkar edənlərin, insanları İslam əxlaqından uzaqlaşdırmaq üçün göstərəcəkləri hər cür səy və cəhd, Allahınköməyi ilə nəticəsiz qalacaq, Allahın bu vədi reallaşacaq. Quranda da bildirildiyi kimi **"...Allahdan daha çox əhdinə vəfa göstərəcək olan kimdir?.. (Tövbə surəsi, 111)** Peyğəmbərimizin bir çox hədisində xəbər verdiyi "Qızıl dövr" hz. Mehdinin və hz. İsanın yer üzünə gəlişləri ilə yaşanacaq və dünyanı İslam əxlaqının gətirəcəyi gözəllikləri ilə dolduracaq.

# MEHDİ VƏ AXIRZAMANA İŞARƏ EDƏN AYƏLƏR

Biz istədik ki, həmin yerdə aciz qalanlara mərhəmət göstərək, onları öndə gedənlər və varislər edək. (Qəsas surəsi, 5)

*Biz hansı bir ölkəyə peyğəmbər göndərdiksə, onun əhalisini sıxıntıya və bəlaya düçar etdik ki, bəlkə yalvarıb-yaxarsınlar! (Əraf surəsi, 94).*

*Səndən əvvəl də ümmətlərə (elçilər) göndərmişdik. Biz onları sıxıntıya və xəstəliyə düçar etdik ki, bəlkə (Allaha) yalvarsınlar. (Ənam surəsi, 42)*

*Sizə nə olub ki, Allah yolunda : "Ey Rəbbimiz, bizi əhalisi zalım olan bu şəhərdən kənara çıxart, bizə öz tərəfindən vəli göndər, yardımçı yolla!" - deyə dua edən aciz kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz? (Nisa surəsi, 75)*

*"Əgər möminsinizsə, (bilin )(ki,) Allahın saxladığı (halal işlərdən olan qazanc) sizin üçün daha xeyirlidir. Mən sizin üstünüzdə gözətçi deyiləm"..." (Hud surəsi, 86)*

*İnsanların öz əlləri ilə etdikləri (pis əməllər, günahlar) üzündən quruda və suda fəsad (pozuntu) əmələ gələr (bəzi yerlərdə quraqlıq, qıtlıq olar, bəzilərində zərərli yağışlar yağar, zəlzələ baş verər, dənizlərdə gəmilər batar) ki, Allah (bununla) onlara etdiklərinin bir qismini (etdikləri bəzi günahların cəzasını) daddırır ki, bəlkə onlar (tövbə edib pis yoldan) qayıtsınlar. (Rum surəsi, 41)*

*Allah bir şəhəri misal gətirir. O şəhər əmin-amanlıq və arxayınlıq içində idi. Lakin (əhalisi) Allahın nemətini inkar etdi, Allah da həmin şəhərə (sakinlərinin) etdikləri əməllərə görə aclıq və qorxu bəlası daddırdı (Nəhl surəsi, 112)*

*Sizdən əvvəlkilərin başına gələnlər sizin başınıza gəlməmiş cənnətə daxil olacağınızımı güman edirsiniz? Onları (şiddətli) fəlakət və sıxıntı elə bürümüş, elə sarsıtmışdı ki, hətta, Peyğəmbər və iman gətirənlərlə birlikdə: "Allahın köməyi nə vaxt gələcək?" - demişdilər. Bilin ki, Allahın köməyi (sizə) yaxındır! (Bəqərə surəsi, 214)*

*Onlardan sonra namazı tərk edib şəhvətə uyan bir nəsil gəldi. Onlar da öz əməllərinin cəzasını alacaqlar. (Məryəm surəsi, 59)*

*Kim Mənim öyüd-nəsihətimdən (Qurandan) üz döndərsə, güzəranı daralar... (Taha surəsi, 124)*

*Əgər o ölkələrin əhalisi iman gətirib (Allahdan) qorxsaydı, əlbəttə, Biz onların üstünə göydən və yerdən bərəkət (qapılarını) açardıq. Lakin onlar (peyğəmbərləri) yalançı hesab etdilər. Biz də onları qazandıqları günahlara görə (əzabla) yaxaladıq.) görə məhv etdik. (Əraf surəsi, 96)*

*Barı, sizdən əvvəlki nəsillərin ağıl və fəzilət (hünər) sahibləri yer üzündə fitnə-fəsad törətməyi qadağan edəydilər! Onların xilas etdiyimiz az bir qismi istisnadır. Zalımlar isə onlara verilmiş nemətə (dünyanın ləzzətinə) uydular və günahkar oldular. (Hud surəsi, 116)*

*O ayrılan kimi yer üzündə fitnə-fəsad törətməyə, əkini və nəsli (islam cəmiyyətini) məhv etməyə çalışar. Halbuki, Allah fitnə-fəsadı sevməz! (Bəqərə surəsi, 205)*

*Sən, həqiqətən, (Allah tərəfindən göndərilmiş, şəriət sahibi olan) elçilərdənsən! Düz yoldasan! (Yasin surəsi, 3-4)*

*Kitab əhlindən (yəhudilərdən və xaçpərəstlərdən) kafir olanlar və müşriklər özlərinə açıq-aşkar bir dəlil gəlməyənə qədər (dinlərindən) ayrılan deyildilər.(Bu açıq-aşkar dəlil isə) pak səhifələri onlara oxuyan, Allah tərəfindən göndərilmiş peyğəmbərdir (Məhəmməd əleyhissəlamdır).O səhifələrdə doğru-dürüst hökmlər vardır. (Bəyyinə surəsi, 1-3)*

*İçərilərindən bir adama: "İnsanları (Allahın əzabı ilə) qorxut, iman gətirənləri (yaxşı əməllərinə görə) Rəbbi yanında gözəl mükafat gözlədiyi ilə müjdələ!" - deyə vəhy etməyimiz xalqa təəccüblü gəldimi ki, kafirlər: "Bu, həqiqətən, açıq-aşkar bir sehrbazdır!" dedilər. (Yunis surəsi, 2)*

*Hər ümmətin bir peyğəmbəri vardır. Onlara peyğəmbər gəldiyi zaman aralarında ədalətlə hökm olunar və onlara zülm edilməz! (Yunis surəsi, 47)*

*Müşriklərin xoşuna gəlməsə də, onu (İslamı) bütün dinlərin fövqündə (bütün dinlərdən üstün) etmək üçün, Öz Peyğəmbərini doğru yolla və haqq dinlə göndərən Odur! (Tövbə surəsi, 33)*

*Onu (islamı) bütün dinlərdən üstün etmək üçün Öz Peyğəmbərini hidayət və haqq dinlə göndərən Odur. (Ya Rəsulum! Sənin peyğəmbərliyinin həqiqiliyinə) Allahın şahid olması kifayət edər! (Fəth surəsi, 28)*

*Ey iman gətirənlər! Sizlərdən hər kim dinindən dönsə, Allah (onun əvəzinə) Özünün sevdiyi və Onu sevən, möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan, Allah yolunda cihad edən və tənə edənin tənəsindən qorxmayan bir camaat gətirər. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah (rəhmətiylə) geniş olandır, Biləndir! (Maidə surəsi, 54)*

*(Ey müsəlmanlar!) İçərinizdə (insanları) yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun! Bunlar (bu camaat), həqiqətən nicat tapmış şəxslərdir. (Ali-İmran surəsi, 104)*

*(Çətinliklərə) səbr etdikləri və ayələrimizə ürəkdən inandıqları üçün, Biz, onlardan əmrimizlə (insanlara) haqq yolu göstərən rəhbərlər təyin etmişdik. (Səcdə surəsi, 24)*

*Belə buyurdu: "Bir-birinizə düşmən kəsilərək hamınız oradan enin. Məndən sizə doğru yolu göstərən bir rəhbər gəldiyi zaman kim Mənim haqq yolumu tutub getsə, nə (dünyada) yolunu azar, nə də (axirətdə) bədbəxt olar! (Taha surəsi, 123)*

*Haqqı gətirən və onu təsdiq edənlər isə əsl müttəqilərdir. (Zümər surəsi, 33)*

*Sənə də beləcə əmrimizdən olan bir ruh vəhy etdik. Sən kitab nədir, iman nədir bilməzdin. Lakin Biz, onu, bəndələrimizdən dilədiyimizi haqq yola qovuşdurmağımız üçün bir nur etdik. Sən (onunla insanları) düz yola yönəldirsən. (Şura surəsi, 52)*

*Ümmilər (yazmağı-oxumağı bilməyənlər) arasında ,özlərindən peyğəmbər göndərən Odur. Əvvəllər haqq yoldan açıq-aşkar azsalar da, onlara (Allahın) ayələrini*

*oxuyar, onları (günahlardan) təmizləyər, onlara Kitabı və hikməti öyrədər. (Cümə surəsi, 2)*

*İnsanlar tək bir ümmət idi. Allah onlara müjdə verən və xəbərdarlıq edən (əzabla qorxudan) peyğəmbərlər göndərdi, insanlar arasındakı ixtilafları ayırd etmək üçün, O, peyğəmbərlərlə birlikdə haqq olan kitab nazil etdi. Halbuki özlərinə aşkar dəlillər gəldikdən sonra aralarındakı kin (və həsəd) üzündən (dində) ixtilafda olanlar kitab əhlindən başqası deyildir. Onların ixtilafda olduqları həqiqətə Onun izni ilə iman gətirənləri isə Allah doğru yola yönəltdi. Allah istədiyini düz yola istiqamətləndirər. (Bəqərə surəsi, 213*)

*Fitnə (şirk) qalmayıb, bütün din yalnız Allaha məxsus olanadək onlarla vuruşun. Əgər (Allaha şərik qoşmağa) son qoysalar (bilsinlər ki), Allah onların nə etdiklərini görəndir. (Ənfal surəsi, 39)*

*Kafirlərə de: "Siz tezliklə məğlub olacaq və Cəhənnəmə atılacaqsınız! Ora nə pis yataqdır!! (Ali İmran surəsi,12)*

*Bizim uğrumuzda cihad edənləri öz yollarımıza qovuşduracağıq. Şübhəsiz ki, Allah yaxşı əməllər edənlərlədir! (Ənkəbut surəsi, 69)*

*Musa öz tayfasına: "Allahdan kömək diləyin və səbr edin. Yer üzü Allahındır. Bəndələrindən istədiyini onun varisi edər. Aqibət (dünyada zəfər, axirətdə yüksək məqamlar) müttəqilərindir!" - dedi. (Musaya iman gətirənlər) dedilər: "Sən bizə peyğəmbər gəlməmişdən əvvəl də, sonra da biz əziyyət çəkdik!" (Musa onlara belə) cavab verdi: "Bəlkə də, Rəbbiniz düşməninizi məhv edib sizi yer üzünün varisləri edəcək, sonra isə nə etdiyinizə baxacaq!" (Əraf surəsi, 128-129)*

*(Allah bununla) günahkarların xoşuna gəlməsə də, haqqı (İslamı) bərqərar etmək və batili (küfrü) yox etmək istəyirdi. (Ənfal sursəsi, 8)*

*Xeyr, Biz batili haqla (küfrü imanla) rədd edərik (haqqı batilin üstünə atarıq) və o da onun beynini darmadağın edər. Bir də baxıb görərsiniz ki, o yox olub getmişdir. (Allaha) aid etdiyiniz sifətlərə görə vay halınıza! (Ənbiya surəsi, 18)*

*De: "Rəbbim haqqı nazil edər. O, qeybi ən yaxşı biləndir!" De: "Haqq gəldi. Batil (küfr, şirk) yox oldu, bir də nə gözə görünər (nə ortaya bir şey çıxarar), nə də geri qayıdar!" (Səba surəsi, 48-49)*

*De: "Haqq (İslam) gəldi, batil (şirk və küfr) yox oldu. Çünki batil (öz-özlüyündə) yoxluğa (heçliyə) məhkumdur!" (İsra surəsi, 81)*

*Onlar Allahın nurunu) ağızları (batil sözləri) ilə söndürmək istəyirlər. Allah isə kafirlərin xoşuna gəlməsə də, ancaq Öz nurunu (dinini) tamamlamaq istəyər. (Tövbə surəsi, 32)*

*O kəslər ki, əllərindəki Tövratda və İncildə (adını, vəsfini və əlamətlərini) yazılmış gördükləri rəsula-ümmi peyğəmbərə tabe olurlar. O, onlara yaxşı işlər görməyi buyurar, pis işləri qadağan edər, təmiz (pak) nemətləri halal, murdar (napak) şeyləri haram edər, onların ağır yükünü yüngülləşdirər və üstlərindəki buxovları (zincirləri) açar (şəriətin çətin hökmlərini götürər). Ona (o Peyğəmbərə) iman gətirən, yardım göstərən və onunla (Quranın) ardınca gedənlər məhz onlar nicat tapanlardır!" (Əraf surəsi, 157)*

*Onlar Allahın nurunu (İslam dinini) öz ağızları (öz iftiraları və şər sözləri) ilə söndürmək istəyirlər. Allah isə, kafirlərin xoşuna gəlməsə də, öz nurunu (dinini) tamamlayacaqdır. (Saff surəsi, 8)*

*Sonra elçilərimizi və iman gətirənləri xilas edərik. Möminləri xilas etmək Bizə vacibdir. (Yunis surəsi, 103)*

*Allah (Ona) iman gətirənlərin dostudur, onları zülmətdən çıxarıb nura yönəldər. Kafirlərin dostu isə Taqutdur (şeytanlardır). Onları nurdan ayırıb zülmətə salarlar. Onlar cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar! (Bəqərə surəsi, 257)*

*Kafirlər dedilər: "Əgər biz səninlə birlikdə doğru yolla getsək, yurdumuzdan qovularıq". Məgər Biz onları Özümüzdən bir ruzi olaraq hər cür meyvənin gətirildiyi, müqəddəs, təhlükəsiz bir yerdə yerləşdirmədikmi? Lakin onların çoxu (bunu) bilmir! (Qəsas surəsi, 57)*

*Biz səndən əvvəl hansı bir şəhərə xəbərdarlıq edən (bir peyğəmbər) göndərdiksə, onun cah-calal içində yaşayan sakinləri: "Biz atalarımızı bu yolda gördük və biz də onların yolunu tutub gedəcəyik!"- dedilər. (Peyğəmbər) dedi: "Əgər sizə atalarınızın tutduğu o yoldan daha doğrusunu göstərsəm necə?" Onlar dedilər: "Biz sizinlə göndərilənləri inkar edirik". (Zuxruf surəsi, 23-24)*

*Peyğəmbərlərə salam olsun! (Saffat surəsi, 181)*

*Bunlar Allahın ayələridir. Biz onları sənə haqq olaraq oxuyuruq. Şübhəsiz ki, sən göndərilən elçilərdənsən. (Bəqərə surəsi, 252)*

*Hər kəsin üz tutduğu bir qibləsi vardır. Yaxşı işlər görməkdə bir-birinizlə yarışın. Harada olursunuz olun Allah sizin hamınızı (bir yerə) toplayacaqdır. Şübhəsiz ki, Allah hər şeyə qadirdir! (Bəqərə surəsi, 148)*

*Və deyirdilər: "Məgər biz divanə bir şairə görə məbudlarımızı tərk edəcəyik?" Xeyr! O, haqqı gətirdi və (əvvəlki) peyğəmbərləri təsdiqlədi.. (Saffat surəsi, 36-37)*

*And olsun ki, göndərilən bəndələrimiz haqqında əvvəlcədən (lövhi-məhfuzda) bu sözümüz deyilmişdi: "Onlar mütləq qalib gələcəklər. Bizim əsgərlərimiz (möminlər) labüd olaraq (kafirlərə) zəfər çalacaqlar!" (Saffat surəsi, 171-173)*

*Səndən əvvəlki elçiləri də yalançı saymışdılar. Lakin Bizim köməyimiz onlara gələnədək yalançı sayılmalarına və onlara əziyyət verilməsinə səbr etdilər. Heç kim Allahın kəlmələrini dəyişə bilməz. Artıq peyğəmbərlərə aid bəzi xəbərlər sənə gəlib çatdı. (Ənam surəsi, 34)*

*And olsun bir-birinin ardınca göndərilənlərə (mələklərə, peyğəmbərlərə, yaxud küləklərə). (Mursəlat surəsi, 1)*

*Müşriklərin xoşuna gəlməsə də, onu (İslamı) bütün dinlərdən üstün edəcək. Öz Peyğəmbərini hidayət (Quran) və haqq dinlə göndərən Odur! (Saff surəsi, 9)*

*Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi onları da yer üzünün varisləri edəcək, möminlər üçün onların Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra*

*arxayınçılıqla əvəz edəcəkdir. Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar. Bundan sonra küfr edənlər – məhz onlar fasiqlərdir! (Nur surəsi, 55)*

*(Ya Peyğəmbər!) Allahın köməyi və zəfər (Məkkənin fəthi) gəldiyi zaman. İnsanların dəstə-dəstə Allahın dininə (İslama) daxil olduqlarını gördüyün zaman, Rəbbini həmd-səna ilə təqdis et (Onu bütün naqis sifətlərdən uzaq tutub pak bil və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir! (Nəsr surəsi, 1-3)*

*Biz Zikrdən sonra Zəburda da, Ərzə (yer üzünə) və yalnız Mənim saleh bəndələrimin Varisçi olacağını yazmışdıq. (Ənbiya surəsi, 105 )*

*(Allah) sizi onların yerlərinə, yurdlarına və mallarına, üstəlik də ayağınız dəyməyən bir yerə varis etdi. Allah hər şeyə qadirdir! (Əhzab surəsi, 27)*

*... Sonra onların ardınca yer üzünün varisləri etmək üçün sizi təyin etdik ki, görək özünüzü necə aparacaqsınız. (Yunis surəsi, 13-14)*

*...(Sizdən) şəri sovuşduran, sizi yer üzünün varisləri edənmi? Məgər Allahla yanaşı başqa bir İlah var? Siz nə az düşünüb danışırsınız? (Nəml surəsi, 62)*

*Əgər onlara yer üzündə hökmranlıq versək, onlar namaz qılar, zəkat verər, yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər. Bütün işlərin aqibəti Allaha aiddir. (Həcc surəsi, 41)*

*Ruhdan düşməyin və kədərlənməyin. Möminsinizsə, üstün olacaqsınız! (Ali-İmran surəsi, 139)*

*Ancaq iman gətirib yaxşı işlər görən, Allahı çox zikr edən və zülmə uğradıqdan sonra zəfər qazananlar (intiqamını alanlar) başqa! Zülm edənlər isə hansı inqilaba uğradıqlarını çox yaxın bir vaxtda mütləq biləcəklər! (Şüəra surəsi, 227)*

*...Zəif camaatı isə yer üzünün xeyir-bərəkət verdiyimiz Şərqinə və Qərbinə varislər təyin etdik....(Əraf surəsi, 137)*

*Allah (lövhi-məhfuzda): "And olsun ki, Mən və peyğəmbərlərim qalib gələcəyik!" - deyə yazmışdır. Həqiqətən, Allah yenilməz qüvvət sahibi, qüdrət sahibidir! (Mücadələ surəsi-21)*

*Allahın peyğəmbərlərə verdiyi vədə xilaf çıxacağını sanma! Həqiqətən, Allah yenilməz qüvvət sahibi, intiqam sahibidir! (İbrahim surəsi, 47)*

*Onlardan sonra da mütləq yurdlarında sizi yerləşdirəcəyik. Bu (varislik), məqamımdan və əzabımdan qorxanlara aiddir! Kömək dilədilər. Hər bir inadkar təkəbbür sahibi isə ziyana uğradı. (İbrahim surəsi, 14-15)*

*Allahın köməyi və zəfər gəldiyi zaman. İnsanların dəstə-dəstə Allahın dininə (İslama) daxil olduqlarını gördüyün zaman. Rəbbini həmd-səna ilə təqdis et (Onu bütün naqis sifətlərdən uzaq tutub pak bil)) və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir! (Nəsr surəsi, 1-3)*

*Sevdiyiniz başqa bir şey (bir nemət) də - Allah dərgahından kömək və yaxın bir fəth, qələbə gözləyir. (Ya Peyğəmbər!) Möminlərə (dünyada zəfərlə, axirətdə Cənnətlə) müjdə ver! (Saff surəsi, 13)*

*Həqiqətən, Biz sənə açıq-aşkar bir zəfər bəxş etdik! Allah (bununla) sənin əvvəlki və sonrakı günahlarını bağışlayacaq, sənə olan nemətini tamamlayıb və səni düz yola müvəffəq edəcəkdir! Allah sənə yenilməz qələbə verəcəkdir! (Fəth surəsi,1-3)*

*Allah sizin bilmədiklərinizi bilir. O, həm də (sizə) tezliklə bir qələbə də bəxş edəcəkdir. (Fəth surəsi, 27)*

*Onlara dünyada da, axirətdə də müjdə vardır. Allahın sözləri (verdiyi vədlər) heç vaxt dəyişməz. Bu, böyük qurtuluşdur (uğurdur)! (Yunis surəsi, 64)*

*De: "Hamı gözləyir, siz də gözləyin. (Qiyamət günü) doğru yol sahiblərinin kimlər olduğunu və kimin haqq yola yönəldiyini (hidayətə yetişdiyini) biləcəksiniz!" (Taha surəsi, 135)*

*...Allah Ona (öz dininə) yardım edənlərə, şübhəsiz ki, yardım edər. Həqiqətən, Allah yenilməz qüvvət, qüdrət sahibidir! (Həcc surəsi, 40)*

*Allahın Kitabını oxuyanlar, namaz qılanlar və özlərinə verdiyimiz ruzilərdən gizli və aşkar xərcləyənlər səmərəsiz olmayacaq bir ticarətə ümid edə bilərlər.... (Fatir surəsi, 29)*

*Mallarını Allah yolunda xərcləyənlərin məsəli yeddi sünbül verən bir toxumun məsəlinə bənzəyir ki, sünbüllərin hər birində yüz ədəd dən vardır. Allah istədiyi kimsə üçün bunu qat-qat artırar. Allahın lütfü böyükdür (ehsanı bol olandır). (Bəqərə surəsi, 261)*

*..."Rəbbinizin verdiyi ruzidən yeyin və ONA şükr edin. Gözəl bir diyar, bağışlayan bir Rəbbiniz var!" (Səba surəsi, 15)*

*Sizdə olan nemətlər tükənəcək, Allahın dərgahında olan nemətlər isə daim qalacaqdır. Səbirli olanlara etdikləri yaxşı əməllərə görə mükafatlarını verəcəyik. Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq. (Nəhl surəsi, 96-97)*

*Allah əmin-amanlıq yurduna (Cənnətə) çağırır və istədiyini doğru yola yönəldir. Yaxşı iş görənlər üçün ən yaxşısı və bundan da üstünü vardır. Onların üzünü nə bir qubar, nə də bir zillət bürüyər. Onlar Cənnət sakinləridirlər və orada əbədi qalacaqlar! (Yunis surəsi, 25-26)*

# MÜXTƏLİF QAYNAQLARDA MEHDİ İLƏ ƏLAQƏDAR RƏVAYƏTLƏR

## HƏDİSLƏRDƏ MEHDİNİN ÇIXIŞI

• Əl-Ayyaşi öz sənədiylə Əli ibn Hüseyndən (İmam Zeynəlabidin), Rəsulullah (s.ə.v)-in belə buyurduğunu rəvayət edir:

**Əgər dünyanın ömrünə (sona çatmasına) yalnız bir gün qalmış olsa belə, Allah bu günü ailəmdən adı mənim adımla eyni olan bir adamın zühur edib zülm və haqsızlıqla dolan dünyanı ədalətlə dolduracağına qədər uzadacaq.**

• Əbu Bəsir İmam Cəfər Sadiqdən rəvayət edir:

**"..(Allah Təalanın "Ta ki, özlərinə vəd ediləni görənə qədər" buyruğuna gəldikdə, O Qaimin qiyamıdır, o da saatdır" buyurdu.**

Saat yaxınlaşdı... (Qəmər surəsi, 1)

• Əbu ibn İbrahim Qummi rəvayət etmişdir:

**"Allahın "O zaman yaxınlaşdı" buyruğu haqqında soruşuldu. İmam Qaimin zühurudur, buyurdu."**

• Hazzaz Qumni Ammar ibn Yasirdən belə rəvayət edir: Rəsulullah (s.ə.v) Burakın hüzuruna çatanda belə ərz etdim: "Əli Allah üçün (yolunda) haqqıyla cihad etmişdir."

Rəsulullah buyurdu:

**"...Onun bir qeybi olar, xalqın bir qismi ondan imtina etdiyi halda, digər bir qismi sabit qalar. Axırzamanda ortaya çıxar, dünyanı haqq-ədalətlə doldurar. Necə ki, mən endirilən (Quran) uğrunda mübarizə aparmışam, o da mənim kimi Quranın düzgün şərh etmək uğrunda mübarizə aparar, adı mənim adımdır və insanlar içində mənə ən çox bənzəyəndir..."**

• Tabərsi: Əlqəmə ibn Məhəmməd əl- Hazəminin rəvayətinə görə, İmam Məhəmməd Baqir belə buyurur: Rəsulullah (s.ə.v) həcc etdi və dönərkən Qədir-Xumda (xalqa xitab edilən məkan) əvvəl Allaha həmd etdi və sonra belə buyurdu:

**"Ey insanlar! İnanın Allaha, elçisinə və... onunla endirilən nura... Biz bəzi üzləri silib arxalarına çevirmədən... Ey insanlar! Allah (Əzzə və Cəllə)-nin nuru mənə yerləşdirilmişdir, sonra Əliyə, sonra ondan Qaimə qədər olan nəsilə. O (Mehdi) ki,**

**Allahın haqqını alar və bizə aid olan bütün haqları (götürər)... Bilin ki, bizdən olan son İmam Mehdi Qaimdir. Onunla olmayan Haqq ilə olmaz və onun yanında olmayan nur olmaz."**

## MEHDİNİN GƏLDİYİ DÖVR

• İslam Peyğəmbəri (s.ə.v) buyurdu:

"Nə vaxt ədalətsiz hakimlərin əliylə zülm və haqsızlıq, hiylə və fırıldaqçılıq bütün insanları əzməyə başlayacaq, o vaxt mənim təmiz ailəmdən, mənim ad və nişanımı daşıyan səmavi bir xilaskar qiyam edəcək və əmin-amanlıq hər yerə yayılacaq".

## KONSTANTİNOPOLDA MƏSİHLƏ BİR YERDƏ OLMASI

• Məcmaül-Bəhreyn və Mətləün-Nəyyireyn, Yaz:  Fahrettin ət-Türeyhi (-1085 H. /1674 M.)

Mehdi Allahın haqq yola çatdırdığı kimsədir. Mehdi peyğəmbərin Axırzamanda gələcəyini müjdələdiyi, öz ailəsindən olan bir şəxsin adıdır. Zülm və haqsızlıqla dolu olan dünyanı haqq-ədalətlə dolduracaq. **O Konstantantinopolda Məsih ilə birlikdə olacaq. Ərəbə və ərəb olmayan hər kəsə hökm edəcək, Dəccalı öldürəcək.**

**...Onları dünyada rüsvayçılıq, axirətdə isə böyük əzab gözləyir! . (Bəqərə surəsi, 114)**

• Məhəmməd ibn Carir Təbəri  Esbat Südidən "Onlar üçün dünyada rüsvayçılıq vardır" buyruğuna dair:

"Dünyada alçaq, rüsvayedici budur ki: **Mehdi qiyam edib Konstantinopolu fəth edincə..."**

# HZ. İSA HZ. MEHDİNİN ARXASINDA NAMAZ QILACAQ

• İbn Ərəbi Məhəmməd ibn Əli ət-Tani: (-638H.1241 M.)

Nəzəri mədəniyyətin atası sayılan bu şəxs, yuxarıdakı ayənin təfsirini edərkən əvvəlki rəvayət qaynaqlarına və cümlələrə yer verdikdən sonra bu şərhi əlavə etmişdir:

"(İsanın) Beytül-Müqəddəsə girişi və müşahidə yerinə çatmağı, qütb mövqeyindən fərqlidir. Namazı gecikdirən İmam isə Mehdidir. Dövrünün qütbü olduğu halda namazı gecikdirməsinin səbəbi, vəlayət sahibinin peyğəmbərlik sahibinə qarşı hörmət göstərməsidir. İsanın onu önə keçirməsinin səbəbi isə imamın dövrün qütbü olduğunu bilməsidir. Məhəmməd (s.ə.v) dini üzərinə onun arxasında namaz qılmağı isə, ona tabe olaraq zahiri və mənəvi lütf əldə etməsindən irəli gəlir. Doğrusunu Allah bilir."

# MEHDİ OLARAQ ADLANDIRILMAĞININ SƏBƏBİ

• Cabir ibn Yezid əl-Cofi İmam Məhəmməd Baqirdən belə rəvayət edir:

**... Mehdinin "Mehdi" deyə adlandırılmasının səbəbi budur ki, gizli bir işə doğru istiqamətləndiriləcək, Tövrat və digər səmavi kitabları Antakyada bir mağaradan çıxardacaq və yəhudilər arasında Tövratla, xristianlar arasında İncillə hökm edəcək.**

• Harun ibn Maruf, Zamra ibn Rabiyadan və Abdullah ibn Şevzebdən belə rəvayət edir:

**Şübhəsiz ki, Mehdi "Mehdi" deyə adlandırılmışdır. Çünki o, Şam dağlarından bir dağa doğru hidayət olunar (istiqamətləndirilər). Tövrat kitablarını oradan çıxarar və onlara əsaslanaraq yəhudilərlə mühazirə aparar və (nəticədə) bir qrup yəhudi onun vəsiləsi ilə müsəlman olar.**

• Məhəmməd ibn Əli əs-Süləmi, İmam Məhəmməd Baqirdən belə rəvayət edir:

**Mehdinin "Mehdi" deyə adlandırılmasının səbəbi budur ki, gizli bir işə doğru istiqamətləndiriləcək, xalqın qəlbindəkilərlə hidayət olacaq... Tövratı Antakyada bir mağaradan çıxardaraq...**

• Mamar ibn Hişam Matarül-Verrakdan və Kabül-Ahbardan belə rəvayət edir:

**O "Mehdi" deyə adlandırılmışdır, çünki o, gizli bir işə hidayət edilər (gizli bir işlə vəzifələndirilər), Tövrat və İncili Antakya deyilən bir yerdən çıxarar...**

# MEHDİNİN DİGƏR ADLARI

• Ömər ibn Zahir rəvayət edir:

"Biri imam Cəfər Sadiqə: "Qaimə, "əmirəl-möminin" deyə salam göndərə bilərikmi?" deyə soruşdu. İmam buyurdu: "Xeyr, Allah Təala bu ləqəbi yalnız hz. Əliyə vermiş, ondan əvvəl və sonra kimsə bu ləqəblə xatırlana bilməz". Adam soruşdu: "Yaxşı onu nə deyərək salamlayım?" İmam buyurdu: "Salam olsun sənə, ey Bəqiyətullah" deyərək.

# HƏYATINI GİZLİ DAVAM ETDİRMƏSİ

• Sakr ibn Əbi Delf eşitdiyi rəvayətə görə, imam Məhəmməd Təqi belə buyururdu:

Doğrusu budur ki, Həsən (Əskəri)-dən sonra haqq üzrə oğlu Qaim və Müntəzir (gözlənilən)-dir. Soruşdum: Ey Allahın Rəsulunun nəvəsi, nə üçün "Qaim" adını almışdır?

Buyurdu: **Çünki o, unudulmuş olduğu və imamlığı qəbul edənlərin çoxu ona arxa çevirdikləri bir dövrdə qiyam edəcək.**

Soruşdum: **Onun "Müntəzir" (gözlənilən) deyə adlandırılmasının səbəbi nədir?**

Buyurdu: **Çünki o, həyatını gizli davam etdirəcək, bu çox uzun müddət davam edəcək, gəlişi çox uzanacaq.** İxlaslı kəslər ortaya çıxışını gözləyəcəklər...

**Görmürsünüz ki, şübhəsiz, Allah, göylərdə və yerdə olanları əmrinizə hazırlamış, açıq və gizli sizin üzərinizdəki nemətlərini genişlədib-tamamlamışdır... (Loğman surəsi, 20)**

• Şeyx Saduk, Məhəmməd ibn Ziyad əl-Əzdidən edilən rəvayətə görə, belə buyurur:

Allah Təalanın bu: "... və sizə zahiri və gizli olan nemətlərini bol-bol verdi" - buyruğu haqqında imam Musa Kazımdan soruşdum. O da belə buyurdu:

**"Zahir (açıq) nemət, Zahir (görünən, açıq) İmamdır. "İmamlar içində qeyb olan vardır?" soruşdum.** Buyurdu: **"Bəli o, insanların gözündən qeyb olar, lakin zahiri möminlərin ürəyindən qeyb olmaz... Allah onunla bütün çətinlikləri asanlaşdırar,**

**bütün sərtlikləri yumşaldar. Onunla yerin xəzinələrini ortaya çıxarar, onunla bütün uzaqlıqları yaxınlaşdırar, inadkar bütün zalımları onunla ortadan qaldırar, bütün pis şeytanları onun əliylə məhv edər... Ortaya çıxıb zülm və haqsızlıqla dolan dünyaya haqq-ədaləti hakim edənə qədər".**

**İman gətirib saleh əməl görənlərin xoş halına! (Onları) gözəl bir sığınacaq (Cənnət gözləyir)! (Rad surəsi, 29)**

• Şeyx Saduk Əbu Bəsirin rəvayətinə əsasən imam Cəfər Sadiqin belə buyurduğunu deyir:

*"Xoşbəxt o kəslərdir ki, bizdən olan Qaimin qeyb dövründə bizim işimizə qoşulur, (beləsinin) qəlbi hidayətə çatdıqdan sonra çaşmaz.... Məhz Allahın buyurduğu xoşbəxtlik və gözəl gələcək buna işarədir".*

• Şeyx Saduk buna bənzər bir xəbəri həmin İmamdan və eyni rəvayətçidən, lakin başqa bir sənədlə belə bildirmişdir: (səh. 401)

İmam buyurdu: *"Yaxşı bir şey soruşdun, ey Ümmü-Hani. Bu dövrün sonunda ortaya çıxacaq biridir, o bu Əhli-Beytdən olan Mehdidir. Onun bir qeyb dövrü olar. O dövrdə bəziləri havalanar, bəziləri hidayət tapar. Əgər onu görsən, xoşbəxt olarsan və nə xoş onu görənlərin halına ..".*

## MEHDİNİN (ANİDƏN) BİRDƏN ORTAYA ÇIXMASI

• Əhməd ibn Məhəmməd İmam Həsən Müctəbanın belə buyurduğunu rəvayət edir:

*"Babam Rəsulullahdan soruşdum: "Biz Əhli-Beytdən olan Qaim nə vaxt qiyam edəcək? Rəsulullah buyurdu: Ey Həsən!* ***O, yerə və göyə çox ağır gələn "o saat" kimi, birdən-birə zühur edəcək".***

• Kumeyt ibn Zeyd əl-Əsədi imam M. Baqidən belə rəvayət edir:

"Allahın Rəsulundan bir mövzu haqqında (yəni Mehdinin qiyamı haqqında) soruşuldu, o da belə buyurdu: "**O, "saat" kimi, ancaq birdən zühur edəcək".**

• Dıbil ibn Əli əl-Hüzai imam Rzadan belə rəvayət edir:

Rəsulullaha: "Ey Allahın Elçisi, soyunuzdan olan Qaim nə vaxt qiyam edəcək"- deyə soruşuldu. Allahın Rəsulu belə buyurdu: *"**O, "o saata" (qiyamət olacağı ana) bənzəyər, onun zamanını Allahdan başqası bilməz.. Ancaq qəflətən baş verər".***

• Hazzaz Qummi Əhməd ibn Məhəmməd və ibn Münzirin rəvayətinə əsasən belə deyir:

Əli oğlu Həsən buyurdu: "Babam Rəsulullahdan soruşdum ki, biz Əhli-Beytdən olan Qaim, nə vaxt zühur edəcək? O, buyurdu: ***"Ya Həsən, şübhəsiz, ki, onun zühuru qiyamətin baş vermasinə bənzəyər:*** *"...* ***O göylərə də, yerə də ağır gəlmişdir. O sizə qəfildən gələcəkdir..."***

• Şeyx Saduk, Dıbil Hüzaidən edilən rəvayətə görə belə deyir:

İmam Rza buyurdu: "Mənə atam bildirmişdi, ona da atası, atasına da atalarından bildirilmişdir".

Peyğəmbərdən soruşdular: *"Ey Allahın Elçisi, soyunuzdan olan Qaim nə vaxt zühur edəcək? O, buyurdu:* ***"Onun bənzəri qiyamətdir, belə ki,*** *onu tam zamanında ortaya çıxaracaq yeganə O (Allah)dır.* ***O göylərə də, yerə də ağır gəlmişdir, o sizə qəfildən gələcəkdir..."***

• Hazzaz Kumni, Kümeyt ibn Zeyd Əsədinin rəvayətdə İmam Məhəmməd Baqirin belə buyurduğunu nəql edir:

***"...Şübhəsiz, ki, bizdən olan Qaim, Hüseyn oğullarının doqquzuncusudur... O zühur edər və dünyanı haqq-ədalətlə doldurar...***

***"Ey Rəsulullahın oğlu, yaxşı, bəs o, nə vaxt zühur edəcək?" deyə soruşdum. O da belə cavab verdi: "And olsun ki, bunu Allahın elçisi (s.ə.v) -dən soruşdular, o da belə buyurmuşdu: O, qiyamət kimi qəfildən meydana çıxar. (Qiyamət birdən meydana çıxdığı kimi Mehdi də birdən zühur edəcək)***

• Zürarət ibn Ayur belə rəvayət edir:

***"İmam Məhəmməd Baqirdən Allah Təalanın "Birdən-birə gələcək saatdan başqasını gözləməzlər ki" buyurduğu haqqında soruşdum. O da belə cavab verdi: Məqsəd hz. Qaimin zühur zamanını gözləməkdir..."***

## MEHDİNİN SƏHABƏLƏRİNİN ONA SIĞINMASI

• Əbu Səid Hudri Rəsulullahdan belə rəvayət edir:

***"Mehdinin ardınca gedənlər ona sığınarlar, bal arılarının ana arıya sığındıqları kimi (onun yanında güvən və hüzur, əmin-amanlıq taparlar), o yer üzünü ədalət və düzgünlüklə dolduracaq"***

• Əlaəddin Əli ibn Hişam Muttaki Hindi (h. 975 ): "ər-Rəddi..." kitabında belə yazır :

*"Allahın rəhməti sənə olsun, bil ki, vəd edilən Mehdinin varlığına heç bir şübhə yoxdur. Üç yüz dəlil və əsərdə hətta daha çoxu ilə bu sübut edilmişdir.*

• Şərif Məhəmməd ibn Rəsul Bərzənci: "əl-İşaətü..." kitabında (səh. 184 və 305) belə yazır:

*"Mehdinin varlığı və Axırzamanda zühur edəcəyi peyğəmbər ailəsindən və Fatimə oğullarından olması, təvatür (içində yalan olmayan hədislər) dərəcəsinə çatan hədislərlə açıqlanmışdır və bu hədisləri inkar etməyin heç bir mənası yoxdur... Təvatür ölçüsünü aşan doğru və açıq hədislərdə, Mehdinin Fatimə soyundan olub dünya sona çatmadan əvvəl zühur edəcəyi, zülm və haqsızlıqla dolmuş olan dünyaya haqq-ədalət gətirəcəyi, onun dövründə İsa Məsihin göydən enəcəyi və onun rəhbərliyi altında namaz qılacağı sübut edilir".*

• Şəmsəddin Məhəmməd ibn Əhməd Səfareyni bu mövzuya aid bir mənzumə (ölçülü bir şəkildə yazılmış düz yazı) yazmış və özü də bu mənzuməyə "Ləvaihül-Ənvarül-Bəhiyyə" adında bir şərh yazmışdır. Aşağıdakı xülasə açıqlama bu şərhdən alınmışdır: (II cild, səh. 74, 76, 86)

*"Qiyamət gününün ən böyük əlamətlərindən biri də haqqında təvatür dərəcəsini aşacaq dərəcədə hədis olan bir adamın zühur edəcəyidir. Bu adam imamların sonuncusudur. Hz. Peyğəmbərdən sonra peyğəmbər olmayacağı kimi, ondan sonra da imam olmayacaq. Bu imam Fatimə oğullarındandır... Bir çox hədis hafizləri Mehdinin peyğəmbər soyundan olduğunu qəbul etmişlər, belə mütəvatir bir mövzuya arxa çevirmək yaraşmaz. Haqq əhlinin inancına görə, Mehdi İsa Məsihdən ayrıdır. Mehdi Məsihdən əvvəl zühur edəcək. Bu mövzu sünni alimləri arasında, onların inancından sayılacaq qədər məşhurluq qazanmışdır".*

• Həsən ibn Abdullah ər-Razi ət-Tamimi, İmam Rza atalarından eşitdiklərinə əsasən Peyğəmbər (s.ə.v)-in belə buyurduğunu rəvayət etmişdir:

*"Haqqı ifa etmək üçün bizdən olan Qaim qiyam etmədikcə saat (qiyamət) baş verməyəcək. Bu da böyük Allahın izniylə olacaq. Allah (a baxın), Allah (a baxın) ey Allahın qulları! Suyun, qarın üstündə çətinliklə, sürünərək də olsa, Mehdiyə qatılın, çünki o, Allahın xəlifəsidir".*

• Asim ibn Əbi ən- Nücud, Zərr ibn Hübeyşdən, Abdullah ibn Məsuddan, Rəsulullahın belə buyurduğunu rəvayət etmişdir:

*"Əhli-Beytimdən Mehdi deyilən bir adam gəlib ümmətimə hökm etmədən dünya sona çatmayacaq”.*

Şübhəsiz, o, qiyamət-saatı üçün bir elmdir. Elə isə ondan (qiyamətdən) yana heç bir şübhəyə qapılmayın və mənə tabe olun. Doğru yol budur. (Zuxruf surəsi, 61)

• Əl-Kənciyyüş-Şafii, Mukatil ibn Süleyman və onu izləyən təfsirçilər *"... və o qiyamət üçün bir elmdir (məlumatdır, əlamətdir)"* ayəsi haqqında belə demişlər:

*"O, Mehdidir, zaman sona çatmadan zühur edər və onun hurucundan (çıxışından) sonra qiyamət olar..."*

"Və istəyirik ki, yer üzündə zəif olanlara, əzilənlərə lütf edək, onları öndərlər edək, onları varis edək". (Qəsas surəsi 5)

• Əbdülhəmid ibn əbul-Hadid, hz. Əli (r.ə)-in yuxarıdakı buyurduğunun şərhinə belə yazmışdır:

*"Şiə, buyrulanın Axırzamanda zühur edib dünyaya hökm edəcək olan qeyb imamı vəd etdiyini düşünür. Bizimkilər (sünnilər) də deyirlər ki, bu bütün ölkələrə sahib olub yer üzünə hökm edəcək imamın vəd edildiyinə işarə edir. Bundan çıxardığımız nəticə budur ki, belə bir imam qəti olaraq vardır, qeyb olub sonra zühur etsə belə, zamanın sonunda belə bir imamın zühur edəcəyi sözünü təsdiqləmək nöqtəsində bu fikir kifayət edir".*

• Məhəmməd Şeybani, İmam Məhəmməd Baqir və İmam Cəfər Sadiqdən rəvayət edildiyinə əsasən belə buyurur:

*Bu ayə (Qəsas surəsi, 5) Axırzamanda zühur edərək zalım və fironları məhv edib, yer üzündə şərqdən qərbə qədər hökm edəcək, zülmlə dolmuş dünyanı ədalətlə dolduracaq əmr sahibinə aiddir (onun haqqında nazil olmuşdur)".*

## MEHDİNİN ÇIXIŞINI GÖYDƏN BİR SƏS XƏBƏR VERƏCƏK

" Biz istəsəydik, göydən onlara elə bir əlamət göndərərik ki, onun önündə başları itaətkarlıqla əyilərdi". (Şuəra surəsi, 4)

• Əl-Müqəddəsi əs-Silmi Əbu İshak Saləbi və əbu Həmzə Sümalinin bu ayə haqqında belə dediyini rəvayət etmişdir:

**"...Allah daha yaxşısını bilir, bizə çatan məlumata görə, o (möcüzə) Ramazan ayının ortasında göydən eşidiləcək bir səsdir, o səs eşidildiyində "boyun yerindən çıxar". (bu ifadə, insanın eşidəcəyi qorxunun şiddətini bildirir)**

• Numanı Abdullah ibn Sənandan belə rəvayət edir:

O deyir ki, İmam Cəfər Sadiqin yanında idim. Hamdanla bir adamın danışdığını eşitdim, adam deyirdi ki, bu insanlar bizi ayıblayaraq, "siz Sahibi hazel-Əmr adına birinin göydən səslənəcəyinimi düşünürsünüz?" deyirlər. İmam Sadiq arxası üstə söykənmişdi, "doğrudur" deyərək bunu təsdiqlədi və belə buyurduğuna şəxsən şahid oldum:

***"And olsun ki, bu Allahın kitabında mövcuddur: "İstəsək onların üstünə göydən... onlar boyun əyərlər" buyruğu ilə açıqlamışdır. Buna görə, o gün boyun əyməyən tək adam belə qalmaz. Dünya xalqı göydən gələn səsi eşidincə iman edərlər..."***

• İbnül-Mahyar Hənnan ibn Südeyrin rəvayətinə əsasən belə bildirir: "Bu ayə haqqında İmam Cəfər Sadiqdən soruşdum, o, buyurdu:

***"(Bu ayə) Məhəmməd oğulları Qaim haqqında nazil olmuşdur, onun haqqında göydən səs gələr"".***

• Şeyx Tusi Həsən ibn Ziyad Seykalın rəvayətinə görə, İmam Cəfər Sadiq (r.ə)-in belə buyurduğunu bildirir:

"Qaim qiyam etmədən əvvəl göydən biri səslənər, (bu səsi) pərdə arxasındakı qadınlar, şərqdəki və qərbdəki bütün insanlar eşidər. Bu ayə bu mövzuda nazil olmuşdur. "İstəsək onların üstünə göydən... və onlar boyun əyərlər".

• Şeyx Saduk Hüseyn ibn Xalidin rəvayətinə əsasən belə deyir: İmam Rza ona yönəldilən, siz Əhli-Beytdən olan Qaim kimdir? sualını belə cavabladı:

***"Oğullarımdan dördüncüsü, xanım nökərlərindən birisinin oğlu, onun adına göydən səslənilər, bu səsi bütün yer üzünün xalqı eşidər və bu səs (insanları) ona çağırar. Bilin ki, Allahın Hüccəti Allahın beyti yanında zühur etmişdir ona tabe olun, çünki haqq onunladır və ondadır. Allahın "İstəsək onların üstünə göydən ... və onlar ona boyun əyərlər" ayəsi buna işarə etmişdir.***

# MEHDİNİN ÜSTÜNLÜYÜ

• Əbu Bəsir İmam Cəfər Sadiq (r.ə)-dən o da atalarından gələn rəvayətə görə, Rəsulullah (s.ə.v)-in belə buyurduğunu bildirir:

***"Həqiqət budur ki, ...o ən üstün olandır, qiyam edəcək olandır.***

• Salman Farisi belə rəvayət edir:

***"...İçlərində ən yaxşı yol göstərəni, ən bilikli olanı və ən üstün olanı odur (hz. Mehdi).***

• Cabir ibn Abdullah Ənsari belə rəvayət edir:

"Peyğəmbər buyurdu: Allah Hüseynin soyundan seçdi.... **Ən alim olanı, ən hikmətlisidir".**

# "O BATDIĞI YERDƏN DOĞAN GÜNƏŞDİR"

• Şeyx Saduk Nezzal ibn Sabrətül - Kufidən belə rəvayət edir: **Möminlərin əmiri** hz. Əli (r.ə) ibn Sevhan və Əsbağ ibn Nübatənin suallarına cavab olaraq Dəccal və Dabbətül-Ərz haqqında geniş bir xütbə bəyan etmişdir. Bu xütbənin bir qismində belə buyurur:

***"... Dəccalı isə... Allah öldürücəkdir... Bir adamın əliylə (öldürəcək) hansı ki, Məryəm oğlu İsa Məsih o adamın arxasında namaz qılacaq... Bu günəş batdığı yerdən doğulduqdan sonra olacaq, belə bir zaman tövbə qaldırılacaq, qəbul edilməyəcək, əməl qəbul edilməyəcək və sonradan iman edən bir fayda əldə etməyəcək..."***

• Nəzzal ibn Səbrə deyir: "Saa ibn Sevhana imamın məqsədinin nə olduğunu soruşdum, o da belə cavab verdi:

"Məryəm oğlu İsanın arxasında dayanıb namaz qılacağı şəxs, itrətin (peyğəmbər ailəsinin) on ikincisi və Əli oğlu Hüseyn oğullarının doqquzuncusudur. **O batdığı yerdən doğan günəşdir.** Rükn ilə mövqe (ən əhəmiyyətli və lazımlı vaxtda Hacərül-Əsvəd ilə Kəbə qapısı) arasında ortaya çıxacaq, yer üzünü təmizləyəcək, ədaləti bərqərar edəcək və heç kim digərinə zülm edə bilməyəcək".

# ƏRZİN SAHİBLƏRİ MEHDİ VƏ SƏHABƏLƏRİDİR

And olsun, biz Zikrdən sonra Zəburda da: "Şübhəsiz, Ərzə saleh qullarım varisçi olacaq" deyə yazdıq. (Ənbiya surəsi, 105)

• İbni Mahyar deyir: Məhəmməd ibn Abdullah ibn Harranın etdiyi rəvayətə görə İmam Məhəmməd Baqir belə buyurmuşdu:

**"... Allah Təalanın "... saleh qullarım varis olacaq" buyruğundakı "saleh qullar" Məhəmməd oğullarıdır."**

• Şeyx Tusi İmam Məhəmməd Baqirin bu ayənin təfsirinə dair dediklərini belə izah edir:

**"Bu möminlərə yer üzünün hamısına varis olacaqlarına dair verilmiş bir sözdür".**

• Təbərsi İmam Məhəmməd Baqirin bu ayənin təfsirinə dair dediklərini belə izah edir:

**"Onlar Axırzamanda Mehdinin səhabələridir".**

• Süleyman Kunduzi: İmam M. Baqir və İmam C. Sadiq buyururlar:

**"Ayədəki "saleh qullarımda" məqsəd Qaim və səhabələridir".**

• Təbəri Abdullah ibn Abbas bu rəvayətini belə bildirmişdir:

***"Allah Təala əzəli elminə söykənərək Tövrat və Zəburda yer üzünə Məhəmməd ümmətinin varis olacağını və onları cənnətə aparacağını, onların yaxşı qullar olduğunu bildirmişdir".***

• Qummi əb-il-Carud rəvayətinə əsasən İmam Məhəmməd Baqirin yuxarıdakı ayənin təfsirinə dair dediklərini belə izah edir:

***"...Allah Mehdi və səhabələrinə yer üzünün şərqlərinin və qərblərinin hakimiyyətini verər, dini ortaya çıxarar və Allah o və səhabələrinin vasitəçiliyi ilə batil bidətləri ortadan qaldırar, eynilə, haqqın öldürüldüyü kimi, zülmdən də heç bir əsər-əlamət qalmaz".***

# HAQQ MÜŞRİKLƏR İSTƏMƏSƏ DƏ DİNİ YER ÜZÜNƏ HAKİM EDƏCƏK

Müşriklər istəməsə də O, dini (İslamı) bütün dinlərə üstün etmək üçün elçisini hidayətlə və haqq dinlə göndərən Odur. (Tövbə surəsi, 33)

Ki O, elçilərini hidayətlə və haqq din ilə, digər bütün dinlərə qarşı üstün etmək üçün göndərdi. Şahid olaraq Allah yetər. (Fəth surəsi, 28)

Elçilərini hidayət və haqq din üzrə göndərən Odur. Belə ki onu (haqq din olan İslamı) bütün dinlərə qarşı üstün edəcək, müşriklərin xoşuna gəlməsə belə. (Saff surəsi, 9)

• Şeyx Saduk Əbu Bəsir İmam Cəfər Sadiqin bu ayə ilə (Tövbə surəsi-33) əlaqədar olaraq buyurduğunu belə rəvayət etmişdir:

"... **Bu ayənin şərhi ancaq Mehdi zühur edəndə reallaşacaq.** Qaim ortaya çıxanda Allaha qarşı kafir və ya müşrik olan bir adam belə qalmayacaqdır... Hətta bir kafir və ya müşrik bir qayanın içinə gizlənmiş olsa belə, o qaya: "Ey mömin, mənim içimdə bir kafir gizlənmişdir, məni qır və onu öldür" - deyə qışqıracaq.

• Fəzl ibn Şazan öz sənədi ilə İmam Məhəmməd Baqirin belə buyurduğunu rəvayət edir:

"Qaim bizdəndir... (Allahın) köməyi ilə müəyyəd olub (qüvvətləndirilib) tayyül-ərz edəcək. **Yeraltı xəzinələri ona görə üzə çıxacaq və Allah onunla dinini, müşriklər istəməsə də, bütün dinlərin üstünə çıxaracaq".**

• Küleyni Məhəmməd ibn Füzeyldən belə rəvayət etmişdir: İmam Musa Kazıma bu ayə **(Tövbə surəsi-33) ilə əlaqədar** bir sual verdim, o da belə buyurdu:

"... O Allah ki, əmr etdi Rəsuluna qəyyumunun vəlayətini, vəlayət isə haqq dindir... **O, dini Qaim qiyam etdiyi zaman bütün dinlərin üstünə keçirəcək..."**

• Əl-Kənçi Şafii bu ayənin (yuxarıdakı ayələr) təfsiri ilə əlaqədar olaraq Səid ibn Cübeyrin belə dediyini bildirmişdir:

**"...O Fatimə (r.ə) soyundan olan Mehdidir".**

• Şeyx Saduk Əbdürrəhman ibn Selitin rəvayətinə əsasən İmam Hüseynin bu ayənin (yuxarıdakı ayələr) təfsirinə dair belə buyurduğunu deyir:

**"...O haqq üzrə qaim olan imamdır. Müşriklər istəməsə də, onun əliylə haqq dini bütün dinlərin üstün qılacaqdır".**

• Suyutinin dediyinə görə, Səid ibn Mansur ibnəl -Münzir və Bəyhaki Cabir ibn Abdullah Ənsarinin bu ayə (yuxarıdakı ayələr) haqqında belə buyurduğunu rəvayət etmişlər:

**"...Yəhudi xristian və ya başqa millətdən, İslamı qəbul etməyən tək bir adam belə qalmaz... və bu Məryəm oğlu İsa endiyi zaman olar...."**

# YER ÜZÜNƏ VARİS QILINANLAR ƏHLİ-BEYT VƏ MEHDİDİR

Biz isə yer üzündə aciz buraxılanlara lütf etmək (mərhəmət göstərmək), onları öndərlər etmək və varislər etmək istəyirik. (Qəsas surəsi, 5)

• Şeyx Saduk Mufazzal ibn Ömərin rəvayətinə əsasən İmam Cəfər Sadiqin belə buyurduğunu deyir:

Rəsullulah Əli, Həsən və Hüseynə baxırdı, gözləri yaşararaq buyurdu:

***"Məndən sonra sizlər zəiflədiləcəksiniz".***

*Mufazzəl deyir: "Ey Allah Rəsulunun oğlu bunun mənası nədir? – deyə soruşdum. O da belə buyurdu: "Mənası budur ki:* ***"... və istəyirik ki ... və onları varis qılaq" məhz bu ayə qiyamət gününə qədər bizim üçün etibarlıdır".***

• Şeyx Tusinin dediyinə görə, Hüseyn ibn Əli ibn Hüseyn babası Əli ibn Əbu Talibin əsas mövzu olan ayənin təfsirinə dair belə buyurduğunu rəvayət etmişdir:

***"Onlar Məhəmməd oğullarıdır, Allah onlardan olan Mehdini (uzun) səylərindən sonra vəzifələndirəcək, onları əziz (hörmətli) və düşmənlərini isə zəlil edəcək".***

# GÖYLƏRDƏ VƏ YERDƏ HƏR KƏSİN ONA TƏSLİM OLMASI

• Ayyaşi İbni Bükeyrin İmam Musa Kazıma belə rəvayət etdiyini deyir:

"Yaxşı, onlar, Allahın dinindən başqa bir dinmi axtarırlar? Halbuki, göylərdə və yerdə hər nə varsa –istəsə də, istəməsə də– ONA təslim olmuşdur və ONUN hüzuruna qayıdacaqlar " (Ali-İmran surəsi, 83) – ayəsiylə əlaqədar soruşdum, o da belə buyurdu:

***"Qaim haqqında nazil olmuşdur. Zühur etdiyi vaxt yer üzünün şərqində və qərbində (hər yerdə) yaşayan yəhudi, xristian, ulduza tapınanlar, dinsiz, mürtəd və kafirləri İslam dininə dəvət edəcək, öz istəyi ilə təslim olanlara namaz, zəkat və müsəlmanlara əmr edilən Allahın vacib etdiyi əməlləri əmr edəcək. Təslim olmayanların isə boyunlarını vuracaq, beləliklə, şərqdə və qərbdə Allahı bir olaraq qəbul etməyən heç kim qalmayacaq".***

# MEHDİNİN QORUNAN SƏHABƏLƏRİ VARDIR

• Numanı Süleyman ibn Harun əl-İclinin rəvayətinə əsasən belə deyir:

İmam Hüseynin belə buyurduğunu eşitdim:

"Bu əmrin sahibinin (İmam Mehdinin) qorunan səhabələri vardır. **İnsanların hamısı onu tərk etsə belə, Allah bu səhabələrini ona göndərəcək, məhz bunlar barəsində Allah:**

**"Onlar Bizim kitab, hökm və peyğəmbərlik verdiyimiz kimsələrdir. Əgər (indi), bunlar bu dəlilləri dansalar, Biz onlara həmin dəlilləri inkar etməyən bir tayfanı müvəkkil edərik (onların yerinə dəlillərimizi inkar etməyəcək bir zümrə gətirərik)". (Ənam surəsi, 89)** -ayəsini nazil buyurmuş və yenə onlar haqqında: **"Ey iman gətirənlər! Sizdən hər kəs dinindən dönsə, (bilsin ki) Allah (onun yerinə) elə bir tayfa gətirər ki, (Allah) onları, onlar da (Allahı) sevərlər. Onlar möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olar, Allah yolunda vuruşar və heç kəsin tənəsindən qorxmazlar. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah (öz lütfü ilə) genişdir, (O, hər şeyi) biləndir!" (Maidə surəsi, 54)-buyurmuşdur.**

# İBLİSİN MÜDDƏTİNİN BİTDİYİ GÜN MEHDİNİN GƏLDİYİ GÜNDÜR

**(Allah) dedi: "Sən, şübhəsiz, ki, möhlət verilənlərdənsən, o bilinən vaxt gününə qədər". (Hicr surəsi, 37- 38)**

• Ayyaşi deyir ki, İshak ibn Ammarın köləsi Vəhb ibn Cumayın rəvayətinə əsasən İmam Cəfər Sadiqdən soruşdum: **"Şübhəsiz, ki, sən möhlət verilənlərdənsən, o bilinən vaxt (məlum olan) gününə qədər"** -ayəsindəki gün hansı gündür? O, buyurdu:

**"Ey Vəhb! O günün, Allahın insanları dirildəcəyi gün olduğunumu sanırsan? Şübhəsiz ki, Allah ona (iblisə) bizdən olan Qaimin (Mehdinin) qiyam edəcəyi günə qədər möhlət ver**mişdir. Allah Qaimimizi vəzifələndirdiyi zaman Kufə məscidində ikən iblis gəlib qarşısında əlləri üstə qalxar və " bu günə təəssüflər olsun" - deyər. (İmam) İblisin saçlarından tutub boynunu vurar. Məhz o gün **bilinən vaxtdır.**

# ŞEYTANIN ƏZİYYƏT VERMƏSİ

• Fəzl ibn Şazan Cabiri ibn Abdullah Ənsarinin rəvayətinə əsasən belə buyurur:

*"Xeybər yəhudisi olan Cünbəl ibn Cünadə Rəsulullahın hüzuruna gəldi... Dedi ki, İmran oğlu Musa bizə, sizi və sizin soyunuzdan qəyyumları müjdələmişdir. (Buna cavab olaraq) Rəsulullah: **"Allah sizdən inanıb..." (Nur surəsi-55)** ayəsinin tilavət buyurdu. Cündəl: "nədən qorxurlar?" -deyə soruşanda (Rəsulullah) buyurdu: "Ya **Cündəl! Onların hər birinin dövründə bir şeytan olar, onlara əziyyət edər, çətinliyə** salar. Lakin Allah Hüccətə (İmam Mehdiyə) zühur icazəsi verəndə yer üzünü zalımlardan təmizləyər və (dünyanı) zülm, haqsızlıqla dolduğu kimi onu haqq-ədalətlə doldurar."*

# ALLAHIN MEHDİNİ GÖRÜNMƏZ ORDULARLA DƏSTƏKLƏMƏSİ

**Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə – yalnız Mənə ibadət edərlər, heç nəyi Mənə şərik qoşmazlar deyə – onları özlərindən əvvəlkilər kimi yer üzünün varisləri edəcəyini (İsrail övladını yer üzündə kafirlərin yerinə gətirdiyi kimi, onları da, müşriklərin yerinə gətirəcəyini), onlar (möminlər) üçün, onların Allahın Özü bəyəndiyi dinini (islamı) möhkəmləndirəcəyini (hər tərəfə yayacağını) və onların qorxusunu sonra əmin-amanlıqla (arxayınçılıqla) əvəz edəcəyini vəd etmişdir. Bundan sonra küfr edənlər, şübhəsiz ki, (Allahın itaətindən çıxmış) əsl fasiqlərdir! (Nur surəsi-55)**

• Əbu Mənsur Təbərsi möminlərin əmiri olan Əlinin belə buyurduğunu yazır:

**"... Və Haqqın vədi yaxınlaşır, hansı ki, Allah kitabında: "Allah inanıb yaxşı işlər görənlərə vəd etmişdi..." buyruğu ilə açıqlamışdır. Bu İslamın yalnız adı və Quranın yalnız rəsmi qaldığı zaman reallaşar... Bu reallaşanda Allah görünməz orduları ilə ona kömək edər və peyğəmbərin dinini onun əlləriylə (onun vəsiləsi ilə) bütün dinlərə üstün edər, müşriklər xoşlanmasa belə..."**

***• Hz. Mehdi (ə.s) uzun bir müddət qeyb olduqdan sonra Məkkədə, Kəbənin yaxınlığında zühur edəcək. Peyğəmbərin bayrağı, qılıncı, sarığı və köynəyi ondadır. Mələklər vasitəsiylə ona kömək ediləcək, İslam düşmənlərini öldürəcək və zalımlardan intiqam alacaq.*** *(Biharul-Envar, 52-ci cild, səh. 279 və 53-cü cild, səh. 12, İkmalud-din, 2-ci cild, səh. 367)*

• Ayyaşi Züreys ibn Abdulməlikdən olan rəvayətə görə, İmam Məhəmməd Baqirin belə buyurduğunu deyir:

"Bədr günü yer üzündə Məhəmməd (s.ə.v)-ə kömək edən, bir daha da kömək etməyən mələklər, bu işi sahibinə (Mehdiyə) kömək edənə qədər başqa heç bir kömək etməzlər, bunların sayı beş mindir."

# MEHDİNİN SƏHABƏLƏRİ

**Harada olursunuz olun Allah sizin hamınızı (bir yerə) yığacaqdır. (Bəqərə surəsi,148)**

• Təbəri Saqir Əbu Bəsirin etdiyi rəvayətə görə, İmam Cəfər Sadiqin belə buyurduğunu deyir:

"Bunu Allahın Elçisi möminlərin əmirinə yazdırmışdır və Mehdinin səhabələrinin sayını və adlarını təyin edərək ona əmanət etmişdir.

... Bədr əhli (döyüşçüləri)-nin sayı qədər, üç yüz on üç nəfərdirlər. Allah onları bir cümə gecəsi Məkkəyə yığacaq. O cümənin səhəri günü hamısı Məscidül-Haramda bir yerə yığılacaqlar. Ayənin şərhi məhz bundan ibarətdir. Allahualəm... **Onlar nəcib insanlardan, hakimlərdən, idarəçilərdən və din alimlərindən meydana gələr..."**

• Fəzl ibn Şazan Abdullah ibn Sinanın rəvayətinə görə, İmam Cəfər Sadiqin belə buyurduğunu bildirir:

*"Yataqlarından (evlərindən) qeyb olanlar üç yüz on üç nəfərdir, Bədr əhlinin (Bədr döyüşünə qatılan müsəlmanların) sayı qədərdir. Məkkədə səhərləyərlər. Allahın bu (yuxarıdakı) ayəsi buna işarədir, onlar Qaim Mehdinin səhabələridirlər".*

• Ayyaşi Cabir ibn Yezid Cüfidən edilən rəvayətə görə, İmam Cəfər Sadiqin belə buyurduğunu deyir:

"Allaha and olsun ki, **aralarında əllisi qadın olan üç yüz ondan artıq adam daha əvvəl aralarında danışmadan, sözləşmədən, payız buludu kimi bir yerə yığışarlar...** Allahın: "... Harada olursunuz olun Allah sizin hamınızı (bir yerə) yığacaqdır ..." buyurduğu ayə məhz buna işarədir.

• Ayyaşi Mufazzəl ibn Ömərin rəvayətinə əsasən, İmam Cəfər Sadiqin belə buyurduğunu deyir:

"İmam Mehdiyə icazə veriləndə Allaha İbranicədəki böyük adıyla (İbranicə adı ƏZƏM ilə) səslənər, ona üç yüz on üç nəfər səhabə göndərilər, son bahar buludu kimi bir yerə yığılarlar. Onlar vəlayət əhlidirlər. İçlərindən kimi bir gecə yatağından qeyb olar Məkkədə səhərləyər... Onlar qeyb olanlardır (itmişlərdir) və bu ayə onların haqqında nazil olmuşdur: **... harada olursunuz olun Allah sizin hamınızı (bir yerə) yığacaqdır ..."**

• Şeyx Saduk Abdüləzim Həsənin rəvayətinə əsasən belə bildirir: Məhəmməd ibn Əli ibn Musa (İmam M.Təqi)-ya: “Sizin Məhəmməd Əhli-Beytinin, yer üzünün, zülm və haqsızlıqla dolmuşkən haqq-ədalətlə dolduracaq Qaim olmanızı diləyirəm” - dedim, o da belə buyurdu: "Allahın onunla yer üzünü küfr əhlindən təmizləyib haqq-

ədalətlə dolduracağı Qaiminin dünyaya gəlişi gizli olar və insanların gözündən qeyb olar... Allah Bədr əhlinin sayı qədər olan üç yüz on üç nəfər səhabələrini dünyanın uzaq bölgələrindən bir yerə yığar. Məhz Allahın bu ayəsi buna işarədir. O Qaimin bu saydakı səhabələri bir yığıldıqda Allah əmrini açıqlayacaq... **Xəbərdarlıq təkmil olunca da (bitincə) Allahın izniylə on min adam (birdən) toplanacaq..."**

***And olsun, Əgər onlara gələcək əzabı az bir müddət yubatsaq, sözsüz ki, (istehza ilə): "Bu əzabı gecikdirən (ona mane olan) nədir?" - deyəcəklər. Bilin ki, əzab onlara gələcəyi gün dəf olunmaz. Məsxərəyə qoyduqları əzab onları məhv edər. (Hud surəsi, 8)***

• Qummi Hişam ibn Ammar atasından olan canlı rəvayətinə görə, **hz. Əli bu ayə ilə əlaqədar belə buyurduğunu deyir**:

**"Sayıla bilən ümmət, Qaimin səhabələridir.** Üç yüz ondan artıq (kəslərdir)".

• Ayyaşi Abdül-Ala Cəbəlinin rəvayətinə əsasən İmam Məhəmməd Baqirin belə buyurduğunu deyir:

**"Qaimin səhabələri üç yüz ondan artıq adamdır, Allaha and olsun ki, onlar, Allahın kitabında buyurduğu (Hud surəsi, 8) sayıla bilən (az sayda) ümmətdirlər.** Bir saat içində bir yerə yığışarlar, eynilə payız buludları kimi..."

**"Şübhəsiz ki, sayıla bilən ümmət Mehdinin Axırzamandakı üç yüz ondan çox olan səhabələridir.** Bədr əhli kimidirlər. Payız buludunun qısa müddətdə bir yerə toplandığı kimi, onlar da bir saat içində bir yerə toplanarlar".

• Numanı İshak ibn Əbdüləzizin rəvayətinə əsasən, İmam C. Sadiq bu ayə ilə əlaqədar belə buyurduğunu bildirir:

**"Əzab: Qaimin zühurudur, sayıla bilən ümmət Bədr əhlinin sayı qədərdir və (onlar da) Mehdinin səhabələridir".**

• Dostları igid, şücaətli, saleh, imanlı insanlardır, ona itaət edərlər, hara və hansı işə yönəlsələr, mütləq orada zəfər qazanarlar... (Biharul-Envar, 52-ci cild, səh. 279 və 53-cü cild, səh. 12 İkmalud- Din, 2-ci cild, səh. 367)

# MEHDİ YER ÜZÜNÜ BƏRABƏRLİK VƏ ƏDALƏTLƏ DOLDURACAQ

• "Sizə Mehdini müjdələyirəm, xalqlar bir-birləri ilə anlaşılmamamazlıq və döyüş içində ikən göndəriləcək və yer üzünü zülm və haqsızlıq ilə dolduğu kimi, bərabərlik və ədalətlə dolduracaq."

• Fəzl ibn Şazan Cabir ibn Abdullah Ənsarının belə rəvayət etdiyi deyir:

*"Xeybər yəhudisi olan Cündel ibn Cünadə Rəsulullah (s.ə.v)-in hüzuruna gəldi... Belə dedi: "İmranoğlu Musa bizə, sizi və sizin soyunuzdan qəyyumlarını müjdələmişdir. Sonra Rəsulullah (s.ə.v)* ***"Allah sizdən inanıb yaxşı işlər görənlərə vəd etmişdir ki,....." (Nur Surəsi, 55)*** *ayəsini buyurdu. Cündəl: "Nədən qorxurlar?" - deyə soruşanda peyğəmbərimiz belə cavab verdi: "Ya Cündəl! Onların hər birinin zamanında bir şeytan olar, onlara əziyyət edər, çətinliyə salar.* ***Lakin Allah Hüccətə (İmam Mehdiyə) zühur icazəsi verəndə yer üzünü zalımlardan təmizləyər, zülm və haqsızlıq ilə dolu olan dünyanı, haqq-ədalətlə doldurar."***

• Əbu Əli Təbərsi Ayyaşinin öz sənədiylə etdiyi rəvayətə əsasən belə buyurdu: Hz. Əli ibn Hüseyn (Zeynəlabidin) (r.ə) bu ayəni oxuyaraq belə buyurdu:

*"Onlar (and olsun Allaha ) Əhli-Beytin ardınca gedənlərdir, Allah bunu onlara bizdən olan bir adamın vəsiləsiylə hasil edəcək, O bu ümmətin Mehdisidir. Rəsulullah (s.ə.v) onun haqqında belə buyurmuşdur: "Dünyanın sona çatmasına yalnız bir gün qalsa belə, Allah o günü* ***fitrətimdən adı mənim adımla eyni olan bir adam ortaya çıxanadək və dünyanı, zülm və haqsızlıq ilə dolmuşkən haqq-ədalətlə doldurana kimi uzadar".***

• Şeyx Saduk buyurur: Hüseyn ibn Xaliddən olan rəvayətinə görə, İmam Rza: "Ey Rəsulullahın oğlu! Siz Əhli-Beytdən olan Qaim kimdir?"-deyə soruşdu, o da belə cavab verdi:

"Oğullarımın dördüncüsünün cariyədən olan oğludur. **Allah onun vasitəsi ilə yer üzünü hər cür haqsızlıqdan və zülmdən təmizləyəcək.** Onun doğumu ilə əlaqədar (doğulub doğulmadığına dair) insanlar şübhəyə düşəcəklər. Ortaya çıxmamışdan əvvəl qeybi olacaq. Ortaya çıxdığı zaman da yer üzü onun nuru ilə parlayacaq. **İnsanlar arasında ədalət tərəzisi qurulacaq kimsə kimsəyə zülm etməyəcək...."**

<u>Necə ola bilər ki, onlar (kitab əhli) Allahın dinindən başqa bir din axtarsınlar? Halbuki, göylərdə və yerdə olanlar istər-istəməz Ona (Allaha) təslim olmuşlar və Onun hüzuruna qayıdacaqlar. (Ali-İmran surəsi, 83)</u>

• Fəzl ibn Şazan Hişam ibn Həkəmin rəvayətinə görə, İmam Cəfər Sadiqin belə buyurduğunu bildirir:

***"Qaim (İmam Mehdi) qiyam edəcəyi vaxt ədalətlə hökm edəcək... Bütün haqları öz sahiblərinə geri qaytaracaq, müsəlman olub imanını etiraf etməyən heç bir din əhli qalmayacaq. Allah Təalanın bu buyruğunu eşitmədinmi?: "...və ona təslim olacaq..."***

<u>" De: "Hamı gözləyir, siz də gözləyin. Siz kimin doğru yolda olduğunu və kimin haqq yola yönəldiyini tezliklə biləcəksiniz!" (Taha surəsi, 135)</u>

• İbni Mahyar İsa ibn David əl-Nəccarinin etdiyi rəvayətə görə, İmam Musa Kazımın belə buyurduğunu dedi:

"Allahın: "**.... Siz kimin doğru yolda olduğunu və kimin haqq yola yönəldiyini tezliklə biləcəksiniz "** - buyruğu haqqında atamdan soruşdum, o da belə cavab verdi: "Düz yol Qaimdir və doğru yolda olan Mehdidir."

**Orada açıq-aşkar ayələr (nişanələr) (və) İbrahimin məqamı vardır. Kim oraya girsə o əmin-amanlıq içindədir (təhlükəsizlikdədir)... (Ali-İmran surəsi- 97)**

• Şeyx Sadukun dediyinə görə, Əbu Züheyr ibn Şabib, İmam C. Sadiqin səhabələrindən bəziləri həzrətlərinin belə buyurduğunu rəvayət edir:

"Allahın: "... **Kim oraya girsə, o əmin-amanlıq içindədir**" - buyruğu "Kim onunla (Mehdi Qaim ilə) beyət edər, onun səhabələri arasına qatılar, əlini onun əlinə sürtər əmin-amanlıqdda olar." mənasını verir.

**(Ey insanlar!) Bilin ki, Allah torpağa öldükdən sonra təzədən can verir. Bəlkə ağılınızı istifadə edəsiniz deyə biz ayələri sizə belə müfəssəl izah etdik (açıqladıq). (Hədid surəsi, 17)**

• Numani Əhməd əl-Meysəminin rəvayətinə əsasən, səhabələrindən biri İmam Cəfər Sadiqin belə buyurduğunu demişdir:

" **Bilin ki, Allah torpağa öldükdən sonra yenidən can verir**..." - yəni Allah yer üzünü, Qaimin zühur etdiyi vaxt, pozğun idarəçilərin zülmlərlə ölü (halına) gətirdiyi kimi, onun ədaləti ilə canlandıracaq".

# MEHDİ DÖVRÜNDƏ BAŞ VERƏCƏK BƏZİ HADİSƏLƏR

• İmam Sadiq (ə.s) belə buyurmuşdur:

***"Şübhəsiz ki, Qaim (hz.Mehdi) dövründə bir mömin şərqdə olsa, qərbdə olan qardaşı onu görəcək. Beləliklə, qərbdə olsa şərqdə olan qardaşı onu görə biləcək.*** *(Biharul-Envar, 52-ci cild, səh. 391)*

***• İmam Mehdi (ə.s) dünyanın şərq və qərbini fəth edib İslamı dünyanın dörd bir tərəfinə yayacaq və qalib edəcək... Allah Təala insanlara elə bir güc verəcək ki, hər kəs olduğu yerdə onun sözlərini eşidəcək və İmam Mehdi (ə.s) İslama həyat verəcək...*** *(Biharul-Envar, 52-ci cild, səh. 279 və 53-cü cild, səh. 12 İkmalud- Din, 2-ci cild, səh. 367)*

• Rəsulullah (s.ə.v) belə buyurdu:

*"Yer üzündə elə bir çadır və ya ev qalmayacaq ki, Allah izzətlə və ya zillətlə İslam sözünü (kəlmeyi-şəhadəti) oraya daxil etməsin"* (Mecmaul Bəyan, 4-cü cild, səh. 152)

**"Əgər möminsinizsə (iman gətirirsinizsə), (bilin )(ki,) Allahın saxladığı sizin üçün daha xeyirlidir. Mən sizin üstünüzdə gözətçi deyiləm”.." (Hud surəsi - 86)**

• Fəzl ibn Şazan Məhəmməd ibn Hamranın rəvayətinə əsasən İmam Cəfər Sadiqin belə buyurduğunu deyir:

"...Belə bir vəziyyətdə bizdən olan Qaim ortaya çıxar, çıxdığı vaxt arxasını Kəbəyə söykəyər və yanına üç yüz on üç adam toplanar. İlk deyəcəyi ayə də bu olar: ***"Əgər möminsinizsə (iman gətirirsinizsə), (bilin )(ki,) Allahın saxladığı sizin üçün daha xeyirlidir".*** Sonra isə: "*Allahın saxladığı mənəm, mən Onun nümayəndəsi və xəlifəsiyəm"* -deyər. Ona təslim olan hər kəs də: *"Salam olsun sənə, ey yer üzündəki Baqiyətullah"* - deyərək ona salam verər.

• Şeyx Tusi Hüseyn ibn Əlinin rəvayətinə əsasən Hüseynin babası Əli ibn Əbi Talib (r.ə)-in bu ayənin təfsirinə aid bildirdiyi şərhi belə izah edir:

***"Onlar Məhəmməd (s.ə.v)-in oğullarıdır, Allah onlardan olan Mehdini (uzun) səylərdən sonra vəzifələndirəcək, onları əziz (hörmətli) və düşmənlərini zəlil edəcək".***

# ƏLAVƏ

# - I HİSSƏ -

# HZ. MEHDİNİN ÇIXIŞINDAN ƏVVƏL MEYDANA GƏLƏCƏK ƏLAMƏTLƏR (AXIRZAMAN ƏLAMƏTLƏRİ)

***Bir fitnə görünər, BUNU DİGƏR FİTNƏLƏR İZLƏYƏR.*** *(Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, səh. 26)*

**Onların bir çoxunu günah işləməyə, düşmənçilik etməyə və haram yeməyə tələsən görərsən... (Maidə surəsi, 62)**

***Məğribdə (Qərbdə) qarışıqlıqlar, fitnələr və qorxu olacaq... FİTNƏLƏR ÇOXALACAQ.*** *(Ölüm-Kıyamet-Ahiret ve Ahir Zaman Alametleri, səh. 440)*

O kəslər ki, məmləkətlərdə tüğyan edir, oralarda çoxlu fitnə-fəsad törədirlər. (Fəcr surəsi - 11, 12)

***HEÇ BİR TƏRƏFİN ONDAN MƏHFUZ QALMAYACAĞI BİR FİTNƏ (gizli qalmayacağı bir fitnə) zühur edəcək, bu fitnə qaldığı yerdən dərhal başqa bir tərəfə yayılacaq.*** *(El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 21-22)*

**Sizdən təkcə zalımlara toxunmayacaq (pis əməllərin nəticəsində hamının başına gələcək) bəladan qorxun... (Ənfal surəsi, 25)**

***... Bu FİTNƏ QALDIĞI YERDƏN DƏRHAL BAŞQA BİR TƏRƏFƏ YAYILACAQ.***

*(El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 21-22)*

**Oralarda çoxlu fitnə-fəsad törədirlər. (Fəcr surəsi, 12)**

***Qiyamətdən öncə, QARANLIQ GECƏLƏR KİMİ FİTNƏLƏR VARDIR.***

*(Ramuz-El Ehadis, 121/5))*

**Ya da (inkar edənlərin əməlləri) böyük bir dənizdəki QARANLIQLARA BƏNZƏYƏR...** (Nur surəsi, 40)

**... Onları nurdan QARANLIQLARA SALARLAR. ... (Bəqərə surəsi, 257)**

***Millətlər arasında ticarət və YOLLAR KƏSİLƏCƏK...***

*(El Kavlu-l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 39-40)*

**... HƏR YOLU (BAŞINI) kəsib-oturmayın... (Əraf surəsi - 86)**

*Bir insan QARDAŞINI ÖLDÜRMƏDİKCƏ qiyamət qopmaz.*

*(Kıyamet Alametleri, səh. 141)*

Nəfsi onu qardaşını öldürməyə sövq etdi, beləliklə onu öldürdü, ... (Maidə surəsi, - 30)

*... və qırğınlara yerdə və göydəkilər artıq DÖZMƏYƏCƏK BİR HALA GƏLƏNDƏ zühur edəcək... (El-Kavlu-l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 37)*

... Onlara elə bir yoxsulluq, elə DÖZÜLMƏZ BİR ÇƏTİNLİK ÇATDI və elə sarsıldılar ki...(Bəqərə surəsi, 214)

CİNAYƏTLƏR ARTMADIQCA... qiyamət qopmaz.

*(Ölüm Kıyamet ve Diriliş, səh. 468)*

Sonra (yenə) siz, BİR-BİRİNİZİ ÖLDÜRÜR, ...(Bəqərə surəsi - 85)

*Qiyamətə lap yaxın ANARXİYA VƏ QARIŞIQLIQ GÜNLƏRİ VARDIR.*

*(Suyuti, Cami'üs Sagir, 3/211; Ahmed bin Hanbel, Müsned, 2/492)*

"O kəslər ki, yer üzündə fitnə-fəsad törədər və (pis işlərdən, günah əməllərdən əl çəkib özlərini) islah etməzlər!" (Şuəra surəsi, 152)

*HARAM OLAN ŞEYLƏRİN HALAL SAYILMASI... qiyamət əlamətlərindəndir.*

*(Ölüm-Kıyamet-Ahiret ve Ahir Zaman Alametleri, səh. 454)*

Onların bir çoxunu günah işləməyə, düşmənçilik etməyə və haram yeməyə tələsən görərsən ... (Maidə surəsi, 62)

*Mehdi bütün HARAMLARIN HALAL SAYILDIĞI böyük bir fitnədən sonra çıxacaq.*

*(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 23)*

...Beləliklə, Allahın HARAM ETDİYİNİ HALAL ETMİŞ olurlar. (Tövbə surəsi, 37)

***FAİZİN AÇIQ-AŞKAR OLMASI qiyamət əlamətlərindəndir.*** *(Ramuz-El Ehadis, 448/8)*

***İnsanlar üzərinə elə bir dövr gələr ki, (elə bir dövrdə yaşayarlar ki), FAİZ YEMƏYƏN ADAM QALMAZ. Onu yeməsə belə, ona tozu isabət edər (dəyər).***

*(Ramuz-El Ehadis, 360/8, 503/7)*

**... Bunların belə olmaları: "Alış-veriş də faiz kimi bir şeydir!" - dediklərinə görədir... (Bəqərə surəsi, 275)**

***Böyük ŞƏHƏRLƏR DÜNƏN ELƏ BİL YOXMUŞ KİMİ HƏLAK (MƏHV) OLAR.***

*(Kitabül Burhan Fi Alametil Mehdiyyil Ahir Zaman, səh. 38)*

**... ŞƏHƏRLƏRDƏN (BİR ÇOXUNU) MƏHV ETDİK ... (Əhqaf surəsi, 27)**

***ALİMLƏR ELMİ SIRF PUL QAZANMAQ ÜÇÜN ÖYRƏNƏNDƏ... DİNİ DÜNYALIQ QARŞILIĞINDA SATANDA... HÖKMÜ SATANDA...*** *qiyamət yaxınlaşmış olacaq. (Ölüm Kıyamet ve Diriliş, səh. 480)*

**Vay o kəslərin halına ki, öz əlləri ilə (istədikləri kimi) kitab yazıb, sonra (onun müqabilində) bir az pul almaqdan ötrü: "Bu, Allah tərəfindəndir!" - deyirlər... (Bəqərə surəsi, 79)**

***DİLLƏRİ ŞƏKƏRDƏN ŞİRİN...*** *(Tirmizi, Zühd, 60)*

**... DANIŞDIĞI ZAMAN DA ONLARA QULAQ ASIRSAN. Halbuki, onlar (sütun kimi) söykənilmiş taxta-kötük kimidirlər... (Munafiqun surəsi, 4)**

**... SÖZLƏRİ SƏNİN XOŞUNA GƏLƏR... (Bəqərə surəsi, 204)**

***... Lakin ÜRƏKLƏRİ QURD ÜRƏYİ KİMİ BƏRK olacaq.*** *(Tirmizi, Zühd, 60)*

**Sonra bunun ardınca sizin qəlbləriniz sərtləşib daş kimi, hətta ondan da sərt oldu... (Bəqərə surəsi, 74)**

*Qiyamətdən əvvəl iki böyük hadisə vardır... və sonra da ZƏLZƏLƏLİ İLLƏR.*

*(Ramuz-El Ehadis, 187/2)*

Yer titrəyib lərzəyə gələcəyi zaman. Yer öz yükünü bayıra atacağı və insan: "Ona nə olub?"- deyəcəyi zaman - (Zəlzələ surəsi, 1-3)

*ACLIQ VƏ BÖHRAN (dolanışıq çətinliyi) olduqca yayılacaq.*

*(Ölüm-Kıyamet-Ahiret ve Ahir Zaman Alametleri, səh. 440)*

... onları DÖZÜLMƏZ BİR MÜSİBƏTƏ (YOXSULLUQ) və çətinliyə salmışıq...

(Əraf surəsi, 94)

*İŞLƏRİN KASAD GETMƏSİ (durğun olması). Hər kəs "sata bilmirəm, ala bilmirəm, qazana bilmirəm!" deyə şikayətlənəcək.*

*(Kıyamet Alametleri, səh. 152)*

*Bazarın durğun olması, QAZANCLARIN AZALMASI...*

*(Kıyamet Alametleri, səh. 148)*

... onları DÖZÜLMƏZ ÇƏTİNLİYƏ (YOXSULLUĞA) və sıxıntıya düçar etdik... (Ənam surəsi, 42)

... Onları (şiddətli) fəlakət və sıxıntı elə bürümüş, elə sarsılmışdılar ki...

(Bəqərə surəsi, 214)

*KASIBLAR ÇOXALACAQ.*

*(Ölüm-Kıyamet-Ahiret ve Ahir Zaman Alametleri, səh. 455)*

... Allah da həmin şəhərə (sakinlərinin) etdikləri əməllərə görə aclıq və qorxu bəlası daddırdı. (Nəhl surəsi, 112)

***İnsanlar 95-ci ilə qədər malik olacaq, yəni işləri yaxşı gedəcək, 97 və ya 99-cu illərdə MÜLKLƏRİ ZAİL OLACAQ (əllərindən çıxacaq, yox olacaq)...*** *(El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 54)*

**... (İllərlə) qıtlığa, quraqlığa və məhsul çatışmazlığına məruz qoyduq ki, bəlkə düşünüb ibrət alsınlar! (Əraf surəsi, 130)**

***Adam MÖMİN OLARAQ SƏHƏRLƏYİB, KAFİR OLARAQ GECƏLƏYƏCƏK, mömin olaraq gecələyib, kafir olaraq səhərləyəcək.*** *(Kur'an ve Sünnette Kıyamet ve Ahiret, səh.155)*

**... Onlar inkar sözünü söyləmişlər və İSLAMI QƏBUL ETDİKDƏN SONRA İNKARA DÜŞMÜŞLƏR (kafir olmuşlar)... (Tövbə surəsi, 74)**

**... Siz iman gətirdikdən sonra kafir oldunuz... (Tövbə surəsi, 66)**

***Yaxşılığı tərk edilməsi əmr edilmədikcə, PİS İŞLƏR GÖRÜLÜB yerdə qalınca...***

*(Ölüm Kıyamet ve Diriliş, səh. 480)*

**Onlar etdikləri pis əməldən əl çəkmirdilər (və ya onlar bir-birini etdikləri pis əməldən çəkindirmirdilər)... (Maidə surəsi, 79)**

***İnsanlara elə bir dövr gələr ki, məscidlərdə toplaşıb NAMAZ QILARLAR, LAKİN ARALARINDA MÖMİN TAPILMAZ.*** *(Son Zamanlarla İlgili Hadisler, səh. 17)*

**Vay halına o namaz qılanların ki, onlar öz namazlarından qafildirlər. Onlar (namazlarını) göstəriş üçün edərlər. (Maun surəsi, 4-6)**

***Məscidlər NAMAZ QILINMAYIB gəlib keçilən bir yol halına gəldiyi... bir dövr gəlmədikcə qiyamət qopmaz.*** *(Son Zamanlarla İlgili Hadisler, səh. 87)*

**Onlardan sonra elə nəsillər gəldi ki, NAMAZ (QILMA İSTƏYİNİ) İTİRDİLƏR...**

**(Məryəm surəsi, 59)**

***Qiyamət yaxınlaşanda... ÖLÇÜ VƏ TƏRƏZİLƏRDƏ HİYLƏYƏ ƏL ATILAR.*** *(Ramuz-El Ehadis, 33/7)*

Vay halına çəkidə və ölçüdə aldadanların! O kəslər ki, özlərini insanlardan (bir şey) aldıqları zaman onu tam ölçüb alar, Onlar üçün ölçdükdə və ya çəkdikdə isə, (onu) əskildərlər. (Mutəffifin surəsi, 1-3)

*QƏNİMƏT MÜƏYYƏN KƏSLƏRİN İXTİYARINDA OLDUĞU, əmanət qənimət sayıldığı, zəkat ağır bir yük qəbul edildiyi zaman... (Kıyamet Alametleri, səh. 114)*

...Bu ona görədir ki, (həmin mal-dövlət) içərinizdəki zənginlər arasında əldən-ələ dolaşan bir sərvət olmasın (ondan yoxsullar da faydalansın)... (Həşr surəsi, 7)

*ƏMANƏTİN QƏNİMƏT, zəkatın da (altından çətin qalxılacaq) bir borc OLARAQ İTTİHAZ EDİLMƏSİ (qəbul edilməsi)... (Kıyamet Alametleri, səh. 139)*

... Onlara təkcə bir dinar qızıl əmanət versən, başlarının üzərində möhkəm durub tələb etməyincə sənə qaytarmazlar... (Ali imran surəsi, 75)

*KÜFR HƏR YERİ ZƏBT EDİB HÖKMÜ CƏMİYYƏT İÇİNDƏ AŞKARDA İŞLƏNMƏDİKCƏ (açıq-aşkar işlənmədikcə) Mehdi zühur etməz... (Mektubat-ı Rabbani, 2-259)*

.... Halbuki, ONLAR AÇIQ-AŞKAR BİR AZĞINLIQ İÇİNDƏ İDİLƏR. (Cümə surəsi, 2)

*PİSLƏRİN GETDİKCƏ (ÇOXALDIQCA) ÇOXALMASI ...*

Onların ardınca yerlərinə kitaba varis olan bir sıra PİS İNSANLAR KEÇDİ... (Əraf surəsi, 169*)*

*... DOĞRULARIN YALANÇI HESAB OLUNMASI... (Son Zamanlarla İlgili Hadisler, səh. 92)*

"... Və həqiqətən də, biz SƏNİ YALANÇILARDAN HESAB EDİRİK!". (Əraf surəsi, 66)

*İŞ ƏHİL (layiqli, təcrübəli, gənc olmayan) OLMAYANA VERİLƏNDƏ ARTIQ QİYAMƏTİ GÖZLƏ! (Zebidi, Tecridi Sarih, 12/201)*

O, ayrılan kimi yer üzündə fitnə-fəsad törətməyə, əkini və nəsli (İslam cəmiyyətini) məhv etməyə çalışar... (Bəqərə surəsi, 205)

*QOHUMLARLA ƏLAQƏLƏR KƏSİLƏR. (Ramuz-El Ehadis, 448/7)*

... QOHUMLUQ BAĞLARINIZI QOPARIB PARÇALAYACAQSINIZMI? (Məhəmməd surəsi, 22)

Onlar möminlərlə münasibətdə nə qohumluq əlaqəsinə, nə də əhdə riayət etmirlər. Onlar həddi aşanlardır.. ... (Tövbə surəsi, 10)

*İnsanlarda XƏSİSLİK VƏ EHTİRAS ARTACAQ.*

*(Müslim, İmarə, 176; İbni Macə, Fiten, 24)*

O kəslər ki, özləri xəsislik etməklə yanaşı, başqalarını da xəsisliyə yönəldir və Allahın öz lütfündən bəxş etdiyi nemətləri gizlədirlər... (Nisa surəsi, 37)

Mal-dövləti isə lap çox sevirsiniz. (Fəcr Surəsi, 20)

*QİYAMƏT YAXINLAŞDI. Halbuki insanlar dünyaya qarşı ancaq ehtiraslarını artırırlar, Allahdan da uzaqlaşırlar. (Suyuti, Camiü's-Sagir, 2/57)*

İnsanların haqq-hesab vaxtı (qiyamət günü) yaxınlaşdı, onlar isə hələ də qəflət içindədirlər... (Ənbiya surəsi, 1)

Qiyamət yaxınlaşar, XEYİRLİ İŞLƏR AZALAR. (Qiyamət Əlamətləri, səh. 264)

Xeyirə mane olana, (zülm etməklə) həddi aşana, günaha batana.(Qələm surəsi, 12)

*İnsanlara elə bir dövr gələr ki, QURANİ-KƏRİM BİR YERDƏ (yəni bir şey buyurar), İNSANLAR İSƏ BAŞQA BİR YERDƏ OLARLAR (insanlar isə başqa şey buyurlarlar, Qurandakına əməl etməzlər). (Son Zamanlarla İlgili Hadisler, səh. 23)*

... ALLAHIN KİTABINA ARXA ÇEVİRDİLƏR. (Bəqərə surəsi, 101)

***QURANİ-KƏRİMİN TƏK RƏSMİ, İSLAMIN TƏK ADI QALACAQ...*** *(Son Zamanlarla İlgili Hadisler, səh. 24)*

... Həqiqətən, qövmüm bu Quranı tərk etmişdi!". (Furqan surəsi, 30)

Quran oxuyan, lakin OXUDUQLARI DİLLƏRİNDƏ QALAN, ÜRƏKLƏRİNƏ ENMƏYƏN İNSANLARIN TÖRƏYƏCƏYİ bir dövr gələcəkdir. *(Son Zamanlarla İlgili Hadisler, səh. 61)*

...Onlar ürəkləri istəmədikləri halda, sözdə sizi razı salmağa çalışarlar...(Tövbə surəsi, 8)

... Onlar qəlblərində olmayanları dilləri ilə deyirlər... (Fəth surəsi, 11)

Bir surə nazil edildiyi zaman onlardan istehza ilə: "Bu, hansınızın imanını artırdı?" – deyənlər də var... (Tövbə surəsi,124)

# II HİSSƏ

# AXIRZAMANIN HİDAYƏT ÖNDƏRİ

# HZ. MEHDİ

## HZ. MEHDİNİN ADININ PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN ADINA UYĞUN OLMASI

***... Sizə ..., adı ƏHMƏD, atasının adı Abdullah olan hz. Mehdini rəis etmişdir. Ona qatılın.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 31)*

***... Ona qatılın, O Mehdidir. ADI DA ƏHMƏD İBN Abdullahdır...*** *(Kıyamet Alametleri, Medineli Allame Muhammed B. Resul El-Hüseyin El Berzenci, Pamuk Yayıncılık, 8-ci nəşr, səh. 165)*

*Əbu Davud ilə Tirmızinin İbn Məsud (r.ə)-dən nəql etdiklərinə görə, Allahın Elçisi (s.ə.v) belə buyurmuşdur: "Onun adı adıma, atasının adı da atamın adına uyğun olacaq..."* *(Kıyamet Alametleri, Genişletilmiş 9-cu nəşr, səh.159-160)*

... Məndən sonra ADI "ƏHMƏD" OLAN BİR ELÇİNİN də müjdəçisiyəm" demişdi. (Səff surəsi, 6)

## HZ. MEHDİNİN "HİDAYƏT VERƏN" MƏNASINI VERMƏSİ

*Sizdən və ya sonra gələnlərdən biri ona yetişsə, qar üstündə sürünərək də olsa ona qatılsın. Şübhəsiz ki, ONLAR HİDAYƏT BAYRAQLARIDIR.* *(Ramuz El Ehadis, 1-ci cild, səh. 298, no:2)*

... Bundan sonra sizə MƏNDƏN BİR HİDAYƏT GƏLDİKDƏ kim mənim hidayətimə tabe olsa, onlara qorxu yoxdur və onlar qəmgin olmazlar". (Bəqərə surəsi, 38)

Onları öz əmrimizlə HİDAYƏTƏ YÖNƏLDƏN İMAMLAR (rəhbərlər, öndərlər) ETDİK ... (Ənbiya surəsi, 73)

Bunlar Allahın doğru yola yönəltdiyi kəslərdir. Sən də onların bu hidayətinə uy... (Ənam surəsi, 90)

## HZ. MEHDİNİN MÜTLƏQ GƏLƏCƏYİ

*Dünya müsəlmanlara Əhli-Beytimdən BİR ADAM MƏLİK OLANA QƏDƏR DAĞILMAYACAQ VƏ MƏHV OLMAYACAQ.* *(Kitab-ül Burhan fi Alamet-il Mehdiyy-il Ahir Zaman, Ali ibn Hüsameddin el-Muttaki, səh. 10)*

Sənin Rəbbin “əsas mərkəzlərə” (ən böyük şəhərlərə) onlara ayələrimizi oxuyan BİR ELÇİ GÖNDƏRMƏDİKCƏ ŞƏHƏRLƏRİ DAĞITMAZ, MƏHV ETMƏZ... (Qəsas surəsi, 59)

*MEHDİNİN ZÜHURU DA QİYAMƏT ƏLAMƏTLƏRİNDƏN BİRİNCİSİDİR.* *(Ölüm-Kıyamet-Ahiret ve Ahir Zaman Alametleri, səh. 494)*

Məgər (kafirlər) o Saatın qəfildən onlara gəlməsindən başqa bir şeymi gözləyirlər? Artıq onun əlamətləri gəlmişdir.... (Məhəmməd surəsi, 18)

## HZ. MEHDİNİN İNSANLARI HİDAYƏTƏ YÖNƏLTMƏSİ

***Mehdi Allahın həqiqətən HAQQ YOLUNA APARDIĞI şəxsdir...*** *(İbn'ül-Esir el-Cezeri, "en-Nihaye fi Garib'il-Hadisi ve'l-Eser", 4-cü cild, səh. 244)*

Və onları öz əmrimizlə HİDAYƏTƏ YÖNƏLDƏN İMAMLAR (rəhbərlər, öndərlər) etdik... (Ənbiya surəsi, 73)

## HZ. MEHDİNİN GƏLİŞİNDƏN ÜMİD KƏSİLDİYİ BİR DÖVRDƏ ÇIXMASI

***Allah İNSANLARIN ÜMİDSİZ OLDUĞU VƏ "HEÇ MEHDİ FİLAN YOXMUŞ" DEDİYİ bir dövrdə Mehdini göndərər...*** *(Kitab-ul Burhan fi-Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 55)*

***...MEHDİ Rəsulullahın bayrağı ilə insanların başlarına bəla üstündə bəla gəldiyi və ÇIXIŞINDAN ÜMİD KƏSİLDİYİ BİR DÖVRDƏ ÇIXAR...***

*(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 55)*

... Demişsiniz ki: “Allah ondan sonra bir Elçi göndərməyəcəkdir!”... (Mömin surəsi, 34)

## HZ. MEHDİNİN ÇIXIŞINDAN ƏVVƏL YER ÜZÜNDƏ FİTNƏ VƏ TƏXRİBATÇILIĞIN ÇOXALMASI

***BİR FİTNƏ GÖRÜNƏR, BUNU DİGƏR FİTNƏLƏR İZLƏYƏR.*** *(Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, səh. 26)*

***Qiyamətdən əvvəl QARANLIQ GECƏLƏR KİMİ FİTNƏLƏR VARDIR.*** *(Ramuz-El Ehadis, 121/5)*

O kəslər ki, məmləkətlərdə tüğyan edir (azğınlaşıblar). Oralarda çoxlu fitnə-fəsad törədirlər. (Fəcr surəsi, 11-12)

***Mehdi çıxmamışdan əvvəl... insanlar arasında FİTNƏLƏR ÇOXALACAQ...****(El Kavlu-l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, Ahmed İbn-i Hacer-i Mekki, səh. 39-40)*

Onların bir çoxunu günah etməyə, düşmənçilik etməyə və haram yeməyə tələsən görərsən... (Maidə surəsi, 62)

# HZ. MEHDİNİN ÇIXIŞININ ELAN EDİLMƏSİ

***ONUN ADI İLƏ SƏMADAN NİDA OLUNACAQ və heç kim onun Mehdiliyini inkar edə bilməyəcək.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 49)*

***SƏMADAN BİR SƏS ONU ADI İLƏ ÇAĞIRACAQ və şərqdə, qərbdə, hətta, yuxuda olan belə bu səsi eşidəcək və oyanacaq.*** *(El-Kavlu-l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 56)*

Ey Rəbbimiz! Həqiqətən, biz: "Rəbbinizə iman gətirin!" - deyə imana çağıran bir kimsənin çağırışını eşidib iman gətirdik... (Ali İmran surəsi, 193)

# HZ. MEHDİYƏ BEYƏT EDİLMƏSİ (Hz. Mehdinin qəbul edilməsi)

***MEHDİNİN BAYRAĞINDA "BEYƏT ALLAH ÜÇÜNDÜR" YAZILMIŞDIR.*** *(Ali bin Hüsamettin el Muttaki, Celalettin Suyuti'nin Tasnifinden Hadisler- Ahir Zaman Mehdisinin Alametleri, Kahraman Neşriyat, səh. 65)*

**Şübhəsiz, SƏNƏ BEYƏT EDƏNLƏR, ancaq ALLAHA BEYƏT ETMİŞLƏR... (Fəth surəsi, 10)**

# HZ. MEHDİ ORTAYA ÇIXANDA ONA İNANILMASI

***Sizdən ona kim yetişsə, QAR ÜSTÜNDƏ SÜRÜNƏRƏK DƏ OLSA ONA QOŞULSUN. Çünki o, Mehdidir.*** *(İbn Mace, Fiten, B 34, H 4082; İbn Ebi Şeybe, VII cild, səh. 527; Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 14)*

***Biz hər bir elçini, Allahın izni ilə, ona məhz itaət edilsin deyə göndərdik ... (Nisa surəsi, 64)***

# İNSANLARIN HZ. MEHDİYƏ TABE OLMALARI

***İnsanlar bal arılarının böyük arının ətrafında toplanması kimi HZ. MEHDİNİN ƏTRAFINDA YIĞIŞARLAR...*** *(El Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 29)*

**... HƏR HARADA OLSANIZ, ALLAH SİZLƏRİ BİR YERƏ YIĞACAQDIR... (Bəqərə surəsi, 148)**

# HZ. MEHDİNİN ŞƏHƏRİN MƏRKƏZİNDƏN ÇIXMASI VƏ KONSTANTİNOPOLU FƏTH ETMƏSİ

***Dünyadan ancaq bir gün qalsa belə, o gündə, mənim ailəmdən bir şəxsin Deyləm dağına (yaxud əyalətinə) və KONSTANTİNOPOL ŞƏHƏRİNƏ sahib olması üçün Allah (c.c.), şübhəsiz, o günü uzadacaq.*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 74), (Ölüm-Kıyamet -Ahiret ve Ahirzaman Alametler, səh. 440)*

(Ya Rəsulum!) Sənin Rəbbin mərkəzlərinə (ən böyük şəhərlərinə) ayələrimizi oxuyan bir elçi göndərməmiş məmləkətləri məhv etməz ... (Qəsas surəsi, 59)

# HZ. MEHDİNİN ALLAH QORXUSUNUN ÇOX GÜCLÜ OLMASI

***Mehdi kərkəs quşunun qanadı ilə TİTRƏMƏSİ KİMİ ALLAHDAN TİTRƏYƏRƏK ÇOX QORXAN bir kəsdir.*** *(Nuaym ibn Hammad, vr 91a)*

... Ondan İÇLƏRİ TİTRƏYƏRƏK QORXANLAR və Allahdan başqa heç kimdən qorxmayanlardır. Allah özü haqq-hesab çəkməyə kifayət edər. (Əhzab surəsi, 39)

***Mehdi ALLAHA QARŞI OLDUQCA İTAƏTKARDIR. Əxlaqi cəhətdən də peyğəmbərə oxşayar.*** *(Kıyamet Alametleri, səh. 163)*

... Tövbə edib Mənə tərəf dönənlərin (İslamı qəbul edənlərin) yolunu tut. (Loğman surəsi, 15)

***... Eynilə, qartal cinsindən nəşir quşunun qanadlarıyla TİTRƏMƏSİ KİMİ ALLAHDAN QORXACAQ.*** *(El Kavlu-l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 51)*

...Və onlar Onun böyüklüyündən İÇLƏRİ TİTRƏMƏKDƏ OLANLARDIR. (Ənbiya surəsi, 28)

# ALLAHIN HZ. MEHDİNİ DOĞRU YOLA ÇATDIRMASI

***Ey Əhli-Beyt! Mehdi bizdəndir. Əziz və cəlil olan ALLAH ONU BİR GECƏDƏ İSLAH VƏ İRŞAD EDƏCƏK (doğru yolu göstərəcək).*** *(Ölüm-Kıyamet-Ahiret ve Ahir Zaman Alametleri, səh. 437)*

**...Əlbəttə, artıq O, DOĞRU YOLA YÖNƏLDİLMİŞDİR. (Ali İmran surəsi, 101)**

**Allah KİMİN KÖKSÜNÜ İSLAMA AÇMIŞDIRSA,** artıq **O, RƏBBİNDƏN BİR NUR ÜZƏRİNDƏDİR,** (elə) deyilmi?... **(Zumər surəsi, 22)**

# HZ. MEHDİNİN ÇOX SƏBİRLİ OLMASI

***Mehdinin fəziləti və üstünlüyü bütün kədərlərə və şiddətli fitnələrə GÖSTƏRDİYİ MAKSİMUM SƏBRİNİN olmasıdır...*** *(Tılsımlar Mecmuası, s. 212. İs'afür Rağıbin'den naklen. Mehdi ve Deccal, Şaban Döğen, səh. 154)*

**Onlar Rəblərinin rizasını istəyərək SƏBİR EDƏRLƏR... (Rad Surəsi, 22)**

**...Onlara köməyimiz gələnə qədər yalanlandıqları və əziyyətə uğradıldıqları şeyə SƏBİR ETDİLƏR. .... (Ənam surəsi, 34)**

# HZ. MEHDİNİN ÇOX MƏRHƏMƏTLİ OLMASI

***Hz. Mehdi O QƏDƏR MƏRHƏMƏTLİ OLACAQ Kİ, dövründə heç kimin burnu belə qanamayacaq.*** *(El-Kavlu'l Muhtasar fi Alamatil Mehdiyy-il Muntazar, sƏH. 42)*

***... Yoxsullara qarşı ÇOX MƏRHƏMƏTLİ OLMASI Mehdinin əlamətlərindəndir.*** *(Mer'iy İbn Yusuf ibn Ebi bekir ibn Ahmet ibn Yusuf el-Makdi'si "Feraidu Fevaidi'l Fikr Fi'l İmam El-Mehdi El-Muntazar")*

***... Onunla birlikdə olanlar da kafirlərə qarşı sərt, öz aralarında isə***

***MƏRHƏMƏTLİDİRLƏR...*** **(Fəth surəsi, 29)**

# HZ. MEHDİNİN MÜBARİZ OLMASI

***MEHDİ İŞİ MÖHKƏM TUTACAQ (düzgün iş görəcək).***

*(Kıyamet Alametleri, Berzenci, səh. 175)*

**Yoxsa müşriklər işə qəti qərarmı verdilər? Əslində, qəti qərarı Biz veririk. (Zuxruf surəsi, 79)**

***Mehdi şərq tərəfdən çıxacaq. QARŞISINA DAĞLAR BELƏ ÇIXSA, onları əzib keçəcək, o dağlarda özünə yol tapacaq. .*** *(El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 39)*

**DÜZƏNLƏRİ DAĞLARI YERLƏRİNDƏN TƏRPƏDƏCƏK OLSA BELƏ,** Allah qatında onlar üçün hazırlanmış nizam (pis qarşılıq) vardır**.** (İbrahim surəsi, 46)

***İNSANLAR HAQQA DÖNƏNƏ QƏDƏR (fikri) MÜBARİZƏSİNƏ DAVAM EDƏCƏK.*** *El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 23)*

**Fitnə aradan qalxana qədər və din ancaq Allaha məxsus edilənədək onlara qarşı vuruşun!.. (Bəqərə surəsi, 193)**

# HZ. MEHDİNİN CƏSUR OLMASI

***Mehdi HESABINI ÇOX ARDICIL BİR ŞƏKİLDƏ APARACAQ VƏ VƏDİNDƏN DÖNMƏYƏCƏK.*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 24)*

**Bizim elçi göndərdiyimiz qullarımız haqqında bu Sözümüz əzəldən deyilmişdi: "Həqiqətən, onlara kömək göstəriləcəkdir. Bizim əsgərlərimizin mütləq qələbəsi labüddür". (Saffat surəsi, 171-173)**

# ALLAHIN HZ. MEHDİNİ KÖMƏKÇİLƏRİYLƏ DƏSTƏKLƏMƏSİ

***Bilin ki, Allahın yer üzündəki dostları MEHDİYƏ TABE OLANLARDIR.*** *(El Kavlu-l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, Ahmed İbn-i Hacer-i Mekki, səh. 52)*

**... Kim ALLAHI, RƏSULUNU VƏ İMAN EDƏNLƏRİ DOST (VƏLİ) ETSƏ... (Maidə surəsi, 55-56)**

***... Buludların səmada toplandığı kimi ALLAH ONUN ƏTRAFINA BİR QÖVM TOPLAYAR. ONLARIN ÜRƏKLƏRİNİ BİRLƏŞDİRƏR....*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, 57)*

**... O, sizin qəlblərinizi (İslam ilə) birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz... (Ali İmran surəsi, 103)**

# HZ. MEHDİNİN KÖMƏÇİLƏRİNİN SAYININ AZ OLMASI

***SAYLARI Bədr səhabələri (313) QƏDƏRDİR... Onların sayları TALUT ilə çayı keçənlər qədərdir.*** *(Kitab-ul Burhan Fi Alamet-i Mehdiyy-il Ahir Zaman, səh. 57)*

**Biz orada müsəlmanlardan olan bir evdən başqasını tapmadıq. (Zariyat surəsi, 35)**

***Aralarında qadınların da olduğu 314 ŞƏXSDƏN İBARƏT BİR QRUP yaradarlar...*** *(Kitab-ul Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 57-68)*

**... O dedi: "Bunlar kiçik bir dəstədir. (Şuəra surəsi, 54)**

***Hz. Mehdiyə aralarında qadınlardan da olan 314 ADAM beyət edəcək.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 25)*

**... Lakin onunla birlikdə az adam iman gətirmişdi. (Hud surəsi, 40)**

Xatırlayın ki, SİZ AZ İDİNİZ... (Ənfal surəsi, 26)

***... Bu 313 ADAM gecə abid (çox ibadət edən kimsələr) gündüz qəhrəman olarlar.*** *(Kıyamet Alametleri, səh. 169)*

... "Neçə-neçə az saylı dəstələr Allahın izni ilə çox saylı dəstələrə qalib gəlmişdir!"...

(Bəqərə surəsi, 249)

# HZ. MEHDİNİN KÖMƏKÇİLƏRİNİN ƏXLAQI

***ONUN KOMANDİRLƏRİ İNSANLARIN ƏN XEYİRLİLƏRİDİR. .*** *(El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 47)*

Şübhəsiz ki, iman gətirib yaxşı işlər görənlər YARADILMIŞLARIN ƏN XEYİRLİLƏRİDİR. (Bəyyinə surəsi, 7)

*...* ***O (Mehdi), GÜNDÜZLƏRİ ASLAN, gecələri abid OLAN (çox ibadət edən) BİR qövmlə gələcək.*** *(El Kavlu-l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, Ahmed İbn-i Hacer-i Mekki, səh. 40)*

Bəzi adamlar onlara: "Camaat sizə qarşı ordu toplayıbdır, onlardan qorxun!" - dedilər. Bu, onların imanını daha da artırdı və onlar: "Allah bizə yetər. O nə gözəl Qoruyandır!" - dedilər. (Ali İmran surəsi, 173)

***Nəhayət, Allah yolunda heç bir QINAYANIN QINAMASINDAN QORXMAYAN seçmə müsəlmanlar onlarla mübarizə aparacaqlar...*** *(Sünen-i İbn-i Mace, 10/359)*

... Allah yolunda cihad edən və tənə edənin tənəsindən qorxmayan bir camaat gətirər... (Maidə surəsi, 54)

***Xüsusilə, BU VƏZİRLƏR HƏR MÖVZUDA HƏQİQİ MƏNADA ARİF (elm sahibi) İNSANLAR OLACAQLAR.*** *(M. Arabi) (Hayrettin Gümüşel, Beklenen Mehdi, səh. 37, Köprü Yayınları)*

Lakin onlardan elmdə qüvvətli olanlar və möminlər sənə nazil edilənə və səndən əvvəl nazil olanlara inanır... (Nisa surəsi, 162)

... ELM VERİLƏNLƏR... (Nəhl surəsi, 27)

# KÖMƏKÇİLƏRİNİN HZ. MEHDİNİN İŞLƏRİNDƏ ONA DƏSTƏK OLMALARI

***MƏMLƏKƏT İŞLƏRİNİN AĞIRLIQLARINI ONUNLA PAYLAŞACAQLAR.*** *(Kıyamet Alametleri, səh. 187)*

***And olsun işləri paylaşdıranlara! (yəni İŞLƏRİ ARALARINDA BÖLƏNLƏRƏ) (Zariyat surəsi, 4)***

# HZ. MEHDİ VƏ KÖMƏKÇİLƏRİNİN GECƏLƏR DƏ İBADƏT ETMƏLƏRİ

*...* ***ONLAR gündüz aslan, GECƏ DƏ ABİDDİRLƏR*(ibadət edərlər)...*** *(Kitab-ul Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 57-68)*

Onlar gecələr (ibadətlə məşğul olub) az yatırdılar. Səhərlər isə (Allahdan) bağışlanmalarını diləyirdilər. (Zariyat surəsi, 17-18)

# ALLAHIN HZ. MEHDİNİ MƏLƏKLƏRLƏ DƏSTƏKLƏMƏSİ

***Allah onu 3 MİN MƏLƏKLƏ DƏSTƏKLƏYƏCƏK.*** *(El Kavlu-l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, Ahmed İbn-i Hacer-i Mekki, səh. 41)*

"Rəbbinizin göndərdiyi üç min mələyin köməyinizə çatması sizə bəs etmirmi?". (Ali İmran surəsi, 124)

... ONLARIN ÜZƏRİNƏ MƏLƏKLƏR ENƏR... (Fussilət surəsi, 30)

***... ÖNLƏRİNDƏ CƏBRAYIL, ARXALARINDA MİKAYIL OLACAQ...*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 47)*

... Allah Cəbrayıl və əməlisaleh möminlər onun dostu və yardımçısıdır. Bunlardan başqa mələklər də onun yardımçılarıdır. (Təhrim surəsi, 4)

O zaman Rəbbin mələklərə: "Mən sizinləyəm! İman gətirənləri gücləndirin... (Ənfal surəsi, 12)

... Onun mələkləri də sizin üçün bağışlanma diləyərlər... (Əhzab surəsi, 43)

***O MƏLƏKLƏR hz. Mehdiyə müxalif çıxanın ÜZÜNƏ VƏ ARXASINA VURACAQ.*** *(El Kavlu-l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, Ahmed İbn-i Hacer-i Mekki, səh. 41)*

Elə isə MƏLƏKLƏR, ÜZLƏRİNƏ VƏ ARXALARINA VURA VURA canlarını aldıqları zaman halları necə olacaq? (Məhəmməd surəsi, 27)

# HZ. MEHDİ VƏ KÖMƏKÇİLƏRİNİN ÇƏTİNLİKLƏRLƏ QARŞILAŞMALARI VƏ BUNLARDAN QORXMAMALARI

***Axırzamanda ÜMMƏTİMİN BAŞINA sultanlarından ŞİDDƏTLİ BƏLALAR GƏLƏR, belə ki, yerləri müsəlmanlara dar gələr.*** *(Kitab-ül Burhan fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 12)*

... Onlar Allah yolunda başlarına gələnlərə görə nə ruhdan düşmüş, nə zəifləmiş, nə də düşmənə boyun əymişlər. Allah səbir edənləri sevir. (Ali İmran surəsi, 146)

***Məndən sonra Əhli-Beytim BƏLA VƏ MÖHNƏTLƏRLƏ (ÇƏTİNLİKLƏRLƏ) QARŞILAŞACAQLAR və QOVULMAĞA MƏRUZ QALACAQLAR .*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 14)*

... Hicrət edənlərin, öz yurdlarından çıxarılanların, Mənim yolumda əziyyətə düçar olanların, vuruşanların və öldürülənlərin, əlbəttə, təqsirlərindən keçəcək ... (Ali İmran surəsi, 195)

Səndən əvvəlki elçiləri də yalançı saymışdılar. Lakin Bizim köməyimiz onlara gələnədək yalançı sayılmalarına və onlara əziyyət verilməsinə səbir etdilər. Heç kəs Allahın kəlmələrini dəyişə bilməz. Artıq elçilərə aid bəzi xəbərlər sənə gəlib çatdı. (Ənam surəsi, 34)

***Ey insanlar! Məhəmməd Ümməti və xüsusilə onun Əhli-Beyti çox bəlalar gördü və BİZLƏR ZORAKILIĞA VƏ HAQSIZLIĞA məruz qaldıq.*** *(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 55)*

... Onlara elə kasıblıq və xəstəlik üz vermiş, elə sarsılmışdılar ki,.. (Bəqərə surəsi, 214)

# HZ. MEHDİ VƏ CAMAATININ ALLAHIN QORUMASI ALTINDA OLMALARI

***Müxalifləri ÖZLƏRİNƏ HEÇ BİR ZƏRƏR VERƏ BİLMƏYƏCƏK. Bu (hal qiyamətə qədər belə davam edəcək.)*** *(Kıyamet Alametleri, səh. 286)*

... Siz doğru yola çatsanız, azğınlar SİZƏ ZƏRƏR VERƏ BİLMƏZ... (Maidə surəsi, 105)

***PİSLƏR HƏLAK OLACAQ, Peyğəmbərimiz (s.ə.v)-ə düşmənçilik edən qalmayacaq.*** *(El Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 43)*

...Onlar qazandıqları günahlara görə məhvə məhkum olanlardır... (Ənam surəsi, 70)

# HZ. MEHDİNİN ALLAHIN AXIRZAMAN ÜÇÜN XÜSUSİ SEÇDİYİ BİR ADAM OLMASI

***ALLAH ONU DİGƏR İNSANLARIN ÜZƏRİNƏ SEÇMİŞDİR.*** *(Kıyamet Alametleri, səh. 189)*

Rəbbin istədiyini yaradır və seçər, seçim onlara aid deyildir... (Qəsas surəsi, 68)

# HZ. MEHDİNİN İNSANLARI ALLAHA İMAN ETMƏYƏ ÇAĞIRMASI

***İNSANLARI ALLAH VƏ RƏSULUNA İTAƏT ETMƏYƏ DƏVƏT EDƏCƏK.****(El Kavlu-l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, Ahmed İbn-i Hacer-i Mekki, səh. 50)*

**Peyğəmbər sizi Rəbbinizə iman gətirməyə çağırdığı halda, sizə nə olub ki, Allaha iman gətirmirsiniz? Hələ bundan da əvvəl sizdən əhd almışdı. Əgər möminsinizsə, inanın və verdiyiniz sözü yerinə yetirin. (Hədid surəsi, 8)**

# HZ. MEHDİNİN İNSANLARA BƏRƏKƏT GƏTİRMƏSİ

***...Beyətdən əvvəl insanlar dəstə-dəstə onun yanına axışacaqlar və oraya gedən HƏR KƏS ONDAN BƏRƏKƏT QAZANACAQ.****(El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 25)*

**...ALLAHIN RƏHMƏTİ VƏ BƏRƏKƏTLƏRİ SİZİN ÜZƏRİNİZDƏDİR... (Hud Surəsi-73)**

# HZ. MEHDİNİN İSLAM DİNİNİ ƏSL HALINA QAYTARIB (peyğəmbərimizin dövründəki halına gətirib) BİDƏTLƏRİ ORTADAN QALDIRMASI

***Hz. Peyğəmbər (s.ə.v) ən başda İslamı necə sağlam yaşatmışdırsa, MEHDİ də ən sonunda eyni şəkildə İSLAMI sağlamlaşdıracaq.*** *(El-Kavlu-l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 27)*

**... O DİNİ (İSLAMI) BÜTÜN DİNLƏRƏ ÜSTÜN ETMƏK ÜÇÜN elçisini hidayətlə və haqq dinlə göndərən Odur. (Tövbə surəsi, 33)**

***Mehdi DİNİ PEYĞƏMBƏRİN (S.Ə.V) DÖVRÜNDƏ OLDUĞU KİMİ EYNİLƏ TƏTBİQ EDƏCƏK. Yer üzündən məzhəbləri qaldıracaq. Xalis və həqiqi dindən başqa heç bir məzhəb qalmayacaq...****(Kıyamet Alametleri, 186-187)*

*Din birliyi də olacaq, artıq **ALLAHDAN BAŞQASINA TAPINILMAYACAQ.** (Sünen-i İbni Mace, 10-cu cild, Haydar Hatipoğlu, Bab 33, səh. 331-335)*

***SİZİ sünnəmə sıx sarılmağa, rəşid və MEHDİ XƏLİFƏLƏRİMİN YOLU İLƏ GETMƏYƏ TƏŞVİQ EDİRƏM.**(İbni Mace, Mukaddime 6, Ebu Davud, Sünnet. 5. Mehdi ve Deccal, Şaban Döğen, səh. 139)*

**Bu, şübhəsiz ki, Mənim doğru yolumdur. Onu tutub gedin...(Ənam surəsi, 153)**

## HZ. MEHDİNİN NAMAZDA HZ. İSAYA İMAMLIQ ETMƏSİ

***Ya Abbas, bu işi Allah mənimlə başlatdı. Sənin sülaləndən biri ilə (Mehdi) də bitirəcək. O cavan dünyanı əvvəlcə zülmlə dolduğu kimi, yenidən ədalətlə dolduracaq və İSA (ə.s) İLƏ NAMAZ QILACAQ.** (Hz. Amr Ibni Yaser r.a. / Ramuz El-Ehadis, 2-ci cild, səh. 498, No. 1)*

***Bu da bir həqiqətdir ki, İSA Mehdidən hakimiyyəti almayacaq, çünki liderlər Qureyşdəndir. Əgər insanlar arasında bu ikisi mövcud olacaqsa, deməli, İsa (ə.s) onun əmri altında deyil, vəziri olacaq. Buna görə də MEHDİNİN ARXASINDA NAMAZ QILACAQ VƏ ONA TABE OLACAQ.** (Kıyamet Alametleri, səh. 185)*

(İSA) DEDİ: "Şübhəsiz mən Allahın quluyam. (Allah) Mənə Kitabı verdi və məni peyğəmbər etdi. Harada oluramsa olum, məni müqəddəs etdi və YAŞADIĞIM MÜDDƏT ƏRZİNDƏ MƏNƏ NAMAZI və zəkatı VƏSİYYƏT (ƏMR) ETDİ." (Məryəm Surəsi - 30,31)

## HZ. MEHDİNİN İNSANLARIN HAQQ DİNİ YAŞAMALARINA VƏSİLƏ OLMASI

***... Beyətdən əvvəl insanlar DƏSTƏ-DƏSTƏ onun yanına axışacaqlar ...***

...İnsanların dəstə-dəstə Allahın dininə (İslama) daxil olduqlarını gördüyün zaman... (Nəsr surəsi, 2)

# HZ. MEHDİNİN MÜSƏLMANLAR ARASINDA BİRLİYİ VƏ BƏRABƏRLİYİ TƏMİN ETMƏSİ

***Allah bizimlə insanları necə şirk ədavətindən (düşmənlikdən) qurtararaq, onların ürəklərinə ülfət və məhəbbət yerləşdirmiş və din qardaşı etmişsə, MEHDİ İLƏ də fitnə ədavətindən qurtaracaq və QARDAŞ EDƏCƏK.*** *(Kitab-ül Burhan fi Alamet-il Mehdiyy-il Ahir Zaman, Ali ibn Hüsameddin el-Muttaki, səh. 20)*

**O SİZİN QƏLBLƏRİNİZİ BİRLƏŞDİRDİ... (Ali İmran surəsi, 103)**

***ƏCƏM (ƏRƏB OLMAYAN) VƏ ƏRƏB MİLLƏTLƏRİ ARASINDA ÜLFƏT VƏ MƏHƏBBƏT OLAR.*** *(Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, səh. 66)*

**... Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq... (Hucurat surəsi, 13)**

# HZ. MEHDİNİN İSLAM ƏXLAQININ DÜNYA HAKİMİYYƏTİNƏ VƏSİLƏ OLMASI

***Bütünlüklə yer üzünün dörd məliyi (başçısı) olmuşdur. Onların ikisi: Zülqərneyn və Süleyman möminlərdən, digər ikisi isə Nəmrud və Buhtunnasır kafirlərdəndir. YERƏ beşinci olaraq ƏHLİ-BEYTİMDƏN BİRİ SAHİB OLACAQ. YƏNİ MEHDİ.***

*(Mektubat-ı Rabbani, 2/1163)*

**... "Şübhəsiz, YER ÜZÜNƏ SALEH QULLARIM VARİS OLACAQDIR" deyə yazdıq. (Ənbiya surəsi, 105)**

**Və onlardan sonra sizi o yerdə sakin edəcəyik... (İbrahim surəsi, 14)**

***MEHDİ eyniylə Zülqərneyn və Süleyman kimi DÜNYAYA HÖKM EDƏCƏK.***

*(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 29)*

***Ümmü Sələmənin rəvayətlərinə görə, HZ. MEHDİ İSLAMI YER ÜZÜNÜN MÜXTƏLİF BÖLGƏLƏRİNDƏ HAKİM EDƏCƏK.*** *(İmam-ı Rabbani, Mektubat, I: 565)*

... Özlərindən əvvəlkiləri varislər etdiyi kimi onları da yer üzünün varisləri edəcək... (Nur surəsi, 55)

***Abdullah ibn Məsuddan belə rəvayət edilmişdir: "MEHDİ DÜNYAYA SAHİB OLAR".*** *(Ramuz El-Ehadis, 1/135)*

...Yurdun aqibətinin (Axirət evinin) kimə nəsib olacağını biləcəksiniz... (Ənam surəsi, 135)

***Mehdi ŞƏRQ İLƏ QƏRB ARASINDAKI HƏR YERİ fəth edəcək.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 57)*

...Bərəkət verdiyimiz şərq və qərb bölgələrinə varislər təyin etdik. (Əraf surəsi, 137)

***Mehdi İSLAMI YER ÜZÜNÜN MÜXTƏLİF BÖLGƏLƏRİNDƏ HAKİM EDƏCƏK.*** *(İmam-ı Rabbani, Mektubat, 1/565)*

Əgər onlara yer üzündə hökmranlıq versək, onlar namaz qılar, zəkat verər, yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər... (Həcc surəsi, 41)

***Allah ona (Mehdiyə) O QƏDƏR GÜC VERƏCƏK Kİ, bir gecə içində zülmü və əhlini ortadan qaldıracaq.*** *(Muhyiddin Arabi el-Endülüsu, Futuhat-ül Mekkiye, Bab 66, Kıyamet Alametleri, səh. 186)*

... Dəlil verəcəyik. Onlar sizə heç bir pislik toxundura bilməyəcəklər. Möcüzələrimiz sayəsində siz və sizə tabe olanlar mütləq qalib gələcəksiniz (Qəsas surəsi, 35)

## HZ. MEHDİNİN MÜSƏLMANLARIN MƏNƏVİ LİDERİ OLMASI

***Mehdi eynilə Zülqərneyn və Süleyman kimi DÜNYAYA HÖKM EDƏCƏK.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 29)*

O SİZİ YER ÜZÜNÜN XƏLİFƏLƏRİ ETDİ... (Ənam Surəsi, 165)

Biz istədik ki, həmin yerdə aciz qalanlara mərhəmət göstərək, onları öndə gedənlər və varislər edək, (Qəsas surəsi, 5)

# YER ÜZÜNDƏKİ BÜTÜN İNSANLARIN HZ. MEHDİDƏN RAZI OLMASI VƏ ONA QARŞI BÖYÜK BİR SEVGİ DUYMASI

***Hz. Mehdi gələndə insanlar ONU EŞQ VƏ MƏHƏBBƏTLƏ QUCAQLAYACAQLAR.*** *(El Kavlu-l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, Ahmed İbn-i Hacer-i Mekki, səh. 37)*

İman gətirib yaxşı işlər görənlər üçün Mərhəmətli Allah qəlblərdə bir sevgi yaradacaq. (Məryəm surəsi, 96)

# HZ. MEHDİNİN YER ÜZÜNDƏ ƏDALƏTLƏ HÖKM ETMƏSİ

***Zülm və ədalətsizliklə dolu olan DÜNYA o (hz. Mehdi) gələndən sonra ƏDALƏTLƏ DOLUB DAŞACAQ.*** *(El Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 20)*

... Elçiləri gəldikdə onların arasında ədalətlə hökm verilər və onlara zülm edilməz. (Yunis surəsi / 47)

***Daha əvvəl zülmlə dolu olan DÜNYANI ƏDALƏTLƏ DOLDURAR. Ədaləti o dərəcədə olar ki, yuxuda olan bir kəs belə oyandırılmaz və bir damla qan belə axıdılmaz. Dünya, sanki, Əsri-Səadət dövrünə geri dönər.***

*(El Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 29)*

Yaratdıqlarımız içərisində elə bir ümmət də vardır ki, haqq ilə doğru yola aparır və bunun sayəsində ədalətlə hökm edirlər. (Əraf surəsi, 181)

# HZ. MEHDİ DÖVRÜNDƏ YER ÜZÜNÜN SÜLHLƏ DOLMASI

***DÜŞMƏNLİK VƏ KİNİ DƏ ORTADAN QALDIRACAQ... Qab su ilə dolduğu kimi YER ÜZÜ SÜLHLƏ DOLACAQ... Döyüş də öz ağırlıqlarını buraxacaq.*** *(Sünen-i İbni Mace, Kitabü-l fiten Tercemesi ve Şerhi- Kahraman Neşriyat, 10-cu cild, Mütercim: Haydar Hatipoğlu, Bab 33, səh. 331-335)*

Ey iman gətirənlər! İslamı bütövlüklə qəbul edin ...(Bəqərə surəsi, 208)

***... Heç bir kəs arasında DÜŞMƏNÇİLİK QALMAYACAQ...*** *(Sahih-i Müslim, 1/136)*

***Bütün DÜŞMƏNÇİLİKLƏR, boğuşmalar, həsədləşmələr, şübhəsiz, İTİB GEDƏCƏK.*** *(Sahih-i Müslim, 1/136)*

... O zaman səninlə ədavət aparan kimsə sanki yaxın bir dost olar. (Fussilət surəsi, 34).

# HZ. MEHDİ DÖVRÜNDƏ YER ÜZÜNÜN HƏR YERİNİN ETİBARLI HALA GƏLMƏSİ

(Mehdi) zamanında NƏ BİR KƏS YUXUSUNDAN OYANDIRILACAQ, NƏ DƏ BİR KƏSİN BURNU QANAYACAQ.

(Qiyamət Əlamətləri, səh. 163)

.... Əmin-amanlıq gözləyir. Doğru yola yönəlmişlər də məhz onlardır. (Ənam surəsi, 82)

***Düşmənçilik və KİNİ DƏ ORTADAN QALDIRACAQ.*** *(Sünen-i İbni Mace, Kitabü-l Fiten Tercemesi ve Şerhi, cilt 10, Haydar Hatipoğlu, Bab 33, s. 331-335)*

Biz onların kökslərindəki kin-küdurəti çıxaracağıq... (Əraf surəsi, 43)

***... Və ƏMANƏT İTMƏYƏCƏK...*** *(El Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 43)*

**O mömin kəslər ki, əmanətlərini və vədlərini qoruyurlar. (Muminun surəsi, 8)**

# HZ. MEHDİ DÖVRÜNDƏ GÖRÜNMƏMİŞ BİR BOLLUĞUN VƏ ZƏNGİNLİYİN YAŞANMASI

***... ƏŞYANI, MALI PAYLAYACAQ, lakin bolluğa görə qəbul edən olmayacaq...*** *(El Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh.31)*

***Sonra sizə onların üzərində yenidən qələbə qazandırdıq, var-dövlət və oğullarla sizə yardım etdik və sizin sayınızı çoxaltdıq. (İsra surəsi, 6)***

***Şübhəsiz, o DÖVRDƏ MAL ÇOXALIB SU KİMİ AXACAĞINA GÖRƏ onu heç kim (tənəzzül edib) qəbul etməyəcək.*** *(Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 464)*

**... Allah istədiyi kəsin mükafatını artırar...(Bəqərə surəsi, 261-262)**

***O dövrdə ÜMMƏTİM NEMƏTLƏNƏCƏK...*** *(El Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 23)*

**...Allah öz lütfü ilə onları varlı edər... (Nur surəsi, 32)**

***... Onun dövründə axan çaylar belə suyunu ÇOXALDACAQ. Mehdi xəzinələri çıxaracaq...*** *(El Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 36)*

**... Məgər Allahın göylərdə və yerdə olanları sizə ram etdiyini, Özünün aşkar və gizli nemətlərini sizə bol-bol verdiyini görmürsünüzmü?... (Loğman surəsi, 20**

***Onun dövründə ümmətin istər yaxşıları, istərsə də pisləri misli görünməmiş şəkildə, BİR ÇOX NEMƏTLƏRƏ SAHİB OLACAQ.***

...Bunlar dünya həyatında iman edənlər üçün, Qiyamət günü isə yalnız ONLARINDIR... (Əraf surəsi, 32)

## HZ. MEHDİ DÖVRÜNDƏ TORPAĞIN BƏRƏKƏTLƏNMƏSİ

*... Və ƏRZİN (YERİN, TORPAĞIN) NƏBATATI (BİTKİSİ) ÇOX BOL OLACAQ... (El Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 23)*

... Biz onunla hər bir bitkini yetişdirdik, ondan yaşıl otlar bitirir, onlardan da üst-üstə düzülmüş dənələr çıxarırıq. Xurma ağacının tumurcuqlarından, sallanmış salxımlar yetişir... (Ənam surəsi, 99)

*... İnsan BİR OVUC TOXUM ATACAQ, 700 OVUC MƏHSUL GÖTÜRƏCƏK... (El Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 43)*

İnfaq edənlərin məsəli yeddi sünbül verən bir toxumun məsəlinə bənzəyir ki, sünbüllərin hər birində yüz ədəd dən vardır...(Bəqərə surəsi, 261)